# MÜNDƏRİCAT



3 İBRAHİM ƏLİYEV: AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ MÜASİR DÖVLƏTÇİLİK TARİXİNDƏ



7 ANAR EMİNOV: MÜASİR DÖVR SOSİAL SAHƏLƏRƏ İNVESTİSİYA QOYULUŞUNUN YENİ FORMALARI (SAĞLAMLIQ SEKTORU TİMSALINDA)

11 CAMAL MUSTAFAYEV: RUSİYANIN XƏZƏR DƏNİZİNDƏ HEGEMONLUQ SİYASƏTİ VƏ AZƏRBAYCAN XANLIQLARI

15 MAİS ƏMRAHOV: İKİNCİ DÜNYA MÜHARİBƏSİ İLLƏRİNDƏ ERMƏNİLƏR FAŞİSTLƏRİN XİDMƏTİNDƏ

20 ELŞƏN BAYRAMZADƏ: MƏDƏNİYYƏTLƏRİN DİALOQU: NƏZƏRİ-FƏLSƏFİ TƏHLİL

23 İLKİN ƏLİMURADOV: AZƏRBAYCANDA “İSLAM HƏMRƏYLİYİ İLİ”NİN MÜHÜM NƏTİCƏLƏRİ



27 SEVDA KƏRİMOVA: BİOETİKANIN HÜQUQİ ASPEKTLƏRİ

30 LAMİYƏ BAĞIRLI: İNSAN KAPİTALI SOSİAL-İQTİSADİ İNKİŞAFIN AMİLİ KİMİ

34 NİYAMƏDDİN HACIYEV: XIX-XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ DƏRBƏND ŞƏHƏRİNDƏ TƏHSİLİN TARİXİNDƏN

37 AYDIN MƏMMƏDOV: AZƏRBAYCAN XALQININ DAŞLA BAĞLI İNANCLARINDA TARİXİ DEMOQRAFİYA MƏSƏLƏLƏRİ

ictimai - siyasi, elmi - populyar jurnal

41 | AKİF MARİFLİ: FÖVQƏLADƏ HALLAR SİYASƏTİNİN KONSEPTUAL ƏSASLARI: DÜNYA DÖVLƏTLƏRİNİN TƏCRÜBƏSİNİN MÜQAYİSƏLİ TƏHLİLİ

46 | RƏŞAD MƏHƏRRƏMOV: MİLLİ İNNOVASİYA SİSTEMLƏRİ KONSEPSİYASI, DÖVLƏTİN İNNOVASİYA SİYASƏTİNDƏ ROLU - AZƏRBAYCAN NÜMUNƏSİ

51 | ГЮЛШЕН МАМЕДОВА: РАЗРАБОТКА ГЕЙДАРОМ АЛИЕВЫМ ВНЕШНЕПОЛИТИЧЕСКОЙ И НЕФТЯНОЙ СТРАТЕГИИ АЗЕРБАЙДЖАНА

59 | DR. YUSIF HUSEYNOV: LEGAL STATUS OF THE CASPIAN SEA

62 | ƏZİM HEYDƏROV: MÜASİR DÖVRDƏ RUSİYA-GÜRCÜSTAN ƏLAQƏLƏRİ

65 | GÜLNARƏ SƏDRƏDDİNOVA: FRANSA BURJUA İNQİLABININ VƏ AVROPA MAARİFÇİLİK HƏRƏKATININ YUNANLARA TƏSİRİ

69 | ELÇİN ƏHMƏDOV: AZƏRBAYCANDA MİLLİ-ƏXLAQİ DƏYƏRLƏR VƏ AZƏRBAYCANÇILIQ İDEYASI

73 | ŞƏFA MÖVSÜMOV: “1941-1945-CI İLLƏR MÜHARİBƏSİ TARİXİ 1960-1970-CI İLLƏR AZƏRBAYCAN SOVET TARİXŞÜNASLIĞINDA”



55 | ZÜLFÜQAR FƏRZƏLİYEV: MÜHARİBƏ VƏ SÜLH KONSEPSİYALARININ MÜQAYİSƏLİ TƏHLİLİ

*“GEOSTRATEGİYA”* jurnalı Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən Azərbaycan Respublikasının dissertasiyaların ***Tarix, Antropologiya, Siyasi elmlər, Fəlsəfə, Sosiologiya və İqtisadi elmlər*** üzrə əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına salınmışdır.

GEO STRATEGİYA

**Təsisçi:**
**“Kaspi” Geosiyasi Araşdırmalar Mərkəzi**

**Baş redaktor:**
**Əli Həsənov**
**Redaktor:**
**İbrahim Əliyev**
**Redaktor müavini:**
**İsmayıl Qasımov**

**Korrektor:**
**Leyla Binyatova**

**Dizayner:**
**İman Hüseynov**

**Redaksiya heyəti:**

**Əli Həsənov**
**Mübariz Qurbanlı**
**Səlahəddin Xəlilov**
**Rüstəm Məmmədov**
**Rasim Musabəyov**
**Çingiz İsmayılov**
**Musa Qasımlı**
**İbrahim Əliyev**
**Ərəstun Mehdiyev**
**Cəfər Cəfərov**
**Elman Nəsirov**
**Hikmət Məmmədov**
**Elçin Əhmədov**

**Ünvan:**
**Mətbuat pr. 23M. Beynəlxalq Mətbuat Mərkəzinin 4-cü mərtəbəsi.**
**Tel: (+994 12) 537 16 05**
**Faks: (+994 12) 537 16 05**
**E-poçt:**
**geostrategiya.az@mail.ru**
**strategiya.az@mail.ru**

**“Azərbaycan” nəşriyyatının mətbəəsində çap olunmuşdur.**

**Sifariş № 1256**

**Redaksiyanın icazəsi olmadan dərgidəki materiallardan istifadə etmək qadağandır.**

# Tarix

İBRAHİM ƏLİYEV
Tarix üzrə fəlsəfə doktoru

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ MÜASİR DÖVLƏTÇİLİK TARİXİNDƏ




Bu il Azərbaycan Xalq Cümhuriyyətinin 100 yaşı tamam olur. Bu hadisə Azərbaycanın dövlətçilik tarixində xüsusi yer tutur. Yarandığı gündən bu qədər vaxtın keçməsinə baxmayaraq onun hələ də tam tədqiq olunmamış kifayət qədər problemləri vardır ki, bu məsələlər bu gün də böyük aktuallıq kəsb edir və müxtəliq maraqları güdən qüvvələrin diqqətini özünə cəlb edir. Əvvəlcədən qeyd edək ki, Sovet hakimiyyəti dövründə onun tarixi saxtalaşdırılmalara məruz qalmış, haqqında olan tarixi sənədlər təkcə sıravi insanlardan deyi, həm də tədqiqatçılardan gizlədilmişdir. Yalnız SSRİ dağıldıqdan və Azərbaycanın dövlət müstəqilliyi bərpa olunandan sonra onun tarixini araşdırmaq, onun haqqında olan həqiqətləri aşkara çıxarmaq və işıqlandırmaq mümkün olmuşdur. Bu mübahisələrdə diqqəti cəlb edən Azərbaycanda dövlətin bərpasına gətirib çıxarmış proseslərin qanunauyğunluqları olmuşdur. Bu da təsadüfi deyildi: Azərbaycanın bir müsəlman ölkəsi olaraq müstəqilliyinə qovuşması metropoliyanın maraqlarına uyğun deyildi. İşğal olunduğu gündən Rusiya imperiyasının Cənubi Qafqazda siyasəti burada milli dövlətçiliyin yenidən dirçəlməsinin qarşısını almaq, bu prosesləri nəzarət altında saxlamaq olmuşdur. Müsəlman əhalinin hakimiyyət strukturlarında və ictimai əhəmiyyətli işlərdə fəaliyyətə yaxın buraxılmaması, müsəlman elitasının – bəylərin, xanların və ağaların zadəgan hüquqlarının son dərəcə məhdudlaşdırılması, təhsildə, mədəni inkişafda maneələrin qoyulması, keçirilən burjua islahatlarının Cənubi Qafqazın müsəlman əhalisi yaşayan ərazilərinə yarımçıq tətbiq edilməsi həmin məqsədə xidmət edirdi. Bu ərazilərə xristian əhalisinin köçürtülməsi, xüsusən ermənilərin kütləvi şəkildə burada yerləşdirilməsi və onların xəyanətkar xidmətindən geniş istifadənin


*Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin açılışı*

məqsədlərinə də daxil olan başlıca məsələ müsəlman-azərbaycanlı əhalinin siyasi iradəsini dirçəlməsinə imkan verməmək, milli ruhun oyanmasını, milli hərəkatın formalaşmasını əngəlləmək idi.(1; 9)

Lakin belə bir məhdudiyyətlər və məhrumiyyətlər şəraitində Azərbaycanın milli ruhunun dirçəlməsi prosesinin qarşısını almaq mümkün olmadı, bu özünü müstəmləkə rejiminə qarşı vaxtaşırı alovlanan üsyanlarda, məhdudiyyətlərə baxmayaraq elmin və mədəniyyəti, ədəbiyyatın müxtəlif sahələrində soz sahibi olan şəxsiyyətlərin yetişməsində, milli hərəkatın önündə getməyə qadir olan maarifçi ziyalılar dəstəsinin formalaşmasında ifadə olundu. Artıq XX əsrin əvvəllərində Rusiya imperiyasını bürüyən inqilabi hərəkatda Azərbaycan həmin dövrün qabaqcıl ziyalıları sırasında duran şəxsiyyətləri ilə seçilirdi. (2; 3; 8) Onlar əsrin əvvəllərində ölkədə milli siyasi hərəkatın canlanmasında, milli mətbuatln inkişafında, mədəniyyətin müxtəlif sahələrinin çiçəklənməsində əhəmiyyətli nəticələr əldə etdilər ki, bu da milli hərəkatın dirçəlişinin və yüksək səviyyəsinin göstəricisi idi. Təsadüfi deyildir ki, imperiya hakimiyyəti bu milli hərəkatın qarşısını almaq, demokratik azadlıqlara doğru xalqın iradəsinin qarşısını almaq üçün əh mənfur fitnələrə əl atırdı. 1905-ci ildə, 1918-ci ildə törədilmiş milli qırğınlar törətmişdilər. (4)

1918-ci ilin mayın 28-də uzun fasilədən və əzablı asılılıq mərhələsindən sonra Azərbaycanda dövlət müstəqilliyi bərpa edildi. Yaradılan bu dövlət artıq tarix boyu mövcud olmuş orta əsrlər dövləti tipi deyildi. Azərbaycanın dirçəlməkdə olan dövləti zamanın tələblərinə cavab verən demokratik bir dövlət idi və həmin dövrün qabaqcıl Avropa standartları əsasında qurulmuşdu. Bu hadisə bir tərəfdən minilliklər boyu Azərbaycan xalqının qorunub saxlanmış dövlətçilik iradəsinin reallaşması idisə, digər tərəfdən müasirləşməyə, ən qabaqcıl dünya standartlarına uyğun siyasi ənənənin təzahür etməsinin real ifadəsi idi. Müsəlman Şərqinin ilk demokratik dövləti olan Azərbaycan Xalq Cümhüriyyəti təkcə müsəlman aləmində deyil, dünya miqyasında bir sıra yeniliklər etmişdi ki, bu faktlar tarixi yaddaşda mövcuddur və onları inkar etmək mümkün deyildir.

Lakin burada tarixi reallığın inkar edilməsinə diqqət yönəltməyimiz təsadüfi deyildir. Azərbaycanın bu gün mövcud olan demokratik dövləti özünün yüz illik yubileyini qeyd etməyə hazırlaşsa da bu yüz il ərzində onun mövcudluğu həmişə təzyiqlərə, yalan və böhtanlara, saxtalaşdırmalara məruz qalmış, Azərbaycanı sevməyən qüvvələrin narahatlıq mənbəyini təşkil etmişdir. Bu münasibət bu gün də davam edir. Müxtəlif tədqiqat əsərlərində ciddi cəhdlə Azərbaycanın müasir tarixi təhrif edilir, onun tarixini qısaltmağa çalışırlar.

Azərbaycanın müasir dövr dövlətçilik ənənəsinin reallaşmasına qərəzli münasibət təkcə tədqiqat əsərlərində, elmı məqalələrdə müşahidə olunmur, bu münasibət ayrı-ayrı dövlətlərin, siyasi qüvvələrin onun siyasətinə, varlığına, münasibətdə tutulan mövqedə də hər addımda özünün göstərməkdədir. Bu mənada Azərbaycan Xalq Cümhuriyyətinin tarixinin dərindən araşdırılmasına, onun bütün anlarınının isıqlandırılmasına həmişə ehtiyac olmuşdur. Çünki bu tarixə olan bu ciddi maraq təkcə tarixi obyektiv əks etdirmək kimi professional maraqdan irəli gəlmir. Xüsusən müasir dövrdə - Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycanın müasir tarixinə, onun müxtəlif mərhələlərinə maraq artmışdır. Bu maraq bir tərəfdən üzun illər məxvilik qrifi altında saxlanılmış milli tariximizin qaranlıq səhifələrini işıqlandırmaq, onda baş vermiş hadisə və proseslərə düzgün qiymət vermək, onlara münasibətdə tarixi ədaləti bərpa etmək ehtiyacından irəli gəlirdi.

Digər tərəfdən Azərbaycanın müasir tarixinə son illərdə, xüsusən onun dövlət müstəqilliyi bərpa olunduqdan sonra maraq bir başqa məsələ ilə bağlıdır. Məlumdur ki, SSRİ–nin parçalanması nəticəsində müstəqilliyə qovuşmuş respublikaların əksəriyyətində onların yaranma tarixi 1918-ci ildən götürülür. Bu fakt isə müəyyən dairələrdə qısqanclıqla qarşılanır. Bu yanaşma əsasında yazılan tədqiqat əsərlərində qərəzli fikirlərin və məqsədli saxtalaşdırmaların şahidi oluruq.

Azərbaycanın müasir tarixinə bu cür mövqedən yanaşmanın nümunəsi kimi Rusiya tarixçiləri Vadim Muxanov və Mixail Volxonskinin bir birinin ardınca yazdıqları "Azərbaycan Xalq Cümhuriyyərinin tarixinin izi ilə" və "Rusiya Qafqazda: tarixin beş əsri" kitablarını göstərmək olar. .(6; 7) Həmin kitablarda Azərbaycan Demokratik Respublikasının da tarixi araşdırılır. Xüsusən birinci kitab məhz həmin dövlətə, onun özündən sonra qoyduğu izə, müasir Azərbaycan tarixinə bilavasitə aiddir və onun başlıca məsələlərinə münasibət bildirilir. Kitabların mənbə bazası çox genişdir. Orada tədqiqqata çoxlu sayda maraqlı materiallar, sənədlər, faktlar cəlb edilir. Görünür, bu müəlliflərin mənbəşünaslıq baxımından imkanları çox geniş olmuşdur. Həmin dövrün istənilən tədqiqatçısı onların bu imkanına qibtə edə bilər. Bütün bu geniş imkanlara baxmayaraq bu kitablarda çlxarılmış nəticələr heç də həmişə elmi tədqiqatın təməl prinsiplərinə cavab vermir. Əslində gətirilən faktlar bir reallığı təsdiq etdiyi halda çıxarılmış nəticələrdə onun tam ziddinə olan qənaətə gəlinir. Çox hallarda real həqiqəti təsdiq edən faktlar ya gizlədilir, ya da təhrif edilir. Bir sözlə M.Volxonski və V.Muxanovun bu kitablarında məqsəd obyektiv reallığın aşkar edilməsi deyil, əvvəlcədən qoyulmuş məqsədin əsaslandırılmasıdır. Müəlliflər öz məqsədlərini heç də gizlətmirlər. Onlar Azərbaycan Xalq Cümhuriyyətinin tarixini araşdırarkən başlıca hədəfləri müasir Azərbaycan Respublikası olmuşdur. AXC-nin tarixini araşdırarkən əslində Azərbaycan xalqının dövlətçilik ənənəsini, dövlətçilik tarixini hədəfə götürür, onun yaranmasının qanunauyğunluğunu, müasir demokratik dövlətçiliyinin formalaşmasını şübhə altına alırlar. Onların fikrincə, SSRİ-nin iflasından sonra müstəqilliyini bərpa etmiş dövlətlərin əksəriyyətinin 1918-20-ci illərdə mövcud olmuş dövlətlərlə heç bir əlaqəsi olmadığını iddia edirlər. Bununla da müasir dövrdə müstəqillik qazanmış dövlətlərin tarixini son onilliklərlə məhdudlaşdırır, onların tarixi köklərini inkar edirlər. Bu da sadəcə olaraq tarixi obyektivlik xatirinə edilmir. Bu cür konsepsiyanı irəli sürənlərin maraqları daha müəmmalı məsələlərlə bağlıdır.

Hər şeydən öncə onu diqqətə çatdırmaq lazımdır ki, Azərbaycanın tarixinə böhtan atanların ziddinə olaraq, Azərbaycan Xalq Cümhuriyyəti yaşı Azərbaycanın minilliklərlə ölçülən dövlətçilik ənənəsinə köklənir. Dünyada yananan ilk dövlətlərin sırasında bu ərazidə təşəkkül tapmış dövlətlər də olmuşdur. Bundan sonrakı minilliklər ərzində Azərbaycanın ərazisi dünyanın aktual tarixi proseslərin getdiyi mərkəzlərdən biri olmuşdur. Qədim dünya və orta əsrlər dövründə Azərbaycanın zəngin dövlətçilik tarixi hər kəsə məlumdur və müasir dövrümüzdə də inkarol-

unmaz bir reallıq kimi qəbul edilir. Tarixin müəyyən məqamlarında dövlətin zəifləməsi, təzyiqlərə, işğalçı yürüşlərə məruz qalması, müəyyən müddət üçün bu və ya digər işğalçı dövlətin işğalına məruz qalması bütün dünya xalqlarının tarixi üçün xarakterikdir və həmin xalqın dövlətçilik ənənəsinin olmamasına, onun siyasi iradəsinin olmamasına dəlalət etmir. Bütün xalqların tarixində belə enmə və qalxma məqamları mövcuddur. Əsas amil isə bu xalqın həmin mürəkkəb və ziddiyyətli dövrün çətinliklərindən çıxa bilməsi və öz iradəsini təsdiq etməsindədir. Azərbaycan da öz dövlətçilik tarixində belə bir zəngin, keşməkeşli yol seçmiş, öz dövlətçilik iradəsini XX əsrin əvvəllərində mübariz milli hərəkatın nəticəsi kimi demokratik dövlətini qurması ilə təsdiq etmişdir.(3; 8)

Düzdür, ola bilsin ki, 1917 -18-ci illərdə Rusiya imperiyasının iflası anında yaranmış dövlətlərin xeyli hissəsi tarixin ümumi axınında bir epizod kimi meydana çıxmışdı. Lakin Azərbaycanın dövlətinin yaranması və mövcud olmasını həmin təsadüflərlə izah etmək ədalətsizlik olardı. ADR mövcud olduğu qısa müddət ərzində ictimai həyatın bütün sahələrində atdığı addımlar və nümayiş etdirdiyi mükəmməl dövlət quruculuğu, təsərrüfat işləri, daxili və xarici siyasət, hərbi təhlükəsizlik fəaliyyəti deyilən həqiqəti əyani şəkildə sübut edir.

Çox zaman Azərbaycan tarixinə qərəzli münasibət nümayiş etdirən tədqiqatçılar və müasir siyasi qüvvələr dediklərinin sübutu kimi AXC-nin iki illik mövcudluqdan sonra süqut etməsini əsas götürürlər. Onlar bu zaman belə bir faktı susmağa üstünlük verirlər ki, Rusiya imperiyasından qopub ayrılmış ərazilər son anda yenə də başqa ad altında imperiyanın SSRİ adlı yeni varisinin hüdudlarına qatılmışdı. Müstəqilliyin itirilməsi iddia edilən təsadüfiliyi təsdiq etmirdi. Məqamı yetişəndə Azərbaycanın öz müstəqilliyini bərpa etmək imkanını reallaşdırması, edilən ağır təzyiqlərə baxmayaraq müstəqilliyə qovuşması xalqın dövlətçilik iradəsini təsdiq etdi.

1917-1918-ci illərdə Rusiya imperiyasının iflası nəticəsində yaranmış müstəqil dövlətlərin heç birində Azərbaycandakı qədər maneələr olmamışdı. Azərbaycanın imperiya üçün strateji əhəmiyyətli ərazidə yerləşməsi, onun mərkəzi regionu olan Abşeronda zəngin neft ehtiyatları olması və onun uğrunda dünya güclərinin gərgin mübarizə aparması baş verən hadisələrin və gedən proseslərin dramatikliyini, amansızlığını şərtləndirirdi. Azərbaycan Xalq Cümhuriyyətinin müstəqil dövlət kimi elan olunması ərəfəsində burada rəngarəng siyasi qüvvələrin cəmləşməsi, Birinci Dünya müharibəsində iştirak edən hərbi blokların və onlara daxil olan ayrı-ayrı dövlətlərin buraya can atması vəziyyəti daha da gərginləşdirirdi. Partiyalar, milli qurumlar, ictimai-siyasi təşkilatlar arasında münasibətlərin və ölüm-dirim mübarizəsinin kəskinliyinə görə Azərbaycan, xüsusən Bakı şəhəri imperiyanın mərkəzi şəhərləri olan Peterburq və Moskva ilə müqayisə oluna bilən vəziyyətdə idi. 1917-ci il fevral və oktyabr inqilablarından sonra Rusiyanın başlıca siyasi qüvvələrinin başı özlərinə qarışdığı bir vaxtda da Bakı yaddan çıxmır, burada gedən inqilabi proseslərin qarşısını almaq, milli azadlıq mübarizəsini boğmaq üçün ən iyrənc fitnələr törədilir. Azərbaycan xalqına qarşı törədilmiş mart soyqırımı, regionlarda aparılan və dəstəklənən mülli münaqişələr hakimiyyətə can atan bolşeviklərin fitvası və ermənilərin icrası ilə həyata keçirilirdi. Belə bir mürəkkəb şəraitdə fəaliyyət göstərməli olan milli hərəkatın müstəqilliyə gətirib çıxarması onun gücündən, mükəmməlliyindən, liderlərinin səviyyəsindən xəbər verirdi. (1, 12-14)

Bolşeviklər və onların sifarişi ilə Azərbaycanda təxribat, terror, qırğınlar törətmək yolu ilə fəaliyyət göstərən qüvvələr başa düşürdülər ki, Azərbaycan xalqını asanlıqla yolundan döndərmək, onun dövlətçiliyin bərpasına hərdəflənmiş iradəsinin qarşısını almaq mümkün olmayacaq. Onlar bu xalqın gücünü bilir və ona qarşı müvafiq vasitələrlə mübarizə aparır, onun siyasi iradəsini qırmağa çalışırdılar. Lakin hadisələr göstərdi ki, onlar buna nail ola bilmədilər. Bakı şəhərində mart qırğınının yaratdığı əlverişli şərait sayəsində Bakıda bolşevik-daşnak xarakterli hakimiyyət yaratsalar da, o uzun müddət davam gətirə bilmədi. 1918-ci ilin 25 aprelində yaradılmış Bakı Kommunası iyulun axırında iflasa uğradı. Bu hakimiyyətin Azərbaycan mühitinə yad olduğu praktikada sübut olundu. Onun yerində yaradılmış menştvik-daşnak diktaturası – mərkəzi Xəzər Diktaturası isə Azərbaycan Xalq Cümhuriyyətinin türklərin köməyə gəlmiş hərbi missiyasl ilə birgə yaratmış olduğu Qafqaz İslam ordusunun zərbələri altında bir günün içində dağılaraq Azərbaycanı tərk etdilər.

Mövcud olduğu iki il ərzində dövlət quruculuğu, ölkənin ictimai həyatının bütün sahələrində qarşıya çıxan maneələrin dəf edilməsi və inkişafa nail olunması dövlətin uğurlu irəliləyişindən xəbər verirdi. Əlbəttə, burada konkret məsələlər üzərində dayanmasaq da, ümumi pozitiv inkişaf göz qabağında idi. Bütövlükdə Azərbaycan Xalq Cümhuriyyəti həmin Rusiya imperiyası tərkibindən qopub ayrılaraq müstəqillik əldə etmiş dövlətlərin içərisində öz mükəmməl dövlət quruluşu, ardıcıl daxili və xarici siyasət kursu, ictimai-iqtisadi və mədəni sahədə quruculuq işi ilə seçilirdi. Hər bir sahədə üzləşilən çətinliklərə baxmayaraq bu dövlət güclü nəzəri və praktik dayaqlara, idarəçilik imkanlarına malik olduğunu əyani sübut etmişdir. İki illik tarixinə bütöv bir nəzər saldıqda onun yarandığı gündən süqutuna qədər daim irəliləyən, təkmilləşən, təkamül edən, təsdiq edilən bir yol keçdiyini müşahidə etmək olar. Bu qısa müddət ərzində dövlət quruculuğu sahəsində ciddi nailiyyət əldə edildi. Dövlətin yaranmasının elan edilməsindən hakimiyyət strukturlarının yaradılması, səlahiyyətlərin bölüşdürülməsi, parlamentin yaradılması, dövlət simvollarının qəbul edilməsi inkişaf yolu keçmişdi. Azərbaycan 1918-ci ildə dövrün ən demokratik parlamentini formalaşdıra bilmişdi. (1; 7; 10; 11, s.11-12)

İki il ərzində ölkə parlament, nazirlər kabineti yerli idarə strukturları öz fəaliyyətlərini təkmilləşdirmiş, peşəkarlığını artırmışdılar. Qarşısında duran bütün prooblemləri tam həll edə bilməsə də yeni yaranmış gənc bir dövlətin hökuməti kimi kifayət qədər irəliləyişlərə nail ola bilmişdi.

Təhlükəsizlik sahəsində mühüm işin əsası qoyulmuşdu. Sıfır səviyyəsindən start götürülərk milli ordunun əsası qoyulmuş, qısa müddətdə ölkənin müdafiəsi təşkil edilmişdi. Mövcud olduğu dövr ərzində daim müharibə şəraitində olan bir ölkədə təhlükəsizliyin təmin edilməsi qəti iradədən, ardıcıl, gərgin hərbi quruculuğun uğurundan xəbər verirdi. Düzdür, fasiləsiz hərbi təzyiqlər, ermənilərin silahlı təxribatları ölkənin müdafiəsinə zərbə vurur, quruculuq işlərinə böyük əngəllər törədirdi. Lakin Sovet Rusiyasının həbi təcavüzünü nəzərə almasaq, Azərbaycan Xalq Cümhuriyyəti özünü müdafiə edə bilmişdi. İkinci Dünya müharibəsinin nəticəsində məğlub olan Osmanlı dövlətinin öz qoşunlarını aparandan sonra Azərbaycan öz müdafiəsini təmin edə bilmişdi.

Ölkənin sosial iqtisadi inkişafında irəliləyiş göz qabağında idi. Düzdür, fasiləsiz hərbi təzyiqlər, ermənilərin törətdikləri təxribatlar ölkənin bütün güc və resurslarını özünə cəlb etsə də, Azərbaycan hökuməti sosial-iqtisadi və mədəni problemlərə diqqət ayırır, bu sahələrin fundamental məsələlərini həll etməyə çalışırdı. Buna görə də kəndlilərin torpaq mülkiyyəti məsələsini, neft sənayesinin bərpası və s. məsələləri tam həll etmək mümkün olmasa da, bu sahələrdə mümkün olan bütün işlər görülmüşdü.

Azəbaycanın müstəqil dövlət kimi hüquqlarının təsdiq edilməsi, onun suverenliyinin tanınması xarici siyasət qarşısında duran başlıca problem idi. Dünyanın aparıcı dövlətləri imperiyadan qopub ayrılmış xalqlarının, xüsusən müsəlman xalqlarının öz dövlətlərini yaratmasına qısqanclıqla yanaşırdılar. Belə bir mürəkkəb beynəlxalq şəraitdə Azərbaycan beynəlxalq aləmdə çox çətin məsələləri həll etməli olurdu. Bütün çətinliklərə baxmayaraq AXC diplomatlarının gərgin fəaliyyəti sayəsində onun müstəqilliyinin Paris konfransı iştirakçıları tərəfindən De-fakto tanınması çox böyük uğur idi.

Qeyd olunduğu kimi, çox böyük çətinliklərə baxmayaraq Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, yaşamaq uğrunda mübarizəsi, həyatın bütün sahələrində diqqəti çəkən nailiyyətlərin əldə edilməsi Azərbaycan xalqının dövlətçilik ruhunun, müstəqillik iradəsinin parlaq ifadəsi idi.

Lakin bu dövləti qoruyub saxlamaq mümkün olmadı. 1920-ci ilin aprelində bolşevik Rusiyasının təcavüzü nəticəsində bu dövlət süqut etdi. Bu süqut bir sıra tədqiqatlarda onun zəifliyi, həyati qabiliyyətinin olmaması, təsadüfi xarakter daşımasının sübutu kimi göstərilir. Qeyd etmək lazımdır ki, AXC-nin süqutu təkcə onun özünün zəifliyinin nəticəsi deyildi. Məsələ ondadır ki, kommunizm təbliğatı ilə silahlanmış Sovet Rusiyası o dövrün nəhəng bir qüvvəsinə çevrilmişdi və onun təcavüzünün qarşısını nəinki yenicə müstəqillik qazanmış xırda dövlətlər gələ bilmirdi, dünyanın böyük gücləri onların təzyiqi qarşısında geri çəkilir, onunla hesablaşmalı olurdular. Rusiya imperiyası ərazisində təşəkkül tapmış müstəqil dövlətlərdən heç biri bu qismətdən qaça bilmədi. Tez və ya gec onların hamısı Rusiya imperiyasının davamı olan Sovetlər ittifaqının tərkibinə daxil edilmişdi. AXC-nin də süqutu məhz bu hadisə ilə bağlı idi. (1)

Azərbaycan Xalq Cümhuriyyətinin Azərbaycanın müasir tarixində yeri və rolu onun iki illik tarixi ilə bitmir. 1920-ci ildə onun işğalı və süquta yetirilməsinə baxmayaraq Azərbaycanın sonrakı taleyində öz əhəmiyyətli təsirini göstərməkdə davam edirdi. Azərbaycanın Sovet hakimiyyəti dövründə formal olsa da respublika statusunu saxlaması AXC-nin mövcudluğu və tarixdə qoyduğu dərin izlə şərtlənirdi.

"Xalqların öz müqəddəratını təyin etmək hüququnun təmin edilməsi" şüarı ilə çıxış edən Sovet hakimiyyəti imperiyadan ayrılmış xalqların respublika quruluşuna malik olmaq reallığı ilə barışmalı olurdu. Azərbaycanın da belə bir respublika kimi tanınması onun dövlətçiliyinin təsdiqi mənasında keçdiyi yol və tarixi reallıqla, xalqın siyasi iradəsinin olması ilə bağlı idi.

Lakin bu yeni şəraitdə də Azərbaycanın siyasi hüquqlarının tanınması və sovet sosialist respublikası statusunda yaranmaqda olan SSRİ-nin subyektləri sırasına daxil olması müxtəlif vasitələrlə əngəllənirdi. Bunun üçün 1922-ci ildə SSRİ yaranmamışdan öncə Azərbaycan, Ermənistan və Gürcüstanın daxil olduğu Zaqafqaziya Sovet Federativ Sosialist Respublikası (ZSFSR) yaradıldı. Bununla da Azərbaycanın Sovet Sosialist Respublikası hüququnda Sovetlər İttifaqının subyektlərində biri olmasına imkan verilmədi. Düzdür, bir qədər sonra tarixi reallığın təsiri altında bu manеə aradan qalxdı. SSRİ-nin 1936-cı ildə qəbul olunmuş yeni konstitusiyasına görə Azərbaycanın və digər müsəlman respublikaların müttəfiq respublika hüququ təsbit edildi.

Bundan sonrakı dövrdə də Azərbaycana çoxsaylı maneələr yaradılsa da Azərbaycan SSR mövcud olmuş, zaman keçdikcə oz suveren hüquqlarını gücləndirmişdir. Xüsusən ötən əsrin 70-ci illərində - Heydər Əliyevin Azərbaycan SSR-ə rəhbərlik etdiyi zaman onun iqtisadi cəhətdən güclənməsi, ittifaqın inkişaf etmiş respublikalarından birinə çevrilməsi Azərbaycanın mülli dövlətçiliyinin gücləndirilməsində də böyük rol oynadı

1991-ci ildə Azərbaycanın müstəqilliyi bərpa olunan zaman müasir demokratik respublikanın tarixinin Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından götürülməsi, Azərbaycan Respublikasının AXC-nin varisi və davamçısı elan edilməsi qanunauyğundur və tarixi ədalətin təmin edilməsinə xidmət edir. Bu irsiliyin təsdiqi və qəbul olunmuş rəsmi sənədlərdə təsbit edilməsi Azərbaycanı istəməyənlərin arzusunun ziddinə olaraq onun 100 illik vahid tarixə malik olduğunu təsdiq edir və bununla da Azərbaycan Xalq Cümhuriyyətinin müasir tarixdə oynadığı rolu və tutduğu layiqli yeri bir daha təsdiq edir. (12)

**ƏDƏBİYYAT**


*1. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası, I və II c. Bakı, 2004.*

*2. И.С.Багирова, Политические партии и организации Азербайджана в начале XX века , Б., 1997*

*3. А Балаев., Азербайджанское национально – демократическое движение 1917 – 1920 гг., Б., 1990*

*4. A.C. İskəndərov. Azərbaycanda türk-müsəlman soyqırımı problemi-nin tarixşünaslığı 1918-1920-ci illər. Bakı, 2006.*

*5. Михаил Волхонский, Вадим Муханов. По следам Азербайджанской Демократической Республики 2007*

*6. Михаил Волхонский, Вадим Муханов. Россия на Кавказе. Пять веков истории», «Объединенная редакция МВД России», 2009 г.*

*7. Азербайджанская Демократиская Республика (1918-1920), Законодательные акты (сборник документов), Б., 1998;*

*8. M.Məmmədzadə. Milli Azərbaycan hərəkatı. Berlin, 1938*

*9. Х. Ю. Вердиева, «Переселенческая политика Российской им- перии в Северном Азербайджане (XIX - начале XX вв.)» Баку, «Ecoprint», 2016*

*10. Azərbaycan Parlamentinin Tərkibi (Адрес-календарь. Азербайджанской Республики за 1920 год, ч 3. Баку,1920 с.21-23) Архивировано 29 августа 2011 года.*

*11. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920), Parlament (Steno-qrafik hesabatlar). I cild. - Bakı, "Azərbaycan" nəşriyyatı, 1998.*

*12. http://files.preslib.az/projects/republic/az/azr4_2.pdf*



***Açar sözlər:*** *Azərbaycan Xalq Cümhuriyyəti; Milli hərəkat; Demokratik dövlət; Müstəqillik; İstiqlal bəyannaməsi*

***Ключевые слова:*** *Азербайджанская Демократическая Республика; Национальное движение; Демократическое государство; Независимость; Деклорация независимости*

***Key words:*** *Azerbaijan Democratic Republic; National movement; Democratic state; independence; declaration of Independence*



**РЕЗЮМЕ**

**И.Алиев**

**Азербайджанская Демократическая Республика в истории современной государственности**

В данной статье рассматриваютя вопросы, касаюшиеся место и значения Азербайджанской Демократической Республики в современной истории государственности страны. В этом году отмечается 100-летний юбилей образования этого государства, которое сыграло огромную роль в становлении современного демократического государства Азербайджана. Это событие стало осуществлением политической вольи народа к своей независимости. Здесь рассматриваются закономерности возникновения Азербайджанской республики, этапы его развития, показывается наследственная связь с всех его этапов.

**SUMMARY**

**İ.Aliyev**

**Azerbaijan Democratic Republic in the history of modern statehood**

This article examines issues related to the place and significance of the Azerbaijan Democratic Republic in the modern history of statehood of the country. This year marks the 100th anniversary of the formation of this state, which played a huge role in the formation of the modern democratic state of Azerbaijan. This event became the realization of the political will of the people to their independence. Here, the laws of the origin of the Republic of Azerbaijan, the stages of its development, and the hereditary connection from all its stages are examined.

# İqtisadiyyat

## MÜASİR DÖVR SOSİAL SAHƏLƏRƏ İNVESTİSİYA QOYULUŞUNUN YENİ FORMALARI (SAĞLAMLIQ SEKTORU TİMSALINDA)

ANAR EMİNOV
İqtisad üzrə fəlsəfə doktoru




İlk olaraq qeyd etmək istəyirəm ki, dünya iqtisadiyyatında sağlamlıq sektorundakı inkişaf 2013-2017-ci illərdəki digər sahələrlə müqayisədə daha effektlidir. Dünyada xarici turistlərin adam başına sağlamlıq sektorunda sərf etdikləri vəsait əgər 2008-ci ildə 1154 ABŞ dolları idisə, 2017-ci ildə bu rəqəm 1620 dollar olmuşdur. Əgər yeni başlayan sahibkarsınızsa, onda çox biznes "akulası" françayzinq təklif edəcək. Belə olduqda bir az rahat ola bilərsiniz-hazır işə qoyulan investisiya baxımından. Məsələn, əgər sağlamlıq həyat tərzi ilə əlaqəli sektorda fəaliyyət göstərmək istəsəniz ilk öncə fitnesin tələblərinə uyğun bir məkan, ərazi təşkil edilməlidir. Bir franchise mağazasını açmaq təşəbbüsü də pis ideya deyil. Satacağınız (əşyalar) mallar sağlamlığın qorunması ilə əlaqələndirilməlidir. (müxtəlif bioloji əlavələr, ev üçün trenajorlar və s.) [5].

Dünya və qonşu ölkələrin statistikalarını təhlil etsək sağlamlıq sektorundakı inkişaf tendensiyası heç də ürək açan deyil. Belə ki qardaş və qonşu Türkiyədə 2014-cü ildə sağlamlıq sektorunda cəmi 714.159 nəfər fəaliyyət göstərmişdir [7]. Əgər səhiyyədən danışsaq, klinikanın alınması və ya tikilib hazırlanması ilə də məşğul olmaq məqsədəuyğun hesab edilir. Françayzinq yolu ilə minimal xərclə xəstəxana yaradılması da əlverişli bir işdir. Bu klinikanın da təchizatı baş kompaniya tərəfindən həyata keçiriləcək və əlavə olaraq burada çalışan həkimlər isə öz ixtisaslarını artırmaq şansı əldə edəcəklər.

İnvestor həmçinin tibb sahəsində və sağlam həyat tərzinə aid olan müxtəlif istiqamətli reabilitasiya obyektlərinin də seçimini nəzərdən keçirə bilər. Bu mərkəzlər rayon xəstəxanalarına əlavə və yaxud alternativ ola bilər. Belə ki, adətən bu tip xəstəxanalar uzun zaman ərzində xəstə saxlamaq imkanlarına malik olmurlar. Tibbi xidmətlər sahəsində françayzinqin əldə edilməsinin əsas üstünlüyü ondadır ki, həmişə müxtəlif müasir, tibbi texnologiyaların müəlliflərindən və ya peşəkarlarından istifadə edə bilərsiniz. Yəni gənc mütəxəssislərin daha təcrübəli və adlı-sanlı peşəkarlardan məlumat alma imkanları baş ofisin hesabına həyata keçirilir [3, s.41-45].

Amma ən vacib olan cəmiyyət üçün real fayda, yəni zəruri



olanlara tibbi yardım göstərilməsidir.

Yəgin ki, investorlar üçün sanatoriya-kurort ən diqqətdən uzaq sahədir. Lakin son zamanlar bu sahədə vəziyyətin dəyişməsi müşahidə edilir. Ənənəvi sanatoriya-kurort təşkilatları yalnız xəstələr və yaşlılar üçün müalicə yeri olmayacaq. Onlar artıq geniş auditoriya üçün nəzərdə tutulmuş çoxfunksiyalı mərkəzlər halına salınırlar. Tibbi və təbii ehtiyatlar sanatoriyalara xidmətlərin satışını inkişaf etditməyə kömək edən əsas amildir. Müalicə və təbii resurslar- bu tip müəssisələrin inkişafının əsas faktorlarıdır. Müalicə tam olaraq:

•Mineral sulardan

•Müalicəvi palçıqlardan

•Müalicəvi hava

•Təbii landşafta əsaslanır.

Azərbaycan hələ tibbi turizmin inkişafı üçün imkanlarından tam istifadə edə bilmir-bu sahəyə hələ effektli kapital qoyuluşlarına ehtiyacı var. Tibbi və sağlamlıq turizminin potensialına malik Naftalan, Qalaaltı, Naxçıvan və digər yerlərdə beş ulduzlu mehmanxana ilə yanaşı, büdcə hesabına yeni 3 ulduz kateqoriyalı sağlamlıq mərkəzləri yaratmaq lazımdır. Bu daha çox turist cəlb etməyə imkan yaradar.

Hal-hazırda dövlətin sahibkarlarla tərəfdaşlığının modeli- investisiya fəaliyyətinin maliyyələşdirilməsi üçün müasir maliyyələşdirmə mexanizmlərindən istifadə etmədən sağlamlıq probleminin müasirləşdirilməsi və inkişafı mümkün deyildir. Azərbaycan iqtisadiyyatında sosial sahələrin iqtisadi inkişafının hazırki mərhələsindəki ən aktual vəzifələrdən biri müsbət investisiya dinamikasının tempinin artırılmasıdır. Sektor səviyyəsində struktur və investisiya sahəsindəki bu deformasiyalar investorların infrastruktura sərmayə qoymalarında motivasiya olmaması ən açıq şəkildə ortaya çıxır. Dövlət-özəl iqtisadiyyatı tərəfdaşlığına əsaslanan inkişafın investisiya formasına keçid yüksək səviyyədə təşkili olmasaydı səhiyyənin dayanıqlı və effektiv inkişafı mümkünsüz olardı. Əsas meyarlar aşağıdakılardır:

• İnvestisiya həcmi sektorun dövriyyəsinin 20-25%-ni təşkil etməlidir;

• Birbaşa xarici investisiyaların payı ümumi investisiya həcminin 15-17%-i;

• əsas fondların (vəsaitlərin) amortizasiya dərəcəsi 30-35%-dən çox olmamalıdır [6].

Səhiyyə sahəsinə sərmayə qoyuluşu aşağıdakı amillərin və şərtlərin qarşılıqlı təsiri ilə müəyyən edilir:

- Azərbaycan Respublikasında əlverişli və ya əlverişsiz ümumi investisiya mühitinin yaradılması ilə əlaqədar investisiya motivasiyalarının effektivliyini və davamlılığını ölçmək;

- Potensial investorların kredit, vergi, siyasi, qanunvericilik, lisenziyalaşdırma, kadr və gömrük siyasəti tədbirlərinə bazarın reaksiyası, tibbi xidmətlər üçün effektiv tələbin səviyyəsi, dövlətin və bələdiyyələrin sifarişlərinin icrası üçün tibbi xidməti istehsalçılarının təminatı potensialı; sağlamlıq strukturları üçün xüsusi fərdi investisiya üsulunun yaradılması.

Qeyd etmək lazımdır ki, sağlamlıq sahəsində investisiyanın stimullaşdırılması tədbirləri ölkədə sosial inkişafın əsas faktorlarından biridir. Səhiyyə sahəsində investisiya fəaliyyətinə dövlətin müdaxiləsi motivasiyanın yüksəldilməsi ilə şərtlənir. Bu isə fərdi investorların aktivləşməsinə şərait yaradır, bütün konstitusional müəyyən edilmiş səhiyyə sistemlərinin, maliyyə, investisiya və innovasiya potensialının uyğunlaşdırılmasına imkan yaradır. Əlverişli investisiya mühiti sağlamlığa şərait yaradır, səhiyyə investisiyaya açıq olur və tibbi xidmət yaradıcılarına istehsal potensialının yenilənməsi imkanları meydana gəlməyə başlayır. İnvestisiya mühitinin əhəmiyyətli dərəcədə yaxşılaşdırılması üçün yeni investisiya inkişafı strategiyası işlənməlidir. Təəsüf ki, dövlətin investisiya siyasəti bir istiqamətli xarakterlidir. "Sağlamlıq" mili layihəsinin geniş miqyasda maliyyələşdirilməsi çərçivəsində, bu sahədə dövlət və yerli idarəetmə sistemində inkişaf nəzərdə tutulur. Vətəndaşların sağlamlığının qorunması sistemində Azərbaycan Konstitusiyasında nəzərdə tutulan bərabər səviyyəli iştirak xüsusi bir sistem olsa da inkişaf tapmadı.

Müasir dövrdə, ölkənin sosial yönümlü iqtisadiyyatının formalaşması ilə bağlı əsas məsələ millətin sağlamlığının tanınmasıdır və səhiyyə sektoruna investisiyanın effektivliyini qiymətləndirməkdədir. Əhalinin sağlamlığının qorunması problemi, tibbi təsir vasitələrini tamamilə tənzimləmək çətinliyi deyil, ödənişli tibbi xidmətlərin inkişafına səbəb olan həll yoluna inteqrasiya olunmuş yanaşma, marketinq analizi tələb edir.

Səhiyyə sistemində marketinq iqtisadiyyatın digər sahələrində marketinqdən fərqlənən öz spesifik xüsusiyyətlərinə malikdir. Öz növbəsində səhiyyə sahəsinin marketinqi öz müxtəlifliyi ilə fərqlənir. Ona görə də ödənişli tibbi xidmətlərin marketinq təhlili tibb sahəsinin digər xidmətlərinin marketinqindən fərqlənir, məsələn dünya təcrübəsində həyata keçirilən məcburi tibbi sığorta üçün ilkin qiymət müştərilərin ehtiyacları ilə deyil, sığorta təşkilatlarının tələblərini ödəyən formada həyata keçirilir. Qeydə etmək lazımdır ki, tibbi xidmət, bir məhsul kimi informasiya-analitik marketinq sisteminin formalaşmasına təsir göstərən fərqli xüsusiyyətlərə malikdir [3, s.83].

Eyni tipli xidmətin tamamilə geniş sərhədlər daxilində kimə, nə vaxt və harada xidmətin təklif edilməsində asılı olaraq təklif edilmə şəkli dəyişir. Məsələn, bəzi tibb işçiləri müxtəlif müştərilərə eyni cür yanaşma tapır, uşaqlarla yaxşı davranır, digəri isə kobud və səbirsizdir. Cərrahların bir hissəsi müəyyən növ əməliyyatlarla müvəffəqiyyətlə davranır, digəri isə geniş profilli mütəxəssisdir. Ümumiyyətlə beynəlxalq təcrübədə xidməti saxlamaq olmaz. Belə ki, bəzi həkimlər buraxılmış müalicə seansı üçün xəstəyə göstərmədiyi xidmətin son nəticədə xidmət dəyərinə təsir etməyəcəyini nəzərə almır. Xidmətlərin saxlanması imkazsızlığı, müştərilərin sayının müəyyən edilməsi problemi olmadıqda, sabit tələb şərtlərində əhəmiyyətsizdir. Mürəkkəblik bazarda olunan xidmətə tələbatın əhəmiyyətli dətəcədə dəyişməsi halında qarşıya

çıxır. Tibbi xidmətlərin marketinq təhlili aşağıdakı mərhələləri əhatə edir:

- Bazarın öyrənilməsi;
- Tibb müəssisələrinin müştərilərin ehtiyyaclarını ödəmək qabiliyyəti;
- Ödənişli tibbi xidmətlərin araşdırılması;
- Tibb müəssisəsinin bazar tələblərinə cavab verməsini təmin etmək məqsədilə həyata keçirdiyi tədbirlər;
- Pullu tibbi xidmətə tələbatın formalaşdırılması və onun bazarda təşviqi;

Ödənişli tibbi xidmətlər bazarı aşağıdakı əsas xüsusiyyətlərə malikdir:

- Ödənişli və pulsuz tibbi xidmət sahəsinin paralel mövcudluğu bu xidmətlərin müəyyən növləri üçün pulsuz xidmət göstərilməsini nəzərdə tutur, bu da ödənişli tibbi xidmətlərin həyata keçirilməsi imkanlarını azaldır;
- Büdcədən və ya məcburi tibbi sığorta fondlarından ödənilən tibbi xidmətlərə tələbat məhduddur;
- Ödənişli və pulsuz xidmət bazarları arasında səhiyyə xidmətlərinin qeyri-müntəzəm bölüşdürülməsi, tez-tez qiymət fərqinə gətirir, bu isə bir tərəfdən ödənişli tibbi xidmətlər üçün yüksək qiymətlər pulsuz xidmətlərin əldə edilməsini çətinləşdirir və ya onu mümkünsüz edir;
- Tibbi xidmət istehlakçılarının təklif olunan xidmətlərə görə tələbatlarının daim artması;
- Tibbi xidmət bazarının seqmentləşdirilməsi onun vəziyyətini, imkanlarını, dolğunluğunu, tutumunu üzə çıxarır və xidmətlərin yeni növlərinin təqdim edilməsilə həcminin dəyişdirilməsinə imkan yaradır.

Ödəniş tibbi xidmətlər bazarının seqmentləşdirilməsinin vacib parametrlərini aşağıdakı kimi bölüşdürmək olar:

- Tibb xidmətinin növləri (stasionar, ambulator, profilaktik, diaqnostik, müalicə, reabilitasiya);
- Eyni xidmətlərin göstərilməsi (istifadə edilən avadanlıq, üsullar). Məsələn, xəstəliyin gedişinin təbiətinə, həmçinin müalicə edən həkimə üstünlük verildiyinə görə, həm cərrahi, həm də terapevtik üsullardan istifadə edilə bilər. Öz növbəsində, bir əməliyyatın həyata keçirilməsi yolları da çox müxtəlif ola bilər;
- Təcililik dərəcəsi (təcili və planlı);
- Xidmətin təşkili və raharlığı (normal şərait, rahatlıq, lüks otaqlar və s.);
- Tibbi xidmətlərin obyektiv dəyəri (bahalı xidmətlər-orqanların transplantasiyası və s., adi xidmətlər və ucuz olanlar-qan təzyiqinin ölçülməsi və s.);
- Xidmətlər üçün müəyyən edilmiş qiymətlər (yüksək, orta, aşağı qiymət);
- Təmin edilən xidmət həcmi;
- Satış kanalları (birbaşa, təşkilatlarla müqavilələr, könüllü tibbi sığorta).

**Tibbi xidmətlərin göstərilməsi xüsusiyyətlərinin təsnifatı**

Qeyd edək ki, tibbi xidmətlərin göstərilməsi prosesi həm (müştərilər) xəstələr , həm də tibb işçiləri üçün risk dərəcəsinə malikdir. Buna görə də bu xidmətlərin göstərilməsində bu və ya digər risklərin yaranma ehtimalı onların idarə edilməsini zəruri edir. Çox vaxt bu, təşkilati-texniki profilaktik tədbirlərin həyata keçirilməsi, zərər və itkiləri kompensasiya etmək üçün sığorta ehtiyyatlarının yaradılması ilə təmin edilir.




Bu sahədə risklər dörd qrupa bölünür. Marketinq təhlili apararkən, səhiyyə sahəsində sosial siyasətin həyata keçirilməsi üçün informasiya-analitik sistemin formalaşmasının qiymətləndirilməsinə xüsusi diqqət yetirilməlidir. Ödənişli tibbi xidmət sisteminin inkişafına informasiya-analitik dəstəyə təsir edən faktorları müəyyənləşdirmək məqsədəuyğun sayılır. Xəstələrin seqmentləşdirilməsinin əsas məqsədi onların tələbatlarının öyrənilməsidir. Xüsusilə, tibb müəssisəsinə əhalinin hansı kontinqentin müştəri olacağını bilmək zəruridir, onlara hansı xidmətlərin göstərilməsinə üstünlük veriləcək, göstərilən xidmətlərin həcmi və xərcləri baxımından ən perspektivli qrupları, müraciətin əsas motivi, hansı tələbatın ödənilməsi və s. kimi məlumatlar əldə edilməlidir.

Bazarda xidmətin həyata keçirilməsinin ən mühüm məsələlərindən biri qiymət strategiyasıdır. Qiymətlərə asanlıqla təsir edən tibb müəssisəsi bazara öz xidmətlərini təklif edə bilər, gəlirinin artması yollarını tapar. Tibbi tədqiqatların və prosedurların icra edilməsi üçün, birbaşa xərclərin yüksək olmadığı tibb müəssisələri əldə edilmiş sabit-şərtli xərclərə qənaət etməklə aşağı qiymətlə bağlı siyasətin həyata keçirilməsinə üstünlük verir və bununla yüksək həcmdə xidmətə nail olurlar.

Ödənişli tibbi xidmətlərin (diş müalicəsi, protezləşdirmə, sürücülərin tibbi komissiyası və s.) ən geniş yayılmış növlərinin monitorinqinə xüsusi əhəmiyyət verilir.

**Tibbi xidmətlərin göstərilməsi prosesində yaranan risklər**

**1. Sosial-siyasi:**

- əhaliyə tibbi yardımın təşkilinin formaları və metodları haqqında qanunvericiliyin dəyişdirilməsi;
- səhiyyənin maliyyələşdirilməsi sistemində dəyişikliklər edilməsi;
- tibbi sığorta sisteminin təşkili və yenidən təşkili;
- səhiyyə müəssisələrinin özəlləşdirilməsi və milliləşdirilməsi;
- xəstələrin (müştərilərin) və tibb işçilərinin arbitraj hüquqlarının və hüquqların müdafiəsindəı dəyişikliklərin edilməsi və qorunması.

**2. İdarəetmə ilə bağlı risklər:**

- Sağlamlıq və tibb hüququ üzrə idarəetmə mütəxəssislərinin hazırlanması sisteminin olmaması;
- Menecerlərin uyğunsuzluğu;
- Peşəkar hazırlığın aşağı səviyyədə olması;
- əməyin mühafizəsi və təhlükəsizlik texnikası fəaliyyətinə laqeydlik.

**3. Mülki məsuliyyətlə əlaqəli peşə riskləri:**

9

- Müvəqqəti tibbi və diaqnostik müdaxilə riskləri;
- Vaxtsız müalicə-diaqnostik müdaxilə riskləri (belə risklər qarşısının alınması üzrə işin olmaması və qeyri-kafi olması ilə bağlı üzə çıxır);
- Müasir tələblərə cavab verməyən tibbi-sosial sistemin olmaması səbəbindən baş verən risklər.

**4. Səhiyyə işçilərinin sağlamlığına təhlükə ilə əlaqəli risklər:**

- Xüsusi infeksiyalı xəstələrdən;
- Psixi xəstələrdən;
- Narkoman və cinayətkar müştərilərdən yaranan risklər.

5. Ödənişli tibbi xidmətlər sisteminin inkişafına informasiya-analitik dəstək faktorları qrupunun xüsusiyyətləri:

- Tarixi-psixoji: dövlətə güvənmə vərdişi xalqın sosial riskləri baş verənə qədər görməməsinə gətirib çıxarır;
- əhalinin biliklərinin azlığı, habelə tibbi məqsədlər üçün yığım və sığorta fondlarının təcrübəsinin az olması;
- tibbi heyətin yeni üsulla sosial xidmət göstərmək sisteminə hazır olmaması

**6. Siyasi:**

- dövlətin sosial sahədə statusunun müəyyən edilməsində aydınlığın olmaması;
- sosial sahənin inkişafına dair vahid konsepsiyanın olmaması;
- müxtəlif fəaliyyət sahələri arasında qarşılıqlı əlaqələri haqqında qərarların işlənilməməsi.

**7. Maliyyə:**

- Sosial xidmətlərin əsas istehlakçıları olan təqaudçülərin, ödəmə etmək üçün maliyyə imkanlarına malik olmaması;
- Vergi yükünün azaldılmasına yönəldilmiş tədbirlər, büdcə və büdcədənkənar fondların gəlir hissəsinin artımının zəifləməsinə gətirib çıxarması.

**8. İnstitusional:**

- Sovet dövründən miras qalan tibb müəssisələrinin büdcə şəbəkəsi, bütövlükdə sosial təminat üçün nəzərdə tutulmuş büdcə resurslarının əhəmiyyətli bir hissəsinin istehlak edir;
- Sosial sahənin hələ də ekstensiv yolla inkişaf edən dövlət sektoru olaraq qalması:

a) Xərclərin, qiymətin əsasını təşkil etməsi;
b) Xidmət tələbatı və onun elastikliyi;
c) Xidmət keyfiyyəti.

Aparılan təhlillər göstərir ki, Azərbaycanda ödənişli tibbi xidmətin çəkisi dəfələrlə artmışdır. Müasir dövrdə ödənişli tibb xidməti kifayət qədər səmərəlidir.

### ƏDƏBİYYAT


1. *Yrd. Doç. Dr. Ali Coşkun , Yrd. Doç. Dr. Ahmet Akın "Sağlık İşletmeleri Yönetim Rehberi", Nisan 2009 / 1. Baskı / 470 səhifə*
2. *Aslan Gülcü - Hasan Tutar - Cavit Yeşilyurt, "Sağlık Sektöründe Veri Zarflama Analizi Yöntemi ile Göreceli Verimlilik Analizi, 2005, 288 səhifə*
3. *Котлер Ф. Мененджмент и маркетинг/ М.2002*
4. *Кучеренко В.З., Гришин В.В. Основы медицинского маркетинга. М.2008.*
5. *https://www.igeme.com.tr/saglik-sektoru-ve-yatirimlar-icin-kucuk-bir-ipucu/*
6. *http://www.todaie.edu.tr/resimler/ekler/dafcedea10a4ab5_ek.pdf?dergi=Amme%20Idaresi%20Dergisi*
7. *http://www.uis.gov.tr/media/1315/saglik_sektoru_ikinci_idk.pdf*



***Açar sözlər:*** *sosial investisiya, sağlamlıq sektoru, tibbi xidmətlər, investisiya modelləri.*

***Ключевые слова:*** *социальная инвестиция, сектор здравоохранения, медицинские услуги, инвестиционные модели.*

***Key words:*** *social investment, healthcare, medical services, investment models.*


**Новые формы инвестиционных вложений**
**в социальные сферы в современном мире**
**(на примере сектора здравоохранения)**
**РЕЗЮМЕ**


Плохая экологическая ситуация, сложившаяся в мире, еще больше заставляет каждого из нас думать о благосостоянии общества. Эти мысли сопровождаются развитием сектора здравоохранения, а также анализом и применением новых моделей. В Европе с этой целью были созданы новые клиники и медицинские центры. Многие люди для сохранения своего здоровья готовы вложить большую сумму в эту сферу. Если 5 лет назад в фитнес-центры ходило считанное количество людей, то сейчас их количество гораздо больше. Растет численность сети магазинов, предлагающих различные продукты для сохранения здоровья. Если вы хотите, но не можете определится в какой сфере создать свой бизнес, без сомнений, можете выбрать сферу здравоохранения, так как в настоящее время данной сфере дается огромное преимущество. В статье были исследованы инвестиционные модели в сфере здравоохранения как в Азербайджане, так и во всем мире.


**Innovative investment forms for social spheres**
**in the modern era (case of health sector)**
**SUMMARY**


The worst environmental situation in the world can lead to more think over people welfare. These thoughts were reflected on the development of the health sector and the research and implementation of new models. The long-standing enormous medical centers in Europe have been created by this way. Some people are ready to invest hundreds of thousands to protect their precious health. If nearly five years ago there were not that somebody had gone to the fitness centers, today we can see dynamic changes. The chain of stores that offer different products to maintain health continues to grow every day. İf you want to lunch your own business during such preference, but you can not define it, then without hesitation you can choose the health care sector. In the study the new health sector investment models have been analyzed in the world and in Azerbaijan.

# Tarix

## RUSİYANIN XƏZƏR DƏNİZİNDƏ HEGEMONLUQ SİYASƏTİ VƏ AZƏRBAYCAN XANLIQLARI

CAMAL MUSTAFAYEV
Tarix üzrə elmələr doktoru, professor



Xəzər dənizi hələ qədim zamanlardan onun sahillərində yaşayan xalqların ictimai-siyasi və iqisadi həyatında mühüm rol oynamışdır. Rusiyanın Xəzər dənizinin şimal sahillərinə çıxış əldə etdiyi XVI əsrdən xeyli əvvəl bu dəniz xalqlar arasında iqtisadi-ticarət əlaqələrinin inkişafına şərait yaradan bir vasitəyə çevrilməyə başlamışdı. Antik müəlliflər Plini və Ptolomeyin məlumatlarından aydın olur ki, Xəzər dənizində gəmiçiliyin tarixi eramızda əvvəlki dövrlərə gedib çıxır [14, s. 9]. O da məlumdur ki, istər Makedoniyalı İsgəndər, istərsə də Selevkilər dövləti Xəzər dənizində gəmiçiliyi inkişaf etdirmək üçün səy göstərmiş, Selevki hökmdarı I Selevk isə hətta Xəzər dənizini Qara dənizlə birləşdirmək üçün kanal çəkdirmək fikrinə də düşmüşdü [24, s. 122]. Lakin nə antik, nə də orta əsrlər dövründə hər hansı bir dövlətin Xəzər dənizində özünün təkbaşına hegemonluğunu bərqərar etməyə cəhd göstərməsi haqqında heç bir məlumat yoxdur.

Orta əsrlər dövründə Xəzər dənizində gəmiqayırmanın və ticarət gəmiçiliyinin inkişafı haqqında daha çox məlumata rast gəlmək mümkündür. Bu dövrdə Xəzər dənizində yerli hökmdarlara məxsus gəmilərlə yanaşı, həm də italiyalı tacirlərin gəmiləri dəniz ticarətində fəal iştirak edirdilər [6, s. 118; 12, s. 239]. Səfəvi sülaləsinin başçısı Şeyx Heydər (1460-1488) Şirvana hücum zamanı yerli gəmiqayıranların və dülgərlərin köməyilə gəmi tikdirmişdi [12, s.239]. Ümumiyyətlə, XV-XVII əsrlərdə Azərbaycanın və İranın Xəzərsahili vilayətlərində gəmiqayırmanın inkişafı haqqında istər yerli, istərsə də Avropa mənbələrində kifayət qədər məlumata rast gəlmək mümkündür. Bu dövrdə gəmiqayırma üçün zəruri olan materialların böyük əksəriyyəti yerli istehsalın məhsulu idi. Şirvan və Talış meşələrində bitən iri gövdəli ağaclardan istifadə edən yerli sənətkarlar onları yonaraq lazımi ölçüyə salır və ağac mismarlarla bir-birilərinə bərkidirdilər. Bununla belə, tədqiqatçıların fikrincə, XVI-XVII əsrlərdə bütün Xəzəsahili bölgələrdə, o cümlədən Azərbaycanda, gəmiçilik Avropanın iri dəniz dövlətləri ilə müqayisədə çox geridə qalmışdı və primitiv xarakter daşıyırdı [12, s. 241]. Bu dövrdə Xəzər dənizində üzən gəmilərin əksəriyyəti əsasən iki dorlu yelkənli gəmilər idi. Onların yük götürmə qabiliyyəti çox aşağı olub 30 tonla 100 ton arasında tərəddüd edirdi [12, s. 241].

Xəzər dənizində gəmiçilik XVIII əsrdən başlayaraq daha intensiv inkişaf dövrünə qədəm qoydu. Bu bir çox cəhətdən Rusiyanın cənub dənizlərinə çıxmaq və Avropanı Şərq ölkələri ilə birləşdirən ticarət yollarını Volqa-Xəzər marşrutuna yönəltmək cəhdləri ilə bağlı idi. Əsas ticarət yollarının istiqamətinin dəyişdiyi bir şəraitdə bu marşrutun iqtisadi səmərəsi getdikcə artır və Rusiya dövlətinə böyük gəlir vəd edirdi. I Pyotrun hakimiyyəti dövründə (1689-1725) Rusiya hökuməti Xəzər dənizini öz daxili gölünə çevirmək, burada hərbi və ticarət donanması yaratmaqla bölgədə öz hegemonluğunu bərqərar etmək istiqamətində real addımlar atmağa başladı [7, s.763-764]. Rusiyanın hakim dairələrinin fikrincə iqtisadi cəhətdən geri qalan Xəzərsahili dövlətlər bu planın həyata keçirilməsinə heç bir maneçilik törədə bilməzdilər. Kazan və Həştərxanın gəmi tərsanələrində Xəzər dənizində üzmək üçün inşa edilən müxtəlif təyinatlı gəmilər bu planın həyata keçirilməsini təmin etməli idilər. Bununla belə, bu dövrdə Rusiya Xəzər dənizində nisbətən güclü donanma yaratsa da onu öz daxili dənizinə çevirmək planını həyata keçirə bilmədi. XVIII əsrin 40-cı illərində Rusiyanın Xəzər dənizində cəmi 30-dan bir qədər artıq ticarət gəmisi var idi [2, s.91; 11, v.213] ki, bu da intensiv olaraq artmaqda olan yük daşımalarının öhdəsindən gəlmək üçün kifayət deyildi. Bu ölkəyə məxsus bir neçə hərbi gəmi isə yerli əhaliyə məxsus ticarət gəmilərinin dənizə çıxmasının qarşısını ala bilməkdə acizlik çəkirdi.

Rusiyanın Xəzər dənizində öz hegomonluğunu təmin etmək planlarını həyata keçirməsi XVIII əsrin 30-40-cı illərdə daha da çətinləşdi. Bu dövrdə güclü imperiya yaratmış Nadir şah Əfşar Xəzər dənizində hərbi və ticarət donanması yaratmaq istiqamətində xeyli iş görə bilmişdi. Donanmanın yaradılmasına C.Elton başda olmaqla bir qrup ingilis mütəxəssisi rəhbərlik edirdi [27, s. 47].

Xəzər dənizində Əfşar imperiyasına məxsus hərbi və ticarət donanmanın yaranmasını özü üçün təhlükə hesab edən Rusiya ilk gündən onun inşasının qarşısını almaq üçün bütün vasitələrdən istifadə etməyə başladı. Əsasən yerli materiallarla işləyən ingilislər donanmanın inşaasına 700-ə yaxın sənətkar-dəmirçi, dülgər, xarrat, çilingər, meşə qıran və b. cəlb etmişdilər. Onu da göstərmək lazımdır ki, Əfşar donanmasının inşaasında Azərbaycanın şimal vilayətlərindən olan sənətkarlar və mütəxəssislər də iştirak edirdilər. İ.Lerx yazırdı ki, Langerud limanında gəmi tikintisinin



*Nadir şahın portreti, XVIII əsr (Viktoriya və Albert Muzeyi)*

əsas rəhbərlərindən biri admiral rütbəsi olan Bakı hakimi Mirzə Məhəmməd xan idi [17, s. 47].

Bununla belə, Nadir şahın təşəbbüsü ilə Xəzər dənizində hərbi və ticarət donanmasının yaradılması sahəsində xeyli iş görülsə də onu axıradək davam etdirmək mümkün olmadı. Yaranmış vəziyyəti öz planları üçün təhlükə hesab edən Rusiya hökuməti onu aradan qaldırmaq üçün konkret addımlar atmağa başladı. İlk olaraq 1746-cı ildə ingilislərə hələ 1734-cü ildə verilmiş Rusiya ərazisindən keçməklə İranla tranzit ticarət hüququ ləğv edildi və bununla da ingilislərin Xəzərsahili bölgələrdə möhkəmlənmək cəhdlərinə son qoyuldu. 1747-ci ildə Nadir şahın ölümündən sonra isə Langerudda donanmanın inşaası işlərinin tamamilə dayandırılması və hazır gəmilərin əksəriyyətinin baxımsızlıq nəticəsində çürüməsi [9, v.426 ar.] Rusiyanın Xəzər dənizində özünün təkbaşına hegemonluğunu bərqərar etməsini daha da asanlaşdırdı. Nadir şahın ingilislərin köməyilə yaratdığı Xəzər donanmasının qalıqlarının məhv edilməsi üçün əməli addımlar atıldı. Feodal ara müharibələrinin tüğyan etdiyi bir şəraitdə onsuz da baxımsız qalan bu donanmanın salamat qalan hissəsinin məhv edilməsi elə bir çətinlik törətmədi. Rusiya hökuməti bu məqsədlə Xəzər dənizinin cənubuna göndərdiyi xüsusi ekspedisiya bu işi 1751-ci ildə həyata keçirdi [19,s. 129]. Bununla da Rusiyanın Xəzər dənizində hegemonluq siyasəti üçün yaranmış təhlükə aradan qaldırıldı.

XVIII əsrin ortalarında müstəqil xanlıqların meydana gəlməsilə Azərbaycanın Xəzərsahili vilayətlərində gəmiqayırma və gəmiçilik yeni inkişaf mərhələsinə qədəm qoydu. Feodal ara müharibələrinin fasiləsiz olaraq getdiyi bir şəraitdə dəniz ticarəti daha böyük əhəmiyyət kəsb etməyə başladı. Bu dövrdə quru yolla aparılan karvan ticarəti tacirlərdən böyük risq tələb edirdi. Digər tərəfdən tacirlər öz mallarını bir məntəqədən digərinə apararkən yolda bir neçə dəfə gömrük haqqı verməyə məcbur olurdular ki, bu da son nəticədə malın qiymətinin bir neçə dəfə artmasına səbəb olurdu. Karvan ticarətindən fərqli olaraq dəniz ticarəti iqtisadi cəhətdən daha əlverişli idi. Bu yolla mallar mənzil başına daha tez və ucuz qiymətə çatdırılırdı. Məsələn, Həştərxandan quru yolla Tiflisə göndərilən mallar mənzil başına ancaq ay yarıma çatdırılırdı və pud malın daşınmasına 4-5 manat pul ödəmək lazım gəlirdi. Halbuki, dəniz yolu ilə mallar Bakıya cəmi beş günə, oradan isə quru yolla on günə Tiflisə çatdırılırdı. Bu zaman malın daşınması da iki dəfə ucuz başa gəlirdi [16, s. 88].

Dəniz ticarətinin əhəmiyyətinin getdikcə artması gəmiçiliklə məşğul olan ayrı-ayrı şəxslərə və dövlətlərə böyük gəlir verirdi. XVIII əsrin əvvəllərində olduğu kimi, xanlıqlar dövründə də Xəzər dənizi vasitəsilə həyata keçirilən ticarətdə Rusiya hakim mövqe tutmağa çalışırdı. Kiçik və iqtisadi cəhətdən zəif olan Azərbaycan xanlıqları güclü Rusiya ilə rəqabət aparmaq iqtidarında deyildilər. Bununla belə, mənbələrdə Xəzər dənizində Azərbaycanın Xəzərsahili vilayətlərinin hakimlərinə və ayrı-ayrı şəxslərə məxsus yerli istehsalın məhsulu olan gəmilərin üzmələri barədə məlumatlara rast gəlmək mümkündür. Mənbələrin "kirjim" və "səndəl" adlandırdıqları bu gəmilər özlərinin yük götürmə qabiliyyətlərinə görə rus gəmilərindən çox geridə qalırdılar. S.Qmelinin verdiyi məlumata görə bu gəmilərlə bir reysə ancaq 50-100 adam daşımaq mümkün idi [13, s. 95-96]. Texniki cəhətdən çox primitiv inşa edilən bu gəmilər uzaq səfərlərə çıxa bilmir və ancaq yerli əhəmiyyətli yük daşımalarla məşğul olurdular. Onlar, əsasən, Bakı-Salyan, Bakı-Ənzəli, Lənkəran-Bakı və Bakı-Dərbənd marşrutları ilə səfərlərə çıxırdılar [5, s. 696].

Xanlıqlar dövründə Azərbaycanda istər gəmiqayırmanın, istərsə də dəniz ticarətinin əsas mərkəzi Bakı idi. Rus konsullarından birinin verdiyi məlumatdan aydın olur ki, 1767-ci ildə burada kirjim və səndəl inşa edilən gəmi tərsanəsi fəaliyyət göstərirdi. Başqa bir mənbədə isə deyilir ki, Bakı xanının çoxlu gəmiləri var və "onlarla Salyana, Ənzəliyə, Gilana, Mazandarana və digər yerlərə duz və neft aparırlar, həmin yerlərdən isə, əsasən, yay vaxtı ipək, müxtəlif parçalar, odun və tikinti materialları gətirirlər" [13, s. 396].

Onu da göstərmək lazımdır ki, bu dövrdə azərbaycanlı gəmiqayıranlar öz işlərində rus gəmiçilərinin təcrübəsindən bəhrələnməyə, rus gəmilərinə bənzər gəmilər inşa etməyə çalışırdılar. M.Çulkov yazırdı ki, bu gəmilərin inşaasına bəzən rus gəmiqayıranlarını da cəlb edirdilər [26, s. 404]. İstər kirjim, istərsə də səndəllərin inşaasında getdikcə daha çox Rusiyadan gətirilən materiallara üstünlük verilirdi. 1767-ci ildə Bakı xanı rus konsuluna müraciət edərək ondan özünün tikilməkdə olan gəmiləri üçün Rusiyadan lazımi materiallar gətirilməsinə icazə verməyi xahiş etmişdi [10, v. 34].

Xanlıqlar dövründə yalnız hökmdarların deyil, ayrı-ayrı imkanlı şəxslərin də öz gəmiləri var idi. Mənbələrin birində göstərilir ki, "Bakı limanı yerli əhaliyə məxsus ticarət gəmilərinə malikdir. Onların əsas ticarəti İranın Xəzər dənizindəki bütün limanlarına göndərilən neft, duz və zəfərandan ibarətdir" [16, s. 108].

XVIII əsrin birinci yarısında olduğu kimi, xanlıqlar dövründə də Rusiya Xəzər dənizində digər ölkələrə məxsus gəmilərin hərəkət etmələrinə çox böyük qısqanclıqla yanaşırdı. Volqa-Xəzər ticarət yolunda rus ticarət kapitalının inhisarçı mövqe tutmasını təmin etməyə çalışan Rusiya bütün vasitələrlə İran və Azərbaycanda gəmiçiliyin inkişafının qarşısını almağa çalışırdı. Yuxarıda qeyd edildiyi kimi, Xəzərsahili vilayətlərdə gəmiqayırmada istifadə edilən

materiallar-dor ağacları, lövbər, kəndir, mismar, pərçim, yelkən və s. əsasən Rusiyadan gətirilirdi. Xəzər dənizində kifayət qədər hərbi qüvvəsi olmayan çar hökuməti yerli gəmiçiliyin inkişafını iqtisadi təzyiq yolu ilə, ilk növbədə gəmiqayırma üçün zəruri materialların ixracını qadağan etməklə dayandırmağa cəhd göstərirdi. Səndəl və kirjimlərin sayının artmasını "bütünlüklə Rusiyanın marağına zidd olduğunu" [25, s. 562-563] elan edən çar hökuməti 1774-cü ildə özünün İranda və Azərbaycanda fəaliyyət göstərən konsullarına "Xəzər dənizində belə gəmilərin çoxalmasına mane olmaq" [8. s. 79] haqqında göstəriş vermişdi: "Həştərxandan İrana polad, dəmir və qurğuşun gətirirlər. İranda (Azərbaycanın və İranın Xəzərsahili vilayətləri nəzərdə tutulur - C.M.) gəmilərin tikintisinə son qoymaq üçün hər şeydən əvvəl bu mallarla ticarəti qəti qadağan etmək lazımdır" [8, s. 79].

Hadisələrin sonrakı gedişi göstərdi ki, Rusiya hökumətinin Xəzərsahili bölgələrdə gəmiqayırmanın inkişafının qarşısını almaq üçün tətbiq etdiyi iqtisadi yasaqlar elə bir səmərə vermədi. Əksinə, yerli hökmdarlara və ayrı-ayrı şəxslərə məxsus olan belə gəmilərin sayı artmaqda davam edirdi. Rusiyanın Xəzər dənizindəki hərbi donanmasının kapitanı Akleçeyev yazırdı ki, "Gilan xanının və onun təbəələrinin böyük gəmiləri var. Onlar Bakıda da var. Yaxşı olardı ki, onlara (yerli gəmilərə – C.M.) dənizə çıxmaq qadağan edilsin, çünki onlar bizim ticarət gəmilərinə bir yerdən başqa yerə yük daşımalarda çox ziyan vururlar" [22, v. 6-7]. Doğrudan da bir qədər sonra – 1782-ci ildə Rusiya hökuməti Xəzər dənizində digər ölkələrə məxsus ticarət gəmilərinin üzməsini qadağan etmək haqqında qərar qəbul etdi. Qəbul edilmiş qərarda göstərilirdi ki, "...Xəzər dənizində ancaq Rusiya hökmranlıq etməlidir" [3].

Bununla belə, Rusiya hökumətinin hər cür qadağalarına baxmayaraq Xəzərsahili vilayətlərdə gəmiqayırmanın qarşısını almaq mümkün olmadı. XVIII əsrin sonu-XIX əsrin əvvəllərində "quru¬luşuna və böyüklüyünə görə rus ticarət gəmilərinə bənzəyən" üç gəminin peyda olması da bunu təsdiq edir[3]. Rus məmurlarının apardıqları təhqiqatlar göstərdi ki, əsasən neft, taxıl, odun və digər malların daşınması ilə məşğul olan bu gəmilər Ənzəli sakini Zərbəliyə, lənkəranlı Seyid Həsənə və bakılı Məlikə məxsusdur [3].

Rusiya Xəzər dənizində Azərbaycan xanlıqlarına və İrana məxsus ticarət donanmasının inkişafına mane olmaqla bütövlükdə bölgədə ticarətin inkişafına ciddi zərbə vururdu. XVIII əsrin 80-ci illərində Xəzər dənizində Rusiyaya məxsus cəmi 57 ticarət gəmisi fəaliyyət göstərirdi [18, s. 108] ki, onlar da ticarət əlaqələrinin daimi inkişaf etdiyi bir şəraitdə yük daşımalarını həyata keçirmək üçün azlıq edirdilər. Digər tərəfdən, dənizçilik sahəsində elementar hazırlığa malik olmayan adamlar tərəfindən idarə edilən və o qədər də möhkəm olmayan rus gəmiləri tez-tez qəzaya uğrayır, nəticədə tacirlər ciddi ziyana düşürdülər [16, s. 87]. XVIII əsrin sonu- XIX əsrin əvvəllərində rus gəmilərinin kütləvi şəkildə qəzaya uğramaları nəticəsində tacirlərə dəyən ziyan o dərəcədə artmışdı ki, Rusiya hökuməti Xəzərsahili vilayətlərin hakimləri ilə qəzaya uğramış gəmilərə kömək etmək və dalğaların sahilə atdığı malları öz sahiblərinə qaytarmaq haqqında 1802-ci ildə Georgiyevskidə imzalanmış müqaviləyə bu barədə xüsusi bənd daxil etməyə məcbur olmuşdu [15, s. 488-490].




Rusiya hökumətinin Xəzər dənizində digər ölkələrə məxsus gəmiçiliyin inkişafına mane olması və bu ölkələrin gəmilərinin dənizə çıxmalarını qadağan etməsi ticarət əlaqələrinə getdikcə daha çox əngəl törədirdi. Maraqlı burasıdır ki, hətta Rusiyanın özündə belə bu tədbirlərin mənasızlığını göstərən adamlar var idi. Rus hərbi donanmasının Xəzər dənizindəki zabiti kapitan Şişkinin Rusiyanın Qafqazdakı qoşunlarının komandanı general İ.V.Qudeviçə yazdığı məktub bu baxımdan çox xarakterikdir. O, yazırdı: "Zərurət dəniz sahilində yaşayan bütün xalqları ehtiyaclarını ödəmək üçün imkan və şərait daxilində öz gəmilərinə malik olmağa məcbur etmişdir; bu təbii hüququ bizim qonşuların əlindən almaq olmaz" [23, v. 27].

Rusiya hökumətinin yeritdiyi bu siyasət onun Xəzərsahili vilayətlərdə nüfuzuna da mənfi təsir göstərir və tez-tez hərbi münaqişələrə səbəb olurdu. Bütün bunları nəzərə alan çar hökuməti 1802-ci il aprelin 16-da Xəzər dənizində digər ölkələrə məxsus gəmilərin üzməsinə mane olmamaq haqqında qərar qəbul etdi [21, s. 107]. Belə bir qərarın qəbul edilməsi onunla əsaslandırılırdı ki, Rusiyanın ticarət donanması Xəzər dənizində yük daşımalarının öhdəsindən gəlmək imkanına malik deyil. Hökumətin yerlərə göndərilmiş təlimatında deyilirdi ki, Xəzər dənizində digər ölkələrə məxsus gəmilərin məhv edilməsi Rusiya üçün yalnız o vaxt sərfəli olardı ki, yük daşımalarını tamamilə öz gəmilərində həyata keçirmək mümkün olsun [21, s. 107]. Şübhəsiz ki, bu addım həm də müəyyən siyasi məqsədlər güdürdü. Azərbaycanı işğal etməyə hazırlaşan Rusiya bu qərarla gəmiçiliyin inkişafında maraqlı olan Xəzərsahili xanlıqların hakimlərinin rəğbətini qazanmaq istəyirdi.

Mövcud materiallar göstərir ki, Rusiya hökumətinin 1802-ci il qərarından sonra Azərbaycanın Xəzərsahili vilayətlərində gəmiçiliyin inkişafı daha intensiv xarakter almışdı. 1806-1809-cu illərdə Bakı, Quba və Lənkəran xanlıqlarının Rusiya tərəfindən işğalı da bu bölgəyə gəmi tikintisi üçün zəruri olan materialların gətirilməsi sahəsindəki mövcud maneələri aradan qaldırdı. Bu isə yerli gəmilərin istər sayının, istərsə də yük götürmə qabiliyyətlərinin xeyli artmasına səbəb oldu. 1809-cu ilə aid məlumatdan aydın olur ki, bu dövrdə

Bakı limanına ildə 200-ə qədər kirjim və səndəl daxil olrudu ki, bunlardan da hər birinin yük götürmə qabiliyyəti 1500-dən 4000 puda çatırdı [4]. XIX əsrin əvvəllərində Bakıda artıq 6 gəmi tərsanəsi fəaliyyət göstərirdi. Bu tərsanələrdə gəmi tikintisi üçün istifadə edilən materialların demək olar ki, hamısı Rusiyadan gətirilirdi [20, s. 75]. Gəmilərin ümumi sayı da xeyli artmışdı. Elə həmin dövrdə 57 nəfər Bakı sakininin ümumi yük götürmə qabiliyyəti 120 min pud olan 60 gəmisi var idi [27, s. 41, 74]. Kirjim və səndəllərdən fərqli olaraq texniki cəhətdən daha təkmil olan bu gəmilər artıq Xəzər dənizinin bütün limanları arasında yük daşımalarla məşğul olurdular.

I Rusiya-Qacar müharibəsinin (1804-1813) ilk mərhələsində çar hökuməti Azərbaycanın Xəzər dənizi sahllərində yerləşən Dərbənd, Quba, Bakı və Lənkəran xanlıqlarını işğal etməklə Xəzər dənizində özünün çoxdan arzuladığı təkbaşına hegemonluq planının həata keçirilməsini təmin etmək istiqamətində xeyli irəliləyişə nail oldu. Qarşıya qoyulmuş məqsədin tam həlli isə 1813-cü ildə Gülüstan müqaviləsinin imzalanması ilə baş verdi. Müharibədə ağır məğlubiyyətə uğramış Qacar dövləti Xəzər dənizində yalnız Rusiyanın hərbi donanma saxlamaq hüququnu tanımağa məcbur oldu [1, s.39].

## ƏDƏBİYYAT


1. *Azərbaycan tarixi. 7 cilddə, IV c., Bakı, 2007*

2. *Əliyev F.M. XVIII əsrin birinci yarısında Azərbaycanda ticarət. Bakı, 1964*

3. *АКАК, т. II, док. 1622*

4. *АКАК, т. IV, док. 95*

5. *Архив Государственного Совета, т. II, СПб., 1888*

6. *Ашурбейли С.Б. Очерки истории средневекового Баку. Баку, 1991*

7. *Бартольд В.В. Место прикаспийских областей в истории мусульманского мира. //Сочинение, т. II, ч.I, М., 1963*

8. *Бутков П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1803 г. ч. II, СПб., 1869*

9. *ГААО, ф.394, оп.1, д.90*

10. *ГААО, ф. 394, оп. 1, д. 201.*

11. *ГААО, ф. 394, оп. 1, д. 1118*

12. *Гейдаров М.Х. Города и городское ремесло Азербайджана XIII-XVII в. Баку, 1982*

13. *Гмелин С.Г. Путешествие по России для исследования всех трех царств природы, ч. 3, СПб., 1785*

14. *Дорн Б. Каспий: О походах древних руссов в Табаристан. СПб., 1875*

15. *Дубровин Н.Ф. Закавказье от 1803-1806 года. СПб., 1866*

16. *Каспийская торговля. //Библиотека для чтения, т. 8. СПб., 1834*

17. *Лерх И.Я. Сведения о втором путешествии в Персии, совершенном в 1745-1747 гг. //НАИИ НАН Азербайджана, инв. 486*

18. *Маркова О.П. Русско-иранская торговля в последние десятилетия XVIII в. //Уч. записки ИВ АН Азерб. ССР, т. 1, 1959*

19. *Новые документы о сожжении персидских кораблей на Каспийском море в 1751 г. //Вестник императорского русского географического общества. 1751 г, ч.2*

20. *ОРВЗК, СПб., ч.IV 1836*

21. *Полное собрание законов российской империи. т. 27, СПб., 1830*

22. *РГВИА, ф. 446, оп. 1/194, д. 171.*

23. *РГВИА, ф. 52, оп. 2/203, д. 93*

24. *Тревер К. Александр Македонский в Согде. //Вопросы истории, 1947, №5*

25. *Ульяницкий В.А. Исторический очерк русских консульств за границей в XVIII в., ч. I, СПб., 1899*

26. *Чулков М.Д. Историческое описание российской коммерции, т. II, кн. II, М., 1785*

27. *Штылко А. Волжско-Каспийское судоходство в старину. Астрахань, 1909*



***Açar sözlər:*** *xanlıqlar, Rusiya, hegemonluq, rəqabət, gəmiçilik, gəmiqayırma, donanma, ticarət*

***Ключевые слова:*** *ханства, Россия, гегемония, соперничество, судоходство, судостроение, флот, торговля*

***Keywords:*** *khanates, Russia, hegemony, competition, shipping, shipbuilding, fleet, trade*



**РЕЗЮМЕ**

**Гегемонистская политика России на Каспийском море и Азербайджанские ханства**

Россия с начало XVIII века стала проявлять особый интерес к Каспийскому морю, что было связано стремлением превратить Волжско-каспийский торговый путь в главную магистраль в посреднической торговле между странами Востока и Западной Европы. Чтобы достичь поставленной цели русское правительство приложило немало усилий для превращения Каспия во внутреннее море и при этом враждебно относилось к появлению там судов местных правителей. Правящие круги России со второй половины XVIII века стали активно препятствовать судостроению в приморских районах Азербайджана и Ирана и запретили продажу судостроительных материалов в эти регионы. В 1782 г. последовал особый указ русского царя о запрете плавания судов азербайджанских ханов. Однако все усилия России во второй половине XVIII века, направленные на установление своего господства, не увенчались успехом.



**SUMMARY**

**Russia's hegemonic policy on the Caspian Sea and Azerbaijani khanates**

Since the beginning of the XVIII century Russia began to show a special interest in the Caspian Sea, which was due the desire to turn the Volga-Caspian trade route to the main road in the intermediary trade between the countries of East and Western Europe. In order to achieve this goal the Russian government had made great efforts to turn the Caspian Sea into the interior sea and thus treated to the arrival of the vessels of the local rulers there with hostility. Beginning from the second half of the XVIII century the ruling circles of Russia became actively to hamper the shipbuilding in the coastal regions of Azerbaijan and Iran, and banned the sale of shipbuilding materials in these regions. In 1782 it followed a special decree of the Russian tsar to ban sailing of Azerbaijani khans' vessels. However, all the efforts of Russia in the second half of the XVIII century, aimed at establishing their domination have been unsuccessful.

# Tarix

## İKİNCİ DÜNYA MÜHARİBƏSİ İLLƏRİNDƏ ERMƏNİLƏR FAŞİSTLƏRİN XİDMƏTİNDƏ

MAİS ƏMRAHOV
Tarix üzrə elmlər doktoru, professor






1941-ci ildə Hitler Almaniyası SSRİ-yə qarşı müharibəyə başlayanda ermənilər məkrli planlarını həyata keçirmək üçün fürsət yarandığını fikirləşdilər. Onlar "gələcək gün üçün" ***1919-cu ildə daşnak hökumətinin başçısı olmuş A.Xatisyanı tapıb Adolf Hitlerə təqdim etdilər*** və ermənilərin almanların sadiq dostu, ədalət uğrunda mübarizə aparan xalq olduqlarını bildirdilər.

Müharibə başlayanda faşistlərin qalib gələcəyini mümkün hesab edən ermənilər yaltaqlıqla III Reyx rəhbərliyinə yol tapmağa cəhd edirlər. Bu yaltaqlanma prosesində general Dro (Drastamat Kanayan) xüsusi fərqlənirdi. Bu həmin Dro idi ki, 1918-1920-ci illərdə Zəngəzuda və Naxçıvan diyarında silahsız azərbaycanlılara hücum etmiş, əliyalın əhalini qətlə yetirmişdir.

Erməni yazıçısı Eduard Abramyan etiraf edirdi ki, erməni məsələsi Hitler Almaniyası üçün öz xarici işğal siyasətlərini reallaşdırmaq vasitəsi olmuşdur. Buna görə də, Reyx ermənilərlə əlaqəyə dair Almaniyada olan erməni mühacirlərlə yığıncaqlar keçirir, onlardan SSRİ-yə və Türkiyə dövlətinə qarşı istifadə etməyi planlaşdırırdılar. Berlin ermənilərə SSRİ-yə qarşı müqəddəs müharibəyə hazırlaşmağı tövsiyə edirdi.

Daşnak hökuməti dağıldıqdan sonra gizlənən A.Xatisyan 1942-ci ildə Hitlerin xidmətinə girir. Uzun illər Ermənistan SSR-də müxtəlif rəhbər vəzifələrdə işləmiş mərhum T.Musayev yazır ki, "Hitler onu (Xatisyanı-M.Ə.) Qafqaza-Rostov vilayətində ermənilər çoxluq təşkil etdiyi Armavir şəhərinə göndərir ki, erməniləri səfərbər edib Sovet dövlətinin məğlub olmasına yaxından kömək etsin, Qafqazı Hitler zəbt edən kimi Zaqafqaziya üzrə qubernator olub Zaqafqaziyada qalıb…azərbaycanlıların kökünü kəsə bilsin" (1,s.214-215). Daşnak hökuməti başçısı olmuş A.Xatisyanın Rostov vilayətinin ən çox erməni yaşayan Armavir şəhərinə gətirilib orada yerləşdirilməsi və onun planları barədə 1942-ci il iyul-avqust aylarında "Pravda" qəzeti öz nömrələrinin birində karikatura vermişdir. Karikaturada Hitler A.Xatisayanı maşa ilə zibil vedrəsindən çıxarıb ona vədlər edir. (1, s.214-215)

Faşistlərin qulbeçələri olan Drasamat Kanayan II Dünya



*A.Xatisyan*

müharibəsi zamanı Gareqin Njde ilə birlikdə, faşistlərin tərəfində döyüşür və erməni hərbi birləşmələrinin təşkilində fəal iştirak edirlər. Dro kəşfiyyat və təxribat məqsədləri üçün Simferopolda yerləşən "Dromedar" təşkilatı tərəfindən koordinasiya edilən erməni qrupları yaradır və rəhbərlik edir.

1942-ci ilin dekabrında general Drastamat Kanayan və erməni yazıçısı Garo Gevorkyan Henrix Himmlerin qəbulunda olur və ona pastor Lepsiusun "Erməni xalqının ölümcül yürüşü" kitabını təqdim edirlər. Himmlerin və general Dronun (Drastamat Kanayanın) çağırışı ilə 30 minə qədər erməni alman ordusuna qatılır və döyüşlərdə iştirak edir.

İkinci dünya müharibəsi illərində Dro alman ordusunda (Vermaxtda) ermənilərdən təşkil olunan 812-ci taborun rəhbəri təyin edilir. Almanlar Krım və Şimali Qafqazın işğal etmək istəyəndə Qafqaz cəbhəsində vuruşan Dro günahkar elan edilsə də, sonradan bağışanılır. Bundan sonra Beyrutda ticarət işlərinə başlayır, lakin xəstələndiyi üçün ticarət işini dayandırmağa məcbur olan Dro ABŞ-a aparılır, 1956-cı ildə Bostonda dünyasını dəyişir. Dronun məzarı 2000-ci ildə ABŞ-dan Ermənistana gətirilmişdir.

Dro Kanayanın məsləkdaşı və azərbaycanlıların düşməni olan Garegin Njde (əsil adı Garegin Yeğişe Ter-Harutünyan) 1912-ci ildə general Andranik Ozanyan ilə bərabər Trakiya və Makedoniyanın azadlığı üçün Balkan vuruşlarında Osmanlı imperiyasına qarşı Bolqar ordusunun "Makedon-Adriyanapol Könüllü dəstələri" adı altında Erməni taboru yaradır. İkinci Balkan müharibəsində yaralanan Njde Bolqarıstanın "Cəsarət xaçı" ilə mükafatlandırımışdır. (7)

I Dünya müharibəsi başlamamışdan əvvəl çar Rusiyası dövləti tərəfindən elan edilən əfvdən sonra Njde Osmanlı imperiyasına qarşı vuruşmaq üçün rus ordusu tərəfindən Könüllü Erməni dəstələri hazırlamaq məqsədilə Cənubi Qafqaza göndərilir. O, müharibənin ilk vaxtlarında-1915-ci ildə Erməni dəstələrinin komandiri Drastamat Kanayanın köməkçisi olur, 1916-cı ildə Xüsusi Erməni-Yezidi Əsgəri Birliyinə komandanlıq edir. Çar Rusiyası ordusunun geri çəkilməsindən sonra Njde Alajay döyüşündə Gümrüyə doğru geri çəkilən erməni könüllüləri üçün dəstə saxlayır. Türk ordu dəstələri Gümrüyə çatdıqdan çonra Njdenin rəhbərliyi altında olan erməni qüvvələri Cənubi Qafqaza keçirlər.

Ermənilərlə razılaşmaya görə Türkiyə dövlətinə qarşı hücum mqsədilə ermənilər Hitler Almaniyası üçün 100 minlik qoşun toplamalı idi. Bütün bu məsələlər detalları ilə erməni-alman razılaşmasında - "Gertrud" planında əksini tapmışdır. Əvəzində ermənilərə Şərqi Anadolu və Kilikiya vəd olunmuşdur. (4)

Erməniləri almanlar tərəfinə cəlb etmək, onları Hitlerə xidmət etməyə çağırmaq məqsədilə Almaniyada "Hayastan" qəzeti nəşr olunurdu. Qəzetin bütün redaksiya heyəti ermənilərdən təşkil olunmuşdu. Qəzet Hitler Almaniyası tərəfindən maliyyələşdirilir və III Reyxin təbliğat naziri Göbbesin birbaşa nəzarətində idi.

Türkiyə dövlətinə qarşı almanlara planlarını həyata keçirmək üçün daşnaklar 1943-cü ilin ortalarında daşnak könüllülərinin komandiri, Birinci dünya müharibəsinin iştirakçısı, hazırda **"abidəsi İrəvanı bəzəyən"** general Garaegin Njdenin rəhbərliyi altında yaradılmışdır. Njde "Tserakron" təşkilatının əsasını qoymuş və onun köməyi ilə gənc ermənilərin SS faşist təşkilatının və digər elit faşist təşkilatlarının üzvləri olmasına şərait yaradılmışdır. Almaniyada və işğal olunmuş Fransada yaşayan xeyli erməni Vermaxtın 10-cu ordusuna daxil olmuşdular.

**Erməni daşnaqları faşistlərin xidmətində**

Rozenberqin strateji planına əsasən Hitler Almaniyasının himayəsi altında "Ermənistan Baş Komissarlığı" yaradılmalı idi. III Reyx daşnakların sədaqət və xidmətləri müqabilində Qarabağın, Naxçıvanın və Axalkalakinin bir hissəsinin ermənilərə verilməsini vəd etmişdi. Bundan başqa Qarabağdan olan ermənilər SSRİ-yə qarşı üsyan qaldırmalı, bu əraziyə Almaniya ermənilərindən qanunsuz hərbi birləşmələr və xüsusi təhsil almış dəstələr göndərilməli idi. (3, s. 48, 52, 136)

Hitlerə sədaqətlə qulluq edən daşnakların siyahısında *Artaşes Abeqyan, Vaçaq Abeqyan, Akop Aziyan, Vaqan Ayrapetyan, Qayk Asatryan, Tiqran Baqdasaryan, Suren Bekzadyan, Nikolay Gevorkyan, Aleksandr Xatisyan, Aram Mirimanyan, Alfred Muradyvn, Aleksiy Sarkisyan, Vartan Sarkisyan, Misak Torlakyan* (2) və onlarca "yan"ların adları vardır.

Hitlerin sadiq qulluqçularından biri daşnak **Artaşes Abeqyan** idi. O, 1941-ci ildə bir neçə dəfə Rozenberqlə görüşmüş, SSRİ-yə qarşı ermənilərin köməyini təklif etmişdir. 1942-ci ildə "Erməni Milli Komitəsi" ni idarə edən Artaşes Jozef Göbbelsin əmri ilə "Hayastan" qəzetinin baş redaktoru işləmişdir. 1943-cü ildə Polşadakı ölüm düşərgəsində SSRİ-yə qarşı xüsusi təlimlər keçmişdir.

**Vaçaq Abeqyan** Almaniyaya mühacirət etmiş ermənidir. O, Rozenberqin rəhbərlik etdiyi nazirlikdə işğal olunmuş şərq regionları üzrə tərcüməçi işləmiş, düşərgələrə gedərək əsirlərdən "Daşnaksütyun" partiyasına üzvlər toplamış, "Erməni Milli Komitəsi" nin üzvü olmuşdur.

"AG-114 Dromedar" təşkilatının rəsmi üzvlərindən olan **Akop Əsiryan** almanların əsir götürdükləri sovet əsirlərinin sorğusunda iştirak etmişdir. Onun həmfikiri **Qayk Asatryan** da faşist Almaniyası ilə sıx əməkdaşlıq etmiş, Njdenin Türkiyə əleyhinə erməni hərbi hissələrində hazırlıq dərsləri aparmışdır.

**Tiqran Baqdasaryan** alman kəşfiyyatının casuslarından olmuşdur. Müharibə dövründə general Dro Kanayanın "AG-114 Dromedar" təşkilatında xüsusi xidmət etmiş, "Erməni Millli Komitəsi"nin üzvü olmuş, Jozef Göbbelsin qəzetində şöbə müdiri

işləmişdir.

**Suren Bekzadyan** daşnak Ararat Respublikasının Azərbaycan Xalq Cümhuriyyətindəki səfirinin oğlu idi. Rozenberqin hakmiyyəti altında olan işğal olunmuş ərazilərdə "Osank" təşkilatında antisovet təbliğatı ilə məşğul olmuş, 1942-ci ildən milli sosialist "Paykar Xoassanak" təşkilatının üzvü olmuşdur. 1942-ci ilin sonunda "Erməni İnqilabçı Federasiyası" liderləri bu təşkilata Erməni Milli Şurasının da qəbul etmişlər. (5)

**Nikolay Gevorkyan** "AG-114 Dromedar" təşkilatının kəşfiyyatnda işləmişdir. Erməni əsirlərinə yardım adı ilə SSRİ əleyhinə casuslar hazırlamış, təbliğat işləri aparmışdır. **Aram Mirimanyan** da "AG-114 Dromedar" ın casusu olmuş, həmçinin "Hayastan" qəzetinin redaktoru işləmişdir. General Dronun yaxın ətrafı hesab olunan Aram Mirimanyan 1945-ci ildə əsir düşərgələrində antisovet təbliğatı apararaq əsirləri SSRİ əleyhinə işə cəlb etmişdir. Onun cəlb etdiyi əsirlər SSRİ-yə qaytmaqdan imtina etdiyindən A.Mirimanyan onları xarici pasportla təmin etmişdir.

**Alfred Muradyan** alman "ZEPPELİN" xüsusi xidmət orqanının casusu olmuşdur. Alman ordusunda hərbi rütbə alan A.Muradyan Almaniyada Nasional-Sosialist Partiyasına daxil olmuşdur. 1942-ci ildə alman hərbi qüvvələrinin də "Erməni Milli Komitəsi" nin rəsmi nümayəndəsi olan A. Muradyan ölüm düşərgələrində erməni könüllü dəstələrinin yaradılmasında fəallıq göstərmiş, Jozef Göbbelsin etibarını qazanmağa nail olumuşdur.

**Aleksiy Sarkisyan** 1938-ci ildə "Tserakon"-erməni hitleryunge" nin, 1942-ci ildə "Daşnaksütyun" un sıralarına daxil olmuşdur. 1943-cü idə Şimali Osetiyada ağır döyüşlərdə iştirak etməklə almanların hörmətini qazanmış, taqım komandiri və kapitan hərbi rütbəsinə yüksəlmişdir.

**Vartan Sarkisyan** 1918-ci ildə türklərə əsir düşmüş, ancaq Osmanlı dövlətinə erməni məsələsini nəzərdən keçirmək üçün gəlmiş amerikan generalı Xarbordun əmri ilə azadlığa buraxılmışdır. V.Sarkisyan 1919-cu ildə könüllü olaraq daşnak ordusuna daxil olmuş, general rütbəsinədək yüksəlmişdir. Vartan Sarkisyan müharibənin sonunda əsir düşmüş və sovet hərbçiləri tərəfindən güllələnmişdir.

**Misak Torpakyan** general Drastamat Kanayanın neft zavodunda işləmiş, "AG-114 Dromedar" təşkilatının üzvü olmuşdur. 1942-ci ildə Drastamat Kanayanla birlikdə Krıma gəlmiş, Krım daşnak bürosuna rəhbərlik etmişdir. Qafqaz və Türkiyə Cümhuriyyəti üçün strateji planlarının işlənməsində Rozenberqi gizli məlumatlarla təchiz etmişdir. 1944-cü ildə alman ordusu ilə birlikdə Almaniyanın Amerika işğal zonasında antisovet fəaliyyəti göstərmişdir.

"Dənizdən dənizə Böyük Ermənistan" xülyasında olan ermənilər, xüsusilə onların "vətənpərvər" liderləri heç vaxt onlara mənsub olmayan torpaqlarda fövqəladə dövlət yaratmaq arzusu ilə alman ordusu sıralarında vuruşaraq minlərlə dinc insanı, o cümlədən yüz minlərlə türkü qətlə yetirmişlər. Bu işdə sovet tərəfindən əsir düşən və mühacirətdə olan ermənilərdən təşkil olunan 812-ci erməni legionu öz qəddarlağı ilə seçilmişdir. Onlar faşist ordusu tərkibində Krımda, Şimali Qafqazda və Hollandiyada döyüşmüşlər.

Araşdırmalar göstərir ki, müharibənin birinci ili ərzində "Erməni İnqilabçılar Federasiyası" Türkiyədə və Orta Şərqdə III Reyxin kəşfiyyat orqanları ilə sıx əməkdaşlıq etmişlər. Milli mənsubluqdakı xəyanət xislətlərini yenidən nümayiş etdirən ermənilər 1944-cü ildə faşistləri birinci tərk etmiş, almanların əleyhinə olmuş, əslində növbəti dəfə ikiüzlülük nümayiş etdirmişlər.

**Erməni legionları**




Məlumdur ki, faşist Almaniyası SSRİ-yə hücum edərkən qarşısına SSRİ-nin çoxmilli tərkibini dağıtmaq və milli azlıqlardan birləşmələr yaratmaq istəyirdi. Bu məqsədlə Milli Azadlıq Komitələri yaradır, bu komitələrin işinə mühacirətdə yaşayan müstəqil dövlətlərin keçmiş liderlərini və sərkərdələrini cəlb edirdi. Hitlerin 1941-ci ilin noyabrında Türküstan legionu yaratmağa razılıq verməsindən sonra şərq xalqlarından hərbi birləşmələr yaradılması işi fəallaşır. 1941-ci il dekabrın 22-də silahlı qüvvələrin Ali Komandanlığı şərq xalqlarından 4 legion yaradılması barədə əmr verir, onların arasında erməni legionu da var idi. Legionların yaradılması haqqında dəqiq göstəriş 1942-ci il 8 fevral tarixli əmrdən sonra olur.

1942-ci ilin sonunda Polşadan cəbhəyə 2 erməni batalyonu-808-ci və 809-cu batalyonlar yola salınır. 1943-cü ilin əvvəlində onların ardınca 810-cu, 812-ci və 816-cı, 1943-cü ilin ikinci yarısından 814-cü, 815-ci və 816-cı batalyonlar gəlirlər. Bu dövrdə cəbhəyə ümumi sayı 20 min olan erməni göndərilmişdir. (6,s.185)

Səhra batalyonlarından başqa, müharibə dövründə erməni hərbi əsirlərindən alman ordusuna xidmət edən, ancaq döyüş əməliyyatlarında birbaşa iştirak etməyən 72 tikinti, dəmiryolu, nəqliyyat və digər köməkçi yarımbölmələr formalışdırılmışdır. Bütün bunlar SSRİ-nin Hitler Almaniyasındakı səfiri, ixtisasca çekist, uzun müddət Daxili İşlər Xalq Komissarlığında (Xarici şöbə) kəşfiyyata rəhbərlik etmiş milliyyətcə erməni Vladimir Dekanozovun gözü qarşısında baş verirdi. Səfirliyin ikinci katibi Beriyanın müavini Boqdan Kabulovun doğma qardaşı Amayak Kabulov idi. Müharibə ərəfəsində onların fəaliyyəti bu günədək tapmaca kimi problem olaraq qalır və araşdırılmamışdır. Samuel Uimsə görə 100 mindən artıq erməni Üçüncü Reyxin dəstələri tərkibində iştirak etimşdir. İlk vaxtlar Polşa ərazisində hərbi əsirlərin daxil olduğu Zaerjijdə hazırlıq düşərgəsi yaradılmış, erməni legionu Pulavedə dislokasiya olunmuşdur. Şəxsi heyət, təlim və erməni legionundan istifadə üzrə rəis kapitan Kuçer təyin edilmişdir. O, sonralar birinci erməni legionuna başçılıq etmişdir.

1941-ci ilin iyulundan 1943-cü ilin sonunadək 8 erməni batalyonu formalaşdırılmışdır. Erməni legionlarının formalaşdırlması və təlimindən başqa zabitlər məktəbi açılmışdı ki, orada gələcəyin zabitləri oxuyurdu. Belə məktəblərdən biri Polşanın Legionova şəhərciyində yerləşirdi.

1942-ci ilin mayından legion hissələrinin formalaşdırılması Ukrayna ərazisində də genişləndirildi. Loxvitsdə tədris mərkəzi və tədris düşərgəsi yaradılır və mayor Enqxolm rəis təyin edilir. 1942-ci ilin sentyabrından 1943-cü ilin mayına qədər Ukraynada erməni legionlarından 3 səhra erməni batalyonu-1/125-ci, 1/198-ci və II/9-cu batalyonlar formalaşdırmaq mümkün olmuşdur. Legionerlər fiziki və xüsusi hərbi ixtisas hazırlığı keçirdilər.




Adətən məşğələlərin müddəti gündə 7-9 saat olmaqla 4 ayadək davam edirdi. Vəziyyətdən asılı olaraq sürətləndirilə də bilirdi. Hərbi proqrama fiziki hazırlıq-sıra məşğələləri, alman ordusunun nizamnaməsinin mənimsənilməsi, rus və alman silahlarının öyrənilməsi, taktiki hazırlıq daxil idi. Hazırlıqla keçmiş hərbi əsirlərdən olan və iki həftəlik hazırlıq kursu keçmiş bölmə və taqım komandirləri məşğul olurdu. Sıra təlimini hazırlığına alay komandirləri rəhbərlik edirdi. Ümumi hərbi hazırlıqdan sonra hərbi ixtisaslar üzrə dar ixtisaslara hazırlıq keçirilirdi. Erməni legionlarının komandirləri almanlardan təyin edilirdi. Hər bir alay komandirinin yanında müşavir-alman feldfeberi olurdu. II dünya müharibəsi başa çatdıqdan sonra faşistlərlə əməkdaşlıq edən erməni legionerləri, o cümlədən "Dromedar" üzvləri SSRİ-yə verildi, bəziləri Qərbdə qalmağa müvəffəq oldu.

Hərbi hazırlıqla yanaşı legionlar arasında təbliğat işi aparılırdı. Təbliğat işin əsasını Slovakiya və Xorvatiya timsalında Ermənistanın müstəqilliyinin vədi dayanırdı. Bəzi məlumatlara görə, alman III Reyxində xidmət edən ermənilərin sayı 27 min nəfər olmuşdur, onlardan 3.000 nəfəri SS və alman "Abver" kəşfiyyatında xidmət etmişdir.

Qeyd edildiyi kimi, erməni legionlarının mərkəzi Pulavedə yerləşirdi. Erməni hərbi birləşmələrinin düşərgəsinin komendantı vəzifəsinə Tiflisdən olan erməni qadının oğlu ober-şturmanfürer **Valdemar Frentsel** təyin edilmişdir.

Fevralın sonunda generad Dro (Drastamat Kanayan) Berlinə gəlir, yerli təsirli ermənilər SS reyxsfüreri Himmlerin qəbuluna düşməyi təşkil edirlər. Onunla birlikdə yazıçı Karo Gevorkyan və Vyanadan olan tələbə tərcüməçi kimi qəbulda olurlar. Danışıqlar saatyarım davam edir. Söhbətin gedişində Himmler bildirir ki,… zəmanət üçün erməni legionu yaradılmalıdır, bu birləşmələr … əlbəttə bizim köməyimizlə öz vətənlərini qoruya bilərlər. Söhbətin sonunda Dro erməni hərbi düşərgəsinə gələcək legionerlərin hazırlandığı düşərgəyə baş çəkməyi arzu edir. Erməni hərbi əsirlərinin arasına düşən Dro özünün nitqi ilə düşərgədə olanların erməni legionu sıralarına daxil olmağa inandıra bilir. O, digər düşərgədə olan ermənilərlə əlaqə yaradaraq legiona daxil olmağa çağırış edir.

General Drastamat Kanayanın fəaliyyəti qısa zamanda öz nəticəsini göstərir. İlk aydan 3 düşərgədən 250-dən çox könüllü ermənilərlə birləşmək arzusunda olduğunu bildirir, sonra onların sayı 1500, daha 2500-ə çatır.

Drastamat Kanayan hərbi əsirlər arasında ilk daşnak partiyasının özəyini yaradır. Bu partiyaya sovet hökumətinə inamını itirmiş Ermənistandan olan ermənilər, hətta rus dilini bilməyən ermənilər daxil olurlar. İlk vaxtlarda legionlar sırasına Almaniyada, işğal olunmuş Polşada, Fansada və digər ölkələrdə yaşayan ermənilər də daxil olurdular. Almaniyadan olan legioner ermənilər arasında Vermaxtın erməni zabitləri, həmçinin SS zabitləri, məsələn, Vaffen-ştandartenfürer SS Vartan Sarkisyan, kapitan Misak Torlakyan, qruppenfürer Razmik Nazaryan və başqaları vardı.

Garegin Njde Berlində Ermənistana atılaraq antisovet əhvali-ruhiyyəsi və Almaniyanın himayəsi altında "Böyük Ermənistan" dövləti yaradılması təbliğatı aparan 20-30 nəfərlik təxribat qrupunun yaradılması üzərində işləyir. Almaniyada Njdeyə Almaniyanın Moskvadakı keçmiş səfiri, köhnə tanışı qraf Şulenberq köməklik edirdi.

Bir müddət sonra Berlinə "Paykar" nəşriyyatının əsasını qoyan, Bakıda AXC dövründə Ararat Respublikasının Fövqəladə və Səlahiyyətli səfirinin oğlu, ***Suren Bekzaryan*** gəlir. Onun məqsədi reyxdə yeni "Osank" ("Axın") nəşriyyatını yaratmaq idi. Bu nəşriyyat Odessadan Rostova qədər işğal olunmuş ərazidə ermənilər üçün ideya hazırlığı mərkəzi olmalı idi. Bu cür mərkəzlər Sevastopolda və "Erməni Milli Komitəsi"nin qərargahlarının aktiv fəaliyyət göstərdiyi digər işğal olunmuş şəhərlərdə də formalaşdırılmışdır. Təbliğat işində Almaniyadan olan erməni ***Alfred Muradyan*** daha çox fərqlənirdi. Onu "Erməni legionunun himayədarı" adlandırırdılar. O, "Armenekan" (Aykakan) hərəkatının əsasını qoymuşdur.

Ararat Respublikasının keçmiş Baş naziri Aleksandr Xatisyan Şulenberqlə görüşlərində bir neçə dəfə gələcək Ermənistanın statusu məsələsini qaldırmış, fürerlə görüşmək üçün razılıq almağı ondan xahiş etmişdir. Ancaq fürer **"tam qələbəyədək sovet dövlətlərinin statusu barədə heç bir danışıq"** olmayacağını Şulenberq bildirmşdir.

1943-cü ilin sonunda Göbbelsin idarəsi erməni legionları üçün erməni və alman dillərində həftəlik dərc edir. Onun redaktoru Levon Şantın oğlu Viqen Şant idi. Həmin idarədə alman, fransız, rus və erməni dilində radio verilişləri aparılırdı və redaksiyalarda çoxlu erməni işləyirdi.

Berlində, Marseldə və Simferopolda erməni əhalisi üçün erməni dilində qəzetlər, "Azad Hayastan" (Azad Ermənistan) və "Hayrenik" ("Vətən") həftəliyi nəşr olunurdu.

Qeyd edildiyi kimi, legionların komandiri ştandartenfürer **Vartan Sarkisyan** idi. O, Qızıl Ordu mayoru hərbi rütbəsində əsir düşmüş, "özünün hərbi qabiliyyətinə görə" generala qədər yüksəlmişdir. Reyxdə erməni legionlarının rəsmi nümayəndəsi Ararat Respublikasının xarici işlər nazirinin oğlu **Armik Calayan** idi. Onun anası alman qadını idi və alman Baş Komandanlığı ilə əlaqələri vardı. Hərbi attaşe Almaniya vətəndaşı, sənayeçi milyoner zondenfürer **Alfred Muradyan**, mətbuat attaşesi **Arutyun Baqdasaryan** idi.

Bütün Şərq legonlarından fərqli olaraq yalnız erməni legionu milli tərkibdə idi.

**808-ci piyada erməni batalyonu 1942-ci ildə Polşada formalaşdırılmışdır.** Tərkibində 914 erməni və 41 alman vardı. Batalyon komandiri Kuçer təyin olunmuşdur. Tuapse rayonunda döyüşlərdə iştirak edən batalyon özünü doğrultmamış, vermaxt komandanlığı tərəfindən şübhəli və etibarsız kimi qiymətləndirilmişdir. Batalyonda Qızıl Ordu tərəfinə keçməyə hazırlaşan gizli qrup fəaliyyət göstərmişdir. 1942-ci ilin oktyabrında batalyon tərkisilah edilmiş və yol-tikinti hissəsi kimi yenidən təşkil olunmuşdur.

**809-cu erməni piyada "Zeytun" batalyonu 1942-ci il avqustun 29-da Polşada formalaşdırlımışdır.** Tərkibində 913

erməni və 45 alman vardı. 48-ci piyada diviziyasının 128-ci qrenedar alayının hissəsi olmuşdur. Komandiri Xermann Bekker idi. Batalyon 1942-ci ilin noyabrın 18-dən Qafqazda-Nalçik və Mozdok rayonlarında döyüşlərdə, Kubanın və Kerç yarımadasının müdafiəsində iştirak etmiş, 1943-cü ilin oktyabrınadək Niderlandda xidməti davam etdirən batalyon Belçikaya gəlmişdir. 1943-cü ilin noyabrından dekabrın 20-dək batalyon yenidən hazırlanaraq Sisson tədris poliqonunda təlim keçmişdir. 1944-cü il yanvarın 8-də Cənubi Bevelandda yerləşdirilən batalyon Atlantik təpəsi müdafiə xəttndə müdafiə mövqeyi tutmuşdur. 1944-cü ilin əvvəlində batalyonda olan 844 nəfərdən 792 nəfəri erməni idi.

1944-cü ilin avqustunda batalyon müttəfiqlərin "Overlord" əməliyyatı nəticəsində böyük itki verir, erməni əsgərlərinin çoxu müttəfiqlərin tərəfinə keçdiyindən batalyon Normandiyaya atılır.

**810-cu erməni piyada batalyonu** da 1942-ci ildə Polşada formalaşdırılmışdır.

**812-ci mühəndis-konstruktor batalyonu** 1942-ci il əmri ilə yaradılmış və 1943-cü il fevralın 1- də sonuncu dəfə Polşada (Pulave şəhərində) yenidən formalaşdırılmışdır. Batalyon xidmətə Polşanın Qadon şəhərində başlamış, 1943-cü ildə Atlantik təpəsinin müdafiə qabiliyyətinin möhkəmləndirilməsi üçün Niderlanda göndərilmiş, Berqen-op-Zom şəhəri ətrafında yerləşdrilmişdir. Batalyonun ayrıca din xadimi olmuş və dini tədbirlər keçirilmiş, erməni təqviminə əsasən xristian bayramlarını qeyd etmiş, arzu edənləri xaç suyuna salınmışdır.

**813-cü erməni piyada batalyonu** 1943-cü ilin fevralında Polşada formalaşdırılmış, Atlantik təpəsində xidmət aparmışdır.

**814-cü və 815-ci erməni piyada batalyonları** 1943-cü ilin fevralında, 816-cı erməni batalyonu 1943-cü ilin sonunda Polşada formalaşdırılmışdır.

**I/125 erməni batalyonu** 1943-cü ili fevralında Ukraynada formalaşdırılmış, Cənubi Fransanın müdafiəsi üçün Qərb cəbhəsinə atılmış, Marsel şəhərindən 30 km şimalda, Eksan-Provans şəhəri yaxınlığında yerləşmişdir.

**I/198-ci erməni batalyonu** 1942-ci ilin sentyabrında Ukraynada formaşladırılmış, Cənubi Fransanın müdafiəsi üçün Qərb cəbhəsinə atışmış, cənubi-qərbi Tulonun sahillərində yerləşmişdir.

**II/9-cu erməni batalyonu** 1942-ci ilin sentyabrında Ukraynada formaşladırılmış, Cənubi Fransanın müdafiəsi üçün Qərb cəbhəsinə atılmış, Sen-Trop istiqamətində kiçik İyer şəhərciyində yerləşmiş, adada sahil mühafizəsi aparmışdır.

### Nəticə

Vermaxtın xidmətində olan erməni batalyonlarının fəaliyyətini təhlil edərək belə nəticəyə gəlmək olar ki, *bu legionların təşkili və ilhamvericisi 1918-1920-ci illərdə mövcud olmuş qondarma Ararat Respublikasının mühacirətdə yaşayan hökumət üzvləri, onların qohumları, yaxınları və "Daşnaqsütyun" partiyasının üzvləri olmuşlar.* Bu birləşmələrin təşkilatçıları və üzvlərinin əsas ideyası ***"öz hərəkətləri ilə Ermənistanı və erməniləri Türkiyənin Ermənistana hücumlarından qorumaq" olmuşdur.*** Legionların və onların komandirlərinin hamısı hərbi əsirlər olmuşlar. Faşist Almaniyasının SSRİ-yə müvəffəqiyyətli hücumunu ermənilər, daşnaklara rəğbət bəsləyən mühacirlər Ermənistanın kommunistlərdən azad olunması üçün bir şans və "Böyük Ermənistan" yaratmaq kimi qiymətləndirmişlər.

Göründüyü kimi, **Azərbaycan xalqı üç cəbhədə** vuruşurdu. Birinci cəbhə döyüş bölgəsi idi. Azərbaycan oğulları **ön cəbhədə** faşistlərə qarşı mərdliklə döyüşür, əsl qəhrəmanlıq nümunələri nümayiş etdirirdilər. İkinci cəbhə **arxa cəbhə** idi. İnsanlar gecə-gündüz işləyərək cəbhəni silah-surat və ərzaqla təmin etmək üçün əmək fədakarlıqları göstərirdilər. **Üçüncü cəbhə** daha ağır və məsuliyyətli idi. Xalqımız faşistlərin antiazərbaycan milli siyasətindən yararlanan erməni təxribatlarına qarşı mübarizə aparmalı olurdu.

### ƏDƏBİYYAT

***Azərbaycan dilində***

*1. Musayev Talıb. Ermənilər və faciələrimiz. (XX əsrdə ermənilər tərəfindən xalqımızın başına gətirilmiş faciələr). Bakı, 2008*

*2. Həsənov Fərrux., Zeynalova Gülnarə. http://vzglyad.az/news/62240/*

*rus dilində*

*3. Абрамян Эдуард, «Кавказцы в Абвере», М.: «Яуза», 2006*

*4. Буланова О. Армянская помощ фашистской Германии. Газ. «Эхо», 20017, 20 май, №86*

*5. Нифталиев Ильгар Историческая призма»: Армяне на службе у фашистов https://news.day.az/politics/804595.html*

*6. Султанов Ч. Выстоли бы СССР и Европа против фашизма, в случае потери бакинской нефти? (К 60-летию победы), Баку: 2005*

***İnternet resursları***

*7. http://wikipedia/orq|wiki|drashamat_kanayan_note/Chalabian2010-1*

*8. http://wikipedia/orq|wiki*

***Açar sözlər:*** *Faşizm, ermənilər, Ararat Respublikası, erməni legionları, daşnak quldurları*

***Ключевые слова:*** *фашизм, армяне, Республика Арарат, армянские легионы, бандиты дашнаксютун*

***Key words:*** *Фascism, armenians, Republic of Apapam, Armenian legions, dashnaк bandits*

### Армяне на службе у фашистов в годы второй мировой войны

### РЕЗЮМЕ

В статье фактами указаны расширение антиазербайджанской и антитюркской деятельности армян с началом второй мировой войны, связь лидеров бывшей Республики Арарат и бандитов дашнаксютунской партии с фашистами для осуществления планов по созданию «Великой Армении», их участие при военных операциях и в ходе пропаганды, проводимых против СССР.

Факты по организации, структуре и по участию армянских легионов в военных операциях освещены на основе источников и литературы.

### Armenians serving the fascist during the years of World War II

### SUMMARY

Extension of anti-turkish and anti-azerbaijani activity of armenians by the beginnings of world war II, dealing of the leaders of former Ararat Republic and dashnak bandits for realization of plans of establishment of "Great Armenia", their participation in agitation and military operations against USSR were shown by facts in this article.

# Fəlsəfə

## MƏDƏNİYYƏTLƏRİN DİALOQU: NƏZƏRİ-FƏLSƏFİ TƏHLİL

ELŞƏN BAYRAMZADƏ
Fələfə üzrə fəlsəfə doktoru



Bütün bəşəriyyət tarixi hər biri özünəməxsus dəyərlər sisteminə və fəaliyyət üsuluna malik olan xalqların qarşılıqlı təsir prosesi kimi səciyyələndirilə bilər. Oxşar qarşılıqlı təsirlərin əsas modusları rəqabət və əməkdaşlıq olmuşdur. İstər rəqabət, istərsə də əməkdaşlıq müxtəlif şəkillər almış, fərqli formalarda təzahür etmişdir. Məsələn, rəqabət beynəlxalq hüququn normaları çərçivəsində qarşıdurmalar və onun neqativ və fəlakətli nəticələri kimi gerçəkləşə bilər. Məlumdur ki, xalqların əməkdaşlığı da ö təzahür üsul və formalarına görə çoxçeşidlidir. Heç şübhəsiz ki, xalqlar arasında qarşılıqlı münasibətlər, istər rəqabət, istərsə də əməkdaşlıq daha çox iqtisadi və siyasi amillərlə şərtlənib. Lakin bir çox hallarda iqtisadi və siyasi amillər arxasında daha fundamental amillər, mənəvi dəyərlər gizlənir. Hər bir xalqın mədəniyyət nüvəsini təşkil edən bu dəyərlər nəzərə alınmazsa heç bir uzunmüddətli əməkdaşlıq mümkün ola bilməz. Yazılmış məqalə də xalqların əməkdaşlığının əsas moduslarından biri kimi çıxış edən "mədəniyyətlərin dialoqu" probleminin təhlilinə, onun mahiyyəti və inkişaf vektorlarının müəyyənləşdirilməsinə həsr olunub.

Ümumiyyətlə qeyd etməliyik ki, mədəniyyətlərin qarşılıqlı təsiri, onların dialoqu etniklərarası, millətlərarası münasibətlərin inkişaf etdirilməsi üçün əlverişli zəmin yaradır. Məsələ təkcə xalqlar arasında normal münasibətlərin qurulması ilə bitmir. Mədəniyyətlərin qarşılıqlı təsiri həm də milli mədəniyyətlərin inkişafı üçün ciddi zəmin hazırlayır. Bu haqda rus tədqiqatçısı A.Karmin yazır: "İndiki dövrümüzdə aydın olur ki, heç bir milli mədəniyyəti özünəkafi hesab etmək olmaz. Onlardan hər biri qeyri-kamil və məhduddur. Hər bir mədəniyyət "özündən kənara çıxmağa" ehtiyac duyur, çünki o, yalnız digər mədəniyyətlərin təcrübəsinə müraciət etmək və onu mənimsəməklə imkanlarını inkişaf etdirə bilər. Digər mədəniyyətlərlə təmas qurmayan və onların təsirinə məruz qalmayan mədəniyyət, hər hansı ölkə iqtisadiyyatının dünya iqtisadi bazarından kənarlaşdıqda labüd olaraq durğunluq zolağına düşdüyü kimi, labüd olaraq dünya mədəniyyətinin inkişaf templərindən geri qalmağa məhkumdur". (1, s.57)

Dialoq ideyası qədim tarixə malikdir. Qədim Hind mədəniyyətinin yazılı nümunələrində xalqlar və onların mədəniyyətlərinin, mikro və makro-kosmosun vəhdəti, insan sağlamlığının onu əhatə edən ətraf mühitlə əlaqələrindən asılılığı haqqında kifayət qədər məlumatlara rast gəlinir. Qədim yunan filosofları: sofistlər. Sokrat. Platon, Aristotel, Ellin dövrünün filosofları da dialoq probleminə biganə qalmamışlar. Onlar fikirlərin plüralizmi və nöqteyi-nəzərlərin bərabərliyi çərçivəsində dialoq məkanı yaratmışlar. Lakin, nəzəri planda həyata keçən dialoq praktik olaraq gerçəkləşməsi uzun müddət ləngimişdir. Bunun əsas səbəbi qədim yunanların qeyri-yunanları birmənalı olaraq "barbar" hesab edilməsi olmuşdur. Filosof və natiq İsokratın mövqeyi vəziyyəti aşkar şəkildə özündə əks etdirir. Belə ki, Afinanın makedoniyalar

tərəfindən işğalı zamanı onlarla hansı münasibətlərin qurulması məsələsində iki fikir yaranır: əgər Demosfen Afinanın müstəqilliyini dəstəkləyib, makedoniyalıları qəbul etmirdisə, İsokrat buna normal yanaşmış, bütün ellinlərin birləşməsi və "barbarlara" qarşı vahid cəbhədən çıxış edilməsinin zəruriliyini bildirmişdir. Ümumiyyətlə, "İsokratı "Şərq-Qərb" problemi sahəsində ilk nəzəriyyəçi hesab etmək olar. O, Avropa və Asiyanı öz mədəni səviyyəsinə görə iki prinsipial müxtəlif region olaraq qarşı-qarşıya qoymuş, bütün Asia xalqlarını barbar kimi mühakimə etmiş və asiyalıların ellinlərdən varlı olmasını ədalətsizlik və avropalılar üçün eyib hesab etmişdir".(2, s.11) Mövzudan kənarlaşmamaq üçün qısa şəkildə qeyd etmək olar ki, parlaq yunan mədəniyyətinin böhranının səbəblərindən biri kimi də, onun özünə qapalılığını göstərmək olar.

Orta əsrlərdə dialoq problemi daha çox mənəvi-etik məqsədlər üçün ön plana çıxarılıb. Qərb sxolastikasının parlaq nümayəndəsi P.Abelyarın "Filosof, yəhudi və xristian arasında dialoq" traktatında təkcə müxtəlif dinlər deyil, eyni zamanda mədəniyyətlər arasında dialoq probleminə də toxunulmuşdur.

Yeni dövr filosofları içərisində İ.Herderin dialoq probleminə münasibəti xüsusi maraq doğurur. Belə ki, alman filosofun fikirincə mədəniyyətlərin qorunub saxlanılması və inkişafı üçün bu mədəniyyətlərin digərləri ilə ünsiyyəti zəruridir. Çünki mədəniyyətlərin qapalılığı həmin mədəniyyətlərin məhvinə aparır. Lakin bununla belə İ.Herder mədəniyyətlərin öz orijinallığının qorunmasının, mədəniyyətlərin təməl prinsiplərinin toxunulmaz qalmasının zəruriliyini də qeyd etmişdir.

Bu gün dünyada baş verən bütün proseslər, təbii-tarixi olsa da XX əsrin ortalarından geniş vüsət almış qloballaşma proses ilə əlaqələndirilir. Qloballaşma prosesləri nəticəsində dünyanın "qlobal kəndə" çevrilməsi baş verir. Lakin bu proses heç də rəvan getmir. Qloballaşma prosesinin ayrı-ayrı millət-dövlətlərin inkişafı üçün yaratdığı imkanlarla yanaşı, onun gətirdiyi problemlər də az deyil. Təbii ki, burada söhbət təkcə siyasi-iqtisadi amillərlə məhdudlanmır. Əsas problemlərdən biri məhz mədəniyyətlə bağlıdır. Belə ki, əsrlər boyu bir-birindən kənarda yaşamış fərqli dini və mədəni identikliyə malik olan xalq və millətlər bu gün qonşu olmağa "məhkumdurlar". Məhz bu səbəbdən qloballaşma şəraitində mədəniyyətlərin qarşılıqlı təsiri və dialoqu xüsusi aktuallıq kəsb edir.

Mədəniyyətlərin dialoqu XX əsrin əsrin fəlsəfi publisistikasında geniş əksini tapmış anlayışlardandır. Çünki, məhz XX əsrdə mədəniyyət insan varlığının episentrinə doğru yerdəyişmə edir ki, bu da ictimai həyatın bütün sferalarında özünü biruzə verir. Mədəniyyətlərin dialoqu isə çoxsaylı unikal fərdlərin ünsiyyəti olub, onun əsas aparıcı qüvvəsi dərketmə yox, qarşılıqlı anlamadır. Bu anlayışa daha çox belə bir məzmun verilir: "... müxtəlif tarixi, yaxud müasir mədəniyyətlərin qarşılıqlı təsiri, bir-birinə nüfuz etməsi, yaxud kənarlaşması".(3, s.659) Yuxarıda əksini tapmış tərifi, o cümlədən müasir dövrlərdə mövzuya dair aparılmış tədqiqatlarda əksini tapmış təriflərə əsaslanmaqla mədəniyyətlərin dialoqu anlayışına belə tərif vermək mümkündür: Mədəniyyətlərin dialoqu müxtəlif mədəniyyətlər arasında yaranan qarşılıqlı təsir, münasibət və əlaqələrin məcmusu, həm də bu münasibətlərin gedişində meydana çıxan qarşılıqlı dəyişikliklər sistemidir. Bu dəyişikliklər məhz qarşılıqlı, ikitərəfli olmalıdır. Bu amil, mədəniyyətlərin dialoqunun sadə iqtisadi, siyasi və mədəni əməkdaşlıqdan prinsipial fərqini əks etdirir.

Lakin, fikirimizcə mədəniyyətlərin dialoqu anlayışına verilən bütün təriflər müəyyən mənada birtərəfliliyi ilə seçilir. Bu birtərəfliyi aradan qaldırmaq üçün onun məzmununun aşkarlanmasının, yaxud ona tərif verilməsinin fərqli yolları tapılmalıdır. Hesab edirik ki, əsas optimal üsullardan biri növ və cins fərqinin müəyyənləşdirilməsinə görə verilə bilər. Burada cins rolunu "mədəniyyətlərin qarşılıqlı təsiri" oynayırsa, növ rolunu "mədəniyyətlərin dialoqu" oynayacaq. Məhz bu məqsədlə "mədəniyyətlərin qarşılıqlı təsiri" anlayışının verilmiş bir neçə təsnifini nəzərdən keçirəcəyik.

Belə təsnifatlardan biri V.P.Branskiyə məxsusdur. O təklif etdiyi sosial ideal nəzəriyyəsi çərçivəsində zidd idealların daşıyıcısı olan mədəniyyətlərin qarşılıqlı təsirinin dörd tipini fərqləndirir:

1.Fundamentalizm prinsipi (barışmazlıq);
2.Güzəşt prinsipi;
3.Arbitraj prinsipi (bitərəflik);
4.Gönvergensiya prinsipi (sintez).(4, s.161)

Digər bir təsnifat isə amerikalı tədqiqatçı F.Boka məxsusdur. Tədqiqatçı mədəniyyətlərin qarşılıqlı təsirinin optimallaşdırılmasının beş modelini fərqləndirir:

1.Gettolaşdırma (özünəməxsus qapalı mədəni mühitin yaradılması və dəstəklənməsi vasitəsilə özgə mədəniyyətlə bütün təmaslardan imtina);
2.Assimilyasiya (öz mədəniyyətin imtina və özgə mədəniyyətinin həyat üçün zəruri olan bütün dəyərlərinin mənimsəməyə cəhd);
3.Mədəni mübadilə və qarşılıqlı təsir (hər iki tərəfin xoşməramlığı və açıqlığını ehtiva edən aralıq üsul);
4.Qismən assimilyasiya (ictimai həyatın yalnız bir sferasında özgə mədəniyyətə güzəşt etmə, digər sferalarda isə öz ənənəvi mədəniyyətinin əsas dəyərlərinə sadiq qalma);
5.Müstəmləkəçilik (özünə məxsus dəyər, norma və davranış modellərinin özgə mədəniyyətə fəal şəkildə qəbul etdirilməsi). (5, s.17-19)

F.Bokun təsnifatı atropoloji yönümlü və daha çox detallara diqqət yetirməsi səbəbindən əvvəlki təsnifatla müqayisədə daha az mücərrəddir. Bu təsnifatda həmçinin qarşılıqlı təsirlərin məzmunu da nisbətən aşkar şəkildə təqdim edilir. Lakin, fikrimizcə burada əsas diqqət qarşılıqlı təsirlərin sosial məzmununa yönəldilir. Həmçinin təsnifat zamanı bölgü əsasının qarışdırılması müşahidə edilir. Belə ki, əgər burada məzmunca kifayət qədər yaxın olan assimilyasiya və müstəmləkəçilik bir-birindən fərqləndiyi halda, konvergensiya prinsipi ümumiyyətlə nəzərə alınmır.

Müasir tədqiqatlarda mədəniyyətlərin qarşılıqlı təsirlərinin digər təsnifatlarına da rast gəlmək mümkündür. Belə ki, qərbdə aparılan tədqiqatları ümumiləşdirən N.K.İkonnikovaya təsnifatın daha mürəkkəb variantını təklif etmişdir. Bu təsnifat mədəniyyətlərin qarşılıqlı qavranılmasının mütərəqqi inkişafının xətti sxeminə əsaslanır:

1.Mədəniyyətlər arasındakı fərqlərin inkarı;
2.Özünün mədəni üstünlüyünün müdafiəsi;
3.Fərqlərin azldılması;
4.Mədəniyyətlərarası fərqlərin mövcudluğunun qəbulu;
5.Özgə mədəniyyətə adaptasiya;
6.Həm özünün, həm də özgənin mədəniyyətinə inteqrasiya.(6, s.31)

Bu təsnifatın əsas üstünlüyü mədəniyyətlərin qarşılıqlı təsirinin sosial-psixoloji məzmununun aşkarlamasında və qarşılıqlı qavrama qaydalarının ikisəviyyəliliyinin fərqləndirilməsindədir. Zəif tərəfi isə, F.Bokda olduğu kimi qarşılıqlı təsirin sosial və mədəni vəziyyətə sadələşdirilmiş yanaşmadır: burada özgə mədəni mühitdə fərd, yaxud kiçik qruplar ön plana çəkilir, eyni zamanda mədəniyyətin özünə "mexaniki" yanaşma müşahidə edilir.

Yuxarıda deyilənləri ümumiləşdirərək mədəniyyətlərin qarşılıqlı təsirlərinin aşağıdakı təsnifatını vermək və onda mədəniyyətlərin dialoqunu müəyyən etmək olar:

1.İnteqrasiya (sintez). Bu tip özündə üç əsas variantı ehtiva edir: a) konvergensiya –mədəni sistemlərin keyfiyyətcə yeni mədəni sistemdə tədrici qovuşması; b)inkorparasiya –bir mədəniyyət sisteminin "sub-



mədəniyyət" qismində digərinə qoşulması; c)bir mədəni sistemin digəri işərisində tamamilə "əridilməsi".

2.Qarşılıqlı təcridçilik. Qarşılıqlı təsirdə olan mədəniyyətlərin hər biri digər mədəniyyətə münasibətdə "getto" mövqeyi seçir;

3.Permanent münaqişə. Periferiya məkanları uğrunda "legitimləşmə müharibəsini" bildirir. Bir mədəniyyət üçün səciyyəvi olan sosial gerçəkliyin interpretasiyası zamanı digər mədəniyyətlərin malik olduğu dəyərlərin həqiqətlə uyğunluğu olmadığı nəzərdə tutularaq inkar edilməsi;

4.Bir-birini qarşılıqlı tamamlama. Qarşılıqlı təsirdə olan mədəniyyətlərin hər birinin nüvəsini təşkil edən strukturlar öz orijinallığını və avtonomluğunu qoruyaraq müəyyən ixtisaslaşmaya məruz qalır və özünəməxsus "simbioz" əmələ gətirirlər.

5.İnkişafda parallelizm. Bu tip müxtəlif mədəniyyətlərin "həyat dünyalarının" heç bir ortaq dəyərə malik olmadıqlarını ehtiva edir. Məhz bu səbəbdən də, həmən mədəniyyətlərin koqnitiv sistemi müstəqil inkişaf edir. Deməli, bu tipi heç də sözün əsl mənasında qarşılıqlı təsir forması hesab etmək olmur.

6.Fəal mübadilə –dialoq.

Deməli, mədəniyyətlərin qarşılıqlı təsirinin yuxarıda əksini tapmış təsnifatına əsaslanıb deyə bilərik ki, mədəniyyətlərin heç də hər qarşılıqlı təsiri yox, yalnız hər iki tərəfin fəal mübadiəsi dialoq amilini şərtləndirə bilər.

Mədəniyyətlərin qarşılıqlı təsiri, həmçinin dialoqu müxtəlif səviyyələrdə gerçəkləşə bilər. Tədqiatçılar üç əsas səviyyəni göstərirlər:

1.Etnik səviyyə: lokal etnoslar, tarixi-etnoqrafik, etnokonfessional sosial birliklər arasında;

2.Millətlərarası səviyyə: bu səviyyədə müxtəlif dövlət-siyasi struktur və siyasi elitaların dialoquna əsaslanır.

3.Sivilizasiya səviyyəsi: bu səviyyə prinsipial müxtəlif sosiallıq tiplərinə, dəyərlər sistemi və mədəniyyət yaradıcılığı formalarının görüşünə əsaslanır. Mədəniyyətlərin dialoqu bu səviyyədə mədəni-innovasion fəaliyyət nöqteyi-nəzərincə daha məhsuldar hesab edilir. Məhz Şərq və Qərb mədəniyyətlərinin, Avropa və Afrikanın incəsənət yollarının antik və ərəb dünyası ənənəılərinin kəsişməsi tarixdə radikal dönüş ocaqları olmuşdur. (7, s.405-406)

Buradan aydın olur ki, mədəniyətlərin dialoqunda sivilizasion özünüdərk və sivilizasion dəyərlər xüsusi rola malikdirlər. Etnik, yaxud milli mədəni dəyərlərdən fərqli olaraq sivilizasion dəyərlər daim universallığa, insan varlığının fundamental ziddiyyətlərinin həllinə, bəşəriyyəti birləşdirmək qabiliyyətinə və dünyəvi mədəniyyətin əsası olmağa iddia edir. Ona görə də, sivilizasiyaların dialoqu həmişə dünyagörüşlərinin fundamental əsasları, ətrafında mürəkkəb sosiomədəni sistemlərin birləşdiyi ilkin simvollar, sakral dəyərlər haqqında dialoqdur.

Hal-hazırda sivilizasiyalar arasında münasibətlər ön plana çıxır. Belə ki, millət-dövlətlərin sərhədləri daha da şəffaflaşır, dövlətlərüstü (dövlətlər birliyi) qurumların rolu artır. Düzdür, millət-dövlətlər dünya arenasının əsas aktorları olaraq qalır, lakin onların siyasətini daha çox sivilizasion xüsusiyyətlər diktə edir. Məhz bu səbəbdən bəzi tədqiqatçılar, xüsusən amerikalı politoloq S.Hantinqton qeyd edirlər ki, bu gün dünyada mövcud olan bütün münaqişələr sivilizasion mahiyyət daşıyır. Təbii ki, bu fikrlə tam razılaşmaq olmur, lakin onda həqiqət yükü də az deyil. Belə ki, bu gün dünyada baş verən münaqişələrin, hərbi qarşıdurmaların iştirakçılar siyahısına baxsaq, bu münaqişələrin heç də məhz iki dövlət arasında qarşıdurma olmadığını görərik.

Sivilizasiyalar arası münaqişələr sivilizasion fərqlilikdən (tarix, dil, din, ənənə vəs.) irəli gəlir. Sivilizasiyaları qarşılıqlı təsiri (dialoqu yox) sivilizasion özünüdərkin, öz dəyərlərinin qorunub saxlanılmasına cəhdlər artır. Bu da öz növbəsində onlar arasında münasibətlərdə münaqişəliliyin artmasına gətirir.

Lakin o da qeyd olunmalıdır ki, hər bir sivilizasiyanın nüvəsini təşkil edən özünəməxsus dəyərlərlə yanaşı, bütün sivilizasiyalara məxsus ümumibəşəri dəyərlər də az deyil. Bu, dialoq qurulması üçün kifayət qədər mühüm amildir. Buradan çıxış etməklə, bəşəriyyətin gələcəyi naminə dialoq mədəniyyətinin formalaşdırılması hər bir millət-dövlətin əsas vəzifəsi olmalı, yaranmış münaqişələri vaxtında və sülh yolu ilə həllinə nail olmaq üçün bütün mümkün vasitələrdən istifadə edilməlidir.

## ƏDƏBİYYAT


1. *Кармин А. Философия культуры в информационном обществе: проблемы и перспективы./ Вопросы философии, 2006, №2, ст.52-60*
2. *Чанышев А.Н. Курс лекций по древней и средневековой философии. М.: Высш. шк., 1991, 512 с.*
3. *Новая философская энциклопедия: в.4 т. Т.1. М.: Мысль, 2010, 744 с.*
4. *Бранский В.П. Теоретические основания социальной синергетики // Петербургская социология.– 1997.– № 1., ст.158-167.*
5. *Ионин Л.Г. Социология культуры.– М.: Логос, 2004, 427 с.*
6. *Иконникова Н.К. Механизмы межкультурного восприятия // Социологические исследования.– 1995.– № 11., ст. 26-34*
7. *Философия: учеб. пособ. Минск: Выш. школа, 2012, 474 с.*


***Açar sözlər:*** *mədəniyyət, dialoq, sivilizasiya, qloballaşma.*
***Key words:*** *culture, dialogue, civilization, globalization.*
***Ключевые слова:*** *культура, диалог, цивилизация, глобализация.*

**д.ф.п.ф Эльшан Байрамзаде**

**Диалог культур: теоретико-философский анализ**

**РЕЗЮМЕ**

В статье прояснено содержание понятия диалога культур. Он определен как особый случай понятия взаимодействие культур, которые имеют более широкое содержание. Предлагается новая классификация взаимодействия культур. Показаны различные уровни диалога культур, обосновывается значимость цивилизационной уровня.

**Phd. Elshen Bayramzadeh**

**Dialogue of cultures: theoretical and philosophical analysis**

**SUMMARY**

The content of the concept of dialogue of cultures is clarified in the article. It is defined as a special case of the concept of interaction of cultures, which have a broader content. A new classification of interaction of cultures is proposed. Various levels of the dialogue of cultures are shown, the significance of the civilization level is justified.

# Din və cəmiyyət

## AZƏRBAYCANDA "İSLAM HƏMRƏYLİYİ İLİ"NİN MÜHÜM NƏTİCƏLƏRİ

İLKİN ƏLİMURADOV
Fəlsəfə üzrə fəlsəfə doktoru



Qədim tarixə malik Azərbaycanın ərazisində yaşayan əhali müxtəlif dövrlərdə fərqli dinlərə etiqad bəsləmişlər. İslam dininin təşəkkül tapdığı VII əsrdən bu günə qədər isə Azərbaycan xalqı müsəlman xalqların cərgəsində durur.

İslam dini Ərəbistan Yarımadasının hüdudlarından kənara çıxaraq çoxsaylı millətlərin ümumi dininə çevrilmişdir. Azərbaycanın böyük alim və mütəfəkkirləri öz qiymətli əsərləri ilə daim Şərq xalqlarının elm və mədəniyyətini zənginləşdirmiş, həmin xəzinəyə qiymətli töhfələr vermişlər. Azərbaycanlı mütəfəkkir, alim, şair və ədiblərdən Bəhmənyar, Xətib Təbrizi, Şəhabəddin Sührəvərdi, Nizami Gəncəvi, Nəsirəddin Tusi, Mahmud Şəbüstəri, Məhəmməd ibn Hinduşah Naxçıvani, Seyid Yəhya Bakuvi, Həsən bəy Rumlu, Hacı Zeynalabdin Şirvani və yüzlərlə digərləri qiymətli əsərləri ilə ecazkar islam mədəniyyətinə bənzərsiz incilər bəxş etmişlər. İslam mədəniyyətinin, xüsusilə hədisşünaslığın məşhur nümayəndələri arasında ərəb dilində altı əsərin müəllifi, hədisşünas alim, öz dəst-xətti, elmi üslubu və metodu ilə hədis tarixinin "Qızıl dövrü" adlandırılan hicri III (miladi IX) əsrə yenilik gətirməyə nail olmuş Əhməd bin Harun əl-Bərdici (Bərdəli) [3] kimi azərbaycanlı alimin olması və uzun illər keçməsinə baxmayaraq, İslam üləması və tədqiqatçıları tərəfindən hörmətlə anılması, təqdir edilməsi Azərbaycanın İslam aləminin elm və mədəniyyətinə verdiyi töhfələrin bariz nümunələrindən biridir.

Qədim tarixə malik Azərbaycan əsrlər boyu öz milli-mənəvi dəyərlərini qoruyaraq yaşatmışdır. İslam dəyərləri Azərbaycanın milli-mənəvi dəyərlərinin tərkib hissəsidir. Əhalisinin 96 %-ni müsəlmanlar təşkil edən Azərbaycan İslam həmrəyliyi işinə böyük önəm verir. Bu məsələ ölkə rəhbərliyinin qarşısında duran prioritet məsələlərdən biridir. Ölkədə dini sahədə hökm sürən əmin-amanlıq, qarşılıqlı anlaşma, müsəlmanlar arasında mövcud olan birlik, dinlərarası münasibətlərin yüksək səviyyədə tənzimlənməsi bu gün Azərbaycanı gücləndirən amillərdən biridir.

Azərbaycan 1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra milli, dini ənənələrinə diqqət və qayğını artırdı. Şübhəsiz, bu, dövlətin həm daxili, həm də xarici siyasətində aydın şəkildə müşahidə olunmaqda davam edir. Bununla əlaqədar olaraq, Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyev Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, İslam həmrəyliyinin bərqərar olmasında Azərbaycanın özünəməxsus mövqeyinin möhkəmləndirilməsini təmin etmək məqsədi ilə 10 yanvar 2017-ci il tarixli qərarı ilə 2017-ci ili "İslam Həmrəyliyi İli" elan etdi. Ölkə rəhbərinin bu qərarı Azərbaycanın uzun əsrlərdən bəri İslam sivilizasiyasının əsas mərkəzlərindən biri olması, İslam dininin yayılmasında və eyni zamanda Müsəlman İntibahının bərqərar olmasında mühüm rol oynaması, eləcə də Azərbaycan ərazisinin ilk vaxtlardan İslam dininin maddi və qeyri-maddi irsinin formalaşmasına zəmin yaratması ilə sıx bağlıdır.

Tariximiz, dəyərlərimiz, milli kimliyimiz ilə sıx bağlı olan İslam dini daim Azərbaycan dövlətinin diqqət mərkəzində olmuş və İslam dininin dəyərləri dövlət qayğısı ilə əhatə olunmuşdur. Dinlə bağlı sərt qadağaların mövcud olduğu sovet dövründə Azərbaycanda cəmi 17 məscid fəaliyyət göstərdiyi halda, hazırda onların sayı 2000-i ötüb keçmişdir. Həmin məscidlərin 300-dən çoxu tarixi-mədəni abidə kimi

qorunur. Bibiheybət, Təzəpir, Əjdərbəy, Şamaxı Cümə məscidləri və Gəncə şəhərindəki "İmamzadə" kompleksi dövlət tərəfindən əsaslı şəkildə yenidən qurularaq təmir olunmuş, ölkəmizin paytaxtında Cənubi Qafqazın ən möhtəşəm məbədi Heydər məscidi inşa edilmişdir.[14]

Bütün bunlar bir daha təsdiq edir ki, Azərbaycan İslam mədəniyyətinə aid zəngin maddi və mədəni irsə malik müsəlman ölkəsidir. O, tarixən olduğu kimi, bu gün də İslama öz töhfəsini verir və bu ali dinin sülhsevər missiyasını yaşadır.

Buna görə də təsadüfi deyildir ki, XX əsrin əvvəllərində müstəqilliyini elan edən Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurasının təsdiq etdiyi və təxminən 70 illik əsarətdən sonra müstəqilliyini bərpa etmiş müasir Azərbaycanın rəsmi simvollarından biri olan üçrəngli dövlət bayrağında göy rəng türkçülüyü, qırmızı rəng müasir azadlıq ideologiyasını, yaşıl rəng isə məhz islamçılığı tərənnüm edir. [2]

XX əsrin sonlarında qan bahasına bərpa edilən müstəqilliyin ilk illəri çətin müharibə şəraitində keçdi. Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətinin genişlənməsi nəticəsində Azərbaycan ərazisi sürətlə işğal olunur, şəhidlərin sayı getdikcə artır, sağ qalan əhali isə qaçqın və məcburi köçkün həyatı yaşamağa məcbur olurdu.

1993-cü ildə dünyada tanınmış siyasətçi Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə Azərbaycan yeni və müasir inkişaf mərhələsinə qədəm qoydu. Nəticədə, xalqın böyük oğlu Heydər Əliyev müasir Azərbaycanın banisi və ümummilli lider kimi yaddaşlarımıza həkk olundu. Heydər Əliyev Respublikanın maddi imkanlarından, o cümlədən mənəvi dəyərlərindən ölkənin mənafeyi üçün məharətlə istifadə edir, Azərbaycanın nüfuzunun artması, onun beynəlxalq səviyyədə daha yaxşı tanınması üçün səylə çalışırdı. Heydər Əliyevin həyata keçirdiyi səmərəli və uzaqgörən siyasət nəticəsində Azərbaycan enerji ehtiyatlarının ticarəti sahəsində dünyanın qabaqcıl şirkətləri ilə əməkdaşlıq etməyə başlayır. Bununla da, Odlar Diyarı Azərbaycanın enerji məhsulları dünya bazarına çıxarılır və ölkə yüksək məbləğdə gəlir əldə edir.

Bu gün dünyanın 67 ölkəsində silahlı münaqişələr və müharibələr davam edir. Münaqişələrdə 750-dən çox qrup və dövlət iştirak edir. Təəssüflə qeyd edilməlidir ki, bu münaqişələrin əksəriyyəti ya müsəlman dövlətlərində baş verir, yaxud da müsəlmanlar həmin münaqişələrdə bu və ya digər şəkildə iştirak edirlər. Bir fakt da qeyd edilməlidir ki, müsəlmanların iştirak etdiyi əksər münaqişələrin kökündə məzhəb fərqliliyi dayanır. Aparılan tədqiqatlar göstərir ki, müsəlman ölkələrində hökm sürən radikal məzhəbçilik onları bölən əsas məqamlardan birincisidir. Bəzi ölkələrdə İslamın bir məzhəbinin nümayəndələrinin 50 faizdən çoxu digər İslam məzhəbinin nümayəndələrini müsəlman hesab etmir. Yəni Quran və İslam dəyərlərinin Afrikada, Yaxın Şərqdə və Cənub-şərqi Asiyada müxtəlif şəkildə və fərqli interpretasiyası aparılır. Nəticə etibarı ilə İslam dəyərləri Yaxın Şərqdə ərəb dövlətləri və İran arasında, Yaxın Şərqlə Türkiyə arasında, eləcə də müsəlman Pakistanı və müsəlman Hindistanı arasında özünü fərqli göstərir. Keçirilən sorğuların nəticəsi göstərir ki, 39 müsəlman ölkəsindən 32-də insanların böyük əksəriyyəti İslamda bir doğru yolun olduğu, digər alternativ izahların isə məqbul hesab edilmədiyi qənaətindədir. [4]

Belə olduqda İslam həmrəyliyinin gücləndirilməsi həm dünyada layiqli yer tutmaq, eləcə də insanlara əlverişli həyat bəxş etmək baxımından çox vacibdir.

Nəzərə almaq lazımdır ki, Azərbaycan müxtəlif azsaylı xalqlarla yanaşı müxtəlif din və eyni din daxilində müxtəlif məzhəb, təriqət və əqidə nümayəndələrinin yaşadığı bir ölkədir. Buna baxmayaraq, tarix boyu dini zəmində ciddi problemlərlə qarşılaşmamağımız yenə də xalqımızın müdrikliyi, sülhsevərliyi, insanpərvərliyi və uzaqgörən dövlət rəhbərlərinə sahib olmasından irəli gəlir.

İslam mədəniyyəti Azərbaycanın milli mədəniyyətinin ayrılmaz hissəsidir. Azərbaycanın coğrafi mövqeyi İslam mədəniyyətinin inkişafında və təbliğində mühüm yer tutur. Qafqazda İslam məhz Azərbaycan vasitəsilə yayılmışdır. Buna görə də təsadüfi deyildir ki, Qafqazın ən qədim iki məscidindən biri Azərbaycanın Şamaxı rayonunda yerləşən Cümə məscididir. Müxtəlif təbii fəlakətlərə, erməni vəhşiliklərinə məruz qalmış bu məscid xalqımız tərəfindən qorunub saxlanılmış və müasir Azərbaycan hökuməti tərəfindən əsaslı təmir edilərək müsəlmanların istifadəsinə verilmişdir. Orta əsrlərin memarlıq üslubunu özündə əks etdirən bu qədim məscid Azərbaycanda İslam həmrəyliyi prinsipinin kökünün İslamın özü qədər qədim olduğuna dəlalət edən orijinal nişanələri ehtiva edir. Belə ki, Cümə məscidində tarix boyu eyni günbəz altında İslamın fərqli məzhəb və əqidə sahibləri qarşılıqlı hörmət və anlaşma şəraitində Allaha ibadət etmişlər. Şamaxı Cümə məscidi, bəlkə də, dünyada nadir ibadət ocaqlarından biridir ki, məscidlərin qiblə tərəfdəki divarında yerləşən və namaz qılanların üzlərini çevirdikləri oyuq yer (mehrab) bir deyil, üç dənədir. Bu, tarix boyu ölkəmizdə fərqli məzhəb və təriqətlərin bir-birinə yaxın, əmin-amanlıq şəraitində ibadət etməsinin bariz nümunəsidir.

Azərbaycanın çoxəsirlik mədəniyyətinin təməlində İslam faktoru aparıcı yer tutur. Bununla da, müstəqil dövlətimizin müsəlman aləminə diqqətinin artması çox təbiidir. Bunu Prezident İlham Əliyevin müsəlman dövlətlərinə ardıcıl səfərləri, İslam Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlər Şurası, İqtisadi Əməkdaşlıq Təşkilatı və digər bu kimi universal və regional beynəlxalq təşkilatlarda Azərbaycanın fəal iştirakı da təsdiqləyir. Etiraf olunmalıdır ki, bir çox hallarda məhz Azərbaycanın təklifləri bu təşkilatlar çərçivəsində əməkdaşlığın yeni formalarının müəyyən edilməsində başlıca rol oynayır.[1]

Azərbaycanda tətbiq olunan dövlət-din modelinin ən böyük uğuru ondan ibarətdir ki, dünyada dinlərarası və məzhəblərarası qarşıdurmaların baş verdiyi müasir dövrdə Azərbaycanda bu sahədə hansısa gərginlik yaşanmır. Bir faktı söyləmək kifayətdir. Belə ki, əsrlərdən bəri İslam dünyasının iki böyük – şiə və sünni məzhəblərinin nümayəndələri ibadətlərini fərqli şəkildə və fərqli məkanda həyata keçirirlər. Tarixdə bir neçə dəfə onların birliyinə, həmrəyliyinə təşəbbüslər göstərilsə də, indiyədək bu təşəbbüslər davamlı xarakter almayıb. İslam aləmində məzhəb məsələsinin ön plana çıxdığı bir dövrdə 2016-cı ilin yanvar ayının 15-də Bakıdakı Heydər məscidində məzhəbindən asılı olmayaraq, ölkə müsəlmanları ilk dəfə bir araya gələrək eyni vaxtda, bir yerdə, bir sırada vəhdət namazı qıldılar və bu, ənənəyə çevrilərək digər məscidlərdə də tətbiq olunmağa başladı.[5]

Harmoniya və həmrəylik əldə etmiş müsəlmanlar ayrı-seçkiliyə məruz qalmadıqca başqa dinlərə də yalnız barış və hörmət nümayiş etdirəcəklər. Bu baxımdan 2017-ci ilin Azərbaycanda "İslam Həmrəyliyi İli" elan edilməsi ölkəmizi bu prosesin avanqardına çevirir. "İslam Həmrəyliyi İli" yalnız din sahəsində deyil, eyni zamanda müsəlman ölkələrinin həm sosial-iqtisadi, həm siyasi, həm də mədəniyyət sahəsində bir-birinə dəstək olması, həmrəylik nümayiş etdirməsidir və onların arasında nifaq salmaq istəyənlərə tutarlı cavabdır.[4]

Dövlət başçısı bu addımı ilə islam aləmini müxtəlif aktual məsələlərə dair həmrəyliyə, qarşılıqlı anlaşmaya nail olmağa və vahid mövqedən çıxış etməyə çağırdı. Bu təşəbbüs Azərbaycanın müsəlman ölkələri ilə dünyanın digər ölkələri arasında əlaqələri və əməkdaşlığı möhkəmlətmək istəyini əks etdirirdi. Bu, həm də ölkəmizin gücünü, onun müsəlman dünyasında oynadığı rolu göstərirdi. Prezident İlham Əliyev hər zaman vurğulayır ki, bu gün islam dünyasının birliyə və həmrəyliyə daha çox ehtiyacı var. Ona görə də 2017-ci ilin ölkəmizdə "İslam Həmrəyliyi İli" elan olunması İslamın həm də sülh və mədəniyyət dini olduğunu bütün dünyaya göstərmək məqsədi daşıyırdı.[13]

2017-ci ilin sonunda Bakıda Qafqaz Müsəlmanları İdarəsi və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən, 40-a yaxın ölkədən tanınmış dövlət, din və elm xadimlərinin, 8 beynəlxalq

təşkilatın rəhbərlərinin və təmsilçilərinin, müxtəlif ölkələrin dövlət başçılarının xüsusi nümayəndələrinin, dini konfessiya rəhbərlərinin, hökumət, ictimaiyyət və parlament üzvlərinin, diplomatik korpusun nümayəndələrinin iştirak etdiyi "İslam Həmrəyliyi İli-2017: Dinlər və mədəniyyətlərarası dialoq" mövzusunda konfrans təşkil olundu. Konfransda iştirak edən müsəlman və qeyri-müsəlman məruzəçilərin birmənalı şəkildə Azərbaycanın İslam həmrəyliyi istiqamətindəki səylərini yüksək qiymətləndirdilər. Belə ki, İran Prezident Aparatının rəhbəri Mahmud Vaezi İran prezidenti Həsən Ruhaninin konfrans iştirakçılarına müraciətini səsləndirdi. Müraciətdə 2017-ci ildə Azərbaycanın islam həmrəyliyi istiqamətində gördüyü böyük işlər vurğulandı, Bakıda baş tutan 4-cü islam həmrəyliyi oyunlarının əhəmiyyəti qeyd edildi.

Türkiyə Dəyanət İşləri rəhbəri, Türkiyə prezidentinin xüsusi nümayəndəsi Əli Erbaş isə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın müraciətini tədbir iştirakçılarına çatdırdı. Müraciətdə konfransın işinin müsbət nəticələr verəcəyinə əminlik bildirildi, dünyada münaqişələrin, zorakılığın artdığı bir dövrə təsadüf edən bu konfransın əhəmiyyəti qeyd edildi, 2017-ci ili islam həmrəyliyi ili elan etdiyinə görə Prezident İlham Əliyevə minnətdarlıq ifadə olundu.

Özbəkistanın dövlət müşaviri və prezidentin xüsusi nümayəndəsi Rüstəm Kamilov Prezident Şavkat Mirziyoyevin müraciətini səsləndirdi. Müraciətdə Azərbaycanın irəli sürdüyü bu təşəbbüs dəstəkləndi və bu konfransda təmsil olunmağın Özbəkistan üçün böyük şərəf olduğu vurğulandı.

Vatikanın xüsusi nümayəndəsi Xaled Akaşeh çatdırdığı Papa Fransiskin müraciətində isə dinlərarası dialoqun önəmi vurğulandı, ədaləti təşviq etmək üçün sülhün əhəmiyyəti qeyd edildi.

Fransa Mitropoliti və Eküminik patriarxlığın ekzarxı Emmanuel Adamkis səsləndirdiyi Konstantinopol Patriarxı birinci Varfolomeyin müraciətində bu mühüm təşəbbüsə verdiyi dəstəyə görə Azərbasycan Prezidenti İlham Əliyevə xüsusi minnətdarlıq bildirildi, konfransın sülhün təşviqinə töhfə olduğu vurğulandı.

Moskva və bütün Rusiya patriarxı Kirilin müraciətini Novqorod və Starorusun mitropoliti, patriarx Kirilin xüsusi nümayəndəsi Lev oxudu. Müraciətdə son illərdə Azərbaycanın Qafqazda dinlər və mədəniyyətlərarası dialoqun mərkəzi kimi özünü təsdiq etdiyi qeyd edildi, bu sahədə Azərbaycan dövlətinin xidmətləri vurğulandı.

Bütün Gürcüstanın katalikos-Patriarxı ikinci İlyanın müraciətini Axaltsiki və Tao-Klarcet Mitropoloti, Katalikos-Patriarx 2-ci İlyanın Vikarisi və xüsusi nümaynədəsi Teodor oxudu. Müraciətdə bildirildi ki, bu görüş dünyada sülh və sabitliyi təmin edən tədbirlərdən biridir.

Konfransda çıxış edən İSESKO-nun baş direktoru Əbdüləziz Osman əl- Tüveycri bu tədbirin təşkilinə görə Azərbaycan Prezidentinə təşəkkürünü bildirdi, islam aləmindəki həmrəliyin gücləndirilməsində Azərbaycanın dövlət başçısının səylərini vurğuladı. İSESKO-nun baş direktoru Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə həll olunmasının vacibliyini bildrdi.[13]

Milli-mənəvi dəyərlərin qorunmasından və bu məsələyə dövlət qayğısından danışarkən "İslam Həmrəyliyi İli"ndə ölkə başçısı cənab İlham Əliyevin "Mənəvi Dəyərlərin Təbliği Fondu" nun yaradılması haqqında 10 oktyabr 2017-ci il tarixli fərmanını qeyd etmək vacibdir.[10]

Xalqımızın zəngin milli-mənəvi dəyərlərinə böyük həssaslıqla yanaşan Azərbaycan Respublikasının Birinci Vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın bu dəyərlərimizin qorunması istiqamətindəki fəaliyyəti xüsusi vurğulanmalıdır. Mehriban xanım Əliyeva hər zaman Azərbaycan həqiqətlərini beynəlxalq tədbirlərdə ən yüksək tribunalardan xarici ölkə nümayəndələrinin diqqətinə çatdırıb. Onun rəhbərliyi ilə fondun "Tolerantlığın ünvanı – Azərbaycan" layihəsi çərçivəsində Mərdəkan qəsəbəsindəki XVI əsrə aid "Pir Həsən" ziyarətgahında, Binə qəsəbəsindəki "Möhsün Səlim" və "İmam Rza", Gəncədəki "Həzrəti Zeynəb", Buzovna qəsəbəsindəki "Cümə" və s. məscidlərdə əsaslı təmir və bərpa işləri aparılıb, o cümlədən yeni məscidlər istifadəyə verilib.[5]

BAKU 2017
4th Islamic Solidarity Games

2013-cü il iyulun 24-də Səudiyyə Ərəbistanının Ciddə şəhərində İslam Həmrəyliyi İdman Federasiyasının VIII Baş Assambleyasında səsvermə zamanı Azərbaycanın 2017-ci ildə IV İslam Həmrəylik Oyunlarına ev sahibliyi etməsi haqqında qərar qəbul edilmişdir. Səsvermədə 57 üzv ölkənin nümayəndələri iştirak etmişdir. Qərar yekdilliklə qəbul edilmişdir.[11]

Hələ qədim zamanlarda olimpiya idman oyunları keçiriləndə müharibələr, qarşıdurmalar dayandırılırdı, insanlar bir araya gəlib idman yarışları keçirirdilər. Bu baxımdan ümidvarıq ki, İslam Həmrəyliyi ilində Azərbaycanda keçirilən IV İslam Həmrəyliyi Oyunları bir daha insanları birliyə, barışa, əməkdaşlığa dəvət etmək baxımından mühüm əhəmiyyət kəsb etmişdir.

Bu mötəbər yarışa ciddi hazırlaşmış Azərbaycan öz işini yüksək səviyyədə tamamlayaraq dünya, xüsusilə də İslam ölkələrinin rəğbətini qazandı.

İslam Həmrəyliyi idman oyunları idman ilə yanaşı başqa ali məqsədlərə də xidmət edirdi. Ölkə başçısının sözləri ilə desək: "Kimsə düşünürsə ki, bu yalnız idman tədbiridir, səhv edir, bunun böyük ictimai-siyasi əhəmiyyəti var".[1]

"İslam Həmrəyliyi İli"ndə yadda qalan mühüm hadisələrdən biri də 13 dekabr 2017-ci il tarixində İstanbulda İslam Əməkdaşlıq Təşkilatının (İƏT) fövqəladə Zirvə toplantısı oldu. Toplantıda iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Prezident Ərdoğanın təşəbbüsü ilə keçirilən bu Zirvə görüşünün Türkiyənin İslam həmrəyliyi işinə verdiyi töhfənin növbəti təzahürü kimi qiymətləndirdi.[12] Azərbaycanın ardıcıl olaraq Fələstin-İsrail münaqişəsinin sülh yolu ilə, Şərqi Qüdsün Fələstin Dövlətinin paytaxtı olmaqla iki dövlət prinsipi əsasında həllini dəstəklədiyini bildirən cənab İlham Əliyev qeyd etdi ki, "Bir neçə il bundan əvvəl Azərbaycan Fələstin Dövlətinə yardım məqsədilə İslam Maliyyə Təhlükəsizlik Şəbəkəsinin təsis konfransına və Qüds şəhərinin inkişafına dəstək məqsədilə donor konfransına ev sahibliyi etmişdir. 2017-ci ilin iyul ayında Azərbaycanda BMT-nin Fələstin xalqının ayrılmaz hüquqlarının həyata keçirilməsinə dair komitəsinin, BMT-nin humanitar məsələlər üzrə əlaqələndirmə ofisinin, İƏT və müxtəlif qeyri-hökumət və vətəndaş cəmiyyəti təşkilatlarının iştirakı ilə Qüds məsələsinə dair beynəlxalq konfrans keçirilmişdir. Konfransda Şərqi Qüdsün işğalı və Əl-Aqsa məscidində ibadət edənlərə qarşı tətbiq olunan məhdudiyyətləri qınayan bəyanat qəbul edilmişdir. Biz hər zaman olduğu kimi, bu gün də Fələstin xalqının yanındayıq".[12]

Öz çıxışında diqqəti Azərbaycanın ən böyük probleminə çəkən cənab İlham Əliyev iyirmi ildən artıqdır ki, Ermənistanın Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsi və ətraf 7 rayonu daxil olmaqla, 20 faiz torpağını işğal altında saxlamasını növbəti dəfə diqqətə çatdırdı.

O, bildirdi ki, Ermənistanın təcavüzü nəticəsində 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. İşğal olunmuş ərazilər tamamilə etnik təmizləməyə məruz qalmış və talan edilmişdir. Ermənistan məscidlər və İslam abidələri daxil olmaqla, bütün mədəni abidələri məhv etmişdir.[12]

İslam həmrəyliyi işinə böyük önəm verən, eyni zamanda bu istiqamətdə səylərini əsirgəməyən Azərbaycan bütün müsəlman ölkələrinin bu məsələyə ciddi yanaşmalarını vacib hesab edir. Azərbaycanın 20% ərazisini işğal etmiş Ermənistanla müsəlman ölkələrinin dostluq əlaqələri qurması qəbuledilməzdir. Ölkə Prezidenti cənab İlham Əliyevin sözləri ilə desək: “Ermənistan müxtəlif müsəlman ölkələri ilə dostluq münasibətləri qurmaq istəyir. Bu ən böyük riyakarlıqdır. Dünya müsəlmanları bilməlidirlər ki, müqəddəs məscidlərimizi dağıdan Ermənistan müsəlman ölkələrinin dostu ola bilməz”.[12]

İslam dininin sülh, əmin-amanlıq, insanpərvərlik və həmrəylik dini olması mədəniyyətlərarası və dinlərarası münasibətlərin hazırkı dövründə xüsusi aktuallıq kəsb edir. Azərbaycan Respublikası Prezidentinin “2017-ci ilin Azərbaycan Respublikasında “İslam Həmrəyliyi İli” elan edilməsi haqqında” 2017-ci il 10 yanvar tarixli Sərəncamının icrası ilə əlaqədar 2017-ci ildə Azərbaycanda və onun hüdudlarından kənarda silsilə tədbirlər təşkil edilib, o cümlədən Bakı şəhərində “2017 – İslam Həmrəyliyi İli: Dinlər və mədəniyyətlərarası dialoq” mövzusunda mötəbər beynəlxalq konfrans keçirilmişdir. İslam həmrəyliyinin möhkəmləndirilməsinə böyük töhfə verən həmin tədbirlər müsəlman aləmində özünəməxsus mövqeyə və nüfuza malik Azərbaycanın dini-mənəvi dəyərlərə dərin ehtiramının ifadəsinə çevrilib, həmçinin ölkəmizin tolerantlıq mühitinin və multikulturalizm təcrübəsinin təbliği baxımından böyük əhəmiyyət kəsb edib. Buna görə də “İslam Həmrəyliyi İli”nin davamı kimi 2018-ci ildə əlavə tədbirlərin keçirilməsi planlaşdırılıb.[14]

## ƏDƏBİYYAT


***Azərbaycan dilində:***

*1. Gövhər Baxşəliyeva, akademik, “İslami dəyərlərin böyük təəssübkeşi Prezident İlham Əliyevin bu təşəbbüsü uzaqgörən ictimai-siyasi qərardır”, Azərbaycan.- 2017.- 28 yanvar.- s. 5. (http://www.azerbaijan-news.az/index.php?mod=3&id=114748)*

*2. İqrar Əliyev, Elmar Məhərrəmov, “Azərbaycan Respublikasının Dövlət Rəmzləri”, Bakı, Nurlan, 2008.*

*3. İlkin Əlimuradov, “IX-X əsrlər azərbaycanlı hədisşünas alim Əhməd Harun oğlu əl-Bərdici (Bərdəli)”, “Araz” nəşriyyatı, Bakı, 2016.*

*4. Rəfi Qurbanov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Xarici Əlaqələr şöbəsinin müdir müavini, “İslam həmrəyliyi müsəlman dünyasının xilasıdır”, www.salamnews.org, 28 Mart 2017 (http://salamnews.org/az/news/read/264097/islam-hemreyliyi-muselman-dunyasinin-xilasidir--dovlet-komitesi/)*

*5. Siyavuş Novruzov, Azərbaycan Respublikası Milli Məclisinin komitə sədri, YAP İcra katibinin müavini, “Heydər Əliyev Azərbaycanı multikulturalizmin və İslam həmrəyliyinin mərkəzinə çevirdi”, Azərbaycan.- 2017.- 9 may.*

***Ərəb dilində:***

6. البرديجي، الحافظ أبو بكر أحمد بن هارون البرديجي (المتوفى 419/103)، كتاب الكبائر، تحقيق: د. محمد بن تركي التركي

7. السمعاني، أبو سعيد عبد الكريم بن محمد السمعاني(المتوفى 265 هـ)، الأنساب، تعليق عبدالله البارودي، الطبعة الأولى، بيروت: دار الكتب العلمية، 8041 – 8891م

8. ياقوت الحموي، شهاب الدين أبو عبد الله ياقوت بن عبد الله الحموي (المتوفى 626 هـ)، معجم البلدان، تحقيق فريد الجندي، الطبعة الأولى ، بيروت: دار الكتب العلمية، 0141هـ

***İnternet resursları:***

*9. http://multiculturalism.preslib.az/az_a1.html*

*10. https://azertag.az/xeber/Menevi_Deyerlerin_Tebligi_Fondunun_yaradilmasi_haqqinda_Azerbaycan_Respublikasi_Prezidentinin_Fermani-1101382*

*11. https://az.trend.az/azerbaijan/politics/2436713.html*

*12. https://azertag.az/xeber/Istanbulda_Islam_Amekdasliq_Teskilatinin_Quds_meselesi_ile_bagli_fovqelade_Zirve_toplantisi_kechirilib_Azerbaycan_Prezidenti_Ilham_Aliyev_Zirve_toplantisinda_istirak_edib_YENILANIB_VIDEO-1120633*

*13. http://www.aztv.az/readnews.php?lang=az&id=31123*

*14. https://azertag.az/xeber/Islam_Hemreyliyi_Ilinin_davami_kimi_2018_ci_ilde_elave_tedbirler_kechirilecek-1129824*

*15. https://azertag.az/xeber/2017_ci_ilin_Azerbaycan_Respublikasinda_Islam_Hemreyliyi_Ili_elan_edilmesi_haqqinda_Azerbaycan_Respublikasi_Prezidentinin_Serencami-1025448*



***Açar sözlər:*** *Həmrəylik, islam, islam həmrəyliyi, birlik, Azərbaycan*
***Ключевые слова:*** *Солидарность, ислам, исламская солидарность, единство, Азербайджан*
***Key words:*** *Solidarity, islam, Islamic solidarity, unity, Azerbaijan*



**РЕЗЮМЕ**

**Важные результаты “Года Исламской солидарности” в Азербайджане**

Исламский фактор занимает ведущее место на основе культурного наследия Азербайджана. Поэтому для независимого и современного Азербайджана естественно является актуальным поддерживать отношения с мусульманским миром. В 2017 году президент Азербайджанской Республики Ильхам Алиев объявил этот год Годом исламской солидарности, что и укрепила позицию Азербайджана в установлении исламской солидарности. В Азербайджане, где многокультурная и толерантная обстановка обеспечивается на высоком уровне, «исламская солидарность» рассматривается как новый пример исламского единства, а также других религий. Год исламской солидарности запомнился большим общественно-политическим, международным и идеологическим значением. Принимая во внимание, что исламский мир нуждается в солидарности в наше время, очень важно установить эту солидарность и предпринять определенные шаги в этом направлении.



**SUMMARY**

**The important results of Islamic Solidarity in Azerbaijan**

The Islamic factor occupies a leading place on the basis of Azerbaijan’s cultural heritage. Therefore, it is natural for independent and modern Azerbaijan to maintain and develop relations with the Muslim world. In 2017, President of the Republic of Azerbaijan, His Excellency Mr. Ilham Aliyev declared the Year of Islamic Solidarity as the year of 2017 to ensure the strengthening of Azerbaijan’s position in the establishment of Islamic solidarity. The multicultural and tolerant environments are provided at a high level in Azerbaijan and the «Islamic Solidarity» was regarded as a new example of the Islamic unity, as well as for other religions. The year of Islamic Solidarity was remembered by great social-political, international and ideological importance. Taking into account that the Islamic world needs solidarity in modern times, it is of great importance to establish this solidarity and to take certain steps in this regard.

# Hüquq

## BİOETİKANIN HÜQUQİ ASPEKTLƏRİ

SEVDA KƏRİMOVA
Azərbaycan Milli Elmlər Akademiyasının Hüquq və İnsan haqları İnstitutu, Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi



Müasir dövr fərdin bütün dəyər, xüsusiyyət və müstəqilliyi ilə yenidən kəşf edildiyi, insan mərkəzli universal əxlaqın inkişafıyla yanaşı, insan hüquqları, bərabərlik və azadlıq anlayışlarının vacibliyinin daha çox diqqət mərkəzinə gəldiyi dövrdür [2, s.3].

Bu dövrün vacib elm sahələrindən biri olan bioetika yeni elmi-tədqiqat sahəsi və ictimai münasibətlər sistemi olub, sürətlə genişlənən elmi-texniki tərəqqinin uğurlarının, tibbi biliklərin nailiyyətlərinin cəmiyyətin mövcud əxlaqi və mənəvi dəyərləri ilə uzlaşdırılması mexanizmi kimi meydana gəlmişdir.

Başqa sözlə, insanın tibb və biologiya sahəsindəki fəaliyyətinin etik tərəflərini öyrənən bioetika, yeni texnika və texnologiyaların tibb sahəsinə daxil olması nəticəsində meydana gələn qeyri-adi, mürəkkəb, ziddiyyətli, cəmiyyət tərəfindən birmənalı qarşılanmayan problemləri həll etmək zərurətindən yaranmışdır.

**1. Bioetikanın elm kimi yaranması, formalaşması və inkişafı**

Bioetikaya müxtəlif təriflər verildiyi kimi, yaranması haqqında da fərqli fikirlər mövcuddur.

Bəzi alimlərə görə bioetikanın ilk yaranma tarixi 1874-ci ildə Amerika Tibb Assosasiyasının dərc etdiyi, ingilis həkim Thomas Percivalın araşdırmaları əsasında tərtib olunmuş Tibbi Etika Məcəlləsi hesab olunur [6].

Lakin elmi termin kimi bioetika sözü (yunan dilindən bios - həyat, yaşam; ethos - davranış) ilk dəfə 1926-cı ildə Fritz Jahr tərəfindən elmi araşdırmalarda heyvan və bitkilərin istifadəsi haqqında "bioetik məcburiyyət" ilə əlaqəli məqaləsində istifadə olunmuşdur [7].

Dünya ictimai və elmi fikrində bioetikanın formalaşmasını Nuremberq Tribunalı və 1947-ci ildə Nuremberq Məcəlləsinin qəbul olunması ilə bağlayanlar da vardır. Bu tribunalda həbs düşərgələrindəki məhbuslar üzərində qeyri-insani tibbi təcrübələr aparan, insanların məhv edilməsinə səbəb olan 20 faşist həkim və 3 tibb inzibatçısı da ittiham olunurdular [14]. Nuremberq Məcəlləsi insanlar üzərində bio-tibbi araşdırmaların etik tələblərini müəyyən etdi. Düzdür, bu Məcəllə mövcud standartlarla müqayisədə daha ümumi idi. Lakin məhz bu Məcəllə təcrübələrin keçirilməsinə limitləri təsbit edən ilk rəsmi və beynəlxalq sənəd oldu. Nuremberq Məcəlləsi bütün dünya üçün bioetika sahəsində bir növ etik tənzimləyici və intellektual hərəkətverici rolunu oynadı [9].

Bioetikanın başlanğıc tarixi kimi digər bir mənbə də 1970-ci ildə amerikalı həkim-onkoloq Van Rensselaer Potterin "Bioetika, sağ qalma elmi" adlı məqaləsi götürülür [12].

V.R.Potter bioetika haqda "Bioetika: Gələcəyə körpü" adlı ilk kitabını 1971-ci ildə dərc etdirdi [13]. Kitab elmi ictimaiyyət və siyasi-hüquqi dairələrdə ciddi müzakirələrə səbəb oldu. Məhz bundan sonra bioetika elm sahəsi kimi qəbul edildi və geniş tədqiq obyektinə çevrildi.

İlk dövrlər bəzi tədqiqatçılar, məsələn, B.Bolekker bioetikanın məzmununu "həkim-pasiyent" münasibətlərindəki etik problemlərlə məhdudlaşdıraraq, onu biotibbi etika ilə eyniləşdirməyə çalışırdı. Digərləri, məsələn, R.Melinda, D.Vasserman bioetikanın dairəsini genişləndirmiş, bir sıra sosial, habelə səhiyyə sistemi və insanın heyvanlara və bitkilərə münasibəti ilə bağlı problemləri də əhatə etmişlər [8, s.216]. Daha sonralar D.Şelton başda olmaqla bir qrup alim, bioetikanı yeni texnologiyaların bəşəriyyətin həyat və sağlamlığına təsirinin doğurduğu nəticə kimi izah etməyə başladılar [11, s.33]. Son




dövrlərdə isə dünya alimləri bioetikanı insanın təbabət və biologiya sahəsində fəaliyyətinin mənəvi və hüquqi tərəflərini öyrənən elm sahəsi kimi xarakterizə edirlər.

Elmi ədəbiyyatda “yeni etika” da adlandırılan bu elm sahəsinin məqsədi insanı və cəmiyyəti elmi-texniki tərəqqi və sosial reformalar nəticəsində meydana gələn neqativ təsirlərdən qorumaq, onun həyata və ölümə, sağlamlığa münasibətini etik dəyərlər çərçivəsində öyrənmək və hüquqi normalar əsasında tənzimləməkdir.

**2. Bioetika müxtəlif elm sahələrinin kəsişdiyi nöqtədir**

Bioetika müxtəlif elm sahələrinin – fəlsəfə, etika, tibb, biologiya, texnologiya, sosiologiya, hüquq və başqalarının öyrəndiyi problemləri kompleks şəkildə tədqiq edir. Buna görə də, bioetika elminin tədqiqat problemləri təkcə bir sahənin alimlərinin, həkimlərin, hüquqşünasların, siyasətçilərin, filosofların, teoloqların, sosioloqların və digərlərinin monopoliyasında ola bilməyəcək qədər əhatəli mövzulardır. Göründüyü kimi, məsələ bioloji və etik olmaqdan çıxıb, daha geniş tibbi, fəlsəfi, sosial-siyasi, iqtisadi və hüquqi problemlər səviyyəsinə gəlmişdir.

Sürətlə inkişaf edən elmi-texniki tərəqqinin insan həyatı və sağlamlığı üçün təhlükəyə çevrilməsi təkcə elm adamlarını, həkimləri narahat edən problem deyil. İnsanların xoşbəxtliyinə, uzun ömürlülüyünə, sağlamlığına, rifahına xidmət etməli olan elmi kəşflər qlobal təhlükəyə çevrilib insan həyatını, hüquq və azadlıqlarını təhdid edir, bəşəriyyətin gələcəyini şübhə altına alır.

İnsanlığın qarşısında suallar durur: “Nə edilməlidir?”, “Nəyə hara qədər, hansı səviyyədə icazə verilməlidir?”, “Etmək mümkün olan hər şey edilməlidirmi, yoxsa bu və ya digər fəaliyyətə məhdudiyyətlər qoyulmalıdır?”, “Bu məhdudiyyətlər necə qoyulmalıdır?”, “Nəzarət mexanizmi necə olmalıdır?”, “Məhdudiyyətlər, qadağalar elmin inkişafına əngələ çevrilməyəcəkmi?”.

Digər çətin suallar isə bu veriləcək cavabların əsaslandırılması, yaranan münasibətlərin hüquqi tənzimlənməsi ilə əlaqədardır. Vacib olanla təhlükəli olan, icazə verilənlə qadağan olunan arasındakı sərhəd necə müəyyənləşəcək? Edilməsi zəruri olana icazə vermək necə əsaslandırılacaq? Qadağalar necə qoyulacaq?

Bütün bu suallara bir elm sahəsinin cavab verməsi mümkünsüzdür, ona görə də qeyd olunan bütün elm sahələri öz baxış bucağından bu mübahisəli məsələləri dəyərləndirir, ortaq qərara gəlməyə çalışırlar. Gəlinən qərarlar və ortaq dəyərlər isə bəşəriyyətin ümumi rifahı üçün mütləq şəkildə normalaşdırılmalıdır. Məhz bu anda dövrəyə hüquq elmi daxil olur.

**3. Bioetika və hüquq**

Bioetikanın araşdırdığı problemlər ümumbəşəri xarakter daşıdığından, insanlığın mövcudluğu ilə bağlı olduğundan o, bir ölkənin və ya bir regionun əhatəsindən çıxıb dünyəvi xarakter daşıyır. Ona görə də, beynəlxalq təşkilatlar bu məsələyə xüsusi diqqət yetirirlər. Eyni zamanda, qeyd edilməlidir ki, bioetikanın tədqiqat sahələri iqtisadi cəhətdən baha, elmi cəhətdən çətin olub bir ölkənin imkanları xaricindədir.

Bunu nəzərə alaraq, 1993-cü ildə BMT-nin təhsil, elm və mədəniyyət sahəsində əsas təşkilatı olan YUNESKO-nun Bioetika üzrə Proqramının əsası qoyuldu. 2002-ci ildən Bioetika proqramı təşkilatın fəaliyyətinin prioritet istiqamətlərindən birinə çevrildi [5].

19 oktyabr 2005-ci ildə YUNESKO-nun Baş Assambleyası “Bioetika və insan hüquqları haqqında” Ümumi Bəyannamə qəbul etməklə bioetikanın əsas prinsiplərini, bioetika, hüquq və insan hüquqlarının sıx əlaqəsini bəyan etdi [3]. Konfransda qəbul edilmiş

YUNESKO-nun Baş konfransı Bəyannamə ilə yanaşı, Qətnamə də qəbul etmişdir. Həmin sənəd üzv dövlətləri bu Bəyannamədə ifadə olunan prinsiplərin reallaşması üçün hər cür cəhd göstərməyə çağırır, Bəyannamənin daha geniş yayılması da daxil olmaqla, onun gerçəkləşməsi üzrə müvafiq tədbirlər görməyi təklif edir [4].

İnsanın varlığının mahiyyətini, cəmiyyətlərin dəyər sistemini, həyat və ölüm haqda dini-fəlsəfi və etik-əxlaqi təsəvvürləri kökündən dəyişən bu yeni münasibətlərin tənzimlənməsinin əsas prinsipləri Bəyannamə ilə beynəlxalq hüquqi-normativ xarakter almış, üzv dövlətlərin milli qanunvericiliyində təsbit edilməsi tövsiyyə edilmişdir.

Bununla da, tibb və biologiya sahəsində uzun illər davam edən müzakirələr hüquqi tənzimlənmə müstəvisinə və mərhələsinə keçməyə başladı.

Bioetika və hüquq insanın fəaliyyət və davranışlarına ictimai tənzimləyici qaydalar qoymasına görə bir-birinə çox yaxındır.

Bioetika etik anlamda, hüquq isə təsbit etdiyi normalarla insan həyatına və sağlamlığına müdaxilələrin tənzimlənməsini təmin edir.

Bəzən hüquq və etika arasında birbaşa qarşıdurma da ola bilər. İnsan həyatına münasibətdə qanunla icazə verilən hərəkətlər etik mənada mübahisəli ola, və ya qanunla qadağan edilmiş hərəkətlər

bir çox insanlar və ya qruplar tərəfindən etik şəkildə əsaslandırıla və müdafiə edilə bilər.

İctimai münasibətlərin mürəkkəbləşdiyi, gərginləşdiyi indiki zamanda hüquq əvvəlkindən daha böyük əhəmiyyət kəsb edir. İnsan həyatının hər bir sahəsi normativ hüquqi aktlarla əhatə edilməli, bioetik dəyərlərin və fəaliyyətlərin tənzimlənməsi problemləri daha dərindən tədqiq edilməlidir. İnsan həyatının, hüquq və azadlıqlarının bioetik aspektdə qorunması cinayət qanunvericiliyində bu və ya digər əməlin kriminalizasiyası və ya dekriminalizasiyası ilə bu sahədəki mübahisələri konkret şəkildə həll etməlidir. Başqa sözlə, qanun cəmiyyətdə formalaşmış etik konsensusu normalaşdırmalı, onun qorunmasını təmin etməlidir.

Qeyd edilməlidir ki, hazırki Azərbaycan Respublikasının cinayət qanunvericiliyində bioetik pozuntuların böyük bir qismi cinayət əməli kimi öz əksini tapmışdır. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin Şəxsiyyət əleyhinə olan cinayətlər bölməsinin Həyat və sağlamlıq əleyhinə olan cinayətlər fəslinin Qəsdən adam öldürmə (Maddə 120), Qəsdən sağlamlığa ağır zərər vurma (Maddə 126), Evtanaziya (Maddə 135),Qanunsuz süni mayalanma və embrionu implantasiya etmə, tibbi sterilizasiya (Maddə 136), İnsan orqanlarının və ya toxumalarının alqı-satqısı və onların transplantasiya məqsədi ilə götürülməsinə məcbur etmə (Maddə 137), Qanunsuz olaraq biotibbi tədqiqatlar aparma və ya qadağan edilmiş diaqnostika və müalicə üsullarını, dərman vasitələrini tətbiq etmə (Maddə 138), Qanunsuz abort etmə (Maddə 141), Xəstəyə kömək göstərməmə (Maddə 142) və s. maddələri bu sıraya daxildir [1]. Bununla yanaşı, bu sahədə hələ də öz həllini gözləyən, kriminalizasiyası və ya dekriminalizasiyası zəruri olan əməllər vardır. Bu istiqamətdə aparılan tədqiqatlar bioetik dəyərlərin hüquqi normalaşmasında mühim rol oynayacaqdır.

Təqdirəlayiqdir ki, Azərbaycan Respublikası Milli Məclisində “Bioetika haqqında” Azərbaycan Respublikası Qanununun layihəsi müzakirəyə hazırlanır. Həmin qanunun tətbiqi ilə əlaqədar meydana çıxa biləcək hüquqpozmaların qanunvericilikdə təsbit edilməsi, insanın həyatının və sağlamlığının qorunması ilə bağlı Azərbaycan Respublikasının cinayət qanunvericiliyində təsbit olunmuş normaların dairəsinin genişləndirəcəkdir. Azərbaycan Respublikasının Konstitusiyasında göstərilən insan hüquq və azadlıqlarının bioetik aspektlərinin öyrənilməsi, nəhayət tibbi qanunvericiliyin bioetik dəyərlərə uyğunlaşdırılması məsələləri də olduqca önəmlidir.

Eyni zamanda, bioetika sahəsində milli qanunvericilikdə mövcud boşluğun aradan qaldırılmasına, beynəlxalq təcrübəni nəzərə alaraq mümkün olan mexanizmlərin Azərbaycan hüquq elmi və ictimai münasibətlər baxımından qiymətləndirilməsi, beynəlxalq sənədlərdə təsbit olunmuş norma və prinsiplərin Azərbaycan qanunvericiliyinə implementasiyası və bioetik pozuntuların kriminallaşması yolu ilə hüquqi çərçivənin müəyyənləşməsi günümüzün aktual məsələlərindəndir.

## Nəticə

Göstərilənləri nəzərə alaraq deyə bilərik ki, bioetika elmi-texniki tərəqqi və insanın yaşam və sağlamlıq problemlərindən bəhs edən etik müzakirələrin və hüquqi qaydaların məcmusudur.

Bioetikanın inkişafı cəmiyyətin demokratikliyinin və insan hüquqlarının müdafiəsinin əsas göstəricilərindən biridir.

Yeni bioetik dəyərlərin yaranması, formalaşması və cəmiyyət həyatının tənzimləyici amilinə çevrilməsi üçün bu sahədə normativ hüquqi aktların qəbul edilməsi vacibdir.

Mövcud ictimai münasibətlər hüquqi və bioetik aspektdən tədqiq olunmalı, etik qaydalarla normativ hökmlər arasındakı uyğunsuzluqların azaldılması üçün konkret addımlar atılmalıdır.

## ƏDƏBİYYAT


*1.Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. 1 sentyabr 2000-ci il.*

*2.Ali B. Kutvan, İdarəetmə etikası. Bakı. “ULU”. 2016.*

*3.Aytən Mustafayeva, Vüqar Məmmədov. Bioetika, Hüquq və İnsan hüquqları. Bakı. 2013.*

*4.“Bioetika və İnsan hüquqları haqqında” Ümumi Bəyannamə. YUNESKO. 2005.*

*5.Bioetika: Sənədlər... Terminlər... Layihənin elmi rəhbəri və tərtibçi Aytən Mustafayeva. Bakı. Elm. 2009.*

*6.Code of Medical Ethics of the American Medical Association. 1847.*

*7.Lolas, Fernando. «Bioethics and animal research: A personal perspective and a note on the contribution of Fritz Jahr». Biological Research. Santiago. January 2010.*

*8.Melinda A.R., Wasserman D.T. Harming Future Persons: Ethics, Genetics and the Nonidentity Problem. International Library of Ethics, Law and the New Medicine. 2009.*

*9.Nuremberg Code. 1947. [last accessed December 26, 2008]*

*10.Reich Warren Thomas. Encyclopedia of Bioethics. I. New York. Macmillan. 1995.*

*11.Shelton D. Remedies in International Human Rights Law. Oxford. 1999.*

*12.Van Rensselaer Potter. Bioethics: The Science of Survival. 1970.*

*13.Van Rensselaer Potter. Bioethics: Bridge to the Future. 1971.*

*14.Weindling Paul Julian. Nazi Medicine and the Nuremberg Trials: From Medical War Crimes to Informed Consent. New York. Macmillan. 2006.*



***Açar sözlər:*** *bioetika, hüquq, insan hüquqları, kriminallaşma, cinayət qanunvericiliyi.*

***Keywords****: bioethics, law, human rights, criminalization, criminal legislation.*

***Ключевые слова:*** *биоэтика, право, права человека, криминализация, уголовное законодательство.*



**Sevda Karimova**


**Legal aspects of bioethics**


Scientific and technological progress, medical and biological development confronts mankind with serious problems, and forms new ethical values. Scientific discoveries which are supposed to make people happy, become a global danger, threaten his rights and freedom. To prevent these threats, the boundaries of scientific development and experiments should be defined. And to determine this boundary, normative legal acts should be adopted, and bioethical violations should be criminalized in criminal legislation.



**Севда Керимова**


**Юридические аспекты биоэтики**


Научно-технический прогресс, медико-биологическое развитие ставит перед человечеством серьезные проблемы, формирует новые этические ценности. Научные открытия, которые должны сделать человека счастливым, становятся глобальной опасностью, угрожают его праве и свободе. Чтобы предотвратить эти угрозы должны быть определены границы научного развития и экспериментов. А для определения этой границы должны быть приняты нормативно-правовые акты, а биоэтические нарушения должны криминализоваться в уголовном законодательстве.

# İNSAN KAPİTALI SOSİAL-İQTİSADİ İNKİŞAFIN AMİLİ KİMİ

LAMİYƏ BAĞIRLI
Azərbaycan Turizm və Menecment Universiteti




Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramında qeyd olunmuşdur ki, əsas prioritet kimi ölkədə insan kapitalının inkişafı və səmərəli sosial müdafiə sisteminin təmin edilməsi məqsədilə əhalinin, xüsusilə də, sosial cəhətdən həssas qrupların mənzil şəraitinin yaxşılaşdırılması və bu sahənin inkişafı həyata keçirilməlidir.

İlk əvvəl sosial inkişaf anlayışını mahiyyətini açıqlayaq. Sosial inkişaf cəmiyyətdəki hər bir fərdin rifahının yüksəldilməsi vasitəsilə öz potensiallarından tam istifadə edə biləcək səviyyəyə çatdırılmasıdır. Cəmiyyətin uğuru hər bir fərdin rifahının yüksəldilməsi ilə bağlıdır. Sosial inkişaf anlayışı mahiyyət etibarilə insanlara investisiya qoyulması deməkdir.

Sosial inkişaf prosesi özündə bir neçə mərhələni birləşdirir. Bunlardan birincisi erkən yaşdan etibarən öyrənməyə başlamaqdır. Erkən tədris təşəbbüslərinə yatırılan investisiya insanlar arasında daha yüksək uğur üçün zəmanət ola bilər. Uşaqların öz təhsillərinə mükəmməl başlaması onların rifah və uğurlarının davamlı və uzunmüddətli olmasına əsas yaradır. İkincisi uşaq qayğı sistemidir. Valideynlər övladlarının bağçalarda, məktəblərdə vəziyyətlərinin yaxşı olduğunu, onlara yüksək qayğı göstərildiyindən əmin olsalar öz işlərinə daha arxayın köklənəcəklər. İşəgötürənin işçiləri yüksək səmərəliliklə çalışsalar onun biznesi uğurlu olacaqdır. Tək-tək bizneslərin uğurlu olması ümumilikdə cəmiyyətin rifah halının yüksəlməsinə və sağlam iqtisadiyyatın yaranması şərait yaradır. Beləliklə, bu gün uşaq qayğı sisteminin inkişaf etdirilməsi üçün yatırılan investisiya uzunmüddətli dövrdə iqtisadi səmərə olaraq geri qayıdacaqdır. Üçüncüsü yaşayış yerlərinin insanlar üçün əlçatan olmasıdır. Mənzillər ailə həyatının əsasıdır; onların təhlükəsiz yaşa biləcəkləri, övladlarını böyüdə biləcəkləri, ictimai münasibətlər qura biləcəkləri və yaşlanan valideynlərinin qeydinə qala biləcəkləri bir məkandır. Dördüncüsü ictimai həyatın digər sahələrinə yatırılan investisiyadır. Buraya gənclərin inkişafı üçün xidmət və proqramların təklif olunması, ali təhsil imkanlarının yaradılması, iş yerlərinin açılması, insanların sağlam və aktiv həyat tərzinə təşviq olunması daxildir.

Təbiidir ki, sosial inkişafın olması üçün ilk əvvəl iqtisadi inkişaf olmalıdır. İqtisadi inkişaf anlayışının nə olduğunu müəyyən etmək üçün bu məsələyə iqtisadi artım – iqtisadi inkişaf kontekstində yanaşmaq lazımdır. İlk əvvəl iqtisadi artımın nə olduğunu aydınlaşdıraq. İqtisadi artım iqtisadi kateqoriya olmaqla yanaşı statistik göstəricidir. Belə ki, iqtisadi artım ölkədə Ümumi Daxili Məhsulun artım tempini göstərir. Ümumi Daxili Məhsul bir il ərzində ölkə daxilində istehsal olunan məhsul və xidmətlərinin bazar qiyməti dəyəridir.

Dövlətin sosial siyasəti ilə cəmiyyətin iqtisadi inkişafı arasında qarşılıqlı əlaqə mövcuddur. Birincisi, iqtisadi inkişafın məqsədi birbaşa və dolayı yolla sosial siyasətdə birləşir. Aydındır ki, iqtisadi fəaliyyət cəmiyyətin bütün üzvləri üçün əlverişli yaşayış şəraitinin yaradılması naminə həyata keçirilir. İkincisi, sosial siyasət sahəsində bir çox məsələlərin həyata keçirilməsi, dövlətin onların reallaşdırılması üçün yönəldilə biləcəyi iqtisadi ehtiyatlardan asılıdır. Üçüncüsü, sosial siyasətə iqtisadi amilin mühüm amili kimi baxmaq olar. Əgər iqtisadi inkişaf xalqın həyat səviyyəsinin yüksədilməsinə təsir etmirsə, insanların həyat fəaliyyətilə məşğul olmasına, iş qüvvəsinin keyfiyyətinin artırılmasına maraq azadılmış olur, cəmiyyətdə sosial gərginlik artır.

Sosial siyasətin xarakteri və məzmunu sosial proseslərin idarə edilməsinə dövlətin müdaxilə etməsi səviyyəsindən də asılıdır. Bu baxımdan inkişaf etmiş ölkələrdə dövlətin hal-hazırda bütün mövcud olan sosial siyasət növlərini iki qrupa bölmək olar.

Birinci qrupu şərti olaraq qalıq prinsiplərinə əsaslanan sosial siyasət adlandırmaq olar. Bu halda sosial siyasət bazarın sosial səviyyədə tam həyata keçirə bilmədiyi funksiyaları həyata keçirir. Bu öz miqyası və əhatə dairəsinə görə məhdud sosial siyasət olub, əsasən passiv və kompensasiyalaşdırıcı (bərpaedici) xarakter daşıyır. Belə sosial nəzarətin sosial əsasları liberal bazar iqtisadiyyatı modelinin ideyaları əsasında formalaşır. Bu variantın tipik nümunəsi bazarın amerikan modeli ola bilər.

İkinci qrup - instututsial sosial siyasət adlanır. Burada dövlətin sosial siyasəti əhalinin sosial xidmətlərlə təmin olunmasında mühüm rol oynayır və xüsusi instutlar sisteminə nisbətən daha səmərəli vasitə kimi çıxış edir. Bu, yenidən bölgü siyasətidir. Belə siyasətin formalaşmasında konseptual baxımdan sosial-demoqratik ideyalogiyanın böyük təsiri vardır. Hər iki qrup arasında fərq bu və

ya digər amillərin hansının olub-olmasında deyil, onlar arasında mövcud olan nisbətlərdən, dövlətin sosial sahəyə müdaxiləsi və yenidən bölgü prosesində iştirakından asılıdır.

Bütün bazar iqtisadiyyatı ölkələrində sosial siyasət bu iki qrup arasında yerləşir. Skandinav ölkələrində sosial siyasəti əsasən sosial - demokratik modeli olsa da, bu ölkələrdə dövlətin sosial siyasətində liberal elementlərdəndə istifadə edilir. Dövlətin sosial siyasəti-üzvi surətdə uzlaşan aspektlərə (iqtisadi, ekoloji, hüquqi, psixoloji, mədəni və s.) malik olan mürəkkəb strukturlu bir anlayışdır. Siyasətin işlənib hazırlanması bütün aspektlərin həm kompleks şəklində həm də ayrı-ayrılıqda təhlilini tutur. Dövlət siyasəti aşağıdakıların mövcüdluğunu nəzərdə tutur:

1. İctimaiyyət tərəfindən dəsdəklənən sosial doktiranı;
2. Konstusiya və qanunvericilikdə müəyyən edilmiş aktlar;
3. Dövlət sosial öhdəliklərinin bilavasitə icrası resursları;
4. Monitorinq və təşkilati nəzarət;
5. Dövlətin sosial öhdəliklərinin icrasının təşkilinin mexanizmləri.

Dövlətin sosial siyasətinin məqsədi-cəmiyyətdə əhalinin həyati təlabatlarının ödənilməsinin təmin edən əlverişli sosial iqlim və həmrəylik şəraitinin yaradılmasıdır. Geniş ictimayyətin iştirakı ilə dövlətin sosial siyasətinin məqsədlərinin, vəzifələrinin formalaşdıran və konkret tarixi şəraitdə onun reallaşdırılması üzrə praktiki işi həyata keçirən qanunverici, icraedici və məhkəmə orqanları dövlətin sosial siyasətinin subyektlərinə aiddir.

Sosial siyasətin əsas struktur həlqələri bunlardır: Sosial rifahın pulsuz təqdim edilməsi və bunların cəmiyyətin hər bir vətəndaşının əldə edilməsi prinsipininə əsaslanan təlabata görə bölgüyə istiqamətlənməsi sosial təminat sistemi. Sosial təminatın qarantı dövlətdir. Sığorta ödəmələrinin məcburi verilməsi. Sosial rifahların qarşılıqlı əlaqəsi prinsiplərinə əsaslanan sosial sığorta sistemi. Burada sosial həmrəylik və dövlətin öz vətəndaşlarına görə sosial məsuliyyəti prinsipləri işləyir. Sosial cəhətdən zəif olan cəmiyyət üzvlərinə dövlətin sosial qayğısı prinsipinə əsaslanan sosial müdafiə sistemi. Bu sistem əhalinin ehtiyac dərəcəsinə görə aztəminatlı qrupların müəyyənləşdirilməsinə diferiansanal yanaşmanı və belə qruplara pulsuz sosial yardımın göstərilməsinin nəzərdə tutur.

Sosial müdafiənin yaradılması sistemi sosial siyasətin əsas funksiyalarından biridir. Sosial müdafiə sistemi yerinə yetirilməsi vacib olan tədbirlərin ümumi məcmusunu birləşdirir. Sosial müdafiənin fəaliyyət və miqyası ən çox bu və ya digər ölkənin iqtisadi potensialında sosial siyasətin yerinə yetirilməsi üçün vacib olan makroiqtisadi şərtlərin məcmusundan ibarətdir. Sosial müdafiənin mexanizmi özündə cəmiyyətin bütün üzvlərinə aid olan tədbirləri eyni zaman ayrı-ayrı sosial qruplara ünvanlanmış tədbirlər kompleksidir. Sosial müdafiənin ayarı-ayrı qruplara olan tədbirləri özündə kasıblara sosial kömək və xeyriyyə fondlarından onları pulla təmin etməsini birləşdirir. Sosial müdafiə tədbirləri aktiv və passiv formada yerinə yetirilir. Aktiv formaya kadrların hazırlanması, yeni iş yerlərinin yaradılması və s. aiddir. Passiv formaya isə ehtiyacı olanlara maddi köməyin göstərilməsi nəzərdə tutulur.
Hər bir cəmiyyət üçün onun sosial dayanıqlığı vacibdir. Sosial müdafiə instutları transformasiya dövründə onun dayanaqlığının saxlanılmasına kömək edir. Sosila instutlar-qaydaların prinsiplərin göstərişlərin kompleks istifadə etmə üçün istifadə edilən insanın müxtəlif fəaliyyətlərinin sferalarının tənzimləyən analayışdır. Sosial müdafiə termini "sosial instut" termini ilə sinonimdir. Sosial müdafiə terminin dar və geniş mənada müəyyənləşdirmək olar. Geniş mənada sosial müdafiə termini insanların iqtisadi hüquqi, tibbi, mənəvi müdafiəni, onların həyatının təhlükəsizliyinin təminatını, cinayətdən müdafiəsini təbii fəlakətlər zamanı fövqəladə hallarda yardım göstərilməsini ifadə edir. Dar mənada sosial müdafiə termini qeyd olunanan müdafiə növlərindən birinin və ya bir neçə növünün həyata keçirilməsi ilə əlaqədar istifadə edilə bilər. Beləliklə sosial müdafiə termini ilə iqtisadi müdafiəni təmin etmək olar və elə bu terminlə eyni vaxta həyata keçirilən iqtisadi hüquqi və mənəvi müdafiəni göstərə bilərik. Belə nəticəyə gələ bilərik ki, sosial müdafiə sistemi hər bir şəxsin özünün və ailəsinin





taleyinə məsuliyyət daşıması prinsipinə əsaslanır. Sosial müdafiə proqramları adətən əmək qabiliyyətinin itiriləməsi, işin olmaması və digər səbəblərdən ailəsinin tələblərinin ödənilməsi üçün kifayət qədər vəsaitə malik olmayan vətəndaşlar üçün nəzərdə tutulur. Belə vətəndaşlara qanunvericilikdə müəyyənləşdirilmiş arzu edilməyən hadisələr baş verərkən pul və natural formada yardım təqdim edilir. Bununla yanaşı sosial müdafiə sistemi arzu edilməyən hadisələrin qarşısının alınmasına yönəldilmiş tədbirlər həyata keçirilir. Sosial müdafiə sisteminin əsas istiqamət və formalar kompleksi:istehlak qiymətlərinin dövlət tənzimlənməsi. Ümumdövlət miqyasında kifayət qədər dar çərçivədə əsasən də təbii inhisarların və dövlət mülkiyyəti sektorunun fəaliyyəti (qaz, elektrik, enerji, rabitə) ilə bağlı olan qiymətlər tənzimlənir. Qiymətlərə təsir müxtəlif üsullarla həyata keçirirlir. Güzəştli vergilərin köməyi ilə və s. İmtiyazlaırn verilməsi (güzəşt və maddi yardım). İmtiyaz dedikdə müəyyən əhali qrupuna şamil edilən ümumi fəaliyyət qaydaları ilə müqayisədə xüsusi üstünlük başa düşülür. Güzəştlərə misal olaraq, əlillərə müharibə iştirakçılarına pulsuz və güzəştli qiymətlərlə verilən dərmanları nəqliyyayda pulsuz və güzəştli gediş və s. göstərmək olar. Bizdə güzəştlər yalnız əmək qabiliyyətindən məhrum olanlara yox, həm də bir sıra işləyən kateqoriya üçün də (polis hərbiçilər məhkəmə işçiləri və s.) mövcuddur ki bu da tutduqları vəzifə ilə bağlıdır. İmtiyazların problemi onların maliyyə təminatsızlığı ilə bağlıdır. Buna görə də güzəştlərin ünvanlı maddi yardım (subsidiya) formasında olmasına keçid baş verir. Sosial yardım daimi xarakter daşımır. Heç də bütün sosial öhdəçiliyə və dəstəklənməyə ehtiyacı olanlara şamil edilmir. O konkretdir, ehtiyac dərəcəsinin yoxlanılmasını nəzərdə tutur. Sosial yardım müavinətlərinin ölçüsü ailənin üzvlərinin sayı mənzil haqqı və digər kommunal xərclər nəzərə alınıb differensiallaşdırılır və müəyyən olunmuş yaşayış minimumu ilə ailənin mövcud gəliri arasında fərqi təşkil edir. Sosial yardım aşağıdakı formalarda göstərilə bilər:

Nağd və nağdsız pul ödənişləri (maliyyə yardımı müxtəlif növ güzəştlər), natural mədaxil (pulsuz yeməkxanalar, müvəqqəti yaşayış yerləri və s.) və pulsuz güzəştli xidmətlər (təhsil, səhiyyə, və sosial xidmətlər və s.).

İnsan kapitalı konsepsiyasına görə müasir cəmiyyətin əsas dominantı yaradıcı insandır və insan kapitalı davamlı rəqabət qabiliyyətliliyin, sabit inkişafın və həyat səviyyəsinin yüksəldilməsinin əsas təminatçısıdır. O, kreativ kapital olduğundan onun nəzəriyyəsinin əsasında ənənəvi klassik nəzəriyyədəki “iqtisadi insan” modelindən və paradiqmasından tamamilə fərqli olan “kreativ insan” modeli və yeni iqtisadi paradiqma və davranış prinsipi durur. Modelin əsas müddəası müasir insanın öz yaradıcı imkanlarını reallaşdırmaq, şəxsi keyfiyyətlərini inkişaf etdirməkdən ibarətdir. Bu müddəa kreativ iqtisadiyyatın paradiqmasını və prinsiplərini əks etdirir. Bu konsepsiyada fərdin ictimai rolu onun sərvəti ilə deyil, şəxsi keyfiyyətləri ilə müəyyənləşir. O, sosiallaşır və ictimai insana çevrilir.

Kreativ iqtisadi nəzəriyyədə yaradıcı insan mikroiqtisadiyyatın yeganə subyekti kimi qəbul olunur və onun məqsədi özünün kreativ rifahını maksimallaşdırmaqdan ibarətdir. Cəmiyyətin inkişafının müasir mərhələsində yaradıcı əmək, onun məhsulları və onların mübadiləsi əsas yer tutur. Cəmiyyətin bu mərhələsində insanlararası qarşılıqlı fəaliyyət sistemində daha çox sosial əlaqələr və sosioloji metodlardan istifadə üstünlük təşkil edir. İnsan kapitalı dominant olan iqtisadiyyat sosial iqtisadiyyat kimi çıxış etdiyindən ilk əvvəllər insan kapitalına inkişafın sosial amili və insana qoyulan sərmayələrin məcmusu kimi baxılmışdır. Bu cür yanaşma iqtisadi artım nəzəriyyələri baxımından insan kapitalı məsrəf amili hesab olunmuşdur. Lakin sonradan ona iqtisadi yanaşma formalaşmış və hal-hazırda insan kapitalına iqtisadi inkişafın və əmək fəaliyyətinin sosioloji və həm də ən intensiv və məhsuldar iqtisadi amili kimi baxılır. İnsan kapitalı müasir innovativ iqtisadi inkişafın əsası və hərəkətverici qüvvəsidir. İnsan kapitalının inkişaf səviyyəsi bilik ehtiyatları və biliklərin alınmasına və mənimsənilməsinə çəkilən sərmayələrlə müəyyən olunur. İnsan kapitalı digər kapitallardan fərqli xüsusiyyətlərə malikdir. Bu xüsusiyyətlər onun yığılan və təkrar istehsal oluna bilməsi, öz sahibindən ayrılmaz olması və yalnız onun bilavasitə iştirakı ilə fəaliyyət göstərə bilməsi, onun nə satıla, nə də vərəsəlik qaydasında verilə bilməməsi, onun xidmət müddəti insanın əmək fəaliyyətinin müddəti ilə müəyyənləşməsidir. Bunlardan başqa digər xüsusiyyəti isə ona daim yüksək sərmayə qoyulması lüzumunun olması və bu sərmayənin geri qayıtmasında xeyli vaxt müddətinin olmasıdır. İnsan kapitalı istər əlavə dəyər yaratmaq, istər faydalılıq əmsalı və istərsə də sosial yönümlülük baxımından ən səmərəli kapital növüdür. O, təkcə müasir cəmiyyətin və iqtisadiyyatın hərəkətverici qüvvəsi və əsası olmamış, həm də sənaye cəmiyyətində inkişafın və iqtisadi artımın əsas məhsuldar amili olmuşdur. Bu müasir dövrdə mövcud olan endogen və neoklassik iqtisadi artım nəzəriyyə və modellərin əksəriyyətində öz əksini tapmışdır.

Müasir dövrdə dünya ölkələrinin inkişaf səviyyəsinin fərqli olması məhz insan kapitalının inkişaf səviyyəsi və insan

kapitalının yığım norması ilə fərqlənir. Bunu sivilizasiyanın inkişafının və inkişaf etmiş ölkələrin inkişafının empirik tədqiqi və tarixi təcrübəsi göstərir. İqtisadi ədəbiyyatlarda inkişaf etmiş ölkələrin müasir innovativ inkişafını alim-iqtisadçılar inkişafın əvvəlki mərhələlərində intellektual dəyərlərin inkişafına yönələn sərmayələrin qoyulmasının, insan kapitalının yığımının və innovasiya fəaliyyətinin nəticəsi hesab edirlər. Onlar göstərirlər ki, inkişaf etmiş ölkələr xammal-resurs iqtisadiyyatından innovasiya yönümlü iqtisadiyyata insan kapitalının inkişafı sayəsində keçə bilmişlər. Müasir dövrdə güclü inkişafa stimul verən yenə də insan kapitalıdır, ABŞ və aparıcı Avropa ölkələri inkişaflarını insan kapitalı nəzəriyyəsi əsasında müvəffəqiyyətlə təkmilləşdirirlər və özlərinin rəqabətqabiliyyətli milli iqtisadiyyatlarını yaratmağa nail ola bilirlər. Bu ölkələrdə milli sərvətin əsas hissəsini insan kapitalı müəyyən edir. Dünya bankının mütəxəssislərinin hesablamalarına görə bu ölkələrin milli insan kapitalı onların milli sərvətinin 70- 80%-dən çoxunu təşkil edir. Onlar milli büdcələrindən insan kapitalına digər və inkişaf etməkdə olan ölkələrlə müqayisədə 2, 5-3 dəfədən çox vəsait yönəldirlər. Bütün bunlar onu göstərir ki, iqtisadi inkişafda həlledici rolu təbii resurslar, sənaye kapitalı və ümumiyyətlə əmək deyil, yüksək məhsuldarlığa malik olan, intellektual və yaradıcı əməyi formalaşdıran insan kapitalı oynayır. Göründüyü kimi onlarda milli sərvət torpaq rentası və sənaye mənfəəti hesabına deyil, intellektual renta hesabına formalaşır. Deməli müasir iqtisadi inkişafın zəruri şərti xammal və industrial iqtisadiyyat deyil, insan kapitalını formalaşdıran sosial sahələrə, onların institutlarına vəsait qoyuluşuna üstünlük verilməsidir. Mənimsəmə xarakteri daşıyan xammal iqtisadiyyatı industrial və innovativ iqtisadiyyatla müqayisədə sərvət yaradan və onu çoxaldan iqtisadiyyat deyil, o yalnız təbii sərvətləri dəyərə çevirib, onu tükəndirir. Yüksək inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, onlarda iqtisadi inkişafın əsası daha məhsuldar insan kapitalı olmuşdur. İqtisadi cəhətdən inkişaf etmiş ABŞ və aparıcı Avropa ölkələrində son onilliklərdə insan kapitalına sərmayə qoyuluşu fiziki kapitala sərmayə qoyuluşunu əhəmiyyətli dərəcədə üstələmişdir. Mütəxəssislərin hesablamalarına görə, sərmayələrin 70% insan kapitalına, 30% isə fiziki kapitala yönəlmişdir. İnsan kapitalına yönələn vəsaitlər əsasən dövlət vəsaitləri hesabına formalaşır. Bu göstərir ki, müasirlik baxımından bir çox ölkələrin zəif inkişafının və onların sosial-iqtisadi inkişafının geri qalmasının əsas səbəbi insan kapitalının keyfiyyətinin aşağı olması, onun zəif inkişaf etməsi və innovativ fəaliyyət üçün əlverişli mühitin olmamasıdır.

Azərbaycanda iqtisadiyyatın transformasiyası istiqamətində həyata keçirilən islahatların tərkib hissəsi kimi insan kapitalının inkişafında fasiləzisliyin təmin edilməsi, əmək məhsuldarlığının yüksəldilməsi və bütün iqtisadi inkişafda rolunun artırılması ilə bağlı tədbirlər davam etdirilir. Bu, iki səviyyədə (birincisi, insan kapitalının formalaşması və inkişafı üçün təhsilin bütün pillələrində keyfiyyətin yüksəldilməsi, ikincisi, əmək məhsuldarlığının yüksəldilməsini təmin etmək üçün insan kapitalının fasiləsiz inkişafının, araşdırma və təkmilləşdirmə sahəsinə investisiya qoyuluşunun stimullaşdırılması yolu ilə) aparılır.

Dünya İqtisadi Forumunun 2015-ci il üçün açıqladığı "İnsan kapitalının indeksi" hesabatında Azərbaycan 124 ölkə arasında orta sıralarda (63-cü yerdə) qərarlaşmaqla Türkiyə, Çin, İndoneziya və Küveyt kimi ölkələri qabaqlamışdır. Təşkilatın 2016-2017-ci illər üçün açıqladığı Qlobal Rəqabətlilik Hesabatında isə ölkəmiz 138 ölkə arasında 37-ci olmuşdur. Bu, Azərbaycanın formalaşmış insan kapitalına və rəqabət qabiliyyətini yüksəltmək imkanlarına malik olduğunu göstərir. Həmin imkanlardan səmərəli istifadə etməklə qısa və orta müddətli perspektivdə ölkəmizdə insan kapitalını daha da inkişaf etdirmək və rəqabət qabiliyyətini artırmaq mümkündür.

Ötən illər ərzində Azərbaycanda insan kapitalının inkişafı ilə bağlı bir sıra tədbirlər müəyyən edilərək icra olunmuşdur. Hazırda da icra edilən bir çox strategiya, dövlət proqramları və konsepsiyalarda insan kapitalının inkişafı önə çəkilmişdir. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında və "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda insan kapitalının inkişafı, eləcə də bilik və innovasiyalara əsaslanan inkişaf prioritet təşkil edir.

Azərbaycanda insan kapitalının və qeyri-neft sektorunun inkişafı, biznes mühitinin yaxşılaşdırılması, iqtisadiyyatın diversifikasiyası istiqamətində islahatlar aparılır. Həmin islahatların davam etdirilməsi orta və uzunmüddətli dövrdə təhsilin keyfiyyətinin yüksəldilməsi, infrastrukturun və "elm-təhsil-istehsal" əlaqələrinin çevik idarəetmə mexanizminin qurulması, eləcə də şirkətlərin qlobal dəyər zəncirinə qoşulmaqla dünya bazarlarına inteqrasiyası üçün əhəmiyyətlidir.

Daha keyfiyyətli insan kapitalının formalaşdırılması daha çox maddi-mənəvi fayda əldə etməyə və rəqabətqabiliyyətliliyi yüksəltməyə imkan verir. Ali təhsil insan kapitalının formalaşmasında və inkişafında mühüm mərhələ hesab olunur. Onun insan kapitalının formalaşması və inkişafına təsiri özünü iki şəkildə büruzə verir: insan kapitalının formalaşmasında birbaşa iştirak edən ixtisaslı mütəxəssislərin hazırlanması və yeni biliklərin yaranmasında, tətbiqində, eləcə də ötürülməsində birbaşa iştirak. Bütün bunlar bir daha göstərir ki, Azərbaycanda yaxın və uzaq gələcəkdə də insan kapitalının inkişafı diqqət mərkəzində olacaqdır.



## ƏDƏBİYYAT


*1. İnsan kapitalının inkişafı iqtisadi strategiyanın əsas hədəflərindən biridir. http://ucnoqta.az/news/14075*

*2. İnsan kapitalının inkişafı strateji hədəf kimi yaxın və uzaq gələcəkdə də diqqət mərkəzində olacaq. http://www.azerbaijan-news.az/index.php?mod=3&id=127344*

*3. Березина А. С. Интеграция скандинавской модели //ББК 63+ 66 В74. – 2012. – С. 160.*

*4. Корчагин Ю. А. Широкое понятие человеческого капитала. Воронеж: ЦИРЭ, 2009.*

*5. Корчагин Ю. А. Эффективность и качество национальных человеческих капиталов стран мира. Воронеж: ЦИРЭ, 2011. С. 3*

*6. Корчагин Ю. А. Эффективность и качество национальных человеческих капиталов стран мира. Воронеж: ЦИРЭ, 2011. С. 3*

*7. Нестеров Л. , Аширов Г. Национальное богатство и человеческий капитал. // ВЭ. 2003. № 2*

*8. Gary S. Becker. Human Capital and Poverty Alleviation. http://documents.worldbank.org/curated/en/121791468764735830/pdf/multi0page.pdf*

# Təhsil

NİYAMƏDDİN HACIYEV
Gəncə Dövlət Universitetinin baş müəllimi

## XIX-XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ DƏRBƏND ŞƏHƏRİNDƏ TƏHSİLİN TARİXİNDƏN



Əsrlər boyu Azərbaycanın elm, mədəniyyət və siyasi mərkəzlərindən biri olan Dərbənd şəhəri Azərbaycan tarixinə olduqca böyük töhfələr vermişdir. Qədim tarixə malik olan Azərbaycanın bu şəhərində, müxtəlif zamanlarda onlarla görkəmli şəxsiyyətlər yetişmiş, elm, təhsil, maarif və digər sahələri inkişaf etmişdir. Bu şəhərin elm və təhsil sahəsi haqqında, müxtəlif dövrlərdə yaşamış tarixçilər, coğrafiyaşünaslar, səyyahlar olduqca maraqlı məlumatlar vermişlər.

Rusiya işğalına qədər Dərbənd(1806) şəhərində təhsil sistemini əsasən məhəllə məscidlərinin nəzdindəki ibtidai məktəblər təşkil edirdi. XVIII əsrdə Dərbənddə olmuş coğrafiyaşünas Zəkəriyyə əl-Qəzvini yazırdı ki, şəhərdə "…çoxlu qüllələr var və hər bir qüllədə dini elmlərlə məşğul olanlar üçün mədrəsə var". Məscid nəzdindəki məktəblərdən başqa, bəzi mollalar öz evlərində məktəblər açırdılar və bu məktəblərdə 10-20 uşaq təhsil alırdı. Bir qayda olaraq məktəblərdə oğlanlar və qızlar ayrılıqda təhsil alırdılar. Qızlar məktəbində qadınlar, oğlanlar məktəbində isə kişilər dərs deyirdi (2, 107-108).

Dərbənd şəhərində 1849-cu ildə yeni bir məktəb açılmışdır. Lakin məktəb 6 ildən sonra bağlandı. 1855-ci ilə məktəb Temir-Xan Şuraya köçürüldü.

1877-ci ildə qəza məktəbi 3 illik sinif şəhər məktəbinə, 1898-ci ildə isə 4 illik sinif məktəbinə çevrilmişdir. 1893-cü ildə məktəbdə 135 nəfər təhsil alırdı. Onlardan 50 nəfər – pravoslav. 50 nəfər – erməni, 29 nəfəri – müsəlman və 6 nəfəri başqa dinlərdən idi.

Məktəbdə rus və fars dillərini tədris etmək üçün Mirzə Mehdibəy Həşimbəyov dəvət olunmuşdu.

1864-cü il sentyabrın 7-də Dərbənddə qızlar üçün məktəb açıldı. Bu məktəbdə aşağıdakı millətlərin nümayəndələri təhsil alırdı:

- Müsəlman qızları – 11 nəfər;
- Tabasaran dairəsindən – 2 nəfər;
- Kürinsk xanlığından – 2 nəfər;
- Rus qızları – 4 nəfər;
- Erməni qızları – 1 nəfər

Bu məktəb 1873-cü il iyunun 20-də bütün təbəqələrdən olan qızlar üçün 4 illik təhsil məktəbinə çevrilmişdir. 1898-ci ildə məşhur Bakı milyonçusu Hacı Zeynalabdin Tağıyev bu məktəbə 400 rubl yardım etmişdir. 1900-cü ildə məktəb 3 illik təhsilli progimnaziyaya çevrilmişdir. 1904-cü ildə isə gimnaziya olmuşdur.

XX əsrin əvvəllərində Dərbənd şəhərində tədris müəssisələrinin sayı artmaqda idi. Biz bunu 1915-ci il statistikasından da görə bilərik:

**1915-ci ildə şəhərdə olan tədris müəssisələrinin sayı**
**Məktəblərdə oxuyan şagirdlərin milli tərkibi:**

1. Yadellilər 297 nəfər;
2. Ruslar 244 nəfər;
3. Gürcülər 10 nəfər;
4. Ermənilər 214 nəfər;
5. tatarlar 86 nəfər;
6. Dağlılar 12 nəfər;
7. Avropa yəhudiləri 14 nəfər;
8. Dağ yəhudiləri 32 nəfər;
9. Digər millətlər 14 nəfər.

| Tədris müəssisənin adı | Yaranma tarixi | Miqdarı | Şagirdlərin sayı | O cümlədən | |
|---|---|---|---|---|---|
| | | | | oğlanlar | qızlar |
| Şəhər dördillik ibtidai məktəb | 1877 | 1 | 94 | 94 | - |
| Kilsə məktəbi | 1893 | 1 | 85 | 51 | 34 |
| İbtidai Puşkin məktəbi | 1898 | 1 | 196 | - | 196 |
| Realnı məktəb | 1902 | 1 | 484 | 484 | - |
| Qızlar gimnaziyası | 1902 | 1 | 291 | - | 291 |
| Qoqol adına rus-tatar (Azərbaycan) məktəbi | 1902 | 1 | 72 | 72 | - |
| İbtidai Aleksandrovsk məktəbi | 1903 | 1 | 100 | 100 | - |
| Rus-Avropa məktəbi | 1904 | 1 | 213 | 161 | 52 |
| Bağçılıq, üzümçülük və tərəvəzçilik məktəbi | 1904 | 1 | 58 | 58 | - |
| Erməni məktəbi | 1905 | 1 | 62 | 27 | 35 |
| Müsəlman məktəbləri | - | 10 | 284 | 253 | 31 |
| Yəhudi məktəbləri | - | 11 | 286 | 286 | - |
| Cəmi: | | 31 | 2225 | 1586 | 630 |

Statistik məlumatlara görə 1891-ci illə müqayisədə 1915-ci ildə şəhərdə şagirdlərin sayı 4,12 dəfə artmışdır. 1000 nəfər sakinə 66,3 şagird düşürdü və bu rəqəm 1891-ci ilə nisbətən 1,8 dəfə çox idi. Bu dövr ərzində qız şagirdlərin sayı 8,3 dəfə artmışdır (10, 355).

1917-ci ilə qədər Dərbənd şəhərinin təhsil müəssisələrinin statistikası aşağıdakı kimidir: (10, 355)

**1917-ci ilə qədər olan Dərbənd təhsil müəssisələrində şagirdlərin sayı:**

| İllər | Tədris müəssisələrinin sayı | cəmi | Şagirdlərin o cümlədən | |
|---|---|---|---|---|
| | | | oğlanlar | qızlar |
| 1892 | 16 | 520 | 443 | 77 |
| 1895 | 16 | 525 | 461 | 64 |
| 1900 | 5 | 362 | 255 | 107 |
| 1905 | 11 | 1140 | 727 | 413 |
| 1910 | 11 | 1376 | 915 | 461 |
| 1915 | 11 | 1882 | 1174 | 708 |

Bu dövrdə dövlət məktəbləri ilə yanaşı məscidyanı məktəblərdə öz mövqeyini qorumaqda idi. 1832-ci ilin məlumatına əsasən məscidyanı məktəblərdə kişi cinsindən olan 250 uşaq təhsil alırdı. Onlardan 130 nəfəri imkansız ailələrdən, 70 – tacir, 25 – bəy, 25 – ruhani ailəsindən idi.

1834-cü ildə icazəsiz fəaliyyət göstərən bütün məktəblərin bağlanması haqqında Əlahəzrətin əmri çıxdı. Əlahəzrətin əmrinə baxmayaraq, şəhərdə məscidyanı məktəblər fəaliyyət göstərməkdə davam edirdi. Hətta şəhərdə kübar məktəblər açıldıqdan sonra da məscidyanı məktəblər haqqında məlumatlar rəsmi statistikaya daxil edilmişdir.

1873-cü ildə şəhərdə 394 nəfər şagirdi olan 18 məscidyanı məktəb, 1887-ci ildə 164 şagird olan 6 məktəb, 1913-cü ildə 270 nəfər şagirdi olan 10 məktəb (onlardan 40 nəfəri qız, 1915-ci ildə 213 nəfər şagirdi olan 10 məktəb (52 qız) fəaliyyət göstərmişdir (10, 394).

1920-ci ildə sovet hakimiyyəti qurulduqdan sonra məscidyanı məktəblər qadağan olundu.

Rus qəza məktəbi – Dərbənddə açılmış Dağıstanda ilk rus tədris müəssisəsi olmuşdur.

Şəhərdə dövlət tədris müəssisəsinin açılması haqqında məsələ rəsmi olaraq 1828-ci ildə general Saqin tərəfindən qoyulmuşdur. O, kənd təsərrüfatı bağçılıq üzrə tədris kursunun Azərbaycan dilində olmasını təklif etmişdir.

Oxşar vəsatət 1829-cu ilin aprelində Qafqaz canişini general-feldmarşal İ.F.Paskeviç (1827-1830) tərəfindən, 1834-cü ilin fevralında isə Qafqazda baş komandan olan baron Rozen tərəfindən təkrar olunmuşdur. 1835-ci ilin sonunda 12 may 1835-ci il tarixli "Zaqafqaziya texnikumları haqqında Əsasnamə"yə əsasən Dərbənddə Rus qəza məktəbinin açılması rəsmi elan olunmuşdur. Məktəbdə yalnız oğlanlar təhsil alırdı. Məktəb 3 sinifli planlaşdırılmışdır – hazırlıq və 2 təhsil sinfi. 3-cü sinifdə tədris fənləri rus dilində, 1 və 2 siniflərdə tədris fənləri Azərbaycan dilində aparılırdı. Ona görə də Azərbaycan dilinin öyrənilməsi vacib sayılırdı.

Məktəbdə 5 müəllim işləyirdi. Onlardan biri tərbiyəçi idi. Şəhərin komen-dantı podpolkovnik Şnitnikov məktəbin fəxri tərbiyəçisi təyin olunmuşdur.

1838-ci il yanvarın 2-də məktəbdə dərslər başlanmışdır. Şəhərin yuxarı hissəsində yerləşən 6 və 3 otaqlı iki yaşayış evi məktəb üçün icarəyə götü-rülmüşdür.

Məktəb açılan ili bura 35 şagird qəbul olunmuşdur. 1867-ci ildə rus şagirdlərinin Azərbaycan dilini öyrənməsi ləğv olunmuş və onun əvəzinə latın və fransız dilləri tətbiq olunmuşdur. İllik təhsil haqqı 8 rubl idi.

1877-ci ildə qəza məktəbi 4 sinifli şəhər məktəbinə çevrilmişdir. Məktəbin 50 illik yubileyi zamanı (2 yanvar 1888-ci il) bu tədris müəssisəsində 1410 cild kitabı olan fundamental kitabxana, 273 cildli kitabı olan şagird kitabxanası, 117 cihazlı fizika kabineti fəaliyyət göstərmişdir.

**Məktəbdə 50 il ərzində təhsil alan şagirdlərin sayı**

| İllər | Ümumi sayı | Kursu bitirmişlər | Xaric olunanlar | Yeni daxil olanlar |
|---|---|---|---|---|
| 1838 | 35 | - | 2 | - |
| 1848 | 57 | 2 | 8 | 12 |
| 1858 | 84 | 3 | 28 | 36 |
| 1868 | 84 | - | - | - |
| 1878 | 125 | 3 | 13 | 37 |
| 1888 | 108 | 9 | 21 | 32 |

Məktəbdə 1913-cü ildə 133 nəfər, 1915-ci ildə isə 94 şagird təhsil almışdır. Sovet hakimiyyəti ölkədə təhsil islahatı aparanadək məktəb fəaliyyət göstərmişdir.

Müsəlman məktəbi – 1848-ci ilin may ayında Dərbənd şəhərində açılmışdır. Bu rus qəza məktəbindən sonra şəhərdə ikinci dövlət təhsil müəssisəsi idi. Dərbənddəki müsəlman məktəbi canişin M.S.Voronsovun göstərişi ilə Qafqazda açılmış 8 məktəbdən biri idi. Məktəbin nizamnaməsində deyilirdi ki, burada təhsil almaq üçün "bütün azad təbəqədən olan" müsəlmanların uşaqları qəbul olunur. Məktəbdə Azərbaycan, rus, ərəb dilləri, coğrafiya, tarix, hesab, hüsnxət, "rus qanunları" haqqında ümumi anlayış, geniş istehsalının qayda və formaları tədris olunurdu. Burada uşaqlar pulsuz təhsil alırdılar və dövlət himayəsində saxlanılırdılar (10, 338).

Qafqaz müsəlman məktəblərinin təşkilində o dövrdə Qafqaz canişininin xüsusi işlər üzrə məmuru işləyən məşhur rus oriyentalisti N.Xanıkovun böyük rolu olmuşdur. Məktəbin plan və proqramlarının işlənməsi, onun müəllimlərlə komplektləşdirilməsi Xanıkovun məsləhətləri nəzərə alınmaqla aparılırdı. Onun məsləhəti ilə "…məktəbin baş müəllimi vəzifəsinə Dağıstanda ilk alim mollalardan sayılan Ayqun-kadi Canqutay dəvət olunmuşdur". Rus və fars dillərini tədris etmək üçün podporuçik Mirzə Mehdi bəy Haşımbəyov dəvət olunmuşdur. Məktəbin otaqları xüsusi evdə yerləşirdi və illik icarə pulu 300 rubl idi. Birinci il məktəbə 30 şagird sənəd vermişdir. Onlardan 10 nəfəri Dərbənddən idi.

1849-cu ildə artıq məktəbdə 64 şagird var idi. Onlardan 10 nəfəri

Dərbənddən idi. 1850-ci ildə – 42 şagird, 10-u Dərbənddən idi. 1851-ci ildə – 56 şagird, 8-i Dərbənddən idi. Sonrakı illərdə şagirdlərin miqdarı azalmağa başladı və 1854-cü ildə məktəbdə yalnız 20 şagird qaldı.

Xəzəryanı vilayətdə qoşun komandanı olan knyaz Orbeliani məktəbi Temir-Xan Şuraya köçürməyi təklif etdi. 1856-cı il yanvarın 16-da Dərbənddəki məktəb bağlandı və Temir-Xan Şura şəhərinə köçürüldü (10, 339).

**Qadın məktəbi** – Dərbənd şəhərində 1873-cü il iyunun 20-də müsəlman qızları üçün ibtidai məktəbin bazasında yaradılmışdır.

**Qadınlar üçün gimnaziya** – Dərbənd şəhərində 1900-cü ilin sentyabr ayında müsəlman qızları üçün ibtidai məktəbin bazasında yaradılmışdır. Bu gimnaziya 3 sinifli, ödənişli təhsildən (illik təhsil haqqı 20 rubl) ibarət idi. Bu məktəb Bakı quberniyasının xalq məktəbləri direktorunun nəzarəti altında idi.

1904-cü ildə bu gimnaziya Qadın gimnaziyasına çevrildi (10, 202-203).

**Realnı məktəb.** Dərbənddə oğlanlar üçün orta təhsil müəssisəsinin açılması məsələsi uzun müddət həll olunmamış qalırdı. Hələ 1882-ci ildə şəhər ictimaiyyəti Qafqazda mülki hissələrin baş rəisi knyaz Dondukov-Korsakova bu məsələnin həll edilməsinə kömək etmək üçün müraciət etmişdir. Hətta, 1884-cü ildə Dərbənddə oğlanlar gimnaziyasının saxlanması üçün xərclərin maddəsi də təhsil Nazirliyinin smetasına daxil edilmişdir. Lakin smetanın təsdiqi zamanı bu maddəni çıxarmışlar. 1897-ci ildə şəhər müvəkkil olunmuşların iclası bu məsələni yenidən qaldırdı, lakin bu məsələ dövlət rəhbərləri tərəfindən qəbul edilmədi. 1899-cu ildə yenidən ali hakimiyyət orqanlarına şəhərdə oğlanlar üçün gimnaziyanın açılması barədə müraciət etdilər və hər il bu məktəbə şəhər vəsaitlərindən 2 min rubl, binanın tikilməsi üçün təmənnasız torpaq sahəsi və avadanlıq almaq üçün 5 min rubl ayırmağa söz verdilər. Lakin Dağıstan vilayətinin hərbi qubernatoru general Tixanov bu dəfə də xahişi rədd etdi.

Şəhər hakimlərinin hesabına görə yeddisinifli və bir hazırlıq sinifli gimnaziyanın saxlanması üçün illik xərc 40 min rubldan yuxarı deyildi. Avadanlıq, kitab, dərs vəsaitlərinin alınması üçün ayrıca smeta tərtib edilmişdir. Şagirdlərin sayı belə planlaşdırılmışdır: hazırlıq sinfi – 40 nəfər, 1, 2, 3 və 4 siniflərdə – hər sinifdə 35 nəfər, 5, 6 və 7 siniflərdə – hər sinifdə 30 nəfər şagird. İllik təhsil haqqı 50 rubl müəyyən edilmişdir. Bütün bunlara baxmayaraq, vəsait olmadığı üçün yenidən şəhər sakinlərinin xahişi rədd edilmişdir.

1902-ci il avqustun 27-də şəhər müvəkkili olunmuşların iclası Qafqaz tədris dairəsinin hamisindən teleqram almışdır. Teleqramda deyilirdi: "Maarif Naziri 19 avqust teleqrammı ilə Dərbənddə realnı məktəbin şəhər vəsaitləri hesabına açılmasına icazə verilmişdir". 1902-ci il oktyabrın 1-də məktəbin açılışı olmuşdur. S.D.Netatkeviç məktəbin ilk direktoru olmuşdur (10, 405-408).

Ümumiyyətlə, XIX əsr - XX əsrin əvvəllərində Dərbənd şəhərində istər məscidyanı mədrəsələr, istərsə də dövlət məktəbləri geniş şəkildə fəaliyyət göstərmişdir. Bunun da nəticəsində şəhər əhalisinin ictimai şüuru və təfəkkür tərzində yeni mütərəqqi baxışlar meydana gəlmişdir. Heç təsadüfi deyildir ki, XX əsrin əvvəllərində Rusiya imperiyasında baş verən siyasi proseslərdə Dərbənd şəhərində yetişən siyahıların və mütəfəkkir siyasi xadimlərin xüsusi rolu olmuşdur.

## ƏDƏBİYYAT


*1. Azərbaycan Milli Ensiklopediyası. Bakı, 2007.*

*2. Azərbaycan tarixi. Yeddi cilddə. IV cild. Bakı, 2007.*

*3. Azərbaycan tarixi. (1900-1920-ci illər). Yeddi cilddə. V cild. Bakı, 2007.*

*4. Абдуллаев М.А. Мыслители Дагестана XIX - нач. XX вв. Махачкала, 1963 г.*

*5. Абдуллаев М.А. Из истории научной и педагогичепской мисли досоветского Дагестана. Махачкала, 1986 г.*

*6. Бартольд В.В. Дербент. Соч., т.3 М., 1965 г.*

*7. Гаджиев М.Г., Даудов О.М., Шихсаидов А.Р. История Дагестана. Махачкала, 1996.*

*8. Гаджиева С.С. Дагестанские азербайджанцы. М., 1999.*

*9. Гаджибабаев С.Ш. Культура Азербайджана в период первой русской революции (1905-1907). Баку, 1990.*

*10. Гусейнов Г. Энциклопедия города Дербента. Москва, 2009.*

*11. Гусейнова Д.С. Интеллигенция Азербайджана в конце X1X-начале XX в., Б, 1993.*

*12. Джахиев ГА. Россия и Дагестан в начале XX века; Махачкала, 1985.*

*13. Каймаразов Г.Ш. Очерки истории культуры народов Дагестана. М., 1967.*

*14. П а ш а е в А. Очерки истории начального образования на Кавказе (в XIX - начале XX вв.), Баку, 1991.*

*15. Xəlilov N. Azərbaycanda məktəb və pedaqoji fikir tarixindən. Bakı, 1998.*

*16. Селимханов А.Г. Из истории просвещения в Дагестане XIX веке. Учебные записки ДГЖПИ. Махачкала, 1959.*

*17. Таирзаде.Н.А. К истории создания учебных пособий по Азербайджанскому языку, для русских, учебных заведений Закавказья в 30-50-е гг. XIX в. // Известия АН Азерб. ССР. Серия общ. наук, 1963, № 2, стр. 39-54.*

*18. Таирзаде Н.А. О мусульманских училищах в Азербайджане в 40-50-е годы XIX в. // Труды музея истории Азербайджана. Б., 1962.*

*19. Таирзаде Н.А. К участию кавказцев студентов Московского университета в рев. движении России в конце 60-х годов XIX в. // Известия АН Азерб. ССР. Серия ист. филос. и права. 1964, № 4, стр. 27-41.*

*20. Таирзаде Н.А. Численность и состав учащихся русских учебных заведений в Азербайджане в 40-50-х гг. XIX в. // Известия АН Азерб. ССР. Серия ист. филос. и права. 1964, № 1.*



***Açar sözlər:*** *Təhsil, Dərbənd, Azərbaycan, Rusiya*
***Ключевые слова:*** *Образование, Дербент, Азербайджан, Россия*
***Key words:*** *Education, Derbent, Azerbaijan, Russia*


**Н.М.Гаджиев**

**Некоторые вопросы просвещения города Дербента XIX-XX веков**

**РЕЗЮМЕ**

Дербент издревле являлся одним из центров азербайджанской науки и культуры. В исследуемый период в Дербенте действовали как медресе, так и государственные школы. В результате развития просвещения и образования формировалось национальное самосознание местного населения.

**N.M.Hajiyev**

**Some educational problems of Derbent nineteenth and twentieth centuries.**

**ABSTRACT**

Derbent ancient times was one of the centers of Azerbaijani science and culture. In the analyzed period in Derbent acted as madrassas and public schools. As a result, the development of teaching and education formed the national consciousness of the local population.

# Mifologiya

## AZƏRBAYCAN XALQININ DAŞLA BAĞLI İNANCLARINDA TARİXİ DEMOQRAFİYA MƏSƏLƏLƏRİ

AYDIN MƏMMƏDOV
BDU-nun Mənbəşünaslıq, Tarixşünaslıq və metodika kafedrasının müəllimi, dosent



İnsan onu əhatə edən ətraf mühitdən daima, müntəzəm olaraq informasiya alır və əldə etdiyi məlumatları zaman-zaman beynində saf-çürük edir, həyatı və yaşayışı üçün ən vacib olanlarını isə gələcək nəsillərə ötürmək üçün yaddaşında qoruyub saxlamağa cəhd edir. Məhz yaşadığı mühitlə fəal informasiya mübadiləsi minilliklər və əsrlər boyu ulu əcdadlarımızın düşüncə tərzinin, yaşam fəlsəfəsinin formalaşmasında misilsiz rol oynamış, gündəlik həyatda baş verən hadisələrlə bağlı olan inanclar yaratmasına ciddi təsir göstərmişdir.

Ulu əcdadlarımızın hələ bəşər tarixinin ən qədim dövrlərində müxtəlif məişət məsələləri, təbiət hadisələri, o cümlədən bitki və heyvanat aləmi ilə bağlı inancları da, təbii ki, ətraf mühitlə müntəzəm surətdə qurduqları informasiya mübadiləsi nəticəsində meydana gəlmişdir. Bəşər övladı həmişə özünü və insan nəslini baş verə biləcək hər hansı bir təhlükədən sığortalamaq üçün qoynunda yaşadığı təbiətin sirlərindən agah olmağa, diqqəti cəlb edən hadisələrin səbəbini aramağa cəhd etmişdir. Ulu əcdadlarımızın bu cəhdləri təbii ki, hər şeydən öncə təbiət qüvvələrini ram etmək, normal həyat və məişətlərini təmin etmək ehtiya-cından, yaşamaq uğrunda apardıqları çox çətin, mürəkkəb mübarizədən irəli gəlirdi.

Təbii ki, insanların yaşamaq uğrunda apardıqları mübarizə çox çətin, mürəkkəb və çoxcəhətli bir prosesdir. Belə ki, burada söhbət insan həyatının, onun daxili mənəvi aləminin tükənməzliyindən, potensial imkanlarının nəhayətsizliyindən gedir. İnsan özü ilə ətraf mühit, xəyal və istəkləri və təbii reallıqlar arasında körpü yaratmağa çalışır, özünü sirli-sehrli dünyanın ayrılmaz varlığı kimi dərk edirdi. Ulu əcdadlarımızın göyə, yerə, dağlara, daşlara, suya, oda, ocağa tapınması, onları müqəddəsləşdirməsi də beləcə baş verirdi.

Ulu əcdadlarımızın ətraf mühitlə, təbiət hadisələri ilə bağlı inanc və mərasimləri əslində onların yaşayış və düşüncə tərzinin inikası kimi meydana gəlir, milli folklorumuzda, ibtidai incəsənətimizdə öz əksini tapırdı.

Məsələn, Azərbaycanda orta tunc dövründə meydana gələn boyalı qablar mədəniyyətinə məxsus naxışların əksəriyyəti ulu əcdadlarımızın gündəlik məişəti, astral-dini baxışları, inanclar sistemi, ümumiyyətlə təbiətə, ətraf mühitə olan münasibətləri ilə bağlıdır. V.Əliyevin təbirincə desək: "Bu rəsmlər Azərbaycanın qədim əhalisinin günəşə, ulduzlara, aya, oda, suya, dağlara və s. təbii qüvvələrə sitayiş etdiklərini sübut edir (7,46).

Azərbaycanlıların ən qədim inanclarında odla, ocaqla bərabər, torpaq, dağ və daşlar da ən müqəddəs təbiət elementlərindən biri olmuşdur. Çünki, qədim insanların sığınacaq tapdıqları, pənah gətirdikləri ilk məskən sal qayalar, daşlar arasındakı mağaralar olmuşdur. İnsanların həyatında mühüm rol oynayan mağaralar: "onları soyuqdan, istidən saxlamış, həm də əldə etdiyi qida məhsullarının saxlanmasına imkan yaratmışdır" (2,404).

Daşlara pənah gətirən insan məhz onun qoynunda özünə daimi yaşayış yeri tapmış, məişət və güzəranını sahmana sala bilmişdir. Lakin, qışda soyuq olan mağaraları əcdadlarımız odla, alovla qızdırırdılar. Belə olan tərzdə daşlara inam necə yarana bilərdi. İnsanın şüur və təfəkkürü inkişaf etdikcə, oddan təsadüfi istifadə halları da aradan qalxır, odun süni yolla əldə edilməsi isə, insan mədəniyyətinin ayrılmaz hissəsinə çevrilirdi (16,26).

Elə qədim əcdadlarımızın daşların insanlara həyat bəxş etməsi ilə bağlı inam və inanclar da məhz bu dövrdən, yəni insanın daşları bir-birinə vuraraq od əldə etməyi öyrənməsi ilə eyni vaxtda başlamışdır.

Ə.Cəfərovun təbirincə desək, iki çaxmaqdaşını bir-birinə vurub, qəlpə qoparmaq istəyən insanı bu zaman əmələ gələn qığılcım mat qoymuşdu: "Bu nə ola bilər? Belə bir hadisə ilk dəfə idi ki, onların diqqətini cəlb edirdi. Hamı bu hadisəni təəccüblə qarşıladı və onun necə baş verməsi səbəbi ilə maraqlandı. Daşları bir-birinə vurdular. Bu dəfə də daşlardan qığılcım qopmağa başladı (5,33).

Ulu əcdadlarımızın ən qədim inanclarında Günəşin yerdəki bəlgəsi kimi müqəddəsləşdirilən odun daşdan yaranması, yaxud daşın odu, ocağı "doğması" təbii ki, bu təbiət elementinə də ehtiram və rəğbət qazandırmalı, onu müqəd-dəsləşdirməli idi.



Ulu əcdadlarımız Günəşə və onun simvolu olan oda, ocağa həmişə onları bəd hadisələrdən, şər ruhlardan qoruyan himayədar kimi baxmışlar: "Azərbaycanlıların qədim inamına görə, od təbiətin ən təmiz və ən müqəddəs ünsürlərindən biridir. Təsadüfi deyildir ki, bir çox pərəstiş yerləri pir-ocaq adlandırılırdı (8, 238).

Ulu əcdadlarımız Günəşi və onun bəlgəsi olan odu-ocağı doğum, törəmə və artım əqidəsi ilə də bağlamışlar: "Məhz ocağın müqəddəsliyinə görədir ki, onu qəbilə ilə, nəsillə eyniləşdirirdilər". (8.238)

Günəşə, oda, ocağa aid demoqrafik xüsusiyyətlərin müqəddəs daşlara da transifikasiyası təbii ən əski çağlarda heç də bir qrup seçilmiş adamın daxili hissinin təzahürü olmayıb, bütün xalqa məxsus mənəvi prosesdir. Qədim əcdadlarımızın daşların doğum və artımla bağlı inanclarını əks etdirən folklor nümunələri ilk növbədə real gerçəklikdən alınmış təsəvvürlər üzərində yaradılmışdır. Lakin, bu təsəvvürlərdə gerçəklikdə biləvasitə əlaqə tələb olunmur. Çünki, işığı, istini "doğan" daş insanın həyat şəraitini, məişətini yaxşılaşdırmaqla, qışın məhvedici şaxta-sazağından, vəhşi heyvanların pəncəsindən qurtarmaqla yaşamasına, nəslini artırmasına misilsiz töhfə vermiş olurdu. Yaşamaq və öz nəslini artırmaq arzusu və onu reallaşdırmaq istəyi ulu əcdadlarımızın dini inanclar sistemində daşların da uca statusunu müəyyənləşdirir, onlara pərəstişin əsasını qoyurdu: "...Qədim əcdadlarımız daşları, suları, dağları, ağacları fetişləşdirməklə sonrakı dövrlərdə müqəddəs yerlər hesab edilmiş pirlərin əsasını qoymuşlar (12,88-89; 13, 57).

Başqa sözlə desək, ulu əcdadlarımız onların gündəlik ehtiyaclarını aradan qaldırmağa kömək etmiş müqəddəs daşları öz mifoloji təsəvvürlərində xeyirxah element kimi rəzmləşdirmiş, ona doğuma və artıma yardımçı ola bilən xüsusiyyətlər şamil etmişdir. Xalq inamına görə, daşlar da ana ola bilir, yəni artım nəsil verərək çoxala bilirlər.

Şabran rayonunun Leyti kəndində ətrafında çoxlu kiçik daşlar olan iri daşa "balalayan daş" deyirlər. Hətta indinin özündə belə xalq inanclarına ehtiram göstərən həmin kəndin sakinləri, hər il həmin iri daşın ətrafındakı xırda daşların çoxalmasını guya ana daşın balalaması ilə izah edirlər. Eyni inam və inancla Azərbaycanın digər guşələrində də rastlaşırıq.

Vaxtı ikən Culfa rayonunun Xanağa kəndində yaşayan 106 yaşlı Hüseynova Səkinə Əli qızının dediklərindən: "Qızılca kəndinin yaxınlığında bir təpə var. Adına Daban təpəsi deyirlər. Orada olan daşlar ocaxdı. Onlar göydən düşüblər, keçmişi də bilirlər, gələcəyi də. Adamların dərdini də bilirlər, dərmanını da. Orada olan daşlardan biri qalanından çox böyükdü. El arasında həmin daş o birilərinin anası hesab olunur. Balaca daşlar da onun balalarıdı. Ana daş həmişə balalayır..." (4,82).

Hələ çox qədimlərdə adamlar göy gurultusunu göydə yaşayanlar arasında baş verən toqquşma ilə izah edər və deyərdilər ki, göydəkilər iri, nəhəng daşları buludların arxasında bir-birinə tərəf diyirlədirlər. Daşlar bir-birinə dəyəndə qulaqbatırıcı səs çıxarırmış. İnanclara görə, birdən bu daşlardan biri göydən yerə düşərsə, bədbəxtlik olmasın deyə, adamlar qorxu içində komalara, mağaralara girib gözlərmiş. Gurultu kəsilənə qədər mağaradan çıxmazmışlar. Deyərmişlər: "Yenə, göydəkilərin nəyə görəsə sözləri çəp düşüb, ona görə də, aralarında dava başlanıb" (1,29).

Bu mifoloji mətnlərdə daşların göydə qərar tutması, yaxud göydən düşməsi təbii ki, əcdadlarımızın qədim astral baxışları ilə bağlıdır. Axı xalqımızın qədim astral baxışlarına görə Göy də müqəddəsdir. Belə ki, Göylə bağlı çoxsaylı folklor nümunələrindən birində deyilir ki, "Göydəki ulduzların sayı yer kürəsində yaşayan insanların sayı qədərdir. Hər adamın bir ulduzu var. Adam öləndə onun ulduzu da batır ki, buna ulduz axması, ya uçması deyilir. İnsan anadan olan günü onun ulduzu da göydə doğulur" (3,282).

Başqa bir folklor nümunəsində isə, hər adamın iki ulduzu olmasından bəhs edilir. İnanca görə, bu ulduzlar insanın bütün ömrü boyu, həmişə onun çiyinlərində olur, yalnız adam öləndə yoxa çıxırlar. (3.283) Başqa sözlə, xalqımızın mifik kosmoqonik baxışlar sistemində bir növ göy insanların nəinki artım, eləcə də ölüm dinamikasını əks etdirən demoqrafik göstərici rolunda çıxış etmişdir.

Ulu əcdadlarımızın gecə göy üzündə çoxsaylı nöqtələr kimi görünən, bərq vuran ulduzlara doğum və ölüm kimi demoqrafik xüsusiyyətləri aid etməklə, bir növ insan nəslinin artma və azalma səbəblərini anlamağa çalışmışlar. Digər tərəfdənsə, insan nəsillərinin artması – çoxalması və azalması kimi təbii demoq-rafik proseslərin sanki göydən idarə olunduğunu təsdiq etmişlər. Əlçatmaz göylərdə hər bir varlıq, hadisə göründüyü qədər də asan deyildir, aydın şəkildə görünən hər şeyin arxasında bir sirr, bir müəmma vardır.

Qədim inanclara görə bu ulduzlardan bəziləri hətta nə vaxtsa yerdə yaşayan insanlar imiş, həmin insanlar guya nə vaxtsa bu və ya digər arzuedilməz hadisələrdən özlərini qorumaq üçün səmaya üz tutaraq yalvarmış və ulduz olub göylərə çəkilmişlər. Ülkər adlı ulduzla bağlı mifoloji folklor nümunəsi buna əyani misaldır: "Ülkər ulduzu guya bir gözəl qız imiş. Süleyman peyğəmbər ona aşiq olur və zorla hərəmxanasına aparmaq istəyir. Ülkər Süleyman peyğəmbərə getmək istəmir, bir uzaq yerə çəkilib dua edir. Onun duası qəbul olunur, qız ulduz olub göyə çəkilir" (3,283).

Bu mətndə Ülkərin duasının qəbul olunması ilə insan haqqının, ləyaqətinin göylər üçün nə qədər önəmli olması aydın şəkildə özünü göstərir. Məhz bu baxımdan qədim əcdadlarımızın daşların da göydən yerə enməsi kimi astral, kosmoqonik baxışları onlara olan inamı təbii ki, artırmalı idi. Məhz ona görə də xatırladığımız mifoloji mətndə deyildiyi kimi həmin daşlar keçmişi də, gələcəyi də bilirlər, onlar ocaqdırlar: "Oda and içərlər: "Bu od haqqı!", "Ocaq haqqı!", "Ocağın sönsün!", "Gözün köz kimi qızarsın!", "Çıraq haqqı!". Hətta piri ocaq hesab edərlər. Pirə, imamzadəyə gedənə "ocağa gedib" deyərlər (3,282).

Daşlara ocaq kimi səcdə edən insanlar onları yerindən tərpətməyi belə günah sayıblar: "Ana daş həmişə həmişə balalayır. Onu öz yerindən götürüb başqa yerə aparanda o, gecə ikən qayıdıb gəlir, balalarının içində olur" (4,82).

Elə xalqımızın: "Bir daş da yiyəsiz deyil, hər daşın bir sahibi var" deyimi də bu inancla bağlıdır. İnsanlar inanırdılar ki, müqəddəslik məqamı qazanan daşların yerindən tərpədilməsi belə onlara bədbəxtlik və fəlakət gətirər. Mifoloji mətnlərdən birində evinin zirzəmisində qoca bir daşı yerindən tərpətmək istəyən qadının üzləşdiyi bədbəxt hadisədən bəhs olunur. Daşı evinin zirzəmisindən bayıra çıxarmaq istərkən: "... Daşın xofu onu basır, qayıdıb tez gedir mollanın yanına. Molla deyir ki, zirzəmini təmiz saxla, əgər natəmiz olsa, sizə ziyanlıq gətirəcək (4,81).

Həmin arvadın nəvəsi zirzəmidəki daşı murdarladığına görə



xəstələnərək ölür. Mollanın göstərişi ilə arvad həmin daşı məscidə gətirir: "Amma səhər durub görür ki, daş yenə zirzəmidədi. Ondan sonra neçə dəfə daşı aparırlar məscidə, daş yenə də qayıdıb gəlir öz yerinə" (4,81).

İstər Ülkər ulduza, istərsə də zirzəmidəki daşla bağlı mifoloji mətndə ulu əcdadlarımızın minilliklərdən üzü bəri yol gələn astral mifoloji baxışları ilə təkallahlılığa söykənən dini əqidələri sanki, eyni məfkurə meydanını, səhnəsini bölüşürlər, lakin bir-birini inkar etmir, əksinə rəğbətlə yanaşırlar.

Yeri gəlmişkən, daşlara ehtiram, onların yerini dəyişməyin qəbahət və babal olmasına inam hətta XVIII əsrə dair tarixi qaynaqlarda da öz əksini tapmışdır.

Teymurun qəbri tünd-göy rəngli nifrit daşından düzəldilmişdir. Bu daş 1425-ci ildə Uluqbəy tərəfindən monqolların məğlubiyyəti dövründə qənimət alınmışdır. 1740-cı ildə İran şahı Nadir Buxara xanlığını aldıqdan sonra Səmərqəndə daxil olur və əmr edir ki, Teymurun qəbirüstü nifrit daşını söküb Məşhəd şəhərinə aparsınlar. Söyləyirlər ki, daş çıxarılıb aparılarkən Nadir şahın yeganə oğlu ölür. Odur ki, o, Allahdan qorxub daşı Səmərqəndə qaytarır (11, 128).

Deyilənlə görə, Böyük Vətən müharibəsi Əmir Teymurun qəbrinin üzərindəki sinə daşı götürüləndən sonra başlanmışdır. Milyonlarla insanın ölümü ilə nəticələnən bu müharibədə sovet qoşunlarının uduzaraq geri çəkilməsini görən generallardan biri (ehtimala görə, bu G.K.Jukov olub – A.M.) İ.Stalinə Əmir Teymurun nəşini yerinə qaytarmasını tövsiyə edir. Elə sovet qoşunlarının Böyük Vətən müharibəsi illərində ilk dəfə müdafiədən hücuma keçməsi də Əmir Teymurun sinə daşının yerinə qaytarılması ilə başlanır.

Gətirilən misallardan daşların bu və ya digər səbəbdən insanların ölümünə təsir göstərməsi bəlli olur. Əslində, mühüm demoqrafik proseslərdən biri olan ölüm hadisəsi insan artımı ilə dialektik vəhdət təşkil edir. Bu baxımdan, Şərqin və bütün dünyanın ən böyük mütəfəkkirlərindən biri olan İbn Sinanın demoqrafik baxışları maraq doğurur. O, ölümü həyatın məntiqi davamı, yer üzündə canlıların və onların nəsillərinin bir-birini əvəz etməsi prosesi kimi qiymətləndirirdi. İbn Sinanın fikrincə, insan nəsli yaranır, inkişaf edir və müəyyən zaman fasiləsindən sonra yerini digər nəsillərə verir, əgər belə olmasaydı, o zaman quru sahəsi məhdud olan Yer üzündə insanlar ifrat dərəcədə artar, yaşamaq dözülməz həddə çatardı.

İbn Sinanı öz əsərlərində "ustad" adlandıran görkəmli Azərbaycan alimi N.Tusi də ölüm hadisəsinə eynilə İbn Sinanın mövqeyindən yanaşaraq yazırdı:" Fəlsəfədə deyilir ki, hər yaradılan məhv edilə bilər; deməli məhv olmaq istəməyən yaradılmamasını istəmiş olur" (14, 136).

N.Tusi İbn Sinanın gətirdiyi bu iqtibasda onun adından danışaraq yazır: "Bizim ata-babalarımız ölməsə idilər, növbə bizə çatmazdı, əgər həmişə yaşamaq mümkün olsaydı, bizdən əvvəlkilərə də mümkün olardı. Əgər indiyə qədər doğulub ölmüş bütün adamlar sağ qalsaydı, yerə sığışmazdılar. Fərz edək ki, ata-babaları və övlad-nəvələri məlum və məruf olan keçmiş adamlardan birinin nəslindən törəmiş bütün adamlar sağ qalsaydılar, onların sayı çox olardı. Ondan əvvəl və sonra doğulub-ölmüş adamları da bunun üstə gəlsən, gör onların sayı neçə minə çatar? (14,136-137)

Azərbaycanın orta əsrlərdə (XIV-XV) yaşamış görkəmli alimi Ə.Bakuvi planetimizdə müxtəlif təbii zonaların yaranmasını müxtəlif keyfiyyətli daşların mövcudluğu ilə izah edirdi. O yazırdı: "Günəşin təsiri, yağışların yağmağı və küləklərin əsməsi nəticəsində Yer kürəsinin hər bir guşəsini bir-birindən ayıran fərqlər əmələ gəlir. Onların bəziləri möhkəm daşa döndü, digərləri bərəkətli torpaq oldu, üçüncüsü də şoranlığa çevrildi. Hər bir guşənin öz xüsusiyyəti var: daşlıqlarda yaqut və zümrüd yaranır, bərəkətli yerlərdə taxıl və meyvə bar verir, şoranlıqlarda isə, duzla zəy əmələ gəlir və hər bir guşəni özünəməxsus insan nəsli fərqləndirir. Bu, ya alimdir, ya dini xadimdir, ya da ki sənətkardır" (6,8).

Göründüyü kimi, əl-Bakuvi tarixi demoqrafiyanın mühüm tədqiqat sahələrindən biri olan məskunlaşma hadisəsini daşların və torpağın xüsusiyyəti ilə sıx şəkildə əlaqələndirmişdir.

İnanclara görə, daşlar insanlara övlad da bəxş edir. Mifoloji folklor nümunələrindən birində, daş ölü uşaq doğan qadına analıq sevincini yaşamaq səadəti bəxş edir. Belə ki, həmin ana ərinin qorxusundan ölən uşağını gizlədib onun yerinə beşiyə daş qoyaraq yırğalamağa başlayır: "Əri evə qayıdanda arvadının bar - yükünü yerə qoyduğuna çox sevinir. Beşiyə tərəf gedir ki, övladına baxsın. Gəlin tez yerindən qalxır, dili tutar-tutmaz deyir ki, təzəcə yuxuya gedib oyadarsan. Kişi bir qədər gözlədikdən sonra səbri çatmır. Arvadının sözünə baxmır, özünü salır beşiyə. Görür ki, beşikdə gözəl bir uşaq var. Amma hər ikisini heyrət bürüyür. Arvad görür ki, beşiyə qoyduğu daş uşaq olub. Kişi də çaşır ki, bir günlük uşaq "nə atam var, nə anam, yaranmışam daşdan mən" deyə, mahnı oxuyur" (4,81-82).

Yunanların baş tanrısı Zevs dünyaya gələndə anası Rey onu əri Kronosdan gizlədir. Kronos arvadının dünyaya gətirdiyi övladları udduğuna görə, Rey oğlu Zevsin əvəzinə ələyə daş bükür. Rəvayətə görə, daşa övladını zalım Kronosdan qurtarmağı xahiş edən ana istəyinə nail olur. Kronos oğlunun əvəzinə daşı udduğuna görə, Krit adasındakı mağarada gizləyir. Burada Zevsi ana südü ilə Amalfeya adlı keçi bəsləyir. Nəzərə alsaq ki, keçi dünyanın demək olar ki, bir çox xalqlarında, o cümlədən türkdilli xalqlarda yazın, günəşin, törəmənin, artımın bəlgəsi, simvoludur (9,267-272; 10,327-331.). Onda Zevsi ölümün labüd pəncəsindən qurtaran, daşın da insan nəslinin artıb-törəməsinə yardımçı etməsi bəlli olar. Burada daş Zevsi ölümdən qurtarır, keçi isə onu öz südü ilə bəsləyir, yaşadır. Bu mənada, daşın artıq irəlidə söylədiyimiz kimi Günəşlə, artımla ilişgili olması, əlaqəsi bir daha öz təsdiqini tapır (15, 560).

Bu folklor nümunələrindən birində, daş ölən övladı əvəz edir, digərində isə, təzə doğulan körpəni real ölüm təhlükəsindən xilas edir. Hər iki halda daş nəsil artımının himayədarı kimi çıxış edir.

Yazın carçısı olan Xıdır İlyasın yolunu nəhəng əjdaha kəsəndə daş yenə də kara gəlir. Belə ki, Xızır İlyasın atı şahə qalxır, əjdahaya bərk bir təpik vurur. Əjdaha daha yerindən birdə qalxmır, daş olur qalır (4,82).

İnanclara görə, əjdahalar da cinlər kimi Günəşin, yazın düşməni olduqlarına görə, ona hücum edib, boğmağa çalışırlar. O zaman Günəşlə

cinlər, əjdahalar arasında bərk dava düşür. Günəşin gücü bu davada tükənməyə başlayır, Günəşin tək olduğunu görən adamlar ona kömək etməyə çalışırlar (4,38).

Bu folklor nümunəsində də, əjdahanın Xızır İlyasın yolunu kəsməsi əslində Günəşin, istinin, işığın yolunu kəsməsi anlamına gəlir. Təsadüfi deyildir ki, Azərbaycanın bəzi bölgələrində, iri buludlar Günəşin qabağını kəsəndə, yaxud uzun müddət quraqlıq olarkən insanlar daşlardan istifadə etməklə bir sıra ayinlər icra edirdilər. Soydaşlarımız yağışlar uzun müddətli ara verəndə insanlar müqəddəs ocaqlardan götürülmüş daşları, ortadan dəlib suya salardılar. Məsələn, Quba – Qonaqkənd zonasında Babadağından gətirilmiş yeddi daşı ortadan dəlib bir ipə düzər və ananın ilki olan qız uşağı onu suya salıb ipin başını sahildəki ağaclardan birinə bağlayardı. Daşlar suya salınarkən insanlar xorla oxuyardılar: "Daş başım, yaş başım. Yaş oldu üst-başım". Sonra daşı suya salardılar və bu vaxt əsas əfsunçu oxuyardı: "Suda daşım, quda daşım, baba daşım. Gələr. Getməz yağışım" (12,12).

Günəşin çıxmasını arzulayan insanlar da Babadağından gətirilmiş daşı ocaqda, küldə basdırır və ocaqda xəşil bişirirdilər. Xəşili ananın ilki çalmalıdır. Əfsunçu basdırılan daşın üstünə közləri yığa-yığa oxuyardı: "Qodu, odu daşı. Qodu kəssin yağışı" (12,13).

Ulu əcdadlarımızın mifoloji inanclarında daşların insanlara şəfa verərək ömürlərini uzatması əqidəsi də mövcud olmuşdur. Şabran rayonunun Leyti kəndində kənd sakinlərinin uzun illərdən bəri inam bəslədikləri dalaq piri, yel piri, dişağrısı piri və s. bu kimi ziyarətgahları mövcuddur. Adı çəkilən pirlərin hamısında forması ilə insanda təəccüb və heyrət doğuran sal daşlar mövcuddur. İnanca görə, dalağı ağrayan, sancan insan dalaq piri daşına toxunaraq şəfa diləyir. Yaxud, yel xəstəliyinə tutulan insanlar yel piri daşına nəzir-niyaz gətirərək müəyyən ayinlər yerinə yetirərək, muradlarına çatacaqlarına inanırlar.

Təbii ki, bütün bu ayinlərin yerinə yetirilməsinin kökündə ulu əcdadla-rımızın daşlara dair inancları durur.

Ulu əcdadlarımızın ətraf mühit haqqında bilikləri zaman-zaman artdıqca, təbiət hadisələrinə dair təsəvvürləri dərinləşdikcə inancları ilə gerçəklik arasında olan məsafə də azalır, yaxud üst-üstə düşürdü. Çünki, təbiət hadisələri haqqında elmi biliklərin formalaşması, elmi mücərrədləşdirmənin özü də insanın ətraf mühitlə ünsiyyəti zamanı əldə etdiyi uzun inkişafının nəticəsi olmaqla yanaşı həm də gerçəklik hadisələrinin real inikasıdır. Bu gün elmi-texniki tərəqqinin dayanmadan, sürətlə inkişaf etdiyi dövrdə belə uzaq keçmişdə yaşayan əcdadlarımızın təbiət haqqındakı bilgiləri, onu əhali artımı və azalması ilə müşayiət olunan proseslərlə əlaqələndirə bilmələri, tarixi-demoqrafik düşüncə mədəniyyəti insanı heyrətləndirməyə bilmir.

Xalqımızın minilliklərdən üzü bəri yol gələn daş inancı ilə bağlı milli folklor nümunələri bizə nəinki əcdadlarımızın düşüncə və təfəkkür tərzi ilə tanış olmaq, o cümlədən tariximizin dərin qatlarında qalan həyat həqiqətlərini olduğu kimi öyrənməyə imkan verir.

İnanırsan ki, Azərbaycan xalqının milli və bəşəri dəyərlər üzərində kök-lənmiş dərin zəkası, böyük yaradıcı gücü müstəqil dövlətçiliyimizi qüdrətlən-dirmək yolundakı addımlarımızı daha qətiyyətli edəcək, dünya dövlətləri içərisində layiqli yerimizi tutmaqda önəmli rol oynayacaqdır.

## ƏDƏBİYYAT


*1. Ağalı L. Sözlü, nağıllı gecələr. B., 1991.*
*2. Azərbaycan etnoqrafiyası. Üç cilddə. III cild. B., 2007*
*3. Azərbaycan folkloru antologiyası. B., 1968.*
*4. Azərbaycan mifoloji mətnləri. B., 1988.*
*5. Cəfərov Ə. Quruçay dərəsində. B., 1990.*
*6. Əbdürrəşid əl-Bakuvi. Abidələrin xülasəsi və qüdrətli hökmdarın möcüzələri. B., 1992*
*7. Əliyev V. Tarixin izləri ilə. B., 1975*
*8. Həvilov H. Azərbaycan etnoqrafiyası. B., 1991.*
*9. Məmmədov A. Azərbaycan xalqının qədim inancları tarixi tədqiqatlarda. Tarix və onun problemləri №3, 2015.*
*10. Məmmədov A. Xalqımızın Novruz Bayramı ilə bağlı inancları. Tarix və Onun problemləri. №2, 2016.*
*11. Mirzəyev M. Doğma yurdu gəzə-gəzə. B., 1990.*
*12. Nəğmələr, inanclar, alqışlar. B., 1986.*
*13. Rzayev N. Əsrlərin səsi. B., 1974.*
*14. Tusi N. "Əxlaqi Nasiri" B., 1989.*
*15. Мифы народов мира. Энциклопедия. М., 2008. с. 560*
*16. Первобытное общество. Основные проблемы развития. М., 1975.*



***Açar sözlər:*** *əhali artımı, əhali məskunlaşması, demoqrafik baxışlar, daş inancı, hami ruhlar, Azərbaycan folkloru*
***Ключевые слова:*** *рост населения, народонаселения, демографические взгляды, культ камня, покровительствующие духи, азербайджанский фольклор*
***Keywords:*** *population growth, settlement of population, demographical views, patronizing spirits, stone beliefs, Azerbaijan folklore*


**Вопросы исторической демографии в Азербайджанского народа связанный с культом камня**
**РЕЗЮМЕ**


Жители Азербайджанской земли – наши предки, с древнейших времен принимали разные меры, чтобы противостоять а также, подчинить при-родные явления. Меры, которые предпринимались, далее носили стабильный характер. Позже эти меры воспринимались как вера и верования. Чтобы обезопасить себя и всех своих близких от всяких бед, нечистых сил и несчастий наши предки просили помощь от камня. По убеждениям наших предков Солнце и огонь является основным источником тепла, света и противником тьма - зимы. С развитием человечества огонь, очевидно, перестал использоваться случайно, и искусственное с помощью двух камня вошло в культуру. Вот почему, обряды и ритуалы связанные с культом камня, вместе с Солнцем также были приурочены к важнейшим событиям происходящим в жизни наших предков, таким как свадьбы, новоселья, сбор урожая, похороны, собрания общин для решения каких-либо вопросов и т.д.


**Issues of historical demography of the Azerbaijan people related to the stone cult**
**SUMMARY**


Inhabitants of the Azerbaijan land - our ancestors, since ancient times took various measures to resist and also to subordinate natural phenomena. The measures that were taken were then of a stable nature. Later, these measures were perceived as faith and belief. To protect ourselves and all our loved ones from all kinds of troubles, unclean forces and misfortunes our ancestors asked for help from the stone. According to the beliefs of our ancestors, the sun and fire is the main source of heat, light and the enemy of darkness - winter. With the development of mankind, the fire, obviously, stopped being used by chance, and the artificial fire with the help of two stones entered the culture. That is why, ceremonies and rituals related to the cult of stone, together with the Sun, were also timed to the most important events taking place in the life of our ancestors, such as weddings, housewarming, harvesting, funerals, community meetings to resolve any issues, etc.

# Beynəlxalq münasibətlər

AKİF MARİFLİ
Tarix üzrə fəlsəfə doktoru

## FÖVQƏLADƏ HALLAR SİYASƏTİNİN KONSEPTUAL ƏSASLARI: DÜNYA DÖVLƏTLƏRİNİN TƏCRÜBƏSİNİN MÜQAYİSƏLİ TƏHLİLİ



Fövqəladə hallarının qarşısının alınması və fəsadlarının aradan qaldırılması dövlətlərin milli qanunvericiliklərində özünə xüsusi yer tutur. Bu yanaşma tərzi hüquqi-normativ bazanı formalaşdırdığı kimi, hüquqi baza da öz növbəsində konseptual əsasları təsis edir. Təcrübələrində fövqəladə hallarla tez-tez üzləşən dövlətlər istər konseptuallıq, istərsə də detallar nöqteyi-nəzərindən hazırlıqlı olurlar. Müasir dövrdə texnologiyaya duyulan ehtiyac gündən günə artmaqdadır. Gündəlik həyatımızın mühüm ünsürləri olan avtomobil yolları, limanlar, dəmir yolları, anbarlar, böyük binalar, nüvə stansiyaları, elektrik stansiyaları, qaz və su şəbəkələri, telefon xətləri qarşısı alına bilməyən təbii və ya antropogen mənşəli fövqəladə hallarla yox edilə bilər. 2010-ci ildə 350 mindən çox insanın sel, torpaq sürüşməsi, zəlzələ kimi təbii fəlakətlərdə həyatını itirməsi və minlərlə də insanın xəsarət alması diqqəti çəkən bir məsələ idi. 12 yanvar 2010-cu ildə Haiti zəlzələsi xeyli sayda insanın dünyasını dəyişməsinə, xəsarət almasına, onsuz da zəif olan ölkə iqtisadiyyatının bərbad günə düşməsinə gətirib çıxarmışdı (2, c.35-42). İndoneziyada 2010-cu ilin oktyabr 25-də baş verən 7.7 bal gücündə zəlzələ özü ilə dəhşətli bir sunami gətirmişdi (32.; 35).

Bütün bu misallar texnogen problemlərdən doğmuşdur. Burada müxtəlif dövlətlərin hüquqi normativ sistemində fövqəladə halların qarşısının alınması və eləcə də onların fəsadlarının aradan qaldırılması ilə bağlı nümunələrə toxunulacaqdır. Hər bir ölkənin fəlakət və fövqəladə halların idarəetmə sistemi o ölkənin keçmişdə yaşadığı təcrübələrin nəticəsində yaradılmışdır. Bu hər ölkənin müəyyən təbii fəlakətlərə qarşı digərlərindən daha çox tədbir almasına səbəb olmuşdur. Əgər bir ümumiləşdirmə etsək görərik ki, hər ölkə ən çox çətin vəziyyətdə qaldığı fəlakətə qarşı tədbir almaqda inkişaf etmişdir.

ABŞ-da fövqəladə hal və fəlakətlərin idarə edilməsində məsul koordinasiyaedici qurum ABŞ Federal Fövqəladə Halların İdadə Edilməsi Agentliyidir (FEMA – Federal Emergency Management Agency). FEMA fəlakət baş verdikdə hər an və dərhal məsələyə müdaxilə etməyə hazır bir mexanizmə malikdir. ABŞ-da milli təcili yardım, mülki müdafiə və xilasetmə işləri yerli və federal səviyyədə, rəsmi və xüsusi qurum, habelə təşkilatların iştirakı ilə aparılır. Bütün bu təşkilatların bir yerdə necə işləyəcəyi isə "Federal Müdaxilə Planı"na görə müəyyən edilir. Bu plana görə, 12 müxtəlif təcili yardım funksiyası müəyyənləşdirilmiş və yanğınsöndürmədən tibbi xidmətlərə, dağıntıların təmizlənməsindən qida maddəsi ilə təmin etməyə qədər bütün bu funksiyaların hansı qruplar tərəfindən, hansı qaynaqlar ilə nə şəkildə təmin ediləcəyi əvvəlcədən təşkil edilmişdir. ABŞ-da bizim üçün bir nümunə ola biləcək zəlzələ təhlükəsinin fəsadlarının azaldılması ilə məşğul olan "Milli Zəlzələ Təhlükələrinin Azaldılması Proqramı (NEHRP - National Earthquake Hazards Reduction Program)" (36) da vardır. NEHRP dörd milli qurum ilə yaxın təmasdadır. Bunlar Fedaral Fövqəladə Hallar Agentliyi (FEMA - Federal Emergency Management

Agency), ABŞ Geoloji Araşdırmalar Təşkilatı (USGS - U.S. Geological Survey), Milli Elm Fondu (NSF - National Science Foundation), Milli Standartlar və Texnologiya İnstitutudur (NIST - National Institute of Standards and Technology). ABŞ-da müəyyən bir yer və ya bölgədə "fövqəladə hal" elan edilməsi üçün müvafiq altı mərhələ var. Prezidentin ABŞ-dakı bir yeri fəlakət və fövqəladə halların bölgəsi olaraq elan etməsi üçün lazım olan mərhələlər bunlardır:

1. İlk olaraq yerli təcili yardım təşkilatı müdaxilə edir;

2. Əgər yerli müdaxilə qeyri-kafidirsə qubernatorluqdan kömək istənilir;

3. Əgər bunların müdaxiləsi də qeyri-kafi olsa Qubernator hökumətdən kömək istəyir;

4. FEMA Region Müdirliyi kömək tələbini qiymətləndirərək araşdırılması üçün mərkəzinə göndərir;

5. FEMA Ümumi Müdirliyi rəyini ABŞ Prezidentinə bildirir;

6. Prezident fövqəladə hal bölgəsi elan etdikdən sonra FEMA-nın rəhbərliyi ilə dövlət yardımı fəlakət və fövqəladə hal bölgəsinə çatdırılır (17).

Yaponiya hökuməti fəlakətlərin qarşısının alınması üçün ən təsirli üsullardan birini fəlakətlərin əvvəlcədən proqnozlaşdırılması üzərində qurmuşdur. Xüsusilə Yaponiya sahillərinin şərqində yer alan və "dərin zəlzələ" zonası olan bölgələr davamlı bir şəkildə nəzarətdədir. Bu proseslərin izlənilməsi ilə məşğul olan qurum "Yaponiyada Zəlzələ Fəlakətlərinə qarşı əks tədbirlər Təşkilatı" (EDCJ - Earthquake Disaster Countermeasure in Japan) dır. Bundan başqa "Okean Seysmik Xəbərdarlıq Sistemi" (OBS – Ocean Bottom Seismic Sensor System) fəaliyyət göstərir. Həmçinin ölkənin Coğrafi İnformasiya Sistemi (GIS - Geographical Information System) ilə nəzarət həyata keçirilir. Yaponiya fövqəladə hallarla bağlı olaraq fəaliyyətini aşağıdakı səviyyədə qurur:

- Milli Hökumət səviyyəsi,
- Regional Hökumət səviyyəsi,
- Bələdiyyələr səviyyəsi,
- Xalq - Fərd səviyyəsi (29)

Kanadada 1988-ci ildə mövcud Səfərbərlik və Müharibə Qanunu qüvvədən qaldırılmış, əvəzinə xalqın təhlükəsizliyini təhdid edən bütün təhlükələri əhatə edəcək şəkildə hazırlanan Fövqəladə Hallar Qanunu qüvvəyə minmişdir. Ardınca 1998-ci ildə Fövqəladə Hallara Hazırlıq Qanunu qəbul edilmiş və federal hökumət səviyyəsində Müdafiə nazirinə bağlı Fövqəladə Hallara Hazırlıq Təşkilatı (EPC) qurulmuşdur.

EPC-nin vəzifə və məsuliyyət sahələri:

-Federal fövqəladə hal planlaması,

-Federal hökumət ilə əyalət rəhbərliyi işbirliyi

-Beynəlxalq işbirliyi,

-Qeyri-hökumət təşkilatları ilə işbirliyi,

-Araştırma və xüsusi layihələrin hazırlanması

-Təhsil və xalqın maarifləndirilməsi

-Təxirəsalınmaz əməliyyatlar (16 s.7-17.; 30).

Böyük Britaniyanı meydana gətirən İngiltərə, Şotlandiya, Uels və Şimal İrlandiya fövqəladə halların qarşısının alınması və fəsadlarının aradan qaldırılmasına rəhbərlik edən sistem və təşkilatlarını ayrılıqda təsis etmişlər. Terrorizm birinci prioritet təhdid olaraq qəbul edilmiş və terrorizmin hər növü ayrı bir fövqəladə hal olaraq nəzərdən keçirilmişdir. Bundan başqa bütün təbii fəlakətlər, təxribat üsulları, peyk və göy cismi hadisələri, nəqliyyat, idman, inşaat, sənaye qəzaları, su və qida zəhərlənmələri, elektronik və kompüter proqram təhdidləri, heyvan xəstəlikləri daxil olmaqla 28 böhran növü üçün təfərrüatlı planlama hazırlanmışdır (21, s.57).

Fransada böhrana müdaxilə və böhran idarə edilməsi – 1959-ci ildə qəbul edilən qanunla təşkil olunur. Daxili İşlər Nazirliyinə bağlı olan Mülki Müdafiə Təşkilatı tərəfindən həyata keçirilir. Böhran hallarında tapşırıq yerinə yetirəcək bütün funksional təşkilatlar, hərbi birliklər Mülki Müdafiə Müdirliyinin tabeliyinə verilir. Ölkə 9 Böhran İdarəetmə Bölgəsinə ayrılmış, hər bölgədə kənd, bələdiyyə və rayon səviyyəsində təşkilatlanma aparılmışdır. Mərkəzi Mülki Müdafiə Müdirliyinin bu bölgələrdə də Mobil dəstələri var. Böhran İdarəedilməsi Planlaşdırma, Ümumi Yardım və Təcili Yardım Planlaması olmaq üzrə iki yerə ayrılmışdır. Ümumi Yardım Planlaması daha çox ümumi əsasları və böhrandan əvvəl görüləcək tədbirləri əhatə edir. Ümumi Yardım Planlamasına uyğun olaraq bölgə, rayon, diyar və kəndlər əsasında fəaliyyət planları hazırlanır. Təcili Planlar isə nüvə və digər kritik vəziyyətlərdə meydana gələ biləcək böhranlarda tətbiq olunmaq üçün təsis edilir. Fransa Böhran Rəhbərliyinin xarakteristik xüsusiyyəti böhran zamanı böhrana müdaxilə ünsürlərinin, ölkə ehtiyaclarına görə təşkil edilmiş, vəzifə və məsuliyyətlərinin dəqiq olaraq təyin olunmuş, ən əhəmiyyətlisi isə bu ünsürlərin tam olaraq professionallaşmış və vəzifəli personalının mütəxəssisləşmiş olmasıdır. Bundan başqa Fransada hər bir şəhər Ehtiyat və Yanğın Departament xidmətinə malikdir (11).

Almaniyada Federal hökumət, böhran vəziyyətlərinin idarəedilməsinin koordinasiyasını planlama mərhələsində təmin edir. Böhran vəziyyətlərinin idarəedilməsində silsilə həyəcan tədbirləri həyata keçirilir. Bu tədbirlər böhran müddəti içində Federal Təhlükəsizlik Şurasının qərarları əsasında icra olunur (22). Böhran vəziyyətlərinin idarəedilməsi zamanı sistem iki yerə - mülki və hərbi müdafiə sisteminə bölünür. Böhran vəziyyətlərinin idarəedilməsi məlumatlandırma, böhran halının qarşısının alınması və mübarizə mərhələləri olmaq üzrə üç mərhələdən ibarətdir. Almaniya mülki təhlükəsizlik sistemi bütün təhlükələrə qarşı çalışır. Yerli səviyyədə dinc mülki təhlükəsizlik sisteminin xüsusi əhəmiyyəti vardır. Xilasetmə briqadaları, könüllü kömək təşkilatları, polis və regional böhran idarə orqanları müntəzəm olaraq fövqəladə vəziyyət və böhranlar ilə məşğul olurlar (18, s.30).

İsraildə hər cür böhran halı ilə əlaqədar fəaliyyətlər Mülki Müdafiə Komandanlığı tərəfindən icra edilir (19; 23). Mülki Müdafiə Komandanlığı sülh dövründə Müdafiə Nazirinə, müharibə dövründə isə Baş qərargah rəisinə tabedir. Fövqəladə halların aradan qaldırılması ilə birbaşa əlaqəli şəxslər Mülki Müdafiə Komandanlığı ilə Daxili İşlər Nazirliyi tabeçiliyindəki Fövqəladə Hal Xidmətləri və Xüsusi Hallar İdarəsi daxilində ölkənin 6 bölgəsində fəaliyyət göstərirlər. Mülki Müdafiə və könüllü xilasetmə orqanları geniş bir sistem təşkil edirlər. Bundan başqa İsraildə yetkin əhalinin 20%-ə qədəri səhiyyə və ictimai sahələr olmaq üzrə 278 könüllü təşkilatda fəaliyyət göstərir ki, bunlar da fövqəladə hallar zamanı dərhal xilasetmə orqanarının işinə yaxından köməklik göstərirlər (1, s.161-163).

Avstraliyada təbii fəlakət və fövqəladə halların idarə edilməsi isə bir qədər fərqlidir. Altı əyalət və iki bölgədə yaşayan vətəndaşların can, mal və mülklərinin qorunması Avstraliya Konstitusiyasında zəmanət altına alınmışdır. Avstraliya bu qanuna əsaslanaraq məsuliyyətlərin yerinə yetirilməsi məqsədi ilə bəzi qaydalar müəyyənləşdirmişdir. Əyalət (Federal) hökuməti təbii fəlakət və fövqəladə halların idarəedilməsi məqsədi ilə qərarlar qəbul edir. Buraya xəbərdarlıq və monitorinq xidmətlərinin təmin edilməsi, informasiya təminatı fəaliyyətinin, xalqın təhsilinin, təşkili də daxildir. Eyni zamanda federal hökumət digər ölkələrə yardımının

təmin edilməsində rəhbər funksiyanı öz üzərinə götürür (14, s.1-24.; 34). Son illərdə, Avstraliyada təbii fəlakət idarəedilməsi dörd təməl yanaşmaya söykənmişdir. Bu yanaşmalar aşağıdakılardır:

1. Bütün təhlükələrə ümumi yanaşma tərzi;
2. Əhatəli yanaşma tərzi - potensial fəlakətlərdə risk idarəetməsi;
3. Bütün dövlət təşkilatlarının birgə yanaşma tərzi;
4. Hazırlanmış prinsipi.

Hindistanda təbii fəlakət və fövqəladə halların idarəedilməsinin də özünəməxsus üsulları vardır. Hindistan dünyada fəlakətə ən çox meyilli ölkələrdən biridir. Yer və coğrafi xüsusiyyətləri ölkədə qasırğa, quraqlıq, su basqını, zəlzələ, yanğın, torpaq sürüşməsi və uçqun kimi bir çox təbii fəlakətlərin meydana çıxmasına rəvac vermişdir. Ölkə əyalət, region və alt-region səviyyələrindəki təbii fəlakət və fövqəladə halların idarəedilməsi inteqrasiya edilmiş idarəetmə bir mexanizminə malikdir. Hindistan konstitusiyasında müəyyən Əyalət Hökumətlərinin rolu ilə birlikdə federal hökumətin təbii fəlakət və fövqəladə halların idarəedilməsində xüsusi rolu qeyd edilməkdədir. Təbii fəlakətlərin meydana gəlməsi zamanı tədbirlərin mərkəzlə əlaqələndirilməsi həyata keçirilir (3, s.16-26.; 33).

Hindistanda fəlakət və risklərin idarəetmə sistemini daha yaxşı anlaya bilmək üçün fəlakətlərə müdaxilə mexanizminin necə çalışdığının araşdırılması lazımdır. Bunlar aşağıdakılardır:

İnzibati müdaxilə. Təbii fəlakətlərin meydana gəlməsi zamanı müvafiq tədbirlərin əsas məsuliyyəti mərkəzi hökumətin inzibati aparatına aiddir.

Ümummilli müdaxilə. Hindistan federal sistemi altında, təbii fəlakət və fövqəladə halların idarəedilməsində əyalət hökumətlərinin məsuliyyətindədir.

Fövqəladə Fəlaiyyət Planı. Fövqəladə tədbirlərin planlaşdırılması və idarəedilməsi məqsədi ilə “Fövqəladə Fəlaiyyət Planı” (CAP – Contingency Action Plan) yaradılmışdır. Bu plan yardım əməliyyatlarının təxirə salınmadan başladılmasını asanlaşdırır.

Maliyyə Kömək Qaydaları. Təbii fəlakətlərin ardınca yardım fəaliyyətlərinin maliyyə xərcləri üçün yaradılan layihələr, hər beş ildə bir Hindistan hökuməti tərəfindən təyin olunmuş maliyyə komissiyaları tərəfindən təklif edilən tövsiyələrə görə idarə olunur (3, s.116-154).

Çin nümunəsi. 1998-ci ilin aprelində Çin hökuməti, Çin Xalq Respublikasının “Milli Fəlakət Müdaxilə Planı”nı (NDRP – National Disaster Response Plan – 1998-2010) qəbul etmişdir. NDRP, “9-cu Beş illik Milli İqtisadi və Sosial İnkişaf Planı” və “2010-cu ilə qədər planlaşdırılan hədəflər layihəsi” də göstərilən ümumi tədbirlərə əsaslanan milli səviyyədə hazırlanmış ilk plandır. Bu plan fəlakət zərərlərinin azaldılması fəaliyyətlərindən əldə edilən təcrübələr əsasında yaradılmışdır (15, s.1-17).

Cənubi Koreyada təbii fəlakət və fövqəladə halların idarə edilməsi. Koreya hökuməti hər il 15 iyundan 15 oktyabra qədər olan zaman kəsiyini “Fəlakətə Qarşı Tədbirlər Dövrü” olaraq həyata keçirir. Sellər əsnasında meydana gələn zərərlə əlaqədar məlumatlar, yerli rəhbərlik bürolarında toplanılır və analizlər aparılır, selə qarşı tədbirlərin həyata keçirildiyi “Koreya Milli Fəlakətlərin Qarşısının alınması üzrə Tədbirlər Qərargahı”na (KNDPCH – Korea National Disaster Prevention and Countermeasures Headquarters) hesabat verilir (28). Koreya Milli Fəlakətlərin qarşısının alınması üzrə Tədbirlər Qərargahının can və mal itkinlərini azaltmaq, fövqəladə vəziyyətə qarşı tədbirləri, yaralıların qurtarılması və xəbərdarlıqla əlaqədar bütün işləri idarə edir (4, s.1-16). “Fəlakətlərin qarşısının alınması üzrə Koreya Milli İnstitutu” (KNIDP – Korea National Institute for Disaster Prevention)” 2 sentyabr 1997-ci ildə sistematik elmi araşdırmalar aparmaq məqsədiylə qurulmuşdur. Qurulduğu ildən KNIDP 9 tədqiqat layihəsi icra etmişdir (20, s.7-11; 27; 31).

Keçmiş SSRİ məkanında fövqəladə halların qarşısının alınması və fəsadlarının aradan qaldırılması istiqamətində müəyyən hüquqi-normativ baza formalaşmışdır. Rusiya Federasiyasında 1994-cü ildə Mülki Müdafiə Fövqəladə Hallar və Təbii fəlakətlərin Azaldılması, qısa adı ilə Fövqəladə Hallar Nazirliyi qurulmuşdur. Rusiyada fövqəladə halların planlanması, idarə olunması, bu mövzuda xalqın öyrədilməsi və beynəlxalq əməkdaşlıq vəzifələri FHN tərəfindən icra edilir. FHN mərkəzi aparatında fövqəladə hallar ilə əlaqədar idarə və komissiyalar vardır (25).

Qazaxstan qanunvericiliyinə görə Fövqəladə Halların xəbərdar edilməsi və fəsadlarının aradan qaldırılmasının Dövlət Sistemi formalaşdırılmışdır (13). Qazaxstan Respublikası Fövqəladə Halların xəbərdar edilməsi və fəsadlarının aradan qaldırılmasının Dövlət Sistemi istər dinc və istərsə də müharibə dövründə fəaliyyət göstərir. Onun vasitəsi ilə müxtəlif dövlət təsisatları, qurum və təşkilatlarının fövqəladə halların qarşısının alınması və eləcə də xəbərdar edilməsi istiqamətində gördüyü işlər koordinasiya edilir.

Orta Asiya ölkələrindən olan Özbəkistan Respublikasında da eyni ilə Fövqəladə Halların xəbərdar edilməsi və fəsadlarının aradan qaldırılmasının Dövlət Sistemi mövcuddur (12). Dövlət Sistemi fövqəladə hallar zamanı əhalinin və ərazilərin mühafizəsi üzrə məsələləri həll etmək səlahiyyətinə malikdir. Silahlı qüvvələri, milli və yerli hakimiyyət orqanlarının resurslarını, müəssisələrin, təşkilat və quruluşların imkanlarını bir araya gətirən və fəlakət sahəsində fəaliyyətinin təşkili və həyata keçirilməsi ilə məşğul olan Dövlət Sistemi respublikanın baş nazirinə tabedir.

Qırğızıstanda müstəqil dövlətin formalaşdığı illərdə sovet qanunları və digər qəbul edilmiş normativ aktlara müəyyən dəyişikliklər edilərək tətbiq edilirdi. “Mülki Müdafiə haqqında” 24 fevral 2000-ci il Qanunu (8), “Təbii və texnogen xarakterli fövqəladə hallardan əhalinin və ərazilərin mühafizəsi haqqında” Qırğızıstan Respublikasının qanunu (9) Rusiya Federasiyasının qanunlarına oxşar hazırlanmışdır. Hazırda 2009-cu ildə qəbul edilmiş “Mülki müdafiə haqqında Qanun” fəaliyyət göstərir (10; 24).

Nümunə verəcəyimiz dövlətlərdən biri də Türkiyədir. Fəlakətlərin sıx olaraq yaşandığı və forma müxtəlifliyinə sahib olduğu bir ərazi arealında yerləşən Türkiyə və xüsusilə də İstanbul istər-istəməz ölkənin konseptual bazasının formalaşmasına təsir göstərmişdir. Türkiyə qanunvericiliyində “Afət və Təcili Durum Yönətimi Başkanlığının Təşkilat və Vəzifələri Haqqında Qanun” nəzərdən keçiriləcək. Türkiyə qanunvericiliyinin fövqəladə hallar və eləcə də vəziyyətlərlə bağlı istilahları vardır. Türkiyədə fövqəladə halların qarşısının alınması və fəsadlarının aradan qaldırılması mərkəzi hökumətin məsuliyyət dairəsinə daxildir. Mərkəzi hökumət nəzdində bu işləri icra etmək üzrə bəzi qurumlar təsis edilmişdir. Fövqəladə hallar və Təcili Yardım Ali Qurumu müvafiq planların, proqramların və hesabatların hazırlanmasına cavabdeh olan təşkilatdır. Zəlzələlərlə bağlı xüsusi Məsləhət Şurası yaradılmışdır. (5902 saylı qanun, maddə 5). Bu orqanın vəzifələri, Zəlzələdən qorunmaq, zəlzələ zərərlərini azaltmaq, zəlzələ sonrası həyata keçiriləcək fəaliyyətlər haqqında təkliflər təqdim etmək formasında müəyyən edilmişdir. Şura bu funksiyalarına əlavə olaraq zəlzələlərlə əlaqədar araşdırmalar üçün plan və prioritetləri müəyyənləşdirmək vəzifəsini də icra edir. 2009-cu il 5902 saylı Qanun ilə fövqəladə hallar ilə bağlı bütün təşkilatların vəzifə, funksiya və imkanları bir orqanında toplanmışdır. Yeni qurulan Afət və Təcili Durum Yönetimi Başkanlığı (AFAD) Türkiyədə böhran və fəlakət hallarının

fəsadlarının aradan qaldırılması ilə məşğul olan icra hakimiyyəti orqanıdır (7).

Azərbaycanın fövqəladə hal sistemi. Azərbaycan Respublikasının Prezidentinin 2005-ci il 16 dekabr tarixli Sərəncamı ilə Azərbaycan Respublikasında təbii fəlakətlərin, texnogen xarakterli qəzaların və yanğınların qarşısının alınmasını, onların nəticələrinin aradan qaldırılmasını, belə hallarda xilasetmə və bərpa işləri üzrə müvafiq orqanların fəaliyyətinin vahid mərkəzdən idarə olunmasını, ölkədə mülki müdafiə işinin təşkilini və həyata keçirilməsini təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi yaradılmışdır (5). FHN öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, qanun və qanun qüvvəli aktları, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, FHN haqqında Əsasnaməni və digər normativ hüquqi sənədləri rəhbər tutur. Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzi fəaliyyətə başladığı ilk günlərdən etibarən fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılmasında qüvvə və vasitələrin operativ idarə olunması, müxtəlif mənbələrdən daxil olan məlumatların toplanılması, ümumiləşdirilməsi, təhlili və müvafiq qərarların qəbul olunması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirir, beynəlxalq təcrübəni iş prosesində uğurla tətbiq edir. Fövqəladə Hallar Nazirliyi ilə respublikanın digər mərkəzi icra hakimiyyəti orqanları arasında "Fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması sahəsində qarşılıqlı Fəaliyyət Plan"ları mövcuddur. Böhran Vəziyyətlərində İdarətmə Mərkəzi bu qarşılıqlı fəaliyyət planlarına əsasən mərkəzi icra hakimiyyətləri ilə məlumat mübadiləsini həyata keçirir və müvafiq işlər aparır (26). Azərbaycan Respublikası ilə digər ölkələrin, xüsusilə sərhədyanı dövlətlərin müvafiq orqanlarının aidiyyəti qurumları ilə Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzi arasında mütəmadi olaraq məlumat mübadiləsi aparılır. Belə ki, Rusiya Federasiyasının FHN Milli Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzi (video konfrans sistemi mövcuddur), RF FHN-nin Moskva Regional Mərkəzi, RF FHN-nin Şimali Qafqaz Regional Mərkəzi, Ukrayna, Belarus, Qazaxıstan, Qırğızıstan, Özbəkistan respublikalarının Fövqəladə Hallar nazirliklərinin Böhran Vəziyyətlərində İdarəetmə mərkəzləri ilə, eləcə də Türkmənistan Respublikasının Müdafiə Nazirliyi Mülki Müdafiə və Fövqəladə Hallar Baş İdarəsi, Moldova Respublikasının Daxili İşlər Nazirliyinin Mülki Müdafiə və Fövqəladə Hallar Xidməti, Gürcüstan Respublikasının Daxili İşlər Nazirliyinin Fövqəladə Hallar Departamenti, Türkiyə İl Afet Yönetim Mərkəzi Müdürlüyü ilə qarşılıqlı məlumat mübadiləsi və xidməti fəaliyyətlə bağlı mütəmadi tərəfdaşlıq çərçivəsində əlaqələr qurulmuşdur. Mərkəz beynəlxalq təşkilatlarla da sıx əməkdaşlıq fəaliyyəti həyata keçirir (6).

Beləliklə, görmək olur ki, fövqəladə halların qarşısının alınması və fəlakətlərin nəticələrinin aradan qaldırılması istiqamətində müxtəlif ölkələrin kifayət qədər zəngin təcrübəsi vardır. Hər bir ölkənin inkişaf etdiyi sahə daha çox üzləşdiyi fövqəladə hallar və təbii fəlakətlərlə bağlıdır. Beynəlxalq miqyasda mövcud olan bu təcrübədən istifadə edərək milli sistemimizin dövrü inkişaf etdirilməsi mühüm bir zərurətdir. Beynəlxalq təcrübədən istifadə edilməsi məqsədi ilə bir çox işlər görülmüşdür.

**ƏDƏBİYYAT**


*1. İsrail hakkında gercekler.Yayına hazırlayan: Ruth Ben-Haim. Kudus, İsrail, 2008, 353 s., s.161-163.*

*2. В. В. Хижняк, В. П. Деденок, А. А. Ткаченко. Ионосферные возмущения перед сильными землетрясениями на Гаити (M=7.2) и в Японии (M=9.0) по данным спутниковых радионавигационных систем. // Космічна наука і технологія. 2012. Т. 18. № 6. с. 35-42.*

*3. Disaster Management in India. Ministry of Home Affairs Government of India. India, 2013. p. 257., pp.116-121, 138, 154.*

*Disaster Management in India.Ministry of Home Affairs Government of India. India, 2013. p. 257., pp.16-26*

*4. Ministry of Government Administration and Home Affairs, Republic of Korea, Country Report 1998, pp.1-16.*

*5. Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı / http://www.fhn.gov.az/?aze/menu/18/64/4*

*6. FHN Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzi: imkan və perspektivlər. http://www.fhn.gov.az/newspaper/?type=view_news&news_id=4395*

*7. Afet ve Acil Durum Yönetimi Başkanlığının teşkilat ve görevleri hakkında kanun. Kanun Numarası: 5902 Kabul tarihi: 29/5/2009 Yayımlandığı R.Gazete: Tarih: 17/6/2009 Sayı : 27261 Yayımlandığı düstur : Tertip: 5, Cilt: 48 / http://www.mevzuat.gov.tr/MevzuatMetin/1.5.5902.pdf*

*8. Закон Кыргызской Республики «О внесении изменения в Закон Кыргызской Республики О гражданской обороне» 27 января 2000 г., N 5, ст. 264. / http://cbd.minjust.gov.kg/act/view/ru-ru/444?cl=ru-ru*

*9. Закон Кыргызской Республики «О защите населения и территорий от чрезвычайных ситуаций природного и техногенного характера» 27 января 2000 г., N 5, ст.270. / http://cbd.minjust.gov.kg/act/view/ky-kg/450/10?cl=ky-kg*

*10. Закон Кыргызской Республики Гражданской Защите. 20 июля 2009 года N 239. / http://mes.kg/ru/regulatory/pravovaya_baza/Zakon_o_grajdanskoi_zashite/*

*11. Киченина В.С. Правовые Основы Деятельности Противопожарной Службы Франции / http://agps-2006.narod.ru/ttb/2013-1/15-01-13.ttb.pdf*

*12. Постановление Кабинета Министров Республики Узбекистано Государственной Системе Предупреждения и Действий в Чрезвычайных Ситуациях Республики Узбекистан. г. Ташкент, 24 августа 2011 г., № 242. / http://base.spinform.ru/show_doc.fwx?rgn=46851*

*13. Постановление Правительства Республики Казахстан от 28 августа 1997 года N 1298 О государственной системе предупреждения и ликвидации чрезвычайных ситуаций (внесены изменения и дополнения на 03.10.2013г. №1048). / http://all-docs.ru/index.php?page=7&vi1=10536*

*14. Australian Emergency Management, Australia Country Report 1998, p.1-24 / https://www.emknowledge.gov.au/; http://www.em.gov.au/aemi*

*15. China National Committee for International Decade for Natural Disaster Reductio. China Country Report 1999, s.1-17 / http://www.adrc.asia/countryreport/CHN/CHNeng99/China99.htm*

*16. Federal Emergency Response Management System //Federal Emergency Response Plan. December 2009., 54 p. pp.7-17 / http://www.cpa.ca/docs/File/Emergencies/ferp_2009_EN.pdf*

*17. FEMA, 2002, Federal Response Plan, 9230.1-P Supersedes FEMA 229, April 1992 / http://biotech.law.lsu.edu/blaw/FEMA/frpfull.pdf*

*18. Hegemann H. and Bossong R. Analysis of Civil Security Systems in Europe. Country Study: Germany Berlin, 12 April 2013.*

(Institute for Peace Research and Security Policy at the University of Hamburg) p.57., pp.30 / http://anvil-project.net/wp-content/uploads/2013/12/Germany_v1.0.pdf

19. Jerusalem Post 17-03-2008 / http://www.jpost.com/Israel/Israel-to-hold-massive-emergency-drill

20. Republic of Korea. National Reporting and Information on Disaster Reduction for the World Conference on Disaster Reduction South Korea p.15., pp.7-11 / http://www.unisdr.org/2005/mdgs-drr/national-reports/South-Korea-report.pdf

21. Responding to Emergencies the UK Central Government Response Concept of Operations / https://www.gov.uk/government/uploads/system/uploads/attachment_data/file/192425/CONOPs_incl_revised_chapter_24_Apr-13.pdf p.57

22. The Crisis Management System in Germany. December 2015 / https://www.bmi.bund.de/SharedDocs/Downloads/EN/Broschueren/2012/system_krisenmanagement_en.pdf?__blob=publicationFile

23. Yaakov Katz. Israel to hold massive emergency drill

24. /http://mes.kg/ru/regulatory/pravovaya_baza/Zakon_o_grajdanskoi_zashite/

25. http://en.mchs.ru/

26. http://fhn.gov.az/?aze/menu/5

27. http://nidm.gov.in/easindia2014/err/pdf/country_profile/south_korea.pdf

28. http://www.acronymfinder.com/National-Disaster-Prevention-and-Countermeasures-Headquarters-(South-Korea)-(NDPCH).html

29. http://www.adrc.asia/management/JPN/edj.html#earthquake disastercountermeasuresintokaiarea

30. http://www.afn.ca/uploads/files/emi-forum/4.pdf

31. http://www.apec-vc.or.kr/?p_name=website&gotopage=123&query=view&unique_num=52

32. http://www.ioc-unesco.org/index.php?option=com_content&view=article&id=274:the-25-october-2010-sumatra-tsunami&catid=14&Itemid=100063

33. http://www.ndmindia.nic.in/

34. http://www.preventionweb.net/organizations/129/profile

35. https://earthobservatory.nasa.gov/NaturalHazards/view.php?id=46607

36. https://www.fema.gov/national-earthquake-hazards-reduction-program

***Açar sözlər:*** *fövqəladə hallar, təcrübə, terror, mülki müdafiə, böhran, müdaxilə, texnogen.*

***Ключевые слова:*** *чрезвычайные ситуации, опыт, террор, гражданская оборона, кризис, вмешательство, техногенные.*

***Keywords:*** *emergency situations, experience, terror, civil defence, crisis, intervention, technogenic.*

**Акиф Марифли**

**РЕЗЮМЕ**

**Концептуальные основы политики чрезвычайных ситуаций: анализ сравнительного опыта мировых стран**

В статье затронуты такие вопросы как предотвращение чрезвычайных ситуаций в юридической нормативной системе разных стран, а также устранение их результатов, в работе анализировались концептуальные основы мировых стран в этой сфере и выдвигалась практика различных стран, которые в своём опыте часто сталкиваются с чрезвычайными ситуациями с концептуальной и с детальной точки зрения.

Справедливо можно отметить что, управленческая система катастроф и чрезвычайных ситуаций каждой страны создавалась на основе пережитого прошлого опыта.

В статье говорится о существующих в мире и развитых в сфере чрезвычайных ситуаций структурах, агентствах и институтах, а также взаимное применение их опыта в разных странах.

Значимость данной статьи актуальна благодаря предоставлению таких факторов как различные и аналогичные подходы к реакции на чрезвычайные ситуации стран Европы и Азии, а также применение взаимного опыта при устранении их последствий. В тоже время, в статье есть интересный тематический анализ различных подходов местных и зарубежных исследователей, а также дано объяснение о различиях между исследованиями.

В итоге, анализируя необходимость циклического развития национальной системы автор ссылается к довыдам местных и зарубежных экспертов, используя опыт Азербайджана в этой сфере , опыт от участия в международных семинарах, совместный “План действий в сфере предотвращение чрезвычайных ситуаций и устранение их результатов», а также применение существующих практик в международном масштабе.

**Akif Marifli**

**SUMMARY**

**Conceptual bases for the emergency management policy: the compared analysis of the international experiences**

The article discusses the issues related to the prevention of emergencies in the legal normative system of different countries, as well as the elimination of their repercussions. The author analyzed existing international conceptual frameworks and proposed the practices of different countries that often deal with the emergencies from conceptual and detailed perspectives.

It can be justly noted that the management system of catastrophes and emergency situations of each country was established on the basis of past experience.

The article refers to the existing agencies, networks and institutions developed in the field of emergency situations, as well as the joint application of their practices in different countries.

The relevance of this article is determined by the provision of such factors as contrasting and comparable approaches to responding to the emergency situations in Europe and Asia, as well as the application of the joint experience in the elimination of their consequences. Along with that, the article offers an interesting thematic analysis of the different approaches of local and foreign researchers, as well as an explanation of the differences in the studies.

As a result, by analyzing the need for a cyclical development of the national system, the author refers to the arguments of the local and foreign experts, drawing on the experience of Azerbaijan in this field, the experience from participation in international seminars, the joint “Action Plan for the Prevention of Emergencies and Elimination of Their Results”, as well as existing international practices.

# İqtisadiyyat

## MİLLİ İNNOVASİYA SİSTEMLƏRİ KONSEPSİYASI, DÖVLƏTİN İNNOVASİYA SİYASƏTİNDƏ ROLU - AZƏRBAYCAN NÜMUNƏSİ

RƏŞAD MƏHƏRRƏMOV
Azərbaycan Dövlət İqtisad Universiteti
(UNEC)



Oncə qeyd olunmalıdır ki, Milli innovasiya sistemləri konsepsiyası dövlətin innovasiya siyasətinin tədqiqinə əsas yanaşmalardan biri hesab olunur.

Postindustrial dünyanın mövcud tələbləri, yüksək informasiya texnologiyalarına və biliklərə əsaslanan iqtisadi inkişaf elmi cəmiyyətləri texniki tərəqqinin xarakteri haqqında düşünməyə məcbur etmişdir. Heç də təəccüblü deyil ki, bu şəraitdə XX əsrin 80-ci illərində, milli innovasiya sistemləri (MİS) konsepsiyası formalaşmağa və inkişaf etməyə başlamışdır. Bu mövzu üzrə elmi araşdırmaların, yazılan elmi məqalələrin sayının durmadan artması onu göstərir ki, konsepsiya müasir dövrümüzdə olduqca populyarlaşmış, onun nümayəndələri isə MİS-i ümumilikdə innovasiya prosesini çoxlu sayda elementləri ehtiva edən bir sistem kimi araşdırmağa başlamışdırlar. Bu da MİS-in elmi-nəzəri tədqiqatlarda vacib və mürəkkəb alətə çevrilməsinə səbəb olmuşdur. Siyasi elmi yanaşmalar isə bu sistemdə mövcud olan müxtəlif aktorlar arasında münasibətlər sistemini müəyyən etməyə və təhlil etməyə, həmçinin onlar arasında qarşılıqlı əlaqə və fəaliyyətin xüsusiyyətlərini üzə çıxartmağa yardım edir.

Milli innovasiya sisteminin qurulması, dövlət səviyyəsində bir-birini tamamlayan ən azı iki əlaqəli proseslə müşayət olunur ki, bu da son nəticədə siyasi sistemin özünə təsir edir. Bir tərəfdən, milli siyasətin həyata keçirilməsi və milli maraqların təzahürü kimi, digər tərəfdən innovasiyalı "komponentlərlə" dolmuş cəmiyyətin bütün sahələri: Həmin komponentlər bunlardır; iqtisadi sahədə - innovasiyalı məhsul istehsalının artması; sosial sahədə - insan kapitalının keyfiyyətinin təmin edilməsi (səhiyyə, təhsil və s. sahələrinin yaxşılaşması); siyasi sferada - vətəndaşların siyasi həyatda aktiv iştirakı.; ekoloji sahədə - ətraf mühitlə yeni qarşılıqlı əlaqə prinsiplərinin axtarışı; xarici siyasətdə - dünya innovasiya kompleksinə inteqrasiya olunma və s.

MİS-in səmərəli fəaliyyəti üçün mühüm şərtlərdən biri onunla izah edilir ki, cəmiyyətin bütün üzvləri tərəfindən qəbul oluna bilən innovasiya dəyərləri yaradıla bilsin [7,s.40-45]. MİS-in siyasi proseslərə təsiri ilk öncə bu amillərlə dəyərləndirilməlidir.

Lakin, burada biz ziddiyyətlərlə qarşılaşmış oluruq. Belə ki, innovasiyalar ümumi mənada müsbət qəbul olunsa da lakin innovasiyalarla əlaqəli olan subyektlərə müəyyən cəmiyyətlərin

etimad səviyyəsi aşağı olaraq müşahidə edilir. Yəni innovasiyaların cəmiyyət həyatına yardım edə bilməsinə əhali qruplarının münasibəti istənilən səviyyədə baş vermir. Hakimiyyətin bir çox institutlarına və sahibkarlıq sektoruna etimad səviyyəsi əhali qrupları tərəfindən kifayət qədər aşağı səviyyəli kimi qiymətləndirilir [8]. Bu problemin həlli kompleksli olmalı, əhalinin hakimiyyət institutlarına münasibətinin dəyişilməsinə istiqamətlənməlidir.

Başqa sözlə desək, MİS - yeni texnologiyaların yaradılması və yayılmasına aparan dövlət və özəl sektorda fəaliyyət göstərən dövlət və özəl strukturların faktiki şəbəkəsinin birgə səmərəli fəaliyyəti nəticəsində ərsəyə gələ bilər. Beləliklə, innovasiyaların yaradılmasında, tətbiqində və yayılmasında aparıcı rolu dövlət, biznes və elmin simbiozu olan "üçbucaq" oynaya bilər. Tədqiqatçılar qeyd edirlər ki, innovasiya prosesinin səmərəliliyi yalnız bu strukturların və onların elementlərinin öz-özlüyündə işləməsindən deyil, bu elementlərin vahid bir sistem kimi əlaqəli olmasından asılıdır. Bizim fikrimizcə bu və ya digər səpgidə MİS-in ayrı-ayrı hissələrinin tədqiqi zamanı görmək olar ki, öz-özlüyündə ayrı-ayrı elementlər səmərəli fəaliyyət göstərsə də, ümumi nəticə heç də hər zaman arzuolunan səviyyədə ola bilmir. Başqa sözlə desək, hissələrin məcmusu heç də hər zaman bütövlüyün keyfiyyətini və xarakteristikalarını ifadə etmir. Bunun üçün dövlətin innovasiya prosesinin təmin edilməsində əsasən hüquqi bazanın təkmilləşdirilməsi mühüm vəzifə kimi çıxış edir. Hüquqi baza nəinki "oyunçular" arasında "oyun" qaydalarını, hətta onların hüquq və vəzifələrini də müəyyən edə bilir. Sözsüz ki, bu dövlətin müstəsna səlahiyyətində olan məsələdir və onun funksiyalarından biri də elə, müvafiq qanunvericiliyin işlənib hazırlanması, qəbul edilməsi və onlara nəzarətdir.

Yuxarıda göstərildiyi kimi, milli innovasiya sisteminin fəaliyyət göstərməsində əsas rolu dövlət oynayır. İnnovasiyaların səmərəli yayılmasında isə müxtəlif hakimiyyət institutları, həmçinin biznes-strukturları və elmi cəmiyyətlər müstəsna rola malikdirlər.

Hər bir halda MİS-in inkişaf strategiyası dövlət vasitəsilə aparılan makroiqtisadi siyasət, normativ hüquqi təminat, birbaşa və bilavasitə dövlət tənzimlənməsi, elmi texnoloji və sənaye potensialının, daxili əmtəə bazarı, əmək bazarı, həmçinin tarixi və mədəni ənənələri və xüsusiyyətləri ilə müəyyən edilir.

MİS-in yaradılması əsasında milli iqtisadiyyatın rəqabət qabiliyyətli inkişafı ilk növbədə bilik iqtisadiyyatına keçidi tələb edir. Onun başlıca xarakteristikası isə yüksək texnologiyalı sahələrin dinamik inkişafı, tədqiqat və işləmələrə investisiya qoyuluşunun sürətli artımı, məhsul və xidmətlərin elm tutumluluğunun, müəssisələrin innovasiya fəallığının yüksəldilməsi və iqtisadiyyatda innovasiya mənfəətinin artırılmasına nail olunmasıdır. MİS-in fəaliyyətində mühüm yeri elmi-texniki informasiya sistemi, informasiya kommunikasiya texnologiyaları (İKT) əsasında innovasiya fəaliyyətinin informasiya təminatı, biznesin və dövlətin fəaliyyəti üçün elektron mühitin yaradılması, internet şəbəkəsinin istifadəsi tutur [9].

MİS-in bünövrəsini təşkil edən milli iqtisadiyyatın bazis sahələrinə gəlincə bunlara aşağıdakılar aid edilə bilər: biliyin generasiyası (elm və onun digər sahələrində olan seqmenti); biliyin yayılması və tətbiqi, elmi-texniki və innovasiya fəaliyyəti yeniliyin (tədqiqat və işləmə məhsulunun istehsalı və xidməti) kommersiyalaşması; təhsil və kadrların peşəkar hazırlıqları;




innovasiya-maliyyə təminatlı infrastrukturu; idarəetmə və tənzimlənmə (hüquqi baza, dövlət makroiqtisadi və innovasiya siyasəti, korporativ idarəetmə, bazar mexanizmi) və s.

Bu gün milli innovasiya sistemlərinin vahid tərifi və onun vahid formalaşma metodologiyası mövcud deyil. Hətta bir sıra alimlər belə nəticəyə gəlirlər ki, innovasiya sisteminin universal modelini ifadə etmək mümkün deyil [2]. Lakin ümumi şəkildə MİS-ə tərif verməyə çalışsaq bunu belə ifadə edə bilərik; Milli innovasiya sistemi deyəndə, «milli sərhədlər çərçivəsində elmi bilik və texnologiyaların istehsalı və kommersiya satışı ilə məşğul olan bir-biri ilə əlaqəli təşkilatların (strukturların) məcmusu (iri və kiçik şirkətlər, universitetlər, dövlət laboratoriyaları, texnoparklar və inkubatorlar) başa düşülür»

Deyilənlərdən bu qənaətə gələrək, Milli innovasiya sistemi (MİS) - innovasiya fəaliyyəti iqtisadi mexanizmlər əsasında formalaşan və onu həyata keçirən dövlət və qeyri-dövlət subyektlərinin qarşılıqlı təsirini inkişaf etdirən elementlər və ya obyektlərin məcmusudur.

Bu ümumi modelin çərçivəsində MİS-in milli xüsusiyyətləri formalaşır. Bu xüsusiyyətlər göstərilən formaların icra edilməsində dövlətin və özəl sektorun rolunda, böyük və kiçik biznesin rolunda, fundamental, tətbiqi tədqiqatlar və işləmələrin münasibətində, inkişaf dinamikasında, innovasiya fəaliyyətinin sahələr üzrə və regional quruluşlarında təzahür olunur.

Hər bir dövlət unikal bir hadisə olaraq və özündə yalnız MİS strukturunun fəaliyyət elementlərinin xarakteristikalarını deyil, həm də dövlətdə innovasiya prosesinə bu və ya digər şəkildə təsir edən tarixi ənənələri və mədəni xüsusiyyətləri birləşdirir. Bundan başqa, MİS-nin ölkələrdən asılı olaraq müxtəlif hədəfləri var. Misal üçün hal-hazırda Fransada əsas vəzifə - əlavə iş yerlərinin yaradılması, Almaniyada - daha səmərəli innovativ texnologiyaların yaradılması və onların səmərəli istifadəsi, tətbiqi və s. göstərmək olar.

Müasir Azərbaycan dövləti, bu gün müasir bazar iqtisadiyyatına keçdikdən sonra onun qarşısında əsas iqtisadi məqsədlər olaraq, güclü iqtisadi sistemin yaradılması, olkənin qeyri-neft sektorunun inkişafının təmin edilməsi, iqtisadiyyatın müxtəlif sahələrinin inkişaf etdirilməsi, olkənin istehsal gücünün artırılması, ixrac potensialının stimullaşdırılması və s. kimi müəyyənləşdirilmişdir. Bu məqsədlərə nail olmaq üçün heç şübhəsiz güclü və çevik Milli İnnovasiya Sisteminin yaradılması mühüm əhəmiyyət kəsb etməyə başlamışdır. Bu sahədə ölkəmizdə olduqca intensiv işlər həyata kecirilir, müvafiq qanunvericilik

bazası və infrastruktur yaradılır, sənaye parkları, texnoparklar və sənaye rayonlarının yaradılması prosesi sürətlə davam edir. Bütün bu proseslərin həyata keçirildiyi bir zamanda, Azərbaycanın Milli İnnovasiya Sisteminin yaradıldığı bir dövrdə onun elementlərinin təşkili strukturunun təkmilləşdirilməsi məqsədi ilə Milli İnnovasiya Sistemlərinin ayrı-ayrı ölkələrdə olan formalarının tədqiqi və onların təcrübələrinin oyrənilməsi əlbətdəki bizim üçün xususi əhəmiyyətə malikdir. Milli İnnovasiya Sistemlərinin ayrı-ayrı formalarını təmsil edən ölkələrin Milli İnnovasiya Sistemlərinin tədqiqi onların əsas üstün və mənfi cəhətlərinin muəyyənləşdirilməsi və onların təcrübələrinin bizim Milli İnnovasiya Sisteminə tətbiqi imkanlarının müəyyənləşdirilməsi vacib məsələlərdəndir.

İnkişaf etmiş ölkələrdə milli sərvətin böyük hissəsini insan kapitalı təşkil edir və intellektual əmək isə üstün xüsusi çəkiyə malikdir. Azərbaycanda da ölkənin dayanıqlı inkişafını təmin etmək məqsədilə insan kapitalının formalaşdırılması və ondan səmərəli istifadə olunması əsas prioritet hesab olunur və bu istiqamətdəki addımlar dövlət tərəfindən daim dəstəklənməkdədir. Ötən illər ərzində insan kapitalının inkişafı ilə bağlı tədbirlər müəyyən edilərək icra olunmuş və hazırda icra olunan bir sıra strategiya, dövlət proqramları və konsepsiyalarda bu öz əksini tapmaqdadır.

Azərbaycanın strateji dövlət sənədlərinə gəlincə, burada innovasiya siyasəti və innovativ iqtisadiyyatın qurulması əsas prioritet məqsədlərdən biri kimi dəyərləndirilməlidir. Bu istiqamətdə hazırlanmış və hal-hazırda icra olunan sənədlərdə “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası, “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”, "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə Elmin inkişafı üzrə Milli Strategiya"sı, eləcə də “Milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritə”ləri insan kapitalinin inkişafı, bilik və innovasiyalara əsaslanan inkişaf prioritet istiqamət olaraq müəyyən edilmişdir. Ali təhsil müəssisələrində yetişdirilən mütəxəssislərin isə dövlətin və özəl şirkətlərin idarə olunmasında, iqtisadi artımda və əmək məhsuldarlığının yüksəldilməsində fəal iştirak etməsi prioritet istiqamətlər olaraq müəyyənləşdirilmişdir.

Hər bir sənədin əsas qayəsi məhz belə bir fikirdə öz əksini tapmış olur ki, bu da innovasiyaəsaslı modelin inkişaf etdirilməsi üçün fiziki, insan, institusional və sosial kapitalla təmin olunması fikridir.

Ölkəmizdə MİS-in strukturunun yaradılması və milli iqtisadiyyatın rəqabət qabiliyyətli inkişafını təmin etməkdən ötrü hazırlanmış "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası bu baxımdan olduqca maraqlıdır.

Konsepsiyada - mövcud ehtiyatlarlardan maksimum istifadə edərək, onların qeyri-neft sənayesinin tələbatlarının ödənilməsinə yönəldilməsi və bu amilin reallaşdırılması üçün elmi-texniki tərəqqinin ən yeni nailiyyətləri əsasında istehsalın daha da inkişaf etdirilməsi və hərtərəfli formalaşdırılmış müasir sənaye sahələrinin təşəkkülü prosesinin həyata keçirilməsi, sürətli inkişaf templəri fonunda bilik iqtisadiyyatına keçidin təmin olunması üçün zəruri şərtlər hesab olunur. [3,s.109]. Başqa sözlə desək innovasiya fəallığı artırılmalı, ölkənin uzunmüddətli davamlı iqtisadi inkişafının sürətləndirilməsi, yeni innovasiya və rəqabət yönümlü məhsul istehsalının təmin edilməsi zərurətə çevrilməlidir.

İnkişaf Konsepsiyasında “Elmi potensialın və innovasiya fəaliyyətinin dəstəklənməsi” sahəsində əsas istiqamətlər - uzunmüddətli davamlı iqtisadi inkişafı təmin etmək, bilik iqtisadiyyatını formalaşdırmaq, elmtutumlu texnologiya, məhsul (işlər, xidmətlər) yaradılmasını sürətləndirmək məqsədi ilə innovasiya fəaliyyətinin genişləndirilməsi zəruri hesab olunur. [3, s. 18].

İnnovasiya fəallığının yüksəldilməsi və genişləndirilməsini təmin etmək məqsədilə ölkə başçısının sərəncamı ilə qəbul olunan "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə Elmin İnkişafı üzrə Milli Strategiya" [4] innovasiya fəaliyyətinin inkişaf etdirilməsi, biznes inkubatorlar şəbəkəsinin genişləndirilməsi, texnoloji mərkəzlər, texnoparklar və innovasiya fəaliyyətinə dövlət tərəfindən maliyyə dəstəyinin verilməsi, dövlətin elmi-texnoloji və innovasiya siyasətinin əsas istiqamətləri olaraq müəyyənləşdirilmiş, hansi ki bu tədbirlər sonradan Konsepsiyada daha konkret şəkildə müəyyənləşdirilmişdir.

İlk olaraq qeyd etməliyik ki, insan kapitalının inkişafı ilə bağlı müddəalar “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasında ən əsas faktor olaraq qabardılır və bu cür



ifadə olunur; - insan kapitalının inkişafı Konsepsiyanın əsas prioritetlərindən biridir. Təhsil və səhiyyədə keyfiyyətin yüksəldilməsi, əhalinin sosial müdafiəsinin gücləndirilməsi, gender bərabərliyinin təmin olunması və ailənin inkişafı, gənclərin potensialının və idmanın inkişaf etdirilməsi bu prioritet çərçivəsində əsas istiqamətlərdəndir [3,s.12].

Bu sənəddə artıq İnnovasiyaəsaslı inkişaf modelinə keçid çağırışları fonunda ən mühüm təkmilləşdirmə istiqamətlərindən biri və ən əsası kimi insan kapitalının hazırlanması prosesinin keyfiyyətinin daha da yüksəldilməsi fikri öz əksini tapmışdır.

Bu fikirlər Strateji Yol Xəritəsində daha geniş şəkildə, Ali təhsil müəssisələrində "təhsil-tədqiqat-innovasiya" formatında inkişafın təşviqini irəli sürür - "Universitet klasterlərinin yaradılması araşdırma və təkmilləşdirmələrin həyata keçirilməsini, elmi nəticələrin istehsala tətbiqini stimullaşdırılması, "təhsil-elm-istehsal" əlaqələrinin səmərəliliyinin yüksəldilməsini nəzərdə tutur [5, s.87].

Təsadüfi deyildir ki, Azərbaycanda fəaliyyət göstərən Universitetlərdə iqtisadiyyatın indiki inkişaf səviyyəsinə əsasən mövcud elmtutumlu sənaye müəssisələrində istehsal proseslərini təşkil etmək və innovativ texnologiyalarla işləmək bacarığına malik mütəxəssislərin hazırlığı həyata keçirməkdədir.

Bu gün ölkəmizdə təhsil sahəsində aparılan islahatlar Təhsil Nazirliyinin hər il verdiyi hesabatlarında öz əksini tapmaqdadır. Universitetlərin İT fakültələrində tədris keyfiyyətinin yaxşılaşdırılması, gənclərin xaricdə təhsilinin genişləndirilməsi və İT peşə məktəblərinin yaradılması, həmçinin regional İT Universitetinin təsis olunması İKT-nin prioritet bir sahə kimi inkişafı üçün vacib olan insan resurslarının yaradılmasına istiqamətlənmiş və bu sahədə olduqca vacib addımlar hesab oluna bilər

Təsadüfi deyildir ki, "Milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə "Elmi-tədqiqat fəaliyyətinin inkişafı və biliklərə əsaslanan cəmiyyət quruculuğunun dəstəklənməsi" adlı hissəsi Azərbaycanda elmin inkişafı, elmi tədqiqatların keyfiyyətinin yüksəldilməsi, tədqiqatların nəticələrinin istehsala tətbiqinin təşviqi ilə bağlı tədbirləri əhatə edir: Əsas hədəflər isə bu cür müəyyən olunur: "Elmin inkişafı təşviq ediləcək, özəl sektor tərəfindən araşdırma və təkmilləşdirmələrə investisiya qoyuluşunu təmin etmək üçün stimullaşdırıcı tədbirlər görüləcək" [5, s.88].

İnsan kapitalının inkişafında iştirak edən fiziki və texnoloji infrastrukturun təkmilləşdirilməsi - Elm, təhsil və istehsal sahələrində maddi-texniki bazanın müasir tələblər səviyyəsinə çatdırılması, elmi tədqiqatların aparılması, sınaqdan keçirilməsi və tətbiqini, "elm-istehsal-bazar" əlaqələrinin optimallaşmasını, köməkçi qurumların yaradılmasını təşviq edir. "Təhsil-elm-istehsal" əlaqələrinin optimallaşması, bu təşkilatlara ixtisaslı kadrların hazırlanması, bazara hədəflənən elmi tədqiqat və işləmələrin həyata keçirilməsi üçün maliyyə imkanının yaxşılaşması məqsədilə maliyyə-kredit infrastrukturunun (büdcə və qeyri-büdcə fondu, kommersiya bankı) inkişafı nəzərdə tutulur. "Təhsil-elm-istehsal" infrastrukturunun çevik işləmə mexanizminin qurulması üçün regional və funksional universitet və istehsal klasterlərinin yaradılması fəaliyyətləri həvəsləndirilməli, fasiləsiz təhsil sistemi, universitet kompleksləri, elmi-tədqiqat müəssisələri və iqtisadi effektivliyi artıran istehsal və xidmət sahələrin inkişafı dəstəklənməlidir [5, s.90].

"İnnovasiya fəaliyyətinə investisiya qoyuluşunun təşviq



edilməsi" Strateji yol Xəritəsində öz əksini bu cür tapmışdır: - Azərbaycanda innovasiyanın təşviqini stimullaşdıracaq fəaliyyət planları və dövlət proqramları hazırlanarkən, innovasiya fəaliyyətini stimullaşdırmaq üçün ölkə elmi araşdırma və təkmilləşdirmələrə yüksək texnologiyalı məhsulların istehsalına görə mükafatlar və kreditlər vermək yolu ilə geniş diapazonlu bilik şəbəkəsi yaratmağı nəzərdə tutur [5, s.92].

Azərbaycan Milli Elmlər Akademiyasının "elm-təhsil-istehsal" zəncirində aktiv iştirakını təmin etmək məqsədilə artıq Prezident İlham Əliyevin 8 noyabr 2016-cı il tarixli sərəncamı ilə Azərbaycan Milli Elmlər Akademiyası Yüksək Texnologiyalar Parkı yaradılmışdır. AMEA Yüksək Texnologiyalar Parkının (AMEA YTP) yaradılmasında məqsəd bu cür ifadə olunur; iqtisadiyyatın davamlı inkişafı, rəqabət qabiliyyətinin artırılması, müasir elmi və texnoloji nailiyyətlərə əsaslanan innovasiya, yüksək texnologiya sahələrinin genişləndirilməsi, elm, texnologiya və innovasiya vasitəsilə ilə milli iqtisadi inkişafa töhfə verməyi, Milli innovasiya sistemini genişləndirmək və bu sahəyə investisiya axınını gücləndirməyi hədəf alaraq uğurlu layihələrin həyata keçirilməsini dəstəkləyir. Öz məqsədləri daxilində Respublikada elmin inkişafı, elmi-tədqiqat işləri, innovasiya layihələri istiqamətində müvafiq ictimai, özəl və ya beynəlxalq institutlarla əməkdaşlıq edir, texnologiyaların transferi, elmin biznesə çevrilməsi istiqamətində müvafiq işlər görür. Gələcəkdə elmi tədqiqatların və təcrübə-konstruktor işlərinin aparılması, onların nəticələrinin sənaye, xidmət və digər sahələrdə tətbiqinə dair layihələrin həyata keçirilməsi planlaşdırılır. Fikrimizcə AMEA YTP-ı qarşısına qoyduğu məqsədlər baxımından ümidlə söyləmək olar ki, Azərbaycanın qlobal istehsal zəncirində iştirakına öz böyük töhvəsini yaxın gələcəkdə vermiş olacaqdır.

Hazırda AMEA "elm-təhsil-istehsal" zəncirini qurmaq və tədqiqat universitetinin yaradılması ilə bağlı addımlar atır. Bu da biznes mühitinin yaxşılaşdırılması şirkətlər tərəfindən araşdırma və təkmilləşdirmələrə investisiyaları stimullaşdırmaqla, elmin maliyyələşməsində özəl sektorun çəkisini artıra bilər [6].

Təqdirə layiq haldır ki, Strateji yol xəritələrinin həyata keçirilməsi dövlətimiz tərəfindən ciddi nəzarətə götürülmüş və bu səpgidə aparılan işlərə ümumi rəhbərliyi eləcə də nəzarəti Azərbaycan Respublikasının Prezident Administrasiyası həyata keçirir. Strateji yol xəritələrində nəzərdə tutulmuş fəaliyyətlərlə bağlı monitorinq, qiymətləndirmə və kommunikasiya tədbirlərini isə Azərbaycanda İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirməkdədir.

Göründüyü kimi, strateji əhəmiyyətli sənədlərdə vurğulanan

məqsədlərə nail olmağın yeganə yolu cəmiyyətin innovasiyaəsaslı inkişaf modelinə keçilməsilə bağlıdır. Bu yola keçilməsi üçün artıq ölkəmizin qlobal miqyasda rəqabətədavamlı milli innovasiya sisteminin, həmçinin ictimai həyatın bütün sahələrində innovasiya fəaliyyətini dəstəkləyən infrastrukturun formalaşdırılması prosesinə başlanılmışdır.

Bu gün ölkəmizdə aparılan məqsədyönlü siyasətin nəticəsində ölkəmiz bir sıra nüfuzlu reytinq cədvəllərində özünəməxsus layiqli yerini tutmağa başlamışdır. Belə ki, Dünya İqtisadi Forumunun hazırladığı İnsan Kapitalı İndeksinə (2015-ci il) əsasən, Azərbaycan 124 ölkədən 63-cü, yuxarı-orta gəlirli 30 ölkə üzrə isə Azərbaycan insan kapitalına görə 15-ci yerdə qərarlaşmışdır [5, s.25]. 2016–2017-ci illər üçün açıqladığı Qlobal Rəqabətlilik Hesabatında isə Azərbaycan 138 ölkə arasında artıq 37-ci yerə yüksəlmişdir [5, s.82]. Bu göstəricilərin belə dinamik yüksəlişi ondan xəbər verir ki, ölkəmizin artıq formalaşmış insan kapitalına, həm də rəqabət qabiliyyətini yüksəltmək imkanlarına malik olduğunu sübut edir. Qətiyyətlə söyləmək olar ki, gələcəkdə Azərbaycan, bu imkanlardan səmərəli istifadə etməklə və insan kapitalını daha da inkişaf etdirməklə rəqabət qabiliyyətini artırmış olacaqdır.


**ƏDƏBİYYAT**

*1. Alıyev İ.H., Məmmədov Y.Ə “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasının tətbiqi: “Azərbaycan Respublikasında qeyri-neft sənayesinin İnkişaf Proqramı” : Bakı, “Avropa” nəşriyyatı, 2014,134 s.*

*2. Amable B. The diversity of Modern Capitalism. - Oxford: Oxford University Press, 2004.*

*3. “Azərbaycan : 2020 gələcəyə baxış” İnkişaf Konsepsiyası / Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir. http://www.president.az/files/future_az.pdf 39 s.*

*4. “Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkisafi üzrə Milli Strategiya”nın və Dövlət Proqramı” nın təsdiq edilməsi haqqında “Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 4 may 2009-cu il, №255 http://archive.president.az/articles.php?item_id=20090504071619376&sec_id=30*

*5. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi//http://azertag.az/store/files/untitled%20 folder/_STRATEJI%20YOL%20XERITESI_.pdf*

*6. Azərbaycan Milli Elmlər Akademiyası Yüksək Texnologiyalar Parkının rəsmi internet səhifəsi // http://www.ameaytp.az/content.aspx?id=2*

*7. Lundvall B.A. National Systems of Innovation: Towards a Theory of Innovation and Interactive Learning. London: Pinter 1992, 342 p.;*

*8. http://www.levada.ru/2012/11/02/doverie-institutam-vlasti/*

*9. Rəhimli R.Z “Dövlət idarəçiliyində səmərəliliyin təmin olunmasında dövlət qulluqçusu-vətəndaş münasibətləri”//“Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə”, N3(47) 2014, s.163*

*10. Хантингтон С. Политический порядок в меняющихся обществах. М.: Прогресс-Традиция, 2004. — 480 с. ISBN 5-89826-194-X*



**Açar sözlər:** *Milli innovasiya sistemi, milli iqtisadiyyat, strateji dövlət sənədləri, insan kapitalı, İnnovasiya əsaslı inkişaf modeli, “Təhsil-elm-istehsal” üçbucağı*

**Ключевые слова:** *Национальная инновационная система, национальная экономика, стратегические правительственные документы, человеческий капитал, треугольник - “Образование-наука-производство”*

**Key words:** *National Innovation System, National Economy, Strategic Government Documents, Human Capital, ‘Education-Science-Production’ Triangle*


**Концепция национальных инновационных систем, роль государство в инновационной политике - практика Азербайджана**

**РЕЗЮМЕ**


В статье рассматривается концепция национальной инновационной системы (НИС). Автор анализирует место и роль данной концепции в управлении на государственном и местном уровнях с учетом традиционных и современных источников, а также международной практики.

Так, по мнению автора, создание национальной инновационной системы должно в первую очередь сопровождаться взаимосвязанными процессами, дополняющими друг друга на правительственном уровне, в результате чего обеспечивается воздействие на саму политическую систему. В данном контексте важно то, что все сферы жизни общества должны выполнять потребности инноваторов.

Автор отмечает, что благодаря стратегии, реализуемой в последнее время в Азербайджане и ориентированной на достижение конкретных результатов, а также успехам, экономическому развитию, уверенному взгляду в будущее и лидирующему положению в регионе, страна сумела занять специфическое и достойное место в ряде престижных рейтинговых таблиц. Автор подчеркивает, что это продолжится и в будущем.


**Concept of National Innovation Systems, role of Government in Innovation Policy - Practice of Azerbaijan**

**SUMMARY**


The Article of R.R.Maharramov discusses a very topical issue of the modern time, the Concept of National Innovation Systems (NIS). In the Article, the place and role of this Concept in the public administration is analyzed by considering traditional and modern theoretical researches and the international practice.

Thus, creation of a National Innovation System should first be accompanied with interrelated processes completing each other at the government level, which will in its turn influence the political system itself and the important issue here is that all spheres of a society should meet the demands of innovations.

The Author also tries to give a definition of the NIS generally and compares available ideas in his Article.

It is pointed out that thanks to the goal oriented policy recently implemented in Azerbaijan and the country’s achievements, economic development, confident looks to the future, and its leader position in the region, the country has gained a specific deserved place in a range of prestigious rating tables, and it is very confidently stressed that it will continue.

# Экономика

## РАЗРАБОТКА ГЕЙДАРОМ АЛИЕВЫМ ВНЕШНЕПОЛИТИЧЕСКОЙ И НЕФТЯНОЙ СТРАТЕГИИ АЗЕРБАЙДЖАНА

ГЮЛШЕН МАМЕДОВА
Институт Истории
им. А.А. Бакиханова НАНА



Начиная с первых дней независимости, Азербайджанская Республика стремится урегулировать армяно-азербайджанский, нагорно-карабахский конфликт, восстановить территориальную целостность страны, освободить оккупированные армянскими боевиками азербайджанские земли, возвратить в родные очаги беженцев. Азербайджанская Республика оказалась в тисках не только войны в Нагорном Карабахе, но и под угрозой как юга, так и севера. Территория, ресурсы республики оказались подвержены рискам. Кроме того, Азербайджанская Республика, обладающая огромными запасами углеводородного сырья, стала привлекать к себе внимание мировых гигантов нефтяного бизнеса.

Осознавая геополитическую значимость нефтяного фактора, азербайджанское руководство активно использовало «энергетическую дипломатию» для решения жизненно важных государственных задач. От успеха «нефтяной стратегии» во многом зависело решение большинства ключевых проблем - упрочение независимости, решение армяно-азербайджанского, нагорно-карабахского конфликта, претворение в жизнь демократических реформ, преодоление экономического кризиса и др. С приходом к власти общенационального лидера азербайджанского народа и реализации им «нефтяной стратегии» принято считать 20 сентября 1994 года - дату подписания первого контракта с западными компаниями по освоению нефтяных месторождений Каспийского моря.

По мнению экспертов, вернувшись к власти в 1993 году, общенациональный лидер азербайджанского народа Гейдар Алиев стал проводить энергетическую дипломатию, которую можно назвать началом разработки нефтяной стратегии.

В реализации своей внешнеполитической стратегии Президент Азербайджанской республики Гейдар Алиев ориентировался главным образом на США и Западную Европу. На региональном уровне основным стратегическим партнером Азербайджанской Республики являлась Турция.

Гейдар Алиев в первую очередь нормализовал отношения с российским руководством. Азербайджанская республика вступила в Содружество Независимых Государств (СНГ). Следующий шаг заключался в налаживании равноправного диалога с правительствами и главами стран Западной Европы. Надо отметить, что еще 20 января 1992 года Азербайджанская республика стала членом **Организации по безопасности и сотрудничеству в Европе**. Но только после прихода Гейдара Алиева к власти в Азербайджанской республике развернулась в полную мощь практическая работа азербайджанской дипломатии в этой организации.

**Соединенные Штаты Америки** признали независимость Азербайджанской Республики в декабре 1991 года, 28 февраля 1992 года между ними были установлены дипломатические отношения. Сотрудничество Баку и Вашингтона вначале затрагивало преимущественно вопросы нефтедобычи, поэтому динамика его развития во многом определялась очередными контрактами между американскими компаниями и их азербайджанским партнером - Государственной нефтяной компанией Азербайджанской Республики (ГНКАР).

Ключевым событием стало подписание 20 сентября 1994 года между Азербайджаном и консорциумом иностранных фирм «Контракта Века» на разработку крупных азербайджанских месторождений на Каспии – «Азери», «Чираг» и «Гюнешли». Ведущая роль при составлении и заключении данного контракта



сыграли американские нефтяные компании. Важнейшим этапом в развитии азербайджано-американского политического и делового партнерства стал первый официальный визит в США Президента Азербайджанской Республики Гейдара Алиева (27 июля - 6 августа 1997 г.), в ходе которого он посетил Вашингтон, Нью-Йорк, Хьюстон и Чикаго. Во время переговоров с президентом У.Клинтоном, вице-президентом А.Гором, государственным секретарем М.Олбрайт, министром обороны У.Коэном, министром энергетики Ф.Пенья, министром финансов Р.Рубином, министром торговли У.Дейли, директором ЦРУ Д.Тенетом, а также с членами конгресса США Президент Азербайджанской республики обсудил вопросы двустороннего сотрудничества, региональной и международной безопасности .

В подписанном президентами Азербайджанской республики Г.Алиевым и США У.Клинтоном Заявлении об американо-азербайджанских отношениях отмечалось, что стороны признают важность расширения сотрудничества в областях политики, безопасности, экономики и торговли. Оба лидера выразили надежду на скорейшее урегулирование армяно-азербайджанского, нагорно-карабахского конфликта мирным путем. Стороны подчеркнули, что демократические и экономические реформы являются гарантами обеспечения стабильности Азербайджанской республики, а также выразили поддержку сотрудничеству в области торговли и разработке энергетических запасов Каспия при активном участии в этом процессе американских нефтяных компаний.

В связи с реализации проектов освоения и транспортировки каспийских энергоресурсов, США уделяли Баку пристальное внимание. Президент Азербайджанской республики предпринял уверенные шаги по укреплению связей с Турцией и НАТО, что сделало Азербайджан привлекательным и перспективным для США. Визит президента Азербайджана Г. Алиева в США (22-29 апреля 1999 г.) для участия в юбилейном саммите по случаю 50-летия НАТО стал очередным этапным событием в развитии азербайджано- американского партнерства. Участие Гейдара Алиева на этом мероприятии и многочисленные встречи с официальными лицами, имевшие место в Вашингтоне, рассматривались политическими обозревателями в Баку как «важнейшее событие, закрепившее прозападный курс Алиевского руководства». Кроме вопросов взаимоотношений непосредственно с НАТО, Г. Алиев в ходе своего пребывания в США поднял весь традиционный комплекс: карабахское урегулирование, отношения с Россией, деятельность ГУУАМ, проект восстановления Шелкового пути, комплекс двусторонних азербайджано-американских отношений, отмена 907-й поправки к Закону о защите свободы, подписание новых нефтяных контрактов.

Выступая на юбилейной сессии Североатлантического блока, Гейдар Алиев назвал его «важнейшим инструментом общеевропейской безопасности», заявил, что одобряет и приветствует новую стратегическую концепцию НАТО. Гейдар Алиев подчеркнул, что за прошедшие пятьдесят лет альянс приобрел большие заслуги перед человечеством и внес неоценимый вклад в обеспечение мира, спокойствия, стабильности в Европе и во всем мире. По мнению Гейдара Алиева, основой для сотрудничества Азербайджана с блоком является «общность национальных целей и идеалов». Во время пребывания Г.Алиева в Вашингтоне стороны подписали несколько экономических документов. Самые важные из них – три контракта на разработку нефтяных месторождений с компаниями США «Эксон», «Мобил» и «Монкриф» общей суммой около 10 млрд. долл.

Эти контракты являются очевидным доказательством сохранения интереса к Азербайджанской республике и ее нефтяным ресурсам со стороны нефтяных компаний. Гейдар Алиев в одном из выступлений в Вашингтоне заявил: «Мы установили с США стратегические, партнерские отношения и проводим работу в рамках этих связей, стремясь к их развитию. Подписываемые нами контракты и уже достигнутые успехи создают большие возможности для развития связей в политической, экономической, научной, культурной областях».311

Вслед за перечисленными крупными компаниями свое место на азербайджанском нефтяном рынке заняли такие гиганты, как "Мобил" и «Шеврон». К ним присоединились «Арко», «Конокко», «Оксидентэл петролеум», «Тексако», «Фронтера», «Юнион Тексас Петролеум». Из 19 контрактов, заключенных Азербайджанской республики с иностранными нефтяными компаниями к 1 июля 1999 года, в 14 контрактах приняли участие компании США. Динамично действуют и американские фирмы, выполняющие подрядные и субподрядные работы для нефтяных консорциумов. Основными областями являются проектный менеджмент и инжиниринг, изготовление и монтаж бурового оборудования, электро- и телекоммуникационного оборудования, газовых компрессоров,

оборудования для добычи нефти, компьютерное программное обеспечение, услуги по перевозке грузов.

В соответствии с контрактами азербайджанские предприятия имеют преимущества на получение заказов от международных консорциумов при условии обеспечения необходимого качества, конкурентоспособной цены продукции и ее соответствия стандартам Американского Нефтяного Института. Это, в свою очередь, способствует созданию иностранными фирмами совместных предприятий (СП) с азербайджанскими партнерами. В мае 2001 года президент США Буш представил свою национальную энергетическую программу. Одним из ее положений предусматривалось наращивание усилий со стороны США с целью расширения участия американских компаний и увеличения объемов добычи в странах Каспийского бассейна. Программой Буша были поддержаны маршруты ОЭТ Баку — Джейхан и газопровода из азербайджанского месторождения «Шах-Дениз» в Турцию. В рамках этого плана намечался пересмотр односторонних санкций, предпринятых США в отношении нефтедобывающих стран. После событий 11 сентября 2001 года, когда резко возросла вероятность неконтролируемого развития событий в Персидском заливе, прежде всего в Саудовской Аравии, интерес США к Каспийскому региону принял совершенно иные масштабы. При этом речь уже пошла о размещении американских воинских контингентов в этом районе на постоянной основе с целью защиты нефтегазовых промыслов и коммуникаций.

Наряду с американским направлением, важное место во внешней политике Азербайджанской Республики занимало сотрудничество с Великобританией, Францией, Германией.

В октябре 1993 года (уже после прихода к власти в Азербайджане Гейдара Алиева) государственный министр (заместитель главы внешнеполитического ведомства) Дуглас Хогг посетил Баку с тем, чтобы «перепроверить» готовность азербайджанцев к дальнейшим шагам по налаживанию сотрудничества в нефтяной области. Д.Хогг парафировал меморандум о неограниченной свободе перемещения граждан двух государств, а также декларацию о проведении на регулярной основе политических консультаций. В конце 1993 года, во время визита в Баку группы членов британского парламента от партии консерваторов, удалось согласовать детали визита президента Азербайджана в Великобританию, и в феврале 1994 года он впервые прибыл в Лондон. Итогом стало подписание меморандума о сотрудничестве в области нефтедобычи, заложившего основу последующего «контракта века».

В ходе переговоров в Лондоне обсуждались меры по укреплению внутриполитической стабильности, предпринятые Гейдаром Алиевым, его видение перспектив развития страны, возможности мирного урегулирования карабахской проблемы, гарантии английскому бизнесу. Со стороны Великобритании прозвучала четкая поддержка курса Гейдара Алиева на укрепление суверенитета Азербайджанской республики, создание демократического, светского государства. Внешнеполитический курс президента, направленный на развитие стратегического партнерства со странами НАТО, также получил одобрение. Февральский визит Г.Алиева в Великобританию сыграл ключевую роль в реальном становлении независимого Азербайджана как равноправного субъекта мирового сообщества и заложил фундамент внешнеполитической концепции президента Г.Алиева, получившей впоследствии название «нефтяная стратегия».

Для координации экономического сотрудничества в конце 1995 года был создан Азербайджано-британский торгово-экономический совет, в январе 1996 года было заключено двустороннее соглашение о взаимной защите и поощрении инвестиций. 15 августа 1996 года свой филиал в Баку открыл Британский банк Ближнего Востока (БББВ), являющийся дочерней компанией крупнейшего банка Великобритании HSBS-холдинг. В Баку начали работать представительства ведущих нефтяных компаний Великобритании, которые благотворно влияли не только на развитие промышленности республики, но и на укрепление ее инфраструктуры, на расширение сотрудничества в культурной, образовательной и гуманитарной сферах.

19-24 июля 1998 года президент Азербайджанской республики вновь посетил Великобританию с официальным визитом. Состоялись его встречи с королевой Елизаветой, премьер-министром, а также главами министерств финансов и обороны. Стороны подписали «Совместную декларацию о дружественных отношениях и партнерстве президента Азербайджанской Республики и премьер-министра Соединенного Королевства Великобритании и Северной Ирландии», в которой подтвердили совместную Декларацию о дружбе и сотрудничестве от 23 февраля 1994 г., «как базу ныне существующих превосходных двусторонних отношений», призванную продолжать формировать основу для углубления существующих сфер сотрудничества и «деятельности в новых областях».

Англичане поддержали курс Азербайджана на развитие отношений с Евросоюзом, приветствовали проект ТРАСЕКА по совершенствованию транспортных коммуникаций в каспийском регионе, отметив важность международного сотрудничества в создании и функционировании евроазиатского транспортного коридора.

По окончании переговоров оба лидера присутствовали при подписании трех важных соглашений о долевом распределении добычи нефти и газа, в которых «Бритиш петролеум», «Монумент ойл энд газ» и «Рэмко» являются основными партнерами ГНКАР.

С учетом сильного воздействия на позицию Франции многочисленной армянской диаспоры отношения с Парижем носят, скорее, политический характер. Дипломатические отношения между двумя странами установлены 21 февраля 1992 года. Французская Республика стала первой страной, которую Гейдар Алиев посетил, будучи на посту Президента Азербайджанской республики. В ходе трехдневного пребывания в Париже в декабре 1993 года он имел встречи с президентом Франции Ф. Миттераном, руководителями парламента и различных ведомств. Обсуждались вопросы участия французских компаний в разведке и добыче азербайджанской нефти на Каспии, а также инвестиций в сельское хозяйство и пищевую промышленность. По итогам визита стороны парафировали два документа - Парижскую хартию и Договор о дружбе, взаимопонимании и сотрудничестве, состоялась церемония открытия Франко-азербайджанской торговой палаты. Одним из наиболее весомых результатов переговоров для азербайджанской стороны явилось подтверждение Парижем принципа неприкосновенности границ, территориальной целостности республики, недопустимости решения спорных вопросов силовыми методами , что особенно важно с учетом многочисленной армянской диаспоры во Франции и ее влияния на французскую политику. Как неоднократно заявлял в ходе парижских встреч Г.Алиев, - «Азербайджан открыт для Франции».

В марте 1997 года Президент Азербайджанской республики Гейдар Алиев вновь побывал с визитом в Париже. Встреча с президентом Франции Ж.Шираком 27 марта была посвящена ситуации на Кавказе и перспективам урегулирования карабахского

конфликта, поэтому основное внимание уделялось активизации роли Франции как сопредседателя Минской группы ОБСЕ. Одновременно, надеясь повысить заинтересованность Парижа в решении армяно-азербайджанской, нагорно-карабахской проблемы, Гейдар Алиев призвал французские компании активизировать участие в реализации азербайджано-французского соглашения о совместном освоении нефтяных месторождений в Каспийском море (подписано в январе 1997 г.). Стороны приняли решение в возможно короткие сроки провести первое заседание азербайджано-французской экономической комиссии, что и было сделано в сентябре 1998 года.

Контакты с Германией в начале носили характер гуманитарной помощи. Однако в 2001-2003 годы экономический компонент азербайджано-германского партнерства заметно усилился. Речь идет, в первую очередь, о восстановлении отдельных энергетических объектов и предприятий нефтяного машиностроения. Дипломатические отношения с Германией установлены 20 февраля 1992 года, а принципы взаимоотношений зафиксированы 22 декабря 1995 года. В ходе официального визита в Берлин летом 1996 года Гейдар Алиев высказался за то, чтобы Германия, как член Минской группы ОБСЕ, активизировала свою помощь Азербайджану в решении армяно-азербайджанской, нагорно-карабахской проблемы. В связи с завершением срока пребывания представителя Финляндии на посту сопредседателя Минской группы ОБСЕ Германия выдвинула в конце 1996 года свою кандидатуру. Азербайджанская республика дало на это согласие, однако из-за возражений России и Армении сопредседателем стала Франция (а вскоре и США). Основное место в отношениях двух государств занимает экономическое сотрудничество, которое развивается в рамках ежегодно заключаемого меморандума о финансовом и техническом сотрудничестве.



Хотя курс на стратегическое партнерство с США, государствами Западной Европы и Турцией остается приоритетным направлением внешней политики Азербайджанской республики, было бы неправильно рассматривать страну как форпост той или иной внерегиональной державы или пассивный объект чьих-то притязаний. Азербайджанская Республика является самостоятельным участником мировой политики, отстаивая собственные законные интересы в регионе.

Ключевыми компонентами внешнеполитической концепции Азербайджанской Республики всегда являлись - справедливое решение армяно- азербайджанского нагорно-карабахского конфликта и восстановление территориальной целостности страны, освобождение оккупированных земель, возвращение беженцев в родные места; ускорение интеграции в мировое сообщество и, прежде всего, в евроатлантические структуры, поиск согласия и совпадающих интересов с зарубежными странами и межгосударственными объединениями в процессе решения задач, определяемых национальными приоритетами; активное использование «энергетической дипломатии» для поступательного развития страны, подъема ее экономики, повышения уровня жизни населения, успешного проведения демократических преобразований, укрепления светского, конституционного государства; формирование пояса добрососедства по периметру государственной границы, содействие устранению имеющихся и предотвращению возникновения потенциальных очагов напряженности и конфликтов на Южном Кавказе; воздействие на региональные процессы в целях формирования стабильного, справедливого и демократического миропорядка, строящегося на общепризнанных нормах международного права, включая, прежде всего, цели и принципы Устава ООН; всесторонняя защита прав и интересов азербайджанских граждан и соотечественников за рубежом. Добываемая консорциумом каспийская нефть стала не только источником доходов государства, но и политическим фактором, определяющим ситуацию в регионе. Формируя свою внешнеполитическую стратегию, азербайджанское руководство уделяло большое внимание нефтяной дипломатии, а также разработке средств и методов реализации с ее помощью стоящих перед страной задач. Каспийская нефть привлекало зарубежных нефтяных гигантов, которые инвестировали капиталы в экономику независимого государства.

**ЛИТЕРАТУРА**


1. *Алиев И. Г. , Мурадвердиев А. Ш. Азербайджанская нефть в мировой политике. Т. 1. — Баку, 1997.*
2. *Алиев И. Г. , Мурадвердиев А. Ш. Азербайджанская нефть в мировой политике. Т. 2. — Баку, 1997.*
3. *Алиев И. Г. , Мурадвердиев А. Ш. Азербайджанская нефть в мировой политике. Т. 3. — Баку, 1998.*
4. *Азери, Чираг и глубоководная часть Гюнешли как новый объект мировой геополитики // Нефть и капитал, 2001*
5. *Алиев Г. А. Результат продуманной и дальновидной политики нашего государства // Возрождение XXI век, 1999, № 19*
6. *Федоров Ю. Каспийский узел // Мировая экономика и международные отношения, 1996.*
7. *Стоне А. Каспий: некоторые иллюзии и реальности // Нефтегазовая вертикаль, 2001*



***Açar sözlər:*** *H. Əliyev, neft, müqavilə, Bakı-Tbilisi-Ceyhan, siyasət, iqtisadiyyat.*
***Ключевые слова:*** *Г.Алиев, нефть, контракт, нефтепровод Баку-Тбилиси-Джейхан, политика, экономика.*
***Key words:*** *H.Aliyev, oil, contract, Baku-Tbilisi-Jeyhan, politics, economics.*


**XÜLASƏ**


Azərbaycan neft sənayesi özünün 150 illik tarixi ərzində böyük inkişaf yolu keçmişdir. Lakin Azərbaycan xalqı yalnız XX əsrin sonralarında müstəqillik qazandıqdan sonra bu sərvətlərdən tam bəhrələnmək imkanı qazanmışdır. Heydər Əliyevin dərindən düşünülmüş neft strategiyası nəticəsində Azərbaycan Xəzər dənizinin nəhəng enerji potensialını ilk mənimsəyən və regionun inkişafında keyfiyyətcə yeni iqtisadi modeli formalaşdıran, Avropa və Asiya arasında siyasi və ticarət əlaqələrinin genişləndirilməsində, Qafqaz nəqliyyat dəhlizinin inkişafında, İNOQEYT, TRASEKA və digər nəhəng layihələrin gerçəkləşməsində Xəzəryanı və Qafqaz regionunda mühüm rol oynayan bir dövlətə, dünyanın neft mərkəzlərindən birinə çevrilmişdir.


**SUMMARY**


The article Republic of Azerbaijan on cooperation in the oil, and the European Union is about. During its 150-year history of the oil industry has made tremendous progress. However, not only the people of the twentieth century after independence got a chance to use these resources. Heydar Aliyev's oil strategy of Azerbaijan in the Caspian Sea, deeply thought-energy potential of the region and the development of the first to adopt a new economic model forming, expansion of political and trade between Europe and Asia, the Caucasus transport corridor development, Inogate, implementation of the TRACECA and other major projects in the Caspian and Caucasus plays an important role in the country, has become one of the world's oil.

# Fəlsəfə

# MÜHARİBƏ VƏ SÜLH KONSEPSİYALARININ MÜQAYİSƏLİ TƏHLİLİ

ZÜLFÜQAR FƏRZƏLİYEV
AMEA-nın Fəlsəfə İnstitutu



Müharibə mədəniyyəti bütün bəşər tarixində mövcud olub və de-yure olmasa da, de-fakto (yəni sözdə yox, əməldə) bu gün də mövcuddur. Müharibə mədəniyyətinin istisnasız həyatiliyinə inanmaq üçün, ikiqütblü dünyanın dağılmasından sonra S.Hantinqtonun təklif etdiyi tipologiyanı xatırlamaq kifayətdir.Tarixi inkişafda qarşıdurma subyektləri dəyişir, lakin texnologiyalar, müharibə dili və mədəniyyəti dəyişməz qalır. Mədəniyyətlərin yeni müharibəsində sivilizasiyaları toqquşduran və dövrümüzün əsas ziddiyyəti qismində S.Hantinqton tərəfindən etno-konfessional komponent daxil edilişdir.

Sülh mədəniyyəti sporadik (ara-sıra) olaraq tarixi inkişafın müxtəlif mərhələlərində təzahür edib. Lakin o, yalnız XX əsrin ikinci yarısında konseptual xarakter kəsb edərək fəlsəfi və humanitar təhlilin obyektinə çevrilib. Bununla belə insanların şüurunda sülh mədəniyyətinin elementlərinin təşəkkülü şüurlu seçimin nəticəsi deyil. Bu daha çox kütləvi qırğın silahlarının daim təkmilləşdiyi və istər sosial, istərsə də qlobal məkanda ekoloji problemlərin son dərəcə kəskinləşdiyi şəraitdə özünümüdafiə və sağ qalmanın məcburi, çarəsizlikdən irəli gələn formasıdır.

Ən mühüm elementinin sülh mədəniyyətinin olduğu ümumbəşəri mədəniyyətin formalaşması əvəzinə biz, kütləvi mədəniyyət formasına çevrilmiş müharibə mədəniyyətinin hegemoniyasını müşahidə edirik. Çünki, hərbi fikir və fəaliyyət məkanına cəlb olunmuş insanların, daha doğrusu xalqların sayı davamlı artır. “Mədəniyyətlə qarşılıqlı təsir prosesində müharibə sanki ona qoşularaq onda özünə mökəm yer edir və sosiomədəni tarixi prosesin ayrılmaz tərkib hissəsinə çevrilir”.(1)

Yaranmış vəziyyət həm iki tip mədəniyyət strukturunun tədqiqini, həm də müharibə mədəniyyətinin aradan qaldırılmasının və sülh mədəniyyətinin yayılmasının gerçək sosial texnologiyalarının yaradılmasının zəruriliyini diktə edir. Bundan əlavə o, sülh şəraitində etno-konfessional qrupların tarixi tiplərinin tədqiqini tələb edir.

Mahiyyətcə, hələ ki, bəşəriyyət müharibə mədəniyyətini dəf




etmək üçün texnologiyalara malik deyil. Bundan əlavə, müharibə mədəniyyətinin tarixi inkişafın gedişini müəyyənləşdirən bir hissəsi diktə edir ki, bu mədəniyyət –"zəruri və qaçılmaz şərdir", onunla mübarizə mümkün olsa da, hər bir halda öz vaxtında olmur. Müharibə mədəniyyətinin labüdlüyünü iddia edənlər tarixi nümunələr əsasında sülh mədəniyyətinin permanent məğlubiyyətini əks etdirən inandırıcı dəlillər göstərirlər. Digər tərəfdən onlar iddia edirlər ki, müharibə mədəniyyətinin məhv edilməsi bəşəriyyətin məhvinə gətirə bilər. Çünki, insanların istifadə etdikləri bütün iqtisadiyyat tipləri bu və ya digər formada "müharibə iqtisadiyyatıdır". Belə ki, istehsalın böyük hissəsi hərbi səciyyə daşıyır. Buradan belə bir paradoksal nəticə çıxarılır ki, sülh mədəniyyəti iqtisadiyyatı durğunluğa səbəb olacaq, bəşəriyyətin tədricən cırlaşmasına və son nəticədə növ olaraq məhvinə gətirəcək. Ədalət naminə qeyd etmək lazımdır ki, doğrudan da hələ ki, öz səmərəliliyini nümayiş etdirən, elə buna görə də "müharibə iqtisadiyyatını" əvəz edəcək inandırıcı, ən əsası isə işlək iqtisadi inkişaf modeli mövcud deyil. Bax elə bu səbəbdən də, "Müharibə beynəlxalq münaqişələrin legitim həll vasitəsi olmuş və belə də qalmaqdadır. Ona görə də "müharibə mədəniyyətinə" "sülh mədəniyyətinin" mütləq antipodu kimi baxılması problemin sadələşdirilməsi olardı: onlar əks işarəli statik qütblər yox, bir keyfiyyətdən digərinə ziddiyyətli keçiddir. "Müharibə mədəniyyəti" bəşəriyyətin anlayış aparatında prinsipial yeni fəlsəfi-idraki kateqoriyadır, onun əsasında tarixi, sosial, siyasi, iqtisadi, psixoloji, hüquqi, etik-mənəvi və kulturoloji kimi bazis amillər dayanır".(2)

Müharibə mədəniyyətinin prinsipial yeni fəlsəfi-idraki kateqoriya olması səbəbindən, onun dərki həm də özündə fəlsəfi biliyin sosial və etik problemlərinə münasibəti də ehtiva etməlidir. Lakin məsələnin belə qoyuluşu həm də daha yeni kateqoriyanın –sülh mədəniyyətinin də paralel təhlilini məqsədəmüvafiq edir. Burada isə birgə təhlil üçün yeni yollar açılır: sosial fenomenlər, psixoloji qaydalar, tarixi nümunələr, dil streotipləri və anlayışlar, futuroloji proqnozlar və s. səviyyədə.

Sülh mədəniyyətinin, onun əsas əlamətlərini özündə ehtiva edən tərifinə diqqət yetirək: "...mütərəqqi, demokratik, humanist, fəlsəfi-etik dəyərlərin, insanların bir-birinə, təbiətə və bütövlükdə ətraf mühitə münasibətinin prinsip və normalarının, adət və ənənələrin, sağ qalma, özünüqoruma və bütün insan birliyinin inkişafının tarixi təcrübəsinə əsaslanan davranış və həyat tərzlərinin məcmusudur, bu isə həyata, insan şəxsiyyətinə, onun ləyaqət və hüquqlarına hörmətdə; zorakılıqdan imtina və onun qarşısını almaqda; kişi və qadın hüquqlarının bərabərliyinin etirafında; demokratiya, azadlıq, ədalət, həmrəylik, tolerantlıq prinsiplərinə sadiqlikdə; mədəniyyət, hüquq və adətlər, inam və etiqadlarda, insanlar arasındakı fərqliliyin anlaşılması və qəbulunda; həm xalqlar, həm də etnik digər qruplar arasındakı qarşılıqlı anlaşmada ifadəsini tapır". (2)

Göründüyü kimi tərifdə əksini tapmış və ümumbəşəri dəyərlərə uyğun olan prinsiplərin bir çoxu hələ ki, deklorativ səciyyə daşıyır. Onların beynəlxalq sənədlərdə əksini tapması yalnız ondan xəbər verir ki, onlar mahiyyət yox, gərəklilik kateqoriyalarıdır. Digər tərəfdən, beynəlxalq sənədlərin normativliyi ondan xəbər verir ki, bəşəriyyət bu prinsiplərə mövcud olma imkanı verir, onları insanların təfəkkür və davranış normalarına çevirməyə hazırlaşır.

Fikrimizcə, L.M.Semaşko "ənənəvi sülh mədəniyyəti" və "harmoniya kimi sülh mədəniyyəti" anlayışlarının çox mühüm fərqini göstərib. Əsas fərqləri izah edən L.M.Semaşko yazır: "İndustrial cəmiyyətə xas olan ənənvi sülh mədəniyyəti –siyasi və hərbi güclərin tarazlıq mədəniyyətidir. Bu qüvvələr həmişə dayanıqsızdır və heç də müharibələrin aradan qaldırılmasına yox, onları məhdudlaşdırmağa, yaxud gecikdirməyə və silahlanmanın qarşısını almağa yönəlib ona görə də bu mədəniyyət müharibə və terrorizmin qarşısını almq üçün səmərəli iştirakçılar və institutlara malik deyil. Bunu isə təqribən qırxa yaxın müasir lokal müharibələr və demək olar ki, hər gün baş verən terror aktlarının baş verməsi təsdiq edir. Onların davamlı olmasını təmin edən mənbə isə pulun hökmranlığına əsaslanan industrial cəmiyyətin mədəniyyəti və sosial disharmoniya nizamıdır".(3)

L.M.Semaşko yeni sülh mədəniyyətini informasiya cəmiyyəti ilə əlaqələndirir: "... bu sosial qrup və etnosların dayanıqlı tarazlığı kimi çıxış edən sosial harmoniya düzənidir. Bu sosial qrup və etnosların əsas hissəsini uşaqlar, valideynlər, xüsusilə uşaqların qayğı yükünün əsas hissəsini üzərinə götürən analar, həmçini pedaqoqlar, həkimlər və tərbiyəçilərdir: onlar müxtəlif ölkələrdə əhalinin 50-80%-ni təşkil edirlər. Bu qruplar sülhsevərlik enerjisinin daşıyıcılarıdır, onlar harmonik dünyanın yeni mədəniyyətinin sosial dayaqlarıdır. Yalnız yeni, harmonik və dayanıqlı dünyanı yaradan sosial harmoniya müharibə, terror və yoxsulluğun qarşısını almağa qadırdir. İnformasiya (qlobal) cəmiyyət bizim prioritetləri dəyişir və harmonik dünya yaradır".(4) Fikrimizcə deyilənlərə qloballaşma prosesləri ilə bağlı olan yeni mədəniyyət tipini də əlavə etmək lazımdır. Məlumdur ki, müasir şəraitdə ən çox müzakirə olunan problemlərdən biri də qloballaşma proseslərinin mədəniyyətə təsiridir. Mədəniyyətlərin unifikasiyası prosesləri, onun çoxobrazlığının vahid (Qərb) standartlarla eyniləşdirilməsi, ənənəvi dəyər və normaların əsaslarını dağıtmaq cəhdlərinə qarşı düşmən əhval-ruhiyyəsində olan xalqların təbii müqavimətini törədir. Ona görə də üçüncü anlayışın –qloballaşma epoxasının mədəniyyəti anlayışının daxil edilməsi məna kəsb edərdi. Bu məsələyə bir daha qayıdacağıq.

Hələlik diqqəti etno-konfessional qruplarda sülh və müharibə konsepsiayalarının tarixi və müasir vəziyyətinə yönəldək. Bu zaman, məlum səbəblərdən xristian və müsəlman icmaları ilə kifayətlənəcəyik.

İslamın təşəkkülü və geniş miqyaslı müsəlman istilaları, öz növbəsində məhdudlaşdırıcı tədbirlərin görülməsini tələb edən

xristianlarla amansız hərbi toqquşmalara səbəb olub. Burada müharibələrin aparılmasının o dövr üçün sərt norma və qaydalar sistemini hazırlamış cəngavərlik institutu əhəmiyyətli rol oynayıb. Əgər səlib yürüşlərinin iştirakçıları –xaçlılar ilə müsəlmanlar arasındakı ilk toqquşmalarda bu qaydalara riayiət olunmurdusa, bu müsəlmanların tamamilə yad, xristian dinini məhv etməyə çalışan düşmən qüvvə kimi qəbul edilməsinin nəticəsi olmuşdur. İisusun (İsa) müsəlmanlar tərəfindən ehtiramla anılması, onlar tərəfindən Əhdi-Ətiq və Əhdi-Cədidin müqəddəslik statusunun etiraf edilməsi də xaçlılar üçün gerçək kəşf olmuşdur. Lakin, bütün bunlar kifayət qədər gec baş vermişdir.

Müharibələrin aparılmasının müsəlman qaydaları məcəlləsi hərtərəfli hazırlanmışdır: “Şəriətə görə müharibə zamanı müsəlman ordusu bu qaydalara riayət etməli idi: uşaqları, qadınları, qocaları öldürmək, ictimai və şəxsi rifahın mənbəyi olan əkin sahələri və otlaqları məhv etmək qadağan edilir. İslam peyğəmbəri hərbi cihadı “kiçik cihad” adlandırmış, “böyük cihad” dedikdə isə qurbanlar bahasına olsa da cəmiyyət və insanın kamilləşməsini nəzərdə tutmuşdur. Ona görə ki, insanlar həqiqət, ədalət, bərabərlik və insana hörmət kimi əxlaqi dəyərlərə üstünlük verməklə insanı qoruya bilsin. Bu amil xoşbəxt insan cəmiyyətini qurmağa kömək edir”. (4)

XVII-XVIII əsrlər müharibələrin aparılma qaydalarının təkmilləşməsi dövrüdür. Lakin rəqibə tolerantlıq münasibətin seçici səciyyə daşıdığı “özününkü-özgəninki” prinsipi hələ də işlək olmuşdur. Beləliklə, hərbi əməliyyatlar sahəsində reqlamentasiya, dövlətlər tərəfindən qanunlar səviyyəsində qəbul edilən universal norma olmamışdır. Müstəmləkəçilik, kapitalizm və millət-dövlətlərin yaradılması kimi dünyəvi tarixi proseslər istər “özgələrə”, istərsə də “özününkülərə” qarşı silah gücünə gerçəkləşib. Lakin bu, müəyyən dövrə qədər, daxili və xarici ticarətin milli bazarının yaranmasına, onların beynəlxalq və sonra dünya bazarına çevrilməsi üçün sülhün qorunub-saxlanılması tələb edildiyi zamana qədər davam etmişdir.

Müharibə haqqında daha kamil hazırlanmış və dövlətlər tərəfindən qəbul edilən sənəd, beynəlxalq humanitar hüququn ilkin normalarını təqdim edən Haaqa konfransının materialları olmuşdur. 1907-ci il Haaqa konvensiyasının Preambulasında yazılır: “Əvvəlki dövrlərdə, müharibə qanunlarının daha tam məcəlləsinin formalaşdırmaq imkanı olmadığı zamanlarda, Ali Razılaşmanın tərəfləri şəhadət verməyi lazım bilirlər ki, onların qəbul etdiyi qaydalarda nəzərdə tutulmamış hallarda, əhali və döyüşən tərəflər beynəlxalq hüququn əsasları tərəfindən müdafiə olunur, çünki bu təhsilli xalqların formalaşmış adətlərdən, insanlıq qanunundan və ictimai şüurun tələblərindən irəli gəlir”.(5) Bu isə beynəlxalq hüququn hələ ki, tam kamil olmadığını bildirirdi.

Əgər nəzərə alsaq ki, bəşəriyyət hələ o zaman dünya müharibəsi təcrübəsinə malik deyildi, atdın olar ki, belə hüquq tam yetkin ola bilməz, o daim təkmilləşməlidir.

1949-cu ilin dörd Cenevrə konvensiyası belə inkişafa nümunə ola bilər: “Bu aktlarla hərbi əməliyyatların aparılmasının yeni humanist qaydaları müəyyənləşir: yerli əhalinin statusu müəyyənləşir, dənizdə qospital gəmilərin vurulması qadağan olunur, əsir götürmə, əsrlərin saxlanılması, hərbi əsrlərin əmək şəraiti qaydaları tənzimlənir. Cenevrə konvensiyaları ilə hərbi əsrlərin düşərgələrinin və səhra qospitallarının beynəlxalq işarələnməsi bərqərar edilir”.(5)

Bu gün terrorizm tənqidçiləri əsas hədəf kimi İslamı götürürlər.



Əlbəttə ki, bu zaman onlar bu dinin dünyəvi proseslərə getdikcə artan təsirini və “Taliban”, İŞİD, “Boko haram” və s. kimi çoxsaylı fundamentalist müsəlman təşkilatlarının mövcudluğuna istinad edirlər. Bu haqda M.Kudeymi yazır ki, terrorizmin islamın təbiəti və ehkamları ilə əlaqələndirmək və bu zaman xristianlığın inkişaf tarixində analoji dövrün mövcudluğunu inkar etmək kobud səhvdir: “Yeni dövrdə bəşəriyyət dağıdıcı müharibələrin dəhşətlərini görüb, bu müharibələrin hərəkətverici qüvvələri isə ağalıq və istismara can atanlar, yaxud amoral müddəalara əsaslanmış nəzəriyyələri həyata keçirməyə cəhd göstərənlər olmuşdur. Birinci və ikinci dünya müharibəsinin, Vyetnam müharibəsinin, çoxsaylı regional münaqişələrin nəticəsi olan dağıntılar, aclıq, xəstəliklər, xalqları yurd-yuvasız qalması bəşəriyyəti dəhşətə gətirmişdir. Belə müharibələrin islam nəzəriyyəsi ilə nə aidiyyəti var? İslam rəhmə, ədalətə və xeyrə çağırış edir. Müharibənin islam konsepsiyasının humanist aspektləri ilə tanışlıq həm də ona görə zəruridir ki, insanlar islamın müssiyasının əhəmiyyətini və onun humanizminin əhəmiyyətini düzgün anlaya bilsinlər”.(6)

Beləliklə hamının xoşbəxt olması üçün öz bacarığı və zəkasını istifadə edə biləcəyi dünyanın qurulması islamım əsas məqsədidir. İslamın ali idealları və prinsiplərini bilmək zəruridir. Biz öz borcumuz bilirik ki, bu ideal və prinsiplərə, yaxud bəzi müsəlmanların yanlış ideyaları və fəaliyyətlərinin təsiri ilə islam haqqında həqiqətə uyğun olmayan təsəvvürləri formalaşmış insanlara bütün bu ideal və prinsipləri çatdıraq. Məhz bu insanların da islamın məhəbbət, ədalət və humanizm prinsiplərini bilmələri zəruridir.

Çoxsaylı müharibələrin baş verdiyi Roma imperiyasının sərt şəraitində yaranmış xristianlıq dini IV əsrə qədər müharibəyə kəskin neqativ yanaşmışdır. Böyük Konstantinin bu dinə dövlət ststusu verməsindən sonra vəziyyət dəyişmişdir. Müharibənin mümkünlüyünü, xristian təlimi çərçivəsində müdafiə və ədalətin bərqərar edilməsi naminə aqressiv müharibələrin aparılmasını qəbul edən ilk mütəfəkkir Müqəddəs Avqustin olmuşdur.

Müharibə və sülh problemin ətrafında rəsmi xristian və müsəlman strukturlarının mövqeyindəki oxşarlığı nəzərə alaraq, bu suallar ətrafında artıq əlli ildən çoxdur ki, aparılan dialoqu davam etdirilməsinin zəruriliyi qeyd olunmalıdır.

İslam hansı prinsiplər çərçivəsində dialoqu mümkün sayır? Burada ən mühüm olan köğnüllü razılıq, hər iki tərəfin dialoq üzrə həmsöhbətinə hörmətlə yanaşması ön plana çəkilir. Dialoq iştirakçıları ədalət və xeyirxahlıq prinsiplərini əsas götürməli və bir-birinin dəyər oriyentasiyaları və motivlərini düzgün




anlamalıdırlar. Nəhayət, “dinlərarası dialoq yalnız o halda ictimai razılığın əldə edilməsinə səbəb ola bilər ki, bu dialoq sosial, iqtisadi, ekoloji və digər problemlərin həllinə yönəlsin. Dinlər arasındakı fərqlərin yox edilməsini, yaxud onların birləşdirilməsini dialoqun məqsədi elan etmək mənasız, və hətta təhlükəlidir”.(7)

O da qeyd edilməlidir ki, XX əsrin əvvəllərində dünyada vəziyyət kəskin şəkildə gərginləşmişdir. Dünya siyasətində ABŞ-ın onillik inhisarçı hegemoniyası praktiki olaraq beynəlxalq hüququn müntəzəm şəkildə pozulmasına, öz suverenliklərini qoruya bilməyən ölkələrin daxili siyasətinə müdaxilə edilməsi ilə nəticələnib. Həmçinin bu, ilk növbədə müsəlman ölkələrinə də şamil oluna bilər. Müsəlman ölkələri də buna cavab olaraq əvvəllcə fundamentalist, sonra isə terrorçu strukturlar formalaşdırmağa başlamışlar.

Deyilənləri aşağıdakı kimi ümumiləşdirmək olar:

Müharibə mədəniyyəti öz forma və yaranma motivlərini dəyişərək bəşəriyyəti bütün tarixi boyu müşayiət etmişdir. Tarixi inkişafda qarşıdurma subyektləri dəyişir, lakin müharibənin texnologiyaları, dili və mədəniyyəti dəyişməz qalır: bu gün müharibə etno-konfessional səciyyə daşıyır.

Sülh mədəniyyəti yalnız XX əsrin ikinci yarısında konseptual səciyyə daşımağa başlamış, fəlsəfi və humanitar təhlilin tədqiqat obyektinə çevrilmişdir. İnsanların şüurunda sülh mədəniyyətinin elementlərinin formalaşması dərk olunmuş seçimin nəticəsi deyil. Bu kütləvi qırğın silahlarının daimi təkmilləşməsi və ekoloji problemlərin son dərəcə kəskinləşməsi şəraitində özünümüdafiə və sağ qalmanın məcburi formasıdır.

Son zamanlar müharibə mədəniyyətinin təzahürləri tez-tez müşahidə edilir və bu mədəniyyət beynəlxalq və lokal terrorizmlə birlikdə sülh mədəniyyəti üzərində qələbə çalır. Müharibə mədəniyyətinə monoloq, sülh mədəniyyətinə isə dialoq kimi kommunikasiya tipləri uyğun gəlir. Müharibə mədəniyyəti istisnasız olaraq öz maraqlarından çıxış edən kommunikasiya tipidir, həm də o bütün mümkün, o cümlədən zorakılıq metodlarından istifadə edir.

Müharibə mədəniyyəti formaları gah pozitiv (sosial prosesin dinamikasını sürətləndirməklə), gah da neqativ (maddi mədəniyyətin dağıdılması və mənəvi dəyərlərin boğulması) rol oynamaqla daim dəyişmişdir. Özünəməxsus bu tarzlıq, müharibə mədəniyyətinin maddi əsasları bəşəriyyətin mövcudluğu üçün birbaşa təhlükə səciyyəsi alana qədər sərhədlərə malik olub.

Bəşəriyyət hələ ki, müharibə mədəniyyətini dəf etmək üçün texnologiyalara malik deyil. Belə bir rəy formalaşıb ki, bu mədəniyyət “zəruri, labüd şərdir”. Onunla mübarizə mümkündürsə də, bu mübarizə heç zaman vaxtında aparılmır. Belə iddia edilir ki, müharibə mədəniyyətinin məhvi bəşəriyyətin məhvinə səbəb ola bilər. Çünki insanların istifadə etdikləri bütün iqtisadiyyat tipləri bu və ya başqa formada “müharibə iqtisadiyyatıdır”. Belə ki, istehsalın böyük hissəsi hərbi səciyyə daşıyır.

Müharibə mədəniyyəti və sülh mədəniyyətlərinin dərki uzlaşdırılmalıdır. Birgə təhlilin yeni yolları müxtəlif səviyyələrdə: sosial fenomenlər səviyyəsində, psixoloji qaydalar səviyyəsində, tarixi nümunələr səviyyəsində, dil stereotipləri və anlayışlar səviyyəsində, futuroloji proqnozlar səviyyəsində və s. gerçəkləşə bilər. Əlbəttə ki, müharibə və sülh mədəniyyətinin genezisini konstruksiya və onu inkişaf etdirməyə, həmçinin onu qloballaşma dövrü ilə tamamlamağa imkan verəcək müqayisəli tarixi tədqiqat səviyyəsində gerçəkləşə bilər.

**ƏDƏBİYYAT**

*1. Ларкин Л.Г. Социокультурные параметры взаимодействия войны и культуры.- ЛГПУ- https://cyberleninka.ru/article/n/sotsiokulturnye-parametry-vzaimodeystviya-voyny-i-kultury.*

*2. От культуры войны к культуре мира: концептуальная парадигма перехода*

*(«постановка проблемы) - http://userdocs.ru/geografiya/6349/index.html?page=18 (s.179)*

*3. Семашко Л. М. Культура мира http://russika.ru/t.php?t=1785*

*4. Муткогло И. Джихад большой и малый. http://www.islam.ru/content/obshestvo/41418*

*5. Культура войны и мира – http://ru.wikipedia.org/wiki/*

*6. Кудейми М. Концепция войны в исламе : Дис. ... канд. политол. наук : 23.00.04 : Москва, 1994, 149 с.- http://www.dslib.net/glob-razvitie/koncepcija-vojny-v-islame.html*

*7. Ислам и свобода вероисповедания 3 Сентябрь 2009 - http://islamdag.ru/analitika/1542*

***Açar sözlər:*** *müharibə, sülh, dialoq, mədəniyyət*
***Key words:*** *war, peace, dialogue, culture*
***Ключевые слова:*** *война, мир, диалог, культура.*

**Зульфугар Фарзалиев**
**Сравнительный анализ концепции войны и мира**
**РЕЗЮМЕ**

В статье рассматривается проблема войны и мира, их роль в истории человечества. Дается теоретический философский анализ соответствующие типы культуры - культуры войны и мира, анализируется проблемы терроризма. Рассматриваются правила ведения войны и важность этих правил для будущего мира.

**Zulfugar Farzaliev**
**Comparative analysis of the concept of war and peace**
**SUMMARY**

The article deals with the problem of war and peace, their role in the history of mankind. The theoretical philosophical analysis of the corresponding types of culture - the culture of war and peace - is given, and the problems of terrorism are analyzed. The rules of warfare and the importance of these rules for the future peace are considered.

# International Relations

# LEGAL STATUS OF THE CASPIAN SEA

DR. YUSIF HUSEYNOV
The Geneva School of Diplomacy
and International Relations
Geneva, Switzerland





**The Caspian Sea**

The Caspian Sea is a landlocked body of water located in the middle of the Eurasian continent. It is also considered to be the largest inland saltwater lake in the world. The area of the Caspian Sea covers 386,000 square kilometers and borders Russia, Iran, Azerbaijan, Kazakhstan, and Turkmenistan (Bajrektarevic and Posega, 2014). The main sources of water that feed the Caspian Sea are the Volga and Ural Rivers. Throughout recorded history, the Caspian Sea has often been considered by many empires to be an extremely valuable and important body of water. This is because it not only has access to Central Asia, but also the Caucasus, Persia, and other regions that surround the sea. In the last two centuries, the Russian Empire and the Persian Empire were the only powers that ever shared the Caspian Sea. Even Marco Polo, who was a renowned Venetian traveler, came to visit the shores of the Caspian Sea in the 13th century (Ozyavas and Khan, 2012). During his expedition, he wrote the following:

"There is a fountain of oil which discharges so great a quantity as to furnish loading for many camels. The use made of it is not for the purpose of food, but as an unguent for the cure of itching in men and cattle, as well as other complaints; and it is good for burning. In neighboring country, it is used in their lamps, and people come from distant parts to procure it" (Exploring history, URL, 2016).

From this statement, we can see that even in the 13th century, Marco Polo saw that crude oil was being used by the local people in the fueling of their lamps, without realizing that in the distant future this fuel would become the main element in the energy security of all the countries of the world. Thus, after 6 centuries the importance of the Caspian Sea became more visible when the world's first oil well was drilled near the city of Baku, located on the western shores of the Caspian Sea. Beginning in the late 19th century, the Nobel brothers entered the Caspian basin and started drilling for oil. It wasn't long before other oil companies followed them and together they industrialized the oil sector and laid the infrastructural foundations for energy extraction on a massive scale. This situation continued until the 1920s when the Soviet Union gained control of most of the Caspian region together with Iran (Ziyadzade, 2015).

**Legal Status of the Caspian Sea**

The legal status of the Caspian Sea has become one of the most controversial topics since the fall of the Soviet Union. During the Soviet Union period, control of the Caspian Sea was distributed between Moscow and Tehran (Dar, 2013). However, when the South Caucasus and Central Asian countries regained their independence after the collapse of the Soviet Union, it resulted in the long lasting and undefined nature of the legal status of the Caspian. The only international document that exists which concerns the status of the Caspian is the Soviet-Iran Trade and Navigation Agreement that was signed in 1940 (Bajrektarevic and Posega, 2014). However, the five current littoral states of the Caspian Sea, namely Russia, Azerbaijan, Kazakhstan, Turkmenistan, and Iran, have found themselves in the middle of discussions and negotiations for a definitive agreement on the matter. The unresolved status of the Caspian Sea and the varied positions held by each littoral state regarding its demarcation process has not only obstructed the settlement of the legal status but it has also worsened the bilateral relations between some of these countries. Disagreements on the legal status of the Caspian Sea are




often based on the notion of whether the body of water is a lake or a sea and applying the law based on one of these two alternatives has become the main topic of the negotiation process (Cason, 2015). Internationally accepted law of the sea and customary international law are the two decrees that are being taken into consideration in defining the status of the Caspian Sea. They respectively propose to either settle the demarcation with the coastline and equidistance measurements, as per the law of the sea, or with the 15 nautical miles from the shores of each country, as per the customary international law, if it is considered to be a lake (Dilbazi, 2010). All of the 5 littoral countries of the Caspian Sea have met almost every year in the hopes of achieving some form progress in resolving the unsettled situation regarding the Caspian Sea. The last Caspian Summit, which took place in Russian Federation in 2014, is one of the examples of this process. However, it is very important to mention that all the states in the Caspian Sea hold specific agendas and therefore different positions and these positions are highly connected to both economic and political interests (Bajrektarevic and Posega, 2014). In a 2016 Working Group that took place in Turkmenistan, the littoral countries were still unable to reach any positive statements in terms of resolving the final status of the Caspian Sea (Bajrektarevic and Posega, 2016). Since these concerns are considered to be national interests, it becomes very visible that a circumstance in which all five of the countries are able to reach an agreement in defining the final legal status of the Caspian will be very difficult to achieve. Currently, Azerbaijan, Russia, and Kazakhstan share the same positions on the demarcation of the Caspian Sea under the law of the sea, and in 2002 the 3 countries had already defined their national sectors (Grewlich, 2011). Azerbaijan and Kazakhstan share Russia's view of "common waters, divided approach" because the majority of natural gas and crude oil reserve fields are generally located in the middle of the sea (Abilov and Isayev, 2015). However, Turkmenistan and Iran still haven't agreed on the status of the Caspian Sea. The main reason for this is that both countries have had massive disagreements with the Republic of Azerbaijan. Turkmenistan, Iran, and Azerbaijan have had disputes over their maritime borders and as a result, the planned implementations of major regional projects are being postponed. These proposed projects are primarily composed of energy pipelines that were to connect the east and west side of the Caspian Sea with energy infrastructure.

Geopolitical interests in the Caspian basin

The Caspian Sea, which divides the European and Asian continents, is located in one of the most geopolitically critical regions in the world. Most of the global and regional powers' political, economic, and security interests coalesce in this region and this causes conflicts of many interests, especially in the implementation of mutually beneficial energy projects (Gidadhubli, 2015). When taking into consideration the long-lasting discussions and negotiations on the legal status of the Caspian sea, it can be seen that there are a significant number of negative impacts that occur due to the discovery of energy fields and the subsequent implementation of energy projects. This is mostly due to the blocking of production and the high likelihood of delays in the construction of natural gas and crude oil pipelines in the region. This situation is most visible when investigating the implementation of the Trans-Caspian natural gas pipeline project, which is intended to connect the South Caucasus with Central Asian countries, such as Azerbaijan and Turkmenistan (Grison, 2013). The implementation of the project would most importantly link Turkmenistan and Kazakhstan's energy resources to the European energy market. However, the European Union countries' dependency on the Russian energy exports as well as the important potential benefits of developing the Caspian basin and its energy reserves, puts the countries of Azerbaijan, Turkmenistan, and Kazakhstan in a most difficult situation (Emadi and Nezhad, 2011). Therefore, the legal status of the Caspian Sea would definitely provide significantly more support to these countries in the construction of energy pipeline projects intended for the transportation of their fossil fuels to the European energy markets. Proposed projects, such as the Trans-Caspian natural gas pipeline, are driven by the idea that the countries of the European Union must ensure that they decrease Russian domination over the European energy market and build a diversified network of alternatives for the ultimate security of their energy policy (Neag, Mihai, and Elisabeta-Emilia Halmaghi, 2016). However, this proposed pipeline project puts involved countries at risk of annoying the Russian Federation. In particular, Turkmenistan would receive increased pressure from Moscow and Iran due to ongoing disagreements and argue over the still unresolved status of the Caspian Sea (Shaffer, 2005). As a result, Turkmenistan is very cautiously walking a fine line as it attempts to avoid creating further confrontations between itself and Moscow.

On the other hand, Azerbaijan has been actively participating in the energy fields of the national sector of the Caspian Sea. The country has played a huge role in implementation, development, and production in the Southern Gas Corridor (Marketos, 2009). As a consequence of this, Azerbaijan has served as a key player in the creation of an access corridor for EU countries to reach the Caspian

hydrocarbon resources. Also, Azerbaijan is working very tightly with the Russian Federation and Iran and is continuing to cooperate within the Caspian Sea energy field (Neag, Mihai, and Elisabeta-Emilia Halmaghi, 2016). In 2016, Baku hosted the first Trilateral Summit, which created a new platform to foster healthy relations between the Russian Federation, the Islamic Republic of Iran, and Azerbaijan so that they can discuss further cooperation, especially on future projects within the Caspian Sea. During the Summit, the President of Russia, Vladimir Putin stated the following:

"Russia, Iran and Azerbaijan can discuss the implementation of new energy and transport projects in the Caspian Sea. We really have something to talk about in this format. There may be new projects in the Caspian Sea, and in a broader context, I mean transportation, energy, and the diversification of trade and economic relations" (Sputnik, URL, 2016).

This statement clearly demonstrates that Russia is willing and able to work together with the rest of the Caspian Sea states so as to create a network of energy cooperation that would benefit the bordering countries. Vladimir Putin evidently delivered a message suggesting that in the near future there are serious plans to expand Russia's priorities within the context of the renewed energy cooperation between Iran and Azerbaijan. Putin further stated, "Implementing oil and gas exploration and development projects, primarily in the Caspian region, are seen as priorities. We are ready to discuss mutually beneficial plans for the shared use of pipeline infrastructure to transport raw materials" (Sputnik, URL, 2016). There is a likely chance that Turkmenistan also will be invited to participate in the development of this cooperation. It is believed to be beneficial to have the modern and securitized infrastructure, especially with neighboring countries. However, this cooperation of Azerbaijan with the Russian Federation and the Islamic Republic of Iran does not mean that the country will decrease its energy relations with EU countries (Ziyadzade, 2015). As a matter of fact, Azerbaijan is currently involved in the construction of the TANAP gas pipeline project and is engaged in the sale of its natural gas and crude oil resources to the EU energy market via the BTC and BTE pipelines. Even with the undefined legal status of the Caspian Sea, Azerbaijan is nonetheless exploring its new potential energy fields whilst cooperating with Russia and Iran in the Caspian Sea and building its diversified energy infrastructure so as to create an energy corridor for other energy markets, particularly those in Europe. Within this policy of Azerbaijan, Turkmenistan is also considering the role and experience of Azerbaijan. Turkmenistan is showing significant interest in the diversification of the routes by which it exports its natural gas reserves, for example via the proposed Trans-Caspian pipeline that crosses the Caspian Sea.

## BIBLIOGRAPHY:

*1) Abilov, Shamkhal, and Ismayil Isayev. (2015) "Azerbaijan-Russian Relations: Azerbaijan's pursuit of successful balanced foreign policy/ Azerbaycan-Rusya Iliskileri: Azerbaycanin basarili denge politikasi arayisi" Orta Asya ve Kafkasya Arastirmalari, vol. 9, no. 19, pp. 113-143*

*2) Bajrektarevic, Anis H., and Petra Posega. (2016) "The Caspian Basin: Geopolitical Dilemmas And Geoeconomic Opportunities." Geopolitics, History and International Relations, vol. 8, no. 1, pp. 237-264*

*3) Bajrektarevic, Anis H., and Petra Posega. (2014) "The Caspian Basin: Territorial and Status- Related Disputes, Energy Transit Corridors, and their Implications for EU Energy Security." Seton Hall Journal of Diplomacy and International Relations, vol. 16, no. 1, pp. 85-107*

*4) Cason Bryce. A. (2015) "The Trans-Caspian pipeline: implications for the five littoral states". J World Energy Law Bus, pp. 474-484*

*5) Dar, F. (2013) Caspian Sea: A Case Study of Economic Conflict. Current Politics and Economics of Russia, Eastern and Central Europe, vol. 28, no. 2. pp. 115-130*

*6) Dilbazi, Eltay. (2010) "Energy Security and Alternative Sources in the Caspian Sea Region." International Issues & Slovak Foreign Policy Affairs, vol. 19, no. 1, pp. 79-94*

*7) Emadi, S.E; Nezhad, H. (2011) Energy Market for Caspian Sea Oil and Its Supply. International Black Sea University Scientific Journal (5.2), 2011. pp. 21-34*

*8) Gidadhubli, R. G. (2015) "Caspian Genesis of Energy Politics." The Journal of Central Asian Studies, vol. 22, no. 1, pp. 73-I*

*9) Grewlich, Klaus W. (2011) "International Regulatory Governance of the Caspian Pipeline Policy Game." Journal of Energy & Natural Resources Law, vol. 29, no. 1, pp. 87-116*

*10) Grison, Nathan R. (2013) "NATO's Energy Security Policy Put to the Caspian Test." Connections: The Quarterly Journal, vol. 12, no. 2, pp. 83-94*

*11) Marketos, T. (2009) Eastern Caspian Sea Energy Geopolitics: A litmus test for the U.S. - Russia - China Struggle for the Geostrategic Control of Eurasia. Caucasian Review of International Affairs, 3(1), pp 2-19.*

*12) Neag, Mihai, and Elisabeta-Emilia Halmaghi. (2016) Energy Security. Black Sea - Caspian Sea Corridor, Romanian National Defense University, Regional Department of Defense Resources Management Studies, Brasov, 2016*

*13) Ozyavas, Aziz, and Shahab D. Khan. (2012) "The Driving Forces Behind the Caspian Sea Mean Water Level Oscillations." Environmental Earth Sciences, vol. 65, no. 6, pp. 1821-1830*

*14) Shaffer, B. (2005) From Pipedream to Pipeline: A Caspian Success Story. Current History, 104(684) pp. 343-346.*

*15) Ziyadzade, Ziyad. (2015) "Drilling for Black Gold: The Demarcation of Hydrocarbon Resources in the Caspian Sea." Chicago Journal of International Law, vol. 16, no. 1, pp. 312-339*

*Links below last accesses: 7th of May 2017*

*16) Exploring history. (2016) "How did the Baku Oil Industry Grew Under Tsarist Russia?" URL: http://exploringhist.blogspot.ch/2016/01/how-did-baku-oil-industry-grew-under.html*

*17) Sputnik. (2016) "Russia Ready to Discuss Joint Caspian Pipeline Use With Iran, Azerbaijan – Putin" Sputnik, URL: https://sputniknews.com/business/201608081044065312-putin-pipeline-talks/*

## ABSTRACT

Due to the undefined legal status of the Caspian Sea and due to geopolitical rivalry in the Caspian basin, there has been a postponement of the implementation of the energy infrastructures, which would connect South Caucasus and Central Asia across the sea. Furthermore, energy resources from additional Central Asian countries, such as Turkmenistan, could also enhance the diversification of European countries' energy imports. This situation is most visible when investigating the implementation of the Trans-Caspian natural gas pipeline project, which is intended to connect the South Caucasus with Central Asian countries, such as Azerbaijan and Turkmenistan. The implementation of the project would most importantly link Turkmenistan and Kazakhstan's energy resources to the European energy market.

***Keywords:*** *Republic of Azerbaijan, Caspian Sea, Central Asia, Geopolitics*

# MÜASİR DÖVRDƏ RUSİYA-GÜRCÜSTAN ƏLAQƏLƏRİ

ƏZİM HEYDƏROV
Bakı Dövlət Universiteti
Qafqaz xalqları tarixi kafedrası



2012-ci il oktyabrın 1-də parlament seçkilərində "Gürcü arzusu" siyasi koalisiyası qalib gəldikdən sonra Gürcüstanın Rusiya ilə münasibətlərinin perspektivləri dəyişdi. Koalisiyaya başçılıq edən B.İvanişvili Gürcüstanın baş naziri səlahiyyətlərini əldə etdi. Yeni hökumətin nümayəndələri ölkənin xarici siyasətində başlıca prioritetlərdən biri olaraq Rusiya Federasiyası ilə münasibətləri normallşadırmağı bəyan etdi, lakin diplomatik münasibətlərin bərpa edilməsi məsələsi nəzərdən keçirilmədi. Tbilisi yenə də Cənubi Osetiya və Abxaziyanı işğal olunmuş ərazilər hesab edir və onların müstəqil statusu ilə razılaşmır. Moskvanın mövqeyi isə ondan ibarətdir ki, bu respublikaların müstəqilliyinin tanınması onların təhlükəsizliklərinin təmin edilməsi üçün yeganə yol idi və Gürcüstanda qalib gələn siyasi gücün Rusiyaya münasibəti nə qədər dostcasına olsa da, Rusiya öz qərarını dəyişməyəcək.

Gürcü ekspertlərinin fikrincə, Rusiya-Gürcüstan münasibətlərinin əvvəlki məcraya düşməsi üçün həm ölkə daxilində, həm də ölkənin hüdudlarından kənarda olan bədxahları qıcıqlandırmamaq məqsədilə "kiçik addımlar" atmaq lazımdır. Bəzi gürcü siyasətçiləri isə hesab edirlər ki, Gürcüstan və Rusiya dostluğunun əsas rəqibi ABŞ-dır, Amerikanın Qafqaz siyasəti və Gürcüstana münasibəti və NATO-dur. Onların qənaətinə görə, Rusiya ilə sıx münasibətlərin inkişafı üçün Gürcüstan postsovet məkanında bütün inteqrasiya proseslərinə doğru hərəkət etməli və MDB-yə qayıtmalıdır.

Gürcüstan iqtisadiyyatının çoxşaxəli sahələrində təmsil olunan Rusiya investorlarının fikrincə, Gürcüstan və Rusiya arasında siyasi münaqişələrin tənzimlənməsi maliyyə bazarlarında, həmçinin bütün növ əmtəə qrupları bazarlarında iki dövlətin əməkdaşlığının inkişaf perspektivlərinə yol açır. Burada daha perspektivli sahə kimi ət və ət məhsullarının, dərman və əczaçılıq məhsullarının, dəmir və poladın, həmçinin yol-nəqliyyat vasitələrinin təchizatı qiymətləndirilir.

İkitərəfli əməkdaşlığın növbəti mərhələsində artıq sabit şəkildə qurulmuş qarşılıqlı əməkdaşlıq sahələrinin inkişaf etdirilməsi və daha da dərinləşdirilməsi məqsəd kimi qarşıya qoyulur. Xüsusilə, ticarət sahəsində Rusiya şirkətləri süd məhsulları, quş əti məhsulları, enerji daşıyıcıları və elektrik enerjisi sahəsində rəqabətqabiliyyətlidirlər. Rusiya istehlakçıları isə öz tərəflərindən, ənənəvi gürcü məhsulları olan spirtli içkilər, çay, meyvə, efir yağı və onlardan hazırlanmış məhsulları almağa meyillidirlər.

İnkişaf etdirilməsi daha çox vaxt tələb edən iqtisadi sahələr üzrə ikitərəfli ticarət əlaqələrinin qurulması zamanı əsas perspektivli sahələr kimi istehsal sənayesi (maşınlar, nəqliyyat və kənd təsərrüfatı texnikaları), kimya sənayesi (sürtkü materialları, mineral yanacaqlar), həmçinin tütün məmulatları sahəsi müəyyənləşdirilmişdir. Təsəvvür etmək olar ki, investisiya əməkdaşlığı məhz bu sahələr üzrə inkişaf etdiriləcəkdir. (1/22)

Müsbət təcrübələr əldə edilmiş sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi birmənalı şəkildə görünür: təbii qaz, faydalı qazıntıların çıxarılması, energetika, neft emalı, qida sənayesi, telekommunikasiya və maliyyə sahəsi.

Xidmətlər bazarı xüsusi diqqətə layiqdir. Burada ənənəvi sahə kimi turizm sahəsini vurğulamaq olar. 2000-ci illərin sonunda Rusiya və Gürcüstan arasında turist mübadiləsi praktiki olaraq dayandırılmışdı. Lakin, 2012-ci ildə Gürcüstan birtərəfli olaraq, Rusiya vətəndaşları üçün viza rejimini ləğv etdikdən sonra, bu ölkəyə gələn rus turistlərinin sayı kəskin şəkildə artmışdır (vizasız rejimin tətbiqi ilə təkcə ilk ildə turistlərin sayı 75,5% artıb).

Bununla yanaşı, bir çox faktlar da var ki, ikitərəfli əlaqələrin inkişaf etdirilməsində çətinliklər yaradır. Rusiya tərəfi müştərək Çin-gürcü layihələrinin artmasına, həmçinin ABŞ və Türkiyə tərəfdən yatırılan həcmli investisiyalara diqqət yetirməlidir. Kəskin rəqabət şəraitində Rusiya ya yeni, daha sərfəli və rəqabətqabiliyyətli layihələrin təşəbbüskarı kimi çıxış etməli, ya da artıq mövcud olan və ya yeni yaradılan proqramlara qoşulmaqla hərtərəfli aspektdə əməkdaşlığı inkişaf etdirməlidir.

Lakin aydındır ki, gələcəkdə həm ticarət sahəsində, həm də investisiya sahəsində Rusiya-Gürcüstan münasibətləri iki ölkə arasında siyasi münasibətlərin inkişaf etdirilməsi ilə müəyyənləşəcəkdir. Mehriban qonşuluq münasibətləri qurulmayanadək qarşılıqlı ticarət həcminin artırılması praktiki olaraq mümkün deyil.

Başa düşmək lazımdır ki, siyasi münaqişələrin həll edilməsi uzunmüddətli xarakter daşıyır. “Amerikanın səsi” agentliyi tərəfindən aparılan qiymətləndirmədə gürcülərin 63%-i hələ də hesab edir ki, Rusiya Gürcüstan üçün daha çox siyasi və iqtisadi təhlükə daşıyır. Lakin, həmin məlumatlara əsasən, Gürcüstan əhalisinin 82%-i Rusiya ilə dialoqun həll edilməsini tamamilə dəstəkləyir.

Yüksək səviyyəli görüşlərdən yan keçməklə siyasi münaqişələrin həlli kimi, əhali ilə qarşılıqlı münasibətlərin qurulması xüsusi əhəmiyyət kəsb edir. Rusiya Statistika Komitəsinin məlumatına əsasən, ümumilikdə xaricdə yaşayan gürcü diasporunun 40%-i, yəni təxminən 157 min Gürcüstan vətəndaşı Rusiya ərazisində yaşayır. (14) Eyni zamanda, Gürcüstan əhalisinin üçdə biri rus dilində danışa bilir. Ona görə də əməkdaşlığın bu istiqamətdə intensiv inkişaf etdirilməsi əmtəə və xidmətlərin qarşılıqlı hərəkət etdirilməsinə və qarşılıqlı maliyyə axının artmasına təsir edəcək.

İkitərəfli əməkdaşlığın inkişaf etdirilməsində sərhədyanı əməkdaşlıq xüsusi əhəmiyyət kəsb edir. Son illərdə bu istiqamətdə ciddi uğurlar müşahidə edilmir. Rostov vilayəti və Şimali Osetiyanın Gürcüstanın həmsərhəd regionları ilə əməkdaşlıq etməsi məhdud xarakter daşımasına baxmayaraq böyük potensiala sahibdir.

Mükəmməl nəqliyyat əlaqəsinin qurulması xüsusi əhəmiyyət kəsb edir. Avtomobil əlaqəsinin qurulmasından sonra Hərbi Gürcüstan Yolunun modernləşdirilməsi layihəsi və mükəmməl hava əlaqəsinin qurulması aktual məsələlərdən hesab edilir.

Aydındır ki, Rusiya və Gürcüstan arasında qarşılıqlı iqtisadi əlaqələr bu gün məhdud xarakter daşıyır. Lakin, düşünülmüş şəkildə ikitərəfli əlaqələrin qurulması bu sahədə müsbət dəyişikliklərin baş verməsinə ümid yaradır. “Gürcü arzusu” siyasi partiyasının 2012-ci il parlament seçkilərində qalib gəlməsi və 2013-cü ilin yanvar ayında Davosda keçirilən Ümumdünya İqtisadi Forumunda B.İvanişvili ilə D. Medvedyev arasındakı danışıqlar Gürcüstan və Rusiya arasında dialoq üçün yeni imkanlar yaratdı.

Gürcüstan-Rusiya münasibətləri gərginlik mərhələsini adlasa da, öz mürəkkəbliyini saxlamaqdadır. Hal-hazırda iki ölkə arasında dialoq Cenevrə danışıqları çərçivəsində dəstəklənir. 2012-ci ildə Rusiyameyilli olması barəsində şayiələr gəzən B. İvanişvilinin rəhbərlik etdiyi “Gürcü arzusu” partiyası hakimiyyətə gəldikdən sonra iki dövlət arasında yaxınlaşma müşahidə edilir. Amma bəzi Gürcüstan siyasətçilərini bu qane etmir [13]. Rusiya ilə Gürcüstan arasında münasibətlərdəki yaxınlaşma artıq bütün sahələrdə hiss olunmaqdadır. Gürcüstanda parlament seçkilərində qələbədən sonra “Gürcü arzusu”nun sürətlə Rusiyaya doğru yaxınlaşdığı artıq heç kimə sirr deyil. "Qazprom”la əldə olunan razılaşma ölkədə geniş narazılıq doğursa da, hakimiyyət narazılıqlara məhəl qoymayaraq, Rusiyanın qaz nəhəngi ilə sazişi qüvvədə saxladı. Artıq əməkdaşlıq digər məsələləri də əhatə etməyə başlamışdır.



"İnterfaks” Agentliyinin yaydığı xəbərə görə, Rusiya və Gürcüstan Abxaziya və Cənubi Osetiyadan nəqliyyat dəhlizlərini fəaliyyətə başlatmaq barədə razılıq əldə ediblər. Agentliyin Gürcüstanın "Rezonansi” və Fransanın “RFİ” radiosuna istinadən yaydığı xəbərdə vurğulanır ki, Rusiya Gürcüstan-Rusiya sərhədinin abxaz və Cənubi Osetiya hissəsində yüklərin daşınmasının monitorinqinin aparılması barədə sazişə “yaşıl işıq” yandırıb. (13) 2011-ci ildə imzalanan bu saziş yüklərin kompleks, müasir auditinin yaradılmasını nəzərdə tuturdu. Qeyd edilirdi ki, İsveçrə şirkətlərindən biri sərhədlərin auditini həyata keçirəcək. Maraqlıdır ki, Tbilisidə və Moskvada bunu müxtəlif cür izah edirlər. Məsələn, Tbilisi hesab edir ki, bu razılaşma Abxaziya və Sxinvalini Gürcüstanın ərazisi kimi tanıyan yeganə sənəddir. Rusiya tərəfi isə belə hesab edir ki, iki ölkə arasındakı münasibətlərdə müəyyən bir istiləşmə hiss olunur və indi tərəflər birbaşa ticarət üçün yeni dəhlizlər açırlar.

Yeri gəlmişkən, Qərb nəşrləri yazır ki, Cenevrədə tərəflər arasında keçirilən müzakirələrdə ilkin olaraq ticarət münasibətlərinin genişləndirilməsi nəzərdə tutulur. Artıq müxtəlif düşüncə mərkəzləri diqqəti Rusiya ilə Gürcüstanın yeni ticarət marşrutları barədə razılığa gəldiklərinə çəkirlər. Gürcüstan Baş nazirinin Rusiya ilə münasibətlərin nizamlanması üzrə xüsusi nümayəndəsi Zurab Abaşidze deyib ki, onlar ruslarla üç ticarət marşrutunu razılaşdırıblar. Yeni ticarət yolları Gürcüstandan ayrılan Abxaziya və Cənubi Osetiyadan keçəcək. Üstəlik, Moskvanın da Tbilisinin beynəlxalq müşahidəçilər barədə tələbiylə razılaşdığı bəlli olub. Məlumata görə, Gürcüstan Rusiyanın Cənubi Osetiya və Abxaziya ilə sərhədlərindən keçirilən məhsullara nəzarət etməkdən ötrü beynəlxalq müşahidəçi məntəqələrinin yaradılmasını istəyir. Gürcüstanla ondan ayrılmış ərazilərin sərhəd xətlərinə də məntəqələrin yerləşdirilməsi planlaşdırılır. “Stratfor” analitik mərkəzi yazır ki, razılaşdırılmış marşrutlar üzrə ticarət Rusiya-Gürcüstan iqtisadi münasibətlərini yaxşılaşdıra bilər. Hazırda bu iki ölkənin ticarət dövriyyəsi 800 milyon dollardır, Rusiya Federasiyası Gürcüstanın üçüncü ən böyük ticarət tərəfdaşıdır. (8/34)

Ticarət marşrutu Moskva və Tbilisinin əldə etdiyi yeganə razılaşma deyil. Bu yaxınlarda onlar həm də Rusiyanın Ermənistana göndərdiyi təbii qazın Gürcüstan vasitəsilə nəqli haqda anlaşıblar və bu, Gürcüstanın enerji sektoru üçün mənfəət deməkdir.

Məlum olduğu kimi, 2008-ci ildə - Rusiyanın Gürcüstan ərazisinə müdaxiləsindən sonra bu iki ölkə arasındakı münasibətlər pozulmuş, diplomatik əlaqələr tamamilə kəsilmişdi. Cəmi bir neçə il öncə indiki razılaşmaların mümkün olacağı kimsənin ağlına gəlməzdi. “Amma bu gün Kreml Gürcüstan hökumətinə barışmaq niyyətində olduğunu çatdırmaqdadır, heç olmasa, iqtisadi sahədə”, - deyə




"Stratfor" yazır. Mərkəz, həmçinin Gürcüstanın daxilində Rusiyaya meylin əvvəlkiylə müqayisədə artdığını qeyd edir. Sorğular göstərir ki, hazırda gürcülərin 53 faizi Avropaya inteqrasiyanın tərəfdarıdır. Bu rəqəm əvvəlki illə müqayisədə, az qala, 10 faiz aşağıdır. Lakin respondentlərin təxminən 31 faizi Rusiya ilə münasibətlərin yoluna qoyulmasını istədiyini bildirib. Bu rəqəmsə keçən illə müqayisədə 10 faiz yuxarıdır.

"Stratfor" təhlil mərkəzinin mütəxəssisləri hesab edirlər ki, bu dəyişikliklər gürcülərin təkcə ruslarla deyil, həm də Gürcüstandan ayrılan ərazilərin əhalisi ilə münasibətlərini yaxşılaşdırır. 2016-cı ilin sonunda Rusiya və Gürcüstan, eləcə də tanınmamış Abxaziya nümayəndələri toqquşma zonasında münaqişələrin önlənməsi haqda danışıqları başa çatdırıblar. Digər tanınmamış respublikanın – Cənubi Osetiyanın rəsmiləri isə Gürcüstanla ticarət məntəqəsi açmağı planlaşdırdıqlarını deyirlər. Bütün bunlar o deməkdir ki, Gürcüstan ondan ayrılmış bölgələrlə ticarəti bərpa edə bilər. Tbilisidə konstitusiyaya dəyişikliklə bağlı yeni ideya da var. İdeya sahibləri deyirlər ki, separatçı Abxaziya və Cənubi Osetiyaya gedən turistlər (çox vaxt ruslar olur) Tbilisidən icazə almadıqlarına görə cinayət məsuliyyətinə cəlb olunmasınlar, sadəcə, cərimələnsinlər. "Stratfor" Gürcüstanda geosiyasi durumun hərəkətdə olduğunu yazır. "Avropa İttifaqında fikir ayrılıqları güclənməkdədir. Yeni ABŞ administrasiyası Rusiya ilə əməkdaşlığa meyilli olduğunu bildirib. Ona görə də keçmiş sovet ölkələrinin, o cümlədən Gürcüstanın Moskvayla münasibətlərə yenidən baxması çox vacibdir", - deyə "Stratfor" mütəxəssisləri bildiriblər. (9)

Bir faktı da qeyd edək ki, Rusiya ilə Gürcüstan arasında münasibətlərin nizamlanması barədə xəbərlər qismən blokadada olan ermənilərin sevincinə səbəb olub. Lakin Rusiya Gürcüstan rəsmiləri ticarətdə bəzi istiləşməyə baxmayaraq prinsipial mövqe nümayiş etdirirlər. (10) Vəziyyəti mürəkkəbləşdirən Gürcüstanın qəbul etdiyi "İşğal haqqında" qanundur ki, onun mövcudluğunda iki dövlət arasında münasibətlərin normallaşacağı real görünmür.

## ƏDƏBİYYAT


*1. ГРУЗИЯ – РОССИЯ: Сборник статей две перспективы по вопросам политики, безопасности и экономики. Tbilisi. 2014. 60 s.*

*2. Бжезинский З. Великая шахматная доска: американское превосходство и его геостратегические императивы. Москва, 2010- 254 s.*

*3. Hüseynova İ. Heydər Əliyev və Qafqazda sülh prosesi: Ali məktəblər üçün dərslik. Bakı: Çaşıoğlu, 2008, 672 s.*

*4. Həsənov Ə. Geosiyasət: Dərslik. Bakı: Aypara-3, 2010, 604 s.*

*5. Зурабашвили Г. Южный Кавказ на пути к Европе. // Центральная Азия и Кавказ. Швеция. №4, 2004.*

*6. Иголкин А.. Независимое закавказье: уроки 1917—1921 гг.*

*7. Исмаилов Э., Полухов Э. Противостояние «старых» и «новых» игроков на политической карте Кавказа. // Центральная Азия и Кавказ. Швеция. №4, 2004.*

*8. Московский Государственный Институт Международных Отношений (университет), МИД России, Институт международных исследований «Актуальные проблемы современной мировой политики» Ежегодник ИМИ 2014 выпуск 2 (8)*

*9. https://worldview.stratfor.com/article/russia-quietly-encroaches-georgia*

*10. http://www.kaspi.az/az/az/rusiya-gurcustan-elaqelerinde-yeni-merhele/*

*11. http://www.mid.ru/osobennosti-rossijsko-gruzinskih-otnosenij*

*12. https://sputnik-georgia.ru/politics/20170327/235362152/Kukava-prizval-RF-udelit-vnimanie-uregulirovaniu-otnoshenij-s-Gruziej.html*

*13. http://www.interfaks.ru*

*14. http://www.cisstat.com/*



***Açar sözlər:*** *ABŞ, Gürcüstan, Gürcü arzusu, Rusiya, Avropa, investisya, böhran, əlaqə.*

***Key words:*** *USA, Georgia, Georgian dream, Russia, Europe, investment, crisis, relations.*

***Ключевые слова:*** *США, Грузия, Грузинская мечта, Россия, Европа, инвестиции, кризис, отношения.*


## РЕЗЮМЕ


Самым важным вопросом на сегодня является перспектива российско-грузинских экономических отношений. Чтобы ответить на этот вопрос, нам необходимо определить перспективные направления сотрудничества, оценить существующие проблемы и угрозы и найти пути их решения.


## SUMMARY


The most important issue for today is the perspective of Russian-Georgian economic relations. To answer this question, we need to identify prospective directions of cooperation, evaluate challenges and threats that are present and future, and find ways to resolve them.

# Tarix

## FRANSA BURJUA İNQİLABININ VƏ AVROPA MAARİFÇİLİK HƏRƏKATININ YUNANLARA TƏSİRİ

GÜLNARƏ SƏDRƏDDİNOVA
Bakı Dövlət Universiteti



1774-cü ildə imzalanan Kiçik Qaynarca sülh müqaviləsi və Amerika istiqlaliyyət müharibəsi zamanı 1776-cı ildə yazılan "Vətəndaşlıq haqqında Bəyannamə" XVIII əsrin sonlarında yunanlarda millətçilik fikirlərinin dirçəlməsində və formalaşmasında böyük təsirə malik olmuşdur. (10, s.144.) Bu tarixi hadisələrin ardınca 1789-cu ildə baş vermiş Fransa İnqilabının ortaya çıxardığı millətçilik axını, yunanlar arasında, xüsusilə Napoleonun Yeddi Adada məskunlaşmasından sonra daha da yayıldı. Avropa ilə əlaqələri olan yunan aristokratlarının atdığı addımlar da millətçilik ideyasının sürətlə yayılmasına səbəb oldu. Bunlar isə, yunanların üsyana başlamasında mühüm təsirə malik oldu və müstəqillik fikirlərinin formalaşmasına gətirib çıxardı. (18, s.160.)

Yunanların Osmanlı dövlətinin tərkibində əldə etdikləri imtiyazları, demək olar ki, muxtar yaşayış formaları, Aralıq dənizindəki ticarət vasitəsilə xarici dövlətlərlə qurduqları xarici əlaqələr yunanlarda Osmanlı imperiyasına qarşı üsyan etmək düşüncələrini və fəaliyyətlərini inkişaf etdirirdi. Digər tərəfdən isə avropalılar da "yunan məsələsi" ilə yaxından maraqlanmağa başlamışdılar. Əslində yeni dövrün əvvəllərinə kimi hiss olunmayan və heç bir narahatçılıq təşkil etməyən "yunanların varlığı" o dövrdə meydana gələn humanizm və intibah hərəkatları ilə birlikdə gündəmə gəlməyə başladı (6, s.112-113.)

Aralıq dənizində Venesiya və Cenevrə dənizçiliyinin yoxa çıxmasından sonra onların yerini yunan dənizçiləri tutmağa başladı. Bu isə yunanların Avropa incəsənəti və mədəniyyəti ilə tanış olmasına şərait yaratdı. Xüsusi ilə də Fransa inqilabının təsiri ilə Avropadan qayıdan yunanlar öz aralarında həm siyasi sahədə, həm də təhsil, mədəniyyət və incəsənət sahələrində təşkilatlanırdılar. Üsyanda iştirak edənlər arasında Napoleon ordusunda, eləcə də koalisiya ordularında hərbi xidmət göstərən yunanlar olduqca çox idi.(8, s.257.)

Avropa maarifçilərinin azadlıq ideologiyası ilə tanış olan bir çox yunan maarifçiləri yunanlara millətçilik şüurunu aşılayırdılar. Bu istiqamətdə əsas məqsədləri əvvəlcə özlərinin yeni siyasi strukturlarını formalaşdırmaq idi. İkinci isə vahid milli birlik yaratmaq idi. (7, s.51.)

Fransa inqilabının gətirdiyi yeniliklər Avropanın bir çox bölgələrində zorla qəbul etdirilirdi. Buna baxmayaraq, yunan xalqının əksəriyyəti bu yenilikləri böyük ümidlə qəbul etdi. İnqilabın tezislərini mənimsəyən yunan maarifçiləri Fransadakı inqilabçıları nümunə götürürdülər. Fransız inqilabçılar feodal aristokratiyasına və kilsə



*Adamantios Korais*
*(1748–1833)*

qurumlarına qarşı çıxırdılar. Yunan maarifçiləri də fransız feodal aristokratlara bənzətdikləri və Bizansın davamçısı olaraq gördükləri Osmanlı dövlətinə qarşı çıxırdılar. Fənər Yunan Patriarxlığı və ona bağlı qüvvələr isə üsyanda iştirak edəcək xristiyanların müdafiəsi vəzifəsini öz öhdələrinə götürmüşdülər. (14, s.143.)

Maarifçilik fikrinin Peloponnes yarımadasında və adalarda yayılmasında ən böyük pay yunan tacirlərinə aid idi. Yunan tacirləri Peloponnes yarımadasına və bu yarımadanın şimalında qurduqları məktəblərə kitab və ləvazimat göndərərək, uşaqlarını Avropa şəhərlərində oxudurdular. Volter, Lokk, Russo kimi maarifçi mütəfəkkirlərin kitablarını tərcümə edirdilər. (6, s.109.) Bu proses müəllim, jurnalist, ədəbiyyatçı, tacir və rahiblərdən ibarət mütəşəkkil yunan "ziyalı" təbəqəsini meydana gətirdi. Bu təbəqə yunan dilində qəzet, kitab və risalələr yazaraq, məktəb və digər təhsil ocaqları vasitəsilə müstəqillik fikirlərini yayırdılar. (3, s.495.)

Osmanlı imperatorluğu daxilindəki imtiyazlı mövqeləri nəticəsində var-dövlət sahibi olmuş yunan aristokratları Avropa ilə daimi əlaqədə idi. Avropada meydana gələn millətçilik, müstəqillik kimi fikirlərə aludə olurdular. Artıq XVIII əsrin 1-ci yarısından etibarən yunan şair, tarixçi və yazıçıları Yunanıstanın müstəqilliyinin, hətta keçmiş Bizans İmperatorluğunun yenidən bərpa olunmasının planlarını qurmağa başlamışdılar. (18, s.160.)

Bu kimi fikirlər, yeni açılan məktəblərdə kilsənin də köməyi ilə kiçik yaşlarından etibarən yunanlar arasında yayılmağa və güclənməyə başladı. Bu hərəkatın nümayəndələri din adamları kimi geyinirdilər. Onlar Osmanlı imperiyasında xristiyan dininə verilən azadlıqlardan istifadə edərək zəifləmiş dövlət idarəçilik sisteminin təzyiqlərindən uzaq şəkildə öz fəaliyyətlərini həyata keçirirdilər. Beləliklə, böyük təsir gücünə malik yunan maarifçiləri qrupu meydana gəldi və burjuaziya daxilində öz yerini tutdu. (4, s. 62-63.)

Yunanlarda bu düşüncələri oyadan Fransa inqilabında ortaya çıxan "İnsan Hüquqları haqqında Bəyannamə" olmuşdu. Bundan başqa, Napoleon yunanlar arasında Antik Yunan, Ellinizm duyğularının daha da artırılması məqsədi ilə Adalar Dənizindəki bütün adalara xəfiyyələr göndərmişdi. Napoleonun 1826-cı ildə yazdığı "Ellin xatirələri"ndə yunanları dustaqlıqdan qurtarmaq barədə bunları yazır: "Yunanıstan bir xilaskar gözləyir. Bu xilaskar görkəmli və şanlı bir tac ilə zəfər əldə edəcəkdir." (2, s. 221-223.)

Maariflənmə istiqamətində gedən üsyana hazırlıq işləri daha asan yolla həyata keçirilirdi. XVIII əsrin son 25 ilində yunan dilində nəşr olunan kitabların sayı 700-ü keçirdi. XIX əsrin ilk iyirmi ili içərisində isə yunan dilində nəşr olunan və tərcümə edilən əsərlərin sayı isə 1300-ə çatırdı. Avropada da şərəfli və zadəgan bir addım olaraq dəyərləndirilən yunan üsyanına aid bir çox şer kitabları nəşr olunurdu. Bu şəkildə Fransada, 1821-ci ildə 9, sonrakı ildə isə 18 kitab nümayiş olunmuşdu. ( 19, s. 181–182.)

Osmanlı dövlətinin bu sahədə heçbir təzyiqinə məruz qalmayan yunan ədəbiyyatçıları və şairləri, xüsusilə 18-ci əsrdən etibarən yunan ədəbiyyat və incəsənətini canlandırmağa başladılar.(1, s.257.) Velestinlis Ferrarios Riqas, Adamantios Korais və Demetrios Katartizis kimi maarifçilər XVIII əsrin sonları və XIX əsrin əvvəllərində maarifçilik və millətçilik kimi fikirləri yaymağa çalışırdılar. (3, s.497.)

Peloponnesdə maarifçilik fikrinin xalq arasında yayan məşhur simalar arasında ən önəmli yerə Riqas ve Korais sahib idi. XVIII əsrin sonlarında yunanların fikir və ideyalarını açıq şəkildə ifadə edən Adamantis Korayis idi. O, Fransa inqilabı zamanı Parisdə olduğundan azadlıq və inqilabi fikirlərin təbliğinə yaxşı bələd idi. Korayis Osmanlı hökumətinə və idarəçiliyinə qarşı çıxırdı. Yunanları Osmanlı imperiyasının hakimiyyətindən qurtarmaq üçün elmi yoldan istifadə edirdi. Bu məqsədlə yunan dilində ilk kitabxananı təsis etdi. (22, s.19.)

Koraislə eyni məqsəd arxasınca gedən və elmi fəaliyyət göstərən yunan şairi Riqas XVIII əsrin sonlarında Vyanaya gedərək Yunanıstanın istiqlaliyyətinə nail olmaq üçün 1796-cı ildə bir cəmiyyət yaratdı. Riqas 1797-ci ildə mövcud sərhədlərdən olduqca fərqlənən və geniş hüdudlara malik olan "Müstəqil Böyük Yunanıstan"ın xəritəsini çap etdirərək yaydı.(13, s.16) Burada bütün Balkanlar, Anadolu və adalar yunan torpaqları olaraq göstərilmişdi. Bu xəritə daha çox böyük yunan ideyasının lahiyəsinə bənzəyirdi. (22, s.19. )

Riqas şerlərində xalqın azadlıq uğrunda mübarizə ruhuna toxunmağa çalışırdı. Onun fikrinə əsasən, insanlar dinindən və irqindən asılı olmayaraq bərabər hüquqlara sahib olmalıdır. Fransadakı həmkarlarından ilhamlanaraq hazırladığı Konstitusiyada və təklif etdiyi marşda Fransa inqilabının təsiri aydın görünür. (8, s.257.)

Riqas inqilab proqramı və konstitusiya hazırlayıb 1797-ci ildə nəşr etdirdi. Onun qurmaq istədiyi dövlət "Ellin respublikası" adlandırılacaq və Osmanlı torpaqlarını əhatə edəcəkdi. (16, s.26.) Riqasın hazırladığı konstitusiyanın maddələrinin bəziləri belədir: "7-ci maddə: Bu dövlətin əhalisi din, dil, şivə, məhzəb fərqi nəzərə alınmadan yunanlar, albanlar, rumınlər, ermənilər, türklər və digər soylardan olanlardır; 21-ci maddə: Millətin təmsilçisi bütün xalqdır. Zəngin və adlı-sanlılar üçün fərqli hüquqlar ola bilməz; 53-cü maddə: Dövlətin rəsmi dili yunan dilidir; 122-ci maddə: Qanuni idarəçilik bütün yunanlara, türklərə bəarabər münasibət bəsləməyi, azadlığı və havadarlıq etməyi vəd edir".(13, s.16.)

Riqasın təsəvvür etdiyi respublikada 1798-ci ildə yunan əhalisi 150 min nəfərə qədərdi. Bu hətta o zaman İstanbulda yaşayan türk əhalisindən də az idi. O zaman Balkanlarda yaşayan türk əhalisi 5mln.-dan çoxdu. (13, s.17)

Riqas üsyana hazırlıq görmək istərkən Avstriya polisi tərəfindən yaxalanaraq 1797-ci ildə türklərə təslim edildi. 1798-ci ildə edam edildikdən sonra onun yaratdığı cəmiyyət dağıldı. (15, s.44)

Yunanlar tərəfindən üsyana hazırlıq məqsədilə başqa təşkilatlar da qurulmuşdu. Avropanın müxtəlif yerlərində "Yunanpərəstlər Cəmiyyəti" ( və ya "Ellin Dostluq Cəmiyyəti") quruldu. Bu yollarla da avropalı ziyalıları yunanlara köməyə çağırdılar.(18, s.160.) Həmin

təşkilatlar yalnız Rusiyadan deyil, Fransadan və başqa dövlətlərdən də gizlicə yardım alırdılar. Qurulan təşkilatların əsas mərkəzləri Paris, London və Vyana idi.( 13, s.15) Onlara aşağıdakılar daxildir:

•1800-cü illərin əvvəllərində arasında şair Adamantios Koraisin də olduğu, lakin üzvlərinin sayı bilinməyən Afina adında təşkilat quruldu. Haqqında elədə çox məlumat olmayan bu cəmiyyətin fəaliyyətini 1813-cü ildə Parisdə Konte Çoseul – Quffiyerinin liderliyində, “Hotel Grec” adlı bir təşkilat davam etdirdi. Aralarında məşhur “Filiki Eterya”nın qurucularından Anastosion Çakalofun da olduğu “Hotel Grec”də katiblik vəzifəsi Babialinin Parisdəki məsləhətçisi yunan Angelopulosa verilmişdi.(16, s.69) Bunlar daha çox Fransa dövlətinə rəğbət bəsləyirdilər.

•1812-ci ildə Afinada, tərkibində xeyli sayda ingilislərin də olduğu, “İncəsənət Tanrısnın Dostları” Cəmiyyəti quruldu. “Filomusi” deyə adlanan bu cəmiyyət yunanların təhsili məsələsi ilə məşğul olurdu. ( 9, s. 73.)

•1814-cü ildə Parisdə “Yunan dilində danışanlar oteli” adlı bir təşkilat quruldu. Təşkilatın quruculları arasında Angelopulos da var idi. “Filiki Eterya”nın üç qurucusundan biri yanyalı bolqar Arnaş Çakalof da bir müddət bu təşkilatın üzvü oldu.

•Yenə 1814-cü ildə Vyanada “İncəsənət Cəmiyyəti” adlı bir yunan təşkilatı quruldu.

Yunanların Avropa ictimaiyyətindən gördükləri dəstəyin arxasındakı amillərdən biri, Avropada antik Yunan (Ellin) mədəniyyətinə qarşı böyük marağın olması idi. Qədim Yunanıstanın Avropa mədəniyyətinin beşiyi olması anlayışı yayılmağa başladı. Bu isə zamanla avropalı ziyalıların keçmiş yunan mədəniyyəti ilə daha çox maraqlanmasına gətirib çıxartdı. Bir çox avropalı ziyalı (Volter, Biron, Göte kimi) antik Yunanıstana heyranlığın təsiri ilə yunanların müstəqillik uğrunda mübarizəsinə rəğbətlə yanaşırdı. (5, s.36) Mənası “Yunan dostluğu” olan “ Filellinizm” Avropada yunanlara heyranlıq dərəcəsinə kimi gəlib çıxdı. (20, s.28) Avropalılar “Yunan dostluğu” altında yunanların müstəqillik mübarizəsinə dəstək verməyə başladılar. Avropalı ziyalılar üsyançılara hər cür köməkliyi təmin etmək üçün əllərindən gələni edirdilər. Bu isə yunanlara cəsarət verməklə yanaşı, Osmanlı imperiyasında öz mənfəətləri olan dövlətlərin də yunanların xeyrinə hərəkətə keçmələrinə səbəb oldu. (5, s.37)

Avropalı yunanpərəstlər incəsənət, ədəbiyyat və mətbuat sahəsində yazdıqları yazılar və elmi fəaliyyətləri ilə yunanların azadlıq uğrunda mübarizələrini dəstəkləyirdilər. Təbliğat xüsusiyyəti daşıyan bu elmi nəşrlərdə yunanlarla əlaqədar ədəbi və tarixi təsvirlərlə yanaşı, türklər haqqında keçmişdən bəri mövcud olan mühakimə xarakterli fikirlər ifadə edilirdi. Onlar türkləri barbarlar kimi qələmə verirdilər. Yunanların xristian olduqları tez-tez vurğulanaraq, müsəlman - xristiyan düşmənçiliyi ön plana çəkilirdi.( 19, s. 181–182.)

Türklərin əleyhində, yunanlara dəstək məqsədilə yazılan bu yazıların təsiri ilə Avropa xalqı üsyançılara daha da yaxınlıq göstərməyə başladı. Yunanpərəst ədəbiyyatçıların və incəsənət adamlarının təbliğat xarakterli fəaliyyətləri Avropa ictimaiyyətini də öz tərəfinə çəkməyi bacardı. Burada yunanların Avropada yaydıqları yalan məlumatlar da böyük rol oynadı. Onlar türkləri barbarlar kimi qələmə verirdilər. (23, s. 141.)

Avropalı mütəfəkkirlər arasında yunanpərəstlərin əsas təmsilciləri Volter, Andre Chenier, Lord Biron idi. (8, s.257.)

İngiltərədə yunanpərəstlərin simvolu, köhnə Ellin mədəniyyətinin və ədəbiyyatının pərəstişkarı, şair və yazıçı Lord Biron qələmə aldığı atəşli yazıları ilə avropalıların aristokrat təbəqəsi üzərində böyük təsir yaradırdı. Biron, sonralar könüllü olaraq Yunanıstana döyüşməyə getdi. Eyni zamanda admiral olan Lord Kokran və General Çörç də yunan



*Velestinlis Ferrarios Riqas (1757–1798)*

meylli olan məşhur ingilislər idi. (24, s. 209–210.)

Türklərin Avropadan çıxarılması fikrinə üstünlük verildiyi bu yazılardan biri, tanınmış din adamı olan Tomas Hyugesin üsyan ərəfəsində gəzdiyi Yunanıstanı təsvir edən “Səyahətnamə” əsəri idi. Hyugesin “dünyanı çirkləndirən və insanlıq üçün təhlükə ünsürü” olaraq gördüyü türklərin yox edilməsinin bir insanlıq vəzifəsi olduğu barədə düşüncələri türklərə olan düşmənçiliyin dərəcəsini açıq şəkildə ortaya qoyurdu. ( 17, s. 183.)

Fransada yunanlara duyulan rəğbət daha geniş bir ictimai dayağa sahib idi. Ziyalı təbəqə, kralçılar, liberallar və Bonapartçılar bu məsələdə ortaq düşüncə nümayiş edirdilər. Burada da Türk və Müsəlman düşmənçiliyini önə çıxardan yazılar nəşr edilirdi. Katebriand, Viktor Hüqo, Volter, Lamartin və Andre Kenyer yunanpərəst yazılarla tanınırdılar. (23, s. 144.)

Nazir vəzifəsini icra etdiyi dövrdə Katebriand, Yunanıstanla bağlı çap etdirdiyi yazısında “... Fransa Yunanıstanın ən böyük qızıdır” ifadəsini işlətmişdi. O, yenidən dirçəlməkdə olan ellinlərin Osmanlı tərəfindən məhv edilməsinin sivilizasiya üçün böyük ayıb olduğunu ifadə edirdi. Fransız Dili Akademiyasında söylədiyi nitq ilə hökuməti silahlı müdaxiləyə təşviq edərək, burada yunanpərəst qüvvələrin sayını artırmağa çalışırdı. İstefaya göndərilməsindən sonra da yunanları dəstəkləməyə davam edən Katebriand, Avropa ictimaiyyəti və siyasi dairələrinə böyük təsir göstərirdi. (25, s.86-87.)

Fransız liberallar da yazdıqları yazılarda türkləri barbar olaraq xarakterizə edir, bütün xristianları osmanlılarla döyüşməyə çağırırdılar. Onlar, türklərin yenidən Asiyaya sürgün edilməsini və Ayasofiyanın keçmiş günlərinə qaytarılmasını istədiklərini öz yazılarında vurğulayırdılar. (21, s. 96)

Almaniyada da yunanlara qarşı böyük maraq var idi. Almaniya küçələrində əldən-ələ gəzən bir yazı yunanlara göstərilən yaxınlığı və dəstəyi ortaya qoyurdu. Alman gəncliyinə xitabla başlayan bu yazı belə idi:

“... Din, həyat və azadlıq uğrunda mübarizə bizi silahlanmağa çağırır. İnsanlıq bizi qardaşlarımıza, alicənab yunanlara köməyə qaçmağa çağırır. Müsəlmanların Avropadakı hakimiyyətinin sonu yaxınlaşır. Avropanın ən gözəl ölkəsi azad olmalı, qurdların əlindən



qurtarılmalıdır. " Almaniyada yunanlara verilən dəstəyin arxasında din faktoru dururdu. Xristianlıq naminə insanları döyüşə çağıran bu yazı ilə sanki İslama qarşı yeni bir Xaçlı yürüşünə təşviq edilməkdə idi. (11, s.81)

Avropada yunanlara qarşı ən çox sevgi və yaxınlıq göstərən digər millət ruslar idi. Ancaq burada göstərilən maraq daha çox dini həmrəylik, tarixi türk düşmənçiliyi və rus hökmranlığı arzusunun bir təzahürü idi. (12, s.324) Rusiyada isə öz yazıları ilə ictimaiyyətə təsir edən şəxs Puşkin idi. (21, s.498.)

## ƏDƏBİYYAT


1. Adolph Slade, Kapitan Paşa. Boğaziçi neşriyyat evi. İstanbul 1976.

2. Albert Hourani. Batı Düşüncesinde İslam. Çev: Mehmed Kürşad Atalar. Pınar Yay. İstanbul, 1996.

3. Aşkın Koyuncu Yunanıstanda Bağımsız Devlet. Balkanlar El Kitabı. C: 1.

KaraM/Vadi yayınevi. Dergi O.Karatay-B.A.Gökdağ. Ankara, 2006.

4. Bilal Eryılmaz. Osmanlı Devletinde Gayrimüslim Tebaanın Yönetimi, 2. Baskı, Risale Yay., İstanbul 1996.

5. Bilal N. Şimşir. Ege Sorunu - Belgeler (1912 – 1913). C. I, 2. Baskı TTK Yay. Ankara, 1989.

6. Enver Ziya Karal. Osmanlı Tarihi. Türk Tarih Kurumu Yayınları. Ankara, 1983.

19. 7. Eric J. Hobsbawm. 1780-den günümüze milletler ve Milliyetçilik "Program, Mit, Gerçeklik". Çev: Osman Akınhay. Ayrını. İstantı yayınları. İstanbul, 1995.

21. 8. Fahir Armaoğlu. 19. Yuzyıl Siyasi Tarihi. İstanbul. Alkım yayınevi. 2006. 1152 s.

25. Hasan Demirhan. Büyük Güçlerin gölgesinde Yunan isyanı. İdil yayıncılık. İstanbul, 2016.

10. Hasan Şahin, "Küçük Kaynarcadan (1774) Paris Barışına (1856) Kadar Şark Meselesi Perspektifinde Osmanlı-Rus Münasebetlerine Genel Bir Bakış". Türkler,C. XII. Ed. Salim Koca vd. Yeni Türkiye Yay. Ankara, 2002.

11. Kula Onur Bilge. Alman Kültüründe Türk İmgesi, Gündoğan Yay. Ankara, C. I-II-III.

12. Kurat A. N. Rusya Tarihi, TTK, Ankara 1993.

13. Məmməd Fətəliyev. Türkiyə,Yunanıstan və Böyük dövlətlər. Birinci dünya müharibəsi ərəfəsind və illərində. Bakı universiteti nəşriyyatı. Bakı, 2005.

14. Millas Herkül. Geçmişten Bugüne Yunanlılar Dil ve Din Kimlikleri. İletişim yayınları. İstanbul, 2003.

15. Murat M. . Hatipoğlu Yunanıstandakı Gelişmelerinin işığında Türk-Yunan ilişkilerinin 101 yılı (1821-1922) Ankara Üniversitesi basımevi. Ankara, 1988. 180 s.

16. Nureddin Tursan. Yunan Sorunu. Ankara, 1987.

17. Thomas Hughes, Considerations Upon the Grek Revolution' dan aktaran Sonyel.

18. Rıfat Uçarol. Siyasi Tarih. 1789-2014. 10-cu Baskı. Ankara, 2015.

19. Salahi Sonyel, Minorities and the Destruction of the Ottoman Empire, TTK, Ankara 1993.

20. Vamık D. Volkan- Norman Itzkowıtz,Türkler Ve Yunanlılar: Çatışan Komşular, Bağlam Yay., İstanbul 2002.

21. Vladimir Potyemkin, Uluslararası İlişkiler Tarihi, Çev. Attila Tokatlı, I, May Yayınları, İstanbul,1977.

22. Yusuf Halaçoğlu. Derbend. TDVİA. İstanbul, 2009. IX.

23. Jezernik Bozidar.Vahşi Avrupa Batı'da Balkan İmajı, Küre Yay., İstanbul 2006.

24. J. A. Marriot, The Eastern Question, Oxford, 1958.

25. http://dergiler.ankara.edu.tr/dergiler/19/1132/13300.pdf


***Açar sözlər:*** *Fransa burjua inqilabı, Avropa maarifçilik hərəkatı, Riqas Feraios, Adamantios Korais, Yunan üsyanı.*

***Ключевые слова:*** *Французская революция, Движение европейского просвещения, Ригас Фереос , Адамантиос Корейс, Греческое восстание.*

***Key words:*** *France's bourgeois revolution, European enlightenment movement, Rigas Feraios, Adamantios Korais, Greek Revolution.*

## ABSTRACT

On the the greek was strong. Many greek educators became acquainted with the liberty ideology of European educators. The greeks have a sampleg French Revolutionories. Ferrarios Rigas and Adamantios Korais were prominent figures who spread the idea of enlightement in the Morea. Rigas prepared a revolutionary program and constitution. Then published it in 1797.The state he wanted to build was called the Ellin Republic. European writers, poets and artists supported the struggle of the Greeks for freedom in their workes.

## РЕЗЮМЕ

Произощедшая в 1789-ом году Французская буржуазная революция,оказала сильное влияние на греков.Многие греческие просветители познакомились с революционерной идеологией Европейских просветителей.Греки брали пример с французских революционеров. Известные лица, распростронявшие идеи просветительства среди народа в Пелопоннесе были Феррариос Ригас и Адамантис Кораис. Ригас составил программу революции и конституцию,и напечатал в 1797 году.Государство которое он хотел создать должно было называться «Эллинская Республика». Европейские писатели,поэты и деятели исскуства в своих произведениях поддерживали борьбу греков за свободу.

# İdeologiya

## AZƏRBAYCANDA MİLLİ-ƏXLAQİ DƏYƏRLƏR VƏ AZƏRBAYCANÇILIQ İDEYASI

ELÇİN ƏHMƏDOV
AMEA Fəlsəfə İnstitutu



Qloballaşma şəraitində milli-mənəvi dəyərlərin, milliliyin, milli özünəməxsusluğun qorunub saxlanmasına xüsusi əhəmiyyət verilməlidir. Qloballaşmanın, ümumbəşəri dəyərlərin ön plana çəkilməsi, milli-mənəvi dəyərlərin isə arxa plana keçirilməsi xalqın özünəməxsusluğunun, unikallığının itirilməsinə, digər xalqlar arasında ərimasinə gətirib çıxara bilər. Çünki istər fərdi, istərsə də ictimai səviyyədə bütün insanları, xalqları bir-birindən fərqləndirən də elə mədəniyyətdir. Çıxış yolu millilikla ümumbəşəriliyin vəhdətindədir: biz başqalarından öyrəndiyimiz kimi, başqaları da bizdən öyrənməlidir. Lakin bu cür yanaşma açıq cəmiyyət modelinə zidd olmamalı, əksinə bu sahədə istənilən problemi dialoq müstəvisinə gətirməyi nəzərdə tutmalıdır.

Əsrlər boyu yaranan milli-mənəvi dəyərlər, o cümlədən dini-mənəvi sərvətlər cəmiyyətin sosial tənzimləmə və ideoloji sistemində mühüm rol oynayır. Dövlət dini-mənəvi dəyərlərin sosial-mənəvi məzmununa varislik prinsipilə yanaşaraq onlardan ideoloji tərbiyədə istifadə edir. R.Əliyev düzgün olaraq varislik prosesində irsən keçmiş dəyərlərin yenidən dirçəldildiyini və inkişaf etdirildiyini qeyd edərək müsəlman ölkəsi olan Azərbaycan şəraitində sosial-psixoloji varislik mexanizmi vasitəsilə keçmişin gözəl əxlaqi dəyərlərilə yanaşı, o dövrün sosial bəlaları – dini təəssübkeşlik, mövhumat və xurafatın da müasir nəsillərin şüuruna və əməli həyatına yol tapdığını, buna görə də dini-mənəvi dəyərlərə münasibətdə mövqeləri müəyyən edərkən bu amilləri də nəzərə almağı tövsiyə edir.Burada dövlətin bütün ideoloji və tərbiyəvi təsir mexanizminin gücündən səmərəli istifadə olunmalıdır. Hər şeydən əvvəl müstəqillik şəraitində adət-ənənələrə şüurlu varislik münasibəti təbliğ edilməlidir. Bu zaman əsas meyar kimi adət-ənənələrin sosial-mənəvi potensialı açıqlanmalıdır. (1, 65)

Bu gün islamı dəyərlərin düzgün təbliğində, eləcə də dini mühitin sabitliyində ulu öndərimiz Heydər Əliyevin irəli sürdüyü azərbaycançılıq ideologiyası da mühüm yer tutur. Bu mənada, azərbaycançılıq ideologiyası özündə neokonservatizmin diktə etdiyi bir sıra aktual şərtləri cəmləşdirir. Ümummilli liderimizin irəli sürdüyü azərbaycançılıq ideologiyası milli mənsubiyyəti, milli-əxlaqi dəyərləri qoruyub saxlamağa, eyni zamanda, onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnməyə, hər bir insanın inkişafını təmin etməyə yönəlmiş universal və milli-fəlsəfi dünyagörüşü formasıdır. Azərbaycançılıq dövrün, zamanın tələbindən irəli gələn, bu günümüzün gerçəkliklərini özündə əks etdirən hakim dövlət ideologiyasıdır. Ulu öndərimiz Heydər Əliyevin bəyan etdiyi kimi, azərbaycançılıq ideologiyası hər bir vətəndaşın qarşısında ilk növbədə dövlətçiliyi qorumaq və inkişaf etdirmək, onu hər cür təhdidlərdən qorumaq vəzifəsi müəyyənləşdirir.



Müasir Azərbaycan cəmiyyəti üçün ən çox qəbul edilən, hamının şüuruna, mənəviyyatına çökmüş olan ideologiya azərbaycançılıq ideologiyasıdır. Bu, əslində inteqrativ ideologiyadır. Belə ki, azərbaycançılıq ideologiyası özündə həm vətənpərvərliyi, həm milli ideologiyanı, həm dövlətçiliyi, həm də fundamental əsas olan milli mentaliteti birləşdirir. Burada indiki dövrdə hamı tərəfindən birmənalı qəbul edilən, hamının mənəviyyatında, düşüncəsində özünə yer tapmış olan komponent vətənpərvərlikdir. Səbəbi aydındır. Azərbaycanın torpaqlarının iyirmi faizini işğal etmiş ermənilər bu torpaqların onlara məxsus olması iddiasındadırlar. Bu torpaqları əldə saxlamaq üçün onları müdafiə edən beynəlxalq havadarlarından və geniş yayılmış erməni diasporundan istifadə edirlər. Lakin hər bir azərbaycanlı həsrətlə bu torpaqların azad olunmasını gözləyir və onun azad olunması üçün əlindən gələni etməyə, silah götürüb döyüşə getməyə hazırdır.

Lakin vətənpərvərlik ideologiyası yalnız işğal olunmuş, itirilmiş torpaqları geri qaytarmaq əzmi ilə tamamlanmır. Burada vətənpərvərlik ideologiyası ideologiyanın digər komponentləri ilə üzvi əlaqəyə girir. Şübhəsiz ki, milli ideologiyanın ən mühüm komponentlərindən biri dövlətçilik ideologiyasıdır. Dövlət və dövlətçilik həmişə əhalinin bütün təbəqələri arasında ən çox müzakirə olunan, haqqında müxtəlif fikirlər söylənilən məsələlərdən biridir. Lakin bu fikirlər təəssüf ki, heç də dövlətin strukturu, bu strukturun elementləri arasındakı sinxron əlaqə və strukturun özünün həyatın gedişi prosesində dəyişdirilməsi istiqamətində deyil, mövcud strukturda hər hansı bir həlqədə isə oturmaq onu hansı yolla olursa-olsun ələ keçirmək istiqamətində gedir. Əsas məsələ cəmiyyətin özünün onun təhsil, elm və idarəetmə sistemin ilə yanaşı bütöv siyasi sistemin əsas dövlət adamı yetişdirə bilməsidir. Belə dövlət adamı mənəvi əxlaqi keyfiyyətləri ilə yanaşı, ölkə konstitutsiyasının qarantı rolunda çıxış etməli, müstəqil analitik qabiliyyəti, təşəbbüskarlığı, kreativliyi və iradəliliyi ilə fərqlənməlidir. O, düzgünlüyün, ədalətliliyin və halallığın simvoluna çevrilməlidir. Əlbəttə, sual oluna bilər ki, axı bir adamda bu qədər müsbət və yüksək səviyyəli keyfiyyətləri haradan tapmaq olar. Cavabında isə demək olar ki, əlbəttə, bunlar idealdır, lakin bu idealı heç cürə kənara atmaq olmaz. Həmişə bu ideala doğru getmək lazımdır. Çünki bu ideal reallıqda, yaxud reallaşan zaman həmişə bu və ya digər cəhətdən aşağı əmsala malik olur. Əlbəttə, cəmiyyəti, yaxud onun hər hansı bir sahəsini idarəetmə sahəsində işləmək, rəhbərlik etmək çox hörmətli, nüfuzlu və şərəfli bir işdir və bu sahədə çalışanlar yüksək sosial və hüquqi-inzibati statusa malik olurlar. Onlar həmişə diqqət mərkəzində dururlar. Lakin onlar öz dövləti və sosial statuslarından düzgün, əxlaqi və hüquqi normalara uyğun istifadə etmədikdə, öz vəzifələrini yerinə yetirə bilmədikdə bütövlükdə dövləti nüfuzdan salırlar. Siyasi və elmi elita məsələsinin məhz bu qəbildən olan xüsusiyyətlərinə diqqət verməlidir ki, vaxtında idarəetmə sahəsində profilaktik tədbirlər həyata keçirilsin və bu iş ardıcıl surətdə aparılsın.

Artıq göstərildiyi kimi, mühüm siyasi və ideoloji anlayışlar bir-birilə sıx surətdə bağlıdır. Buna görə də bunların heç birini ayrılıqda, başqalarından təcrid olunmuş halda götürmək mümkün deyildir. Belə hal yalnız abstraksiyada mümkündür, real gerçəklikdə, praktikada isə bu mümkün deyildir. Buna görə də milli ideologiya, azərbaycançılıq və dövlətçilik ideologiyası milli mentalitetlə bağlıdır. Elə mentalitet sözünü Azərbaycan dilinə çevirsək o milli ağıl, milli düşüncə, yaxud fəlsəfi dilə çevirsək milli-ictimai şüur, milli mənəviyyat kimi səslənəcəkdir. Milli ictimai şüur özü də elə milli şüurdur. Əlbəttə, burada çıxış nöqtəsi fərdi şüurdur. Çünki fərdi şüur olmadan milli şüur anlayışı quru abstraksiyadır. Məhz fərdi şüurların ümumi, ictimai məqamları milli şüuru, yaxud milli mentaliteti əmələ gətirir. Başqa sözlə, fərdi şüur fərdə məxsus olan maraq və keyfiyyətləri saxlamaqla digər fərdlərə də məxsus olan ictimai şüur məqamları ilə qovuşur və ictimai şüuru yaradır.

Demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolu tutan Azərbaycanda din dövlətdən ayrı olsa da dini-mənəvi dəyərlər xalqın mənəviyyatı, dünyagörüşü, həyat tərzi və ideologiyasından ayrılmazdar. Bir sözlə, Azərbaycanda milli və dini ideya üstünlük təşkil edir. Hazırda Azərbaycanın ictimai həyatında iki başlıca kommunalist ideya – azərbaycançılıq ideyası ilə dini islamçılıq ideyası üstünlük təşkil edir və bu ideyalardan hər biri getdikcə öz sosial bazasını gücləndirir.(2, 58) Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan Qərb demokratiyasına əsaslanan yeni sosial dövlət quruculuğu, Avroatlantik məkana inteqrasiya kontekstində vətəndaş cəmiyyətinin bərqərar olub formalaşması prosesinə start vermiş, sürətli tərəqqi və ikişaf yoluna qədəm qoymuşdur. Bu durum həm də ölkədə hüquqi dövlət quruculuğunun əsas şərtlərindən biri qismində çıxış etmişdir.

Akademik R. Mehdiyevin qeyd etdiyi kimi, azərbaycançılıq xalqımızın çox əzab-əziyyətlər bahasına nail olduğu tarixi sərvətdir. Bu, ilk növbədə, real müstəqilliyə nail olmağın, vahid və bölünməz Azərbaycanın qorunub saxlanması və möhkəmləndirilməsinin siyasi əsasıdır. Bu gün azərbaycançılıq milli həyatın ahəngdarlığının, konfessiyaların dinc yanaşı yaşamasının, ölkədə yaşayan bütün etnosların qardaşcasına qarşılıqlı əlaqəsi və təsirinin çoxəsrlik ənənəsi, onların ümumi taleyi və gələcək müstəqil Azərbaycanın bütövlüyü, inkişafı və firavanlığı uğrunda birgə mübarizəsinin ümumi tarixi təcrübəsidir. Filosof xüsusi vurğulayır ki, azərbaycançılıq ideologiyasında vahid polietnik millətin Azərbaycan dövlətçiliyinin yaradılmasına dair maraqlarının ümumiliyi, demokratiyanın, sərbəst iqtisadiyyatın, sosial həyat şəraitinin inkişafı uğrunda mübarizəsinin məqsədləri öz əksini tapmışdır: "ideologiya kimi azərbaycançılıq müstəqil Azərbaycanın fəlsəfi-sosial doktrinasının sosiomədəni və etnik-geosiyasi cəhətlərini özündə birləşdirmişdir. O, qarşılıqlı dəstək, əməkdaşlıq və bərabərliyin mühüm əsasını təşkil edir. Bu deyilənlərdən görünür ki, ideya-nəzəri və siyasi baxımdan azərbaycançılıq və neokonservatizm bir-biri ilə sıx bağlıdır".(3, 396)

Xalqın məhz böyük potensial ehtiyatlarının və ölkəni tərəqqiyə, firavanlığa doğru aparmağa qadir siyasi elitanın olması onu

göstərir ki, neokonservatizmin milli forması kimi azərbaycançılıq Azərbaycan dövlətçiliyi tarixinin yaxın gələcəyi ərzində milli ideologiyanın əsası olaraq qalır. Məhz bu ideologiya Azərbaycan xalqını Avropanın və Qərbin mütərəqqi inkişaf meyillərini mənimsəməklə yanaşı, özünün milli-əxlaqi, dini dəyərlərini qoruyub saxlamağa, ona sadiq qalmağa sövq edir. Bu gün islami dəyərlər sırf dövlətçilik və xalq maraqları çərçivəsində təbliğ olunmalı, cəmiyyətdə mənəvi-əxlaqi normaların möhkəmlənməsinə xidmət etməlidir.

Ölkəmizdə aparılan mükəmməl və düşünülmüş siyasətin həyata keçirilməsinə bariz misal isə 2017–ci ilin Azərbaycanda İslam həmrəyliyi ili elan olunmasıdır. Son dövrlərdə müsəlman dünyasında baş verən ziddiyyətlər, iğtişaşlar. qarşıdurmalar, terrorçu qruplaşmaların dövlətləri ələ keçirmələri kimi neqativ proseslər fonunda Azərbaycan artıq İslam platformasının ən müasir, sabit ölkəsinə çevrilib, təriqətlərarası sülh və etimad mühiti burada etibarlı qorunur. Hazırda müsəlman dünyasında müasirliyin, kamilliyin, sabitliyin, inkişafın, humanizmin ən favorit ünvanı olan Azərbaycan öz üzərinə yeni missiya götürüb. Belə ki, İslam aləmində böyük nüfuza, siyasi xarizmaya sahib olan Prezident İlham Əliyevin 2017-ci ili Azərbaycanda “İslam Həmrəyliyi İli” elan etməsi respublikamızın sərhədlərini aşan, bütövlükdə müsəlman dünyasını birliyə, həmrəyliyə, nəcibliyə, humanizmə çağıran mesajdır və bu, həm də dövlətimizin, onun başçısının ümumbəşəri problemlərə yanaşma tərzinin ən bariz və yüksək nümunəsidir.

2016-cı ildə 80 ölkədən 400 nümayəndənin iştirak etdiyi V Bakı Humanitar forumunun da milli-mənəvi dəyərlərin qorunması istiqamətində əhəmiyyəti böyükdür. Forumun mövzuları da son dərəcə maraqlı və əhatəlivə fərqli olmuşdur: “Multikulturalizmin müxtəlif modelləri: nəzəriyyədən humanist təcrübəyə doğru”, “İnsanların kütləvi yerdəyişməsi şəraitində insan kapitalının qorunmasının önəmi davamlı inkişafın əsası kimi”, “Jurnalistikanın informasiya dövrünə transformasiyası və onun sivilizasiyalararası dialoqun təmin edilməsində rolu”, “Davamlı inkişaf və ekoloji sivilizasiya”, “Molekulyar biologiya, biofizika, biotexnologiya və müasir tibb sahəsində kadr hazırlığı məsələləri: innovativ və etik problemlər”. “Texnologiyaların konvergensiyası və gələcəyə dair proqnozlar: XXI əsrin əsas çağırışları” mövzusu da ekspertlər tərəfindən müzakirəyə cəlb edilmişdir.

Forumda Azərbaycan Prezidentinin dərin mənalı çıxışı, milli ideologiya və milli-əxlaqi dəyərlər probleminə dair baxışları onun siyasi portretinin əsas cizgilərini təcəssüm etdirir. Dövlət başçısının son illərdə bununla bağlı irəli sürdüyü prinsiplər, müəyyənləşdirdiyi strateji xətt, atdığı konkret addımlar onun Azərbaycanı həm də sivilizasiyalararası dialoq, mədəni-intellektual konsolidasiya və əməkdaşlıq mərkəzinə çevirmək məqsədindən irəli gəlir. Şübhəsiz. hər bir xalqın milli-əxlaqi və dini dəyərlər qədər birləşdirən ikinci qüvvə yoxdur. Azərbaycanlıları da vahid məqsədlər ətrafında birləşdirən məhz onların zəngin mədəniyyəti, mənəvi dəyərləri, adət-ənənələridir. Azərbaycan xalqının milli mədəniyyətinin yad təsirlərdən qorunması üçün, ilk növbədə, milli-əxlaqi və əxlaqi dəyərlərin cəmiyyətdə tam intişar tapmasına, ictimai şüurda daha da möhkəmlənməsinə çalışmaq lazımdır.

Prezidentimiz Forumda qeyd edir ki, Azərbaycan çoxkonfessiyalı, çoxmillətli ölkə olsa da Azərbaycanda bütün dinlərin, xalqların nümayəndələri bir ailə kimi yaşayır. Eyni zamanda, bu beynəlxalq, siyasi və humanitar tədbirlər dünyaya da bir siqnal göndərir ki, dünyanın mütərəqqi nümayəndələri səylərini daha da sıx birləşdirməlidirlər. Çünki bu gün əfsuslar olsun ki, dünyada xoşagəlməz meyillər üstünlük təşkil edir. Qanlı toqquşmalar, müxtəlif bölgələrdə müharibələr gedir, dini, milli zəmində qan tökülür. Beynəlxalq humanitar əməkdaşlığın dərinləşməsi müəyyən dərəcədə bu mənfi meyillərin qarşısını ala və müsbət meyilləri gücləndirə bilər. Biz çalışırıq və çalışacağıq ki, bundan sonra da humanitar sahədə dinlərarası, mədəniyyətlərarası dialoqun güclənməsinə öz töhfəmizi verək. Çünki bizim siyasətimiz bundan ibarətdir, eyni zamanda, bizim tariximiz multikulturalizm əsasında qurulubdur. Düzdür, multikulturalizm bir anlayış olaraq yeni bir ifadədir, ancaq bu həmişə Azərbaycanda olub. İctimai-siyasi quruluşdan asılı olmayaraq Azərbaycan bütün dövrlərdə sülh, əməkdaşlıq, qarşılıqlı anlaşma məkanı olmuşdur və biz bu ənənələri yaşadırıq. Bu gün biz müstəqil dövlət kimi belə tədbirlərin keçirilməsi ilə multikulturalizmin inkişafına öz töhfəmizi veririk və Azərbaycanda aparılan siyasət bu müsbət meyilləri gündəlik həyatda gücləndirir. Bir daha qeyd etmək istəyirəm ki, Azərbaycanda bütün xalqların, dinlərin nümayəndələri bir ailə kimi sülh, mehribanlıq şəraitində yaşayır, heç vaxt ölkəmizdə dini-milli zəmində heç bir qarşıdurma, yaxud da anlaşılmazlıq olmamışdır. Bu, bizim böyük sərvətimizdir. (4, internet resurs)

XIX əsrin ikinci yarısından etibarən başlayan, ötən əsrin əvvəllərində daha geniş miqyas alan milli maarifçilik dalğasının da əsas məramı məhz İslamın mənəvi təsirləri ilə kifayətlənməyi, dinin siyasi proseslərə qoşulmamasını, ictimai həyatda mütləq üstün mövqedən uzaqlaşdırılmasını diktə edirdi. Dinin bir qrup nadanın əli ilə cəhalət, mövhumat mənbəyinə çevrilməsi, xalqın inkişaf səviyyəsinə əsaslı zərbələr vurması vətənpərvər sələflərimizi bu istiqamətdə fəal hərəkətə keçirdi. İslamın yanlış təmayüllərdən uzaqlaşaraq, insanların mənəvi yüksəlişinə rəvac verən, cəmiyyətdə mərhəmət hisslərini aşılayan sülh və etimad dini kimi təşəkkül tapması onların və elə indi də müasir ziyalıların dəyişməz istəyidir.

Azərbaycan xalqı son bir əsrdir ki, ateizm və mövhumat arasında ən doğru orta yolu formalaşdırır. Bu yol dini cəhalətdən dünyəvi maarifçiliyə keçidi və bu kontekstdə İslamın cəmiyyət həyatında yalnız müsbət rol oynamasını təşviq edir. Bu proses müstəqillik illərində dövlətin əsas prioritetlərindən birinə çevrilib. Heydər Əliyev tərəfindən böyük peşəkarlıq və həssaslıqla hazırlanan bu siyasətin əsas mahiyyəti çoxəsrlik inanc dəyərlərimizin milli xüsusi yyətlərimizləuzlaşdırılması və İslamın Azərbaycanı digər ölkələrdə olduğu kimi, savaşa, məzhəblərarası konfliktlərə, cəmiyyətdə mənəvi durğunluğa sürükləməməsidir. Əksinə, əsl İslam fəlsəfəsinə uyğun olaraq insanların mənəvi zənginliyinin artmasına təkan verməsidir.

Azərbaycan Prezidenti İlham Əliyev azsaylı xalqlara, milli-dini azlıqların nümayəndələrinə həssaslıqla yanaşır, onların problemlərinin həlli üçün bütün lazımi tədbirləri həyata keçirir. Dövlət başçısı respublikamızda bütün milli və dini azlıqların birgə yaşayışı üçün kifayət qədər tolerant mühitin olduğunu məmnunluqla bildirir: "Azərbaycanda müxtəlif dinlərə mənsub olan insanlar vahid ailə kimi yaşayırlar. Bu, bizim ən böyük sərvətimizdir və xalqımızın gündəlik həyatıdır Biz fəxr edirik ki, Azərbaycanda müxtəlif millətlərdən olan insanlar arasında qarşılıqlı anlaşma mövcuddur. Başqa dövlətlər də Azərbaycanın bu təcrübəsindən faydalana bilərlər".

İ.Məmmədzadə müsəlman dünyasında baş verən proseslərə, islamdakı islahatlara da toxunaraq Şərq ölkələrindəki modernizm,




qloballaşma, qərbləşmə və özünəməxsusluq, millilik problemi haqqında danışarkən Azərbaycanın XIX əsrdən başlayaraq türkçülük, islamçılıq və qərbçilik yönümündə inkişafını, hətta sovetləşmənin də bir növ qərbləşmə olduğunu, yerli milli-mənəvi dəyərlərə və mədəniyyətə təsir edən yad mədəniyyət olduğunu göstərir. Qərbləşmə sovet Azərbaycanında, yad ideologiya olub siyasi partiya elitası və sovet ziyalıları tərəfindən qəbul edilmişdi. Lakin 50-ci illərdən başlayaraq qərbləşmədə dəyişikliklər baş verdi. Sovet, kommunist dəyərlərinin milli dəyərlərlə sintezi yarandı. Lakin bu sintez prosesini 50-ci illərin sonlarındakı başa çatmayan iqtisadi islahat və ziddiyyətlər, eləcə də 80-cı illərin sonlarındakı yenidənqurma dövrünün ziddiyyətləri dayandırdı. Azərbaycandakı sovetləşmə prosesinin təcrübəsinin müasir reallıqlar mövqeyindən öyrənilməsi və dərk edilməsi, bugünkü problemləri həll etməyə kömək edə bilər.

Ölkəmizdə mövcud olan etnik-dini tolerantlıq hazırda bəzi inkişaf etmiş ölkələrə də nümunə göstərilə bilər. İnsan hüquqları üzrə ixtisaslaşmış beynəlxalq təşkilatların hesabatlarında Azərbaycanda müxtəlif dini konfessiyalar arasındakı münasibətlərin yüksək səviyyədə olduğu, dini azlıqların maraq və mənafelərinin qorunduğu razılıqla bildirilir. Respublikamızda rusların, yəhudilərin və digər milli azlıqların öz ana dillərində təhsil alması üçün çoxsaylı məktəblərin mövcudluğu da bunun əyani göstəricisidir. Azərbaycan xalqı sivil, demokratik və dünyəvi dövlət prinsiplərinə sadiq qaldığını bəyan etmişdir və respublikamızda din dövlət siyasətindən ayrıdır. Respublikamızın bu konstitusion quruluşu səviyyəsində dini-mənəvi dəyərlərin inkişafı naminə atılan addımlarla, habelə xalqın qəlbində yer tapmış islami dəyərlərlə qətiyyən ziddiyyətə girmir. 70 illik totalitar sovet rejimi belə, xalqın bu ülvi hiss və duyğularına hakim kəsilə bilməmiş, onu öz milli-əxlaqi, dini dəyərlərindən, adət-ənənələrindən ayıra bilməmişdir. Hələ ötən əsrin 70-80-ci illərində məhz ulu öndərimiz Heydər Əlİyevin himayəsi altında neçə-neçə məscid tarixi abidə adı altında qorunub saxlanılmış, əsaslı təmir edilmiş, xalqa qaytarılmışdır. Lakin açıq demək lazımdır ki, son illərdə islami dəyərlərin təbliğində bəzi hallarda ifratçılığa, xürafata varma, dini ayinləri qəlbən dərk etmədən, imitasiya və görüntü naminə kor-koranə icra etmə, nəticə etibarilə islami dəyərlərin mənəvi-əxlaqi təsir gücünün zəifləməsinə gətirib çıxarır.

Tarixən Azərbaycanda etnik və dini icmalar arasında möhkəm dözümlülük və dostluq əlaqələri mövcud olub, milli, irqi və dini zəmində heç bir ayrı seçkilik baş verməyib. Odur ki, bir Şərq dövləti, müsəlman ölkəsi kimi Azərbaycanda "İslam Həmrəyliyi İli"nin elan olunması təkcə İslam dünyası üçün deyil, bütövlükdə, bəşəriyyət üçün böyük önəm daşıyır. Bu istiqamətdə əldə edilmiş ən böyük uğur isə Bakıdakı "Heydər Məscidi"ndə məzhəbindən asılı olmayaraq, ölkə müsəlmanlarının bir araya gələrək eyni vaxtda, bir yerdə, bir sırada vəhdət namazı qılmasıdır. Bu hal ənənəyə çevrilərək bu gün digər məscidlərdə də tətbiq olunur. Həm ölkə daxilində çoxsaylı tədbirlər keçirməklə biz Azərbaycanda vəhdət namazı formasında həmrəyliyimizin daha geniş yayılmasına nail olmalı, həm də konfessiyalararası, sivilizasiyalararası münasibətlərin formalaşması sahəsində əldə etdiyimiz təcrübəni, uğuru müsəlman ölkələri ilə bölüşməliyik. Müsəlman ölkələrinin təmsil olunduqları regional təşkilatlarda bu məsələləri müzakirəyə çıxarıb müvafiq qətnamələrin, qərarların qəbul edilməsi üçün çalışmalıyıq.

**ƏDƏBİYYAT**

*1. Əliyev R.Y. Heydər Əliyev, din və mənəvi dəyərlər. Bakı, "İrşad", 1998, 76 s.*

*2. Əliyev R.Y. İslam və Azərbaycan mədəniyyəti. Bakı, "İrşad", 1998, 117 s.*

*3. Mehdiyev R. Milli məfkurə, dövlətçilik, müstəqillik yolu ilə. İyun, 1971-iyul 2001. Bakı: XXI YNE. 2006, 622 s.*

*4. V Bakı Humanitar Forumda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışı. (elektron resurs) https://azertag.az/xeber/Bakida_V_Beynelxalq_Humanitar_Forum_ise_baslayib_Azerbaycan_Prezidenti_Ilham_Aliyev_Forumun_resmi_achilis_merasiminde_istirak_edib_YENILANIB_VIDEO-996910*

*5. Hüseynov S., Heydər Əliyev və İslam həmrəyliyi ideyası. 4 may 2017, "Olaylar" qəzeti*

*6. "Respublika" qəzeti, Ramazan bayramı münasibətilə Azərbaycan xalqına təbrik. 12 iyul 2015*

***Açar sözlər:** milli-əxlaqi dəyərlər, azərbaycançılıq ideologiyası, vətəndaş cəmiyyəti, dini dəyərlər.*
***Key words:** national-moral values, ideology of Azerbaijanism, civil society, religious values.*
***Ключевые слова:** национально-нравственные ценности, идеология азербайджанства, гражданское общество, религиозные ценности*

**RESUME**

**National-moral values in Azerbaijan and the ideology of Azerbaijanism**

The article examines the national-moral values and the ideology of Azerbaijanism in Azerbaijan's civil society building process. In the course of the research, the author presented interesting ideas about the proper propagation of national values, Islamic values, the ideology of Azerbaijanism in the process of civil society building, as well as references to interesting ideas of philosophers and thinkers.

**РЕЗЮМЕ**

**Национально-нравственные ценности Азербайджана и идеи азербайджанства**

В статье рассматриваются процесс построения гражданского общества в Азербайджане на основе национально-этических ценностей и идеологии азербайджанства. В ходе исследования автор разъяснил интересные идеи об национально-этической, исламской пропаганде, идеологии азербайджанства, а также ссылки на интересные идеи философов и мыслителей в процессе построения гражданского общества.

# Tarix

## "1941-1945-ci İLLƏR MÜHARİBƏSİ TARİXİ 1960-1970-ci İLLƏR AZƏRBAYCAN SOVET TARİXŞÜNASLIĞINDA"

ŞƏFA MÖVSÜMOV
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun
"Azərbaycanın sovet dövrü tarixi" şöbəsi




1941-1945-ci illər müharibəsinin tarixinə aid tədqiqatlar Azərbaycan sovet tarixşünaslığında planlı şəkildə XX əsrin 60-cı illərindən etibarən yazılmağa başlanıldı. Əslində bunun xüsusi səbəbi var idi. Belə ki, 1956-cı ildə Sov.İKP-nin XX qurultayının qəbul etdiyi bir sıra mühüm qərarlardan sonra Sovet dövrü tarixinə dair hadisələrə münasibətlərdə çox böyük dəyişikliklər baş verdi. 1957-ci ildə sentyabr ayında Sov.İKP MK 1941-1945-ci illər müharibəsinin tarixinin altı cilddə yazılması haqqında qərar qəbul etdi. Məhz bundan sonra sovet tarixçiləri öz tədqiqatlarında SSRİ - nin 1941-1945-ci illər müharibəsində qələbəsini, almanların işğal etdiyi sovet torpaqlarından çıxarılmasını və bütün ölkə əhalisinin hakim kommunist partiyasının rəhbərliyi altında ideoloji-siyasi birliyini daha çox göstərməyə başladılar.

Azərbaycan sovet tarixşünaslığında Avropa ölkələrində faşizmə qarşı mübarizədə Azərbaycan döyüşçülərinin qəhrəmanlığı"proletar beynəlmiləlçiliyi" nə sonsuz sədaqəti, qələbəyə dərin inamı ilə "sovet adamına xas olan müsbət keyfiyyətləri" nümayiş etdirməsi kimi göstərilmişdir. Həmçinin qeyd olunmuşdur ki, müharibə ərzində on minlərlə zəhmətkeş Sov. İKP sıralarına daxil olmuşdur. Xalqın qələbə işinə səfərbər olmasında Azərbaycan Kommunist Partiyasının böyük köməyi olduğu müəlliflər tərəfindən önə çəkilmişdir.

Bu vaxtdan etibarən Azərbaycan sovet tarixşünaslığında 1941-1945-ci illər müharibəsinin geniş araşdırılmasına başlanıldı. Müəlliflər öz tədqiqatlarında dövrün siyasi təsirlərindən kənara çıxmasalar da, bütövlükdə bu araşdırmalar bu gün də mühüm əhəmiyyətə malikdir.1941-1945-ci illər müharibəsində azərbaycanlıların hərbi əməliyyatlarda, partizan hərəkatında, arxa cəbhədə, həmçinin, elm, təhsil, sənaye, kənd təsərrüfatı və b. sahələrdəki iştirakına aid əsərlər sistemli olaraq yazılmağa başladı.

Bundan əlavə həmin əsərlərdə müharibənin başlanması, azərbaycanlıların cəbhəyə səfərbər olması, Azərbaycan SSR iqtisadiyyatının hərbi qaydada yenidən qurulması, azərbaycanlı döyüşçülərin müharibənin ilk illərindən cəbhədə göstərdikləri qəhrəmanlıq, həlledici döyüşlərdə və qələbənin əldə olunmasında onların iştirakı, arxa cəbhədəki fədakar əmək, kənd təsərrüfatı işçilərinin bol məhsul üçün hünəri, Azərbaycan SSR əhalisinin cəbhəyə ümumxalq yardımı, müharibə illərində əhalinin ideya-siyasi tərbiyəsi, partizan hərəkatında azərbaycanlıların göstərdikləri şücaət, Avropada



antifaşist və müqavimət hərəkatında azərbaycanlıların iştirakı, eləcə də,Yaponiya və Hitler Almaniyası üzərində tarixi qələbədə oynadığı roldan bəhs olunur. Burada həmçinin müharibənin xalqımızın maddi və mənəvi həyatına ciddi zərbə olduğu göstərilir.

1960-cı ildə Məzahir Abbasovun nəşr etdirdiyi əsər daha çox azərbaycan kommunist partiyasının 1941-1945-ci illər müharibəsində ön və arxa cəbhədə fəaliyyətinə həsr olunub. Əsərdə neft, yüngül, yeyinti və elektroenergetika sənayesi, eləcə də, kənd təsərrüfatının ayrı-ayrı sahələrinin cəbhəyə yardımının təşkil edilməsində Kommunist Partiyasının göstərdiyi xidmətlərə daha çox yer verilmişdir. Müəllif Azərbaycanın ayrı-ayrı bölgələrində Azərbaycan KP-nın keçirdiyi görüşlərin və apardıqları təbliğatların müsbət əhəmiyyətini vurğulayır. Hitlerçilərin məğlub edilməsində Azərbaycan xalqının apardığı mübarizədə Azərbaycandakı hakim partiyanın başçılıq etməsi əsərdə aparıcı yer tutur (1, s.37).

Ə.Kərimovun "Böyük Vətən Müharibəsi illərində Azərbaycan kolxozçularının fədakar əməyi" adlı əsərində 1941-1945-ci illərdə Azərbaycan Kommunist partiyasının rəhbərliyi altında kənd təsərrüfatı sahəsində görülən işlərdən və Azərbaycan SSR kənd əhalisinin fədakar əməyindən bəhs olunur. Ə. Kərimov öz əsərində 1941-1945-ci illərdə SSRİ-nin Hitler Almaniyasına qarşı apardığı müharibəni "ümumsovet xalqının müqəddaratının həlli" kimi verib. Sov. İKP-nin fəaliyyəti müharibənin ilk günlərindən başlayaraq sovet xalqının amansız düşmənə qarşı mübarizə üçün ayağa qaldırılması kimi göstərilib. Hər şeyin cəbhənin tələblərinə tabe edilərək ölkəni vahid hərbi düşərgəyə çevrilməsi və nəticə olaraq faşist Almaniyasının darmadağın edilməsi əsərdə öz əksini tapmışdır (2, s.4).

Əsərdə müharibənin başlanması səbəbləri, respublikadakı işlərin müharibə dövrünün tələblərinə uyğun şəkildə yenidən qurulması, kənd təsərrüfatında çalışanların öz fədakar əməyi ilə qələbəyə təsiri, Azərbaycan SSR əhalisinin cəbhəyə və faşist işğalından zərər çəkmiş bölgələrə qardaşlıq köməyi, faşist işğalından azad olan rayonlarda iqtisadiyyatın yenidən bərpasında fəaliyyəti göstərilmişdir (2, s.77).

Burada tapşırıq kimi göstərilmişdir ki, 1941-1945-ci illər müharibəsi tarixinə həsr olunmuş əsərlərdə alman faşizminin imperializmin təcavüzkarlıq siyasəti, sovet ordusu və donanmasının qələbələri, müharibədə kommunist partiyasının rolu və başqa bu kimi məsələlərlə yanaşı, arxa cəbhədə sovet adamlarının fədakar əməyi mövzusu da əsaslı surətdə yenidən işlənməlidir.

1960-cı illərdə Azərbaycan sovet tarixşünaslığı, eləcə də müasir tarixşünaslığımız baxımından dəyərli olan əsərlərdən biri "Azərbaycan Sovet İttifaqı Qəhrəmanları" adlı əsərdir. Bu əsərdə 1941-1945-ci illər müharibəsi zamanı böyük qəhrəmanlıqlar göstərərək Sovet İttifaqı Qəhrəmanı adına layiq görülən azərbaycanlılar barədə məlumatlar öz əksini tapmışdır. Qeyd olunan nəşrdə 90-dan çox Sovet İttifaqı Qəhrəmanı haqqında ümumi məlumat verilmiş, onların döyüş yolu barədə faktlar yer almışdır (3).

Tapdıq Novruzovun əsəri Azərbaycan SSR-nin kənd əhalisinin arxa cəbhədə əmək qəhrəmanlığının öyrənilməsi baxımından əhəmiyyətlidir. Dövrün partiya arxivləri, Azərbaycan EA Tarix İnstitutunun Arxivi, Azərbaycan SSR Kənd Təsərrüfatı Nazirliyinin Arxivinin materialları əsasında yazılmış bu əsərdə ayrı-ayrı rayonlar üzrə Azərbaycan kəndlilərinin cəbhəyə yardımları statistik materiallar əsasında verilmişdir (4, s.7). Burada kənd əhalisinin arxa cəbhədə qələbə naminə fədakarlığı, digər müttəfiq respublikaların əhalisi ilə birgə Vətənə və dövlətə sədaqəti göstərilmişdir.

Monoqrafiyada Azərbaycan xalqının ön cəbhədəki şücaəti və arxa cəbhədəki fəaliyyəti marksizm-leninizm təlimi əsasında verilmişdir. Azərbaycan milli diviziyalarının şanlı döyüş yollarının ilk dəfə bu əsərdə tədqiq edilməyə təşəbbüs göstərilmişdir. Azərbaycanlıların partizan hərəkatında vətənə və dövlətə sonsuz sədaqəti, vətənpərvərliyi və yüksək döyüş keyfiyyətləri ilə Avropa xalqlarını valeh etməsi, yerli xalqları mübarizəyə və qələbəyə ruhlandırması kimi həmin əsərdə qeyd olunmuşdur (4).

T. Əfəndiyevin 1965-ci ildə rusca nəşr etdirdiyi əsər Azərbaycanın 1941-1945-ci illər müharibəsi tarixini öyrənmək üçün dəyərli əsərlərdən biridir. Ali məktəblər üçün nəzərdə tutulmuş bu dərslikdə müəllif müharibənin başlanması zamanı xalq təsərrüfatının qurulması, müharibədə əsaslı dönüşün yaranması zamanı Azərbaycanın vəziyyəti və qələbənin əldə olunmasında azərbaycanlıların xidmətlərinə ümumi olaraq toxunmuşdur. Əsər dövrün siyasi tələbləri çərçivəsi baxımından yazılmasına baxmayaraq müəllif ümumi olsa da Azərbaycan milli atıcı diviziyalarının müxtəlif cəbhələrdə şücaətindən bəhs etmişdir. Burada həmçinin müəllif Hərbi Şuranın üzvü Sovet İttifaqı ordu general-leytenantı V. İ. Uranovun Azərbaycanın partiya rəhbərinə 416, 203 və 402-ci milli atıcı diviziyalarının 1942-1943-cü illərdə İşesk, Mozdok, Don və Taqanroqda hitlerçilərə sarsıdıcı zərbələr vurması haqqında məktubunu qeyd etmişdir (5, s.26).

1941-1945-ci illər müharibəsinə aid tədqiqatlar aparmış AMEA-nın müxbir üzvü Qaraş Mədətovun rusca nəşr etdirdiyi "Azərbaycan Böyük Vətən Mühari-bəsində" adlı əsəri bu dövrün öyrənilməsi baxımından mühüm əhəmiyyətə malikdir. Həmin əsərdə Azərbaycan xalqının müharibədə iştirakını, azərbaycanlıların ön və arxa cəbhədə qəhrəmanlıqlarını, respublika iqtisadiyyatının, xüsusilə, Bakı neftinin qələbədə müstəsna əhəmiyyətindən bəhs edilmişdir. İlk dəfə olaraq bu əsərdə həmçinin Avropada antifaşist hərəkatında azərbaycanlıların iştirakına toxunulmuşdur. Müəllif müharibə tarixinin öyrənilməsinə ümumi nəzər salmış, bunları hakim partiyanın qarşıya qoyduğu mühüm tapşırıq kimi qiymətləndirmişdir. Əsərin yazılmasında müharibə iştirakçılarının xatirələrindən, döyüş yolu keçmiş qəhrəmanların cəbhə qeydlərindən və hərbçi jurnalistlərin məlumatlarından istifadə edilmişdir (6, s. 12).

"Dostluğun gücü" adlı əsərində Teyyub Qurbanov müharibə də Azərbaycan döyüşçülərinin SSRİ-dəki digər xalqların nümayəndələri ilə birlikdə göstərdiyi qəhrəmanlıqları barədə müəyyən məlumatlar verir, ayrı-ayrı cəbhələrdə xalqımızın oğul və qızlarını igidliklərinə toxunur. Əsərdə Belorusiyanın, Ukraynanın və Rusiyanın hitlerçilər tərəfindən işğal olmuş ərazilərindəki sənaye müəssisələrinin bəzilərinin Azərbaycana köçürülməsi barədə faktlara rast gəlinir (7,s.38). Əsərin yazılması zamanı sovet dövrünün tədqiqatçılarının əsərlərinə daha çox istinad edilsə də burada tarixşünaslığımız üçün dəyərli məlumatlar yer almışdır. Tədqiqatçı T. Qurbanov həmçinin Avropadakı antifaşist və müqavimət hərəkatındakı azərbaycanlıların rolu barədə yazmış, ümumi olsa da bu barədə məlumatlar vermişdir.

Azərbaycan sovet tarixşünaslığında 1941-1945-ci illər müharibəsinə aid tədqiqatlardan biri də Nəsir İmanquliyevin "zəhmətkeşlərin əmək qəhrəmnlığı uğrunda mübarizəsi"adlı

əsəridir.Qeyd olunan əsəri müəllif müharibənin respublikanın mətbuat səhifələrində nəşri əsasında yazmışdır. Göstərilən tədqiqat Azərbaycan mətbuatında sənaye işinin, nəqliyyat və yüngül sənaye sahələrinin işıqlandırılmasına həsr edilmişdir. Müəllif 1941-1945-ci illər müharibəsi zamanı azərbaycanlıların arxa cəbhədə və hərbi əməliyyatlarda fədakarlığını dövrün mətbuat səhifələrində necə əks olunmasını işıqlandırmışdır. Əsərdə bir çox tarixi faktlar yer almışdır ki, bu da qeyd olunan müharibənin XX əsrin 60-cı illərinin mətbuatında nəşr olunduğunu göstərir və bu gün də aktuallığını saxlayır.

Həmin illərdə Azərbaycan sovet tarixşünaslığında 1941-1945-ci illər müharibəsindən bəhs edən əsərlərdən biri də Qəzənfər Mehdiyevin rusca yazdığı "Azərbaycan Kommunist Partiyasının Böyük Vətən Müharibəsi dövründəki fəaliyyəti (1941-1945-ci illər)" adlı əsərdir. Burada müəllif müharibə zamanı Azərbaycan Kommunist Partiyasının fəaliyyətini dövrün siyasi tələblərinə uyğun olaraq yüksək qiymətləndirir, azərbaycanlıların ön və arxa cəbhədəki qəhrəmanlıqlarının Kommunist Partiyasının apardığı təbliğatın nəticəsi kimi qeyd edir. Ayrı-ayrı sahələrdə ( sənaye, kənd təsərrüfatı,elm və s.) Azərbaycan xalqının cəbhəyə dəstəyini KP-nın yüksək təşkilatçılığı sayəsində baş verməsi kimi vurğulayır. Bununla belə, qeyd olunan əsər 1941-1945-ci illər müharibəsində Azərbaycanın iştirakını və ayrı-ayrı sahələrin müharibə vaxtı fəaliyyətini öyrənmək baxımından bu gün də öz əhəmiyyətini saxlayır (9).

Adı çəkilən dövrdə 1941-1945-ci illər müharibəsinə aid əsərlərdən biri olan Dərgah Qüdrətovun əsəridir. Burada II fəsil qeyd olunan dövrə aiddir. Əsərdə azərbaycanlıların SSRİ-də yaşayan digər xalqlarla birlikdə faşizmə qarşı mübarizəsi əks olunub. Burada həmçinin Azərbaycanın ayrı-ayrı rayonlarının cəbhəyə yardımına ümumi olaraq toxunulub və Azərbaycanın keçmiş SSRİ-nin digər respublikaları ilə qarşılıqlı əməkdaşlığına həsr olunub (10).

1969-cu ildə R. Zeynalovun və L. Borodetskinin 416-cı Milli Azərbaycan atıcı diviziyasının döyüş yolundan bəhs edən əsərində azərbaycanlıların Qafqazdan Berlinədək keçdiyi hərbi əməliyyatları əks olunmuşdur. Əsər rusca yazılıb və burada dövrün siyasi baxışları özünü göstərir. Bununla belə müəlliflər əsərdə diviziyanın müxtəlif cəbhələrdəki uğurlu hərbi əməliyyatlarını, hitlerçilərə dəyən ziyanları, diviziyanın hitlerçilərdən təmizlədikləri ərazilər barədə məlumatlar vermişlər. Həmçinin əsərdə, azərbaycanlı döyüşçülərin qəhrəmanlığına aid müəyyən məlumatlar da yer almışdır.Əsər hərbi-tarixi oçerk şəklində yazılmasına baxmayaraq, 1941-1945-ci illər müharibəsinin öyrənilməsi baxımından elmi əhəmiyyətlidir (11).

Bu dövrün tarixşünaslığında 1941-1945-ci illər müharibəsinin araşdırılması baxımından dəyərli əsərlərdən biri də "Azərbaycan ziyalıları Böyük Vətən Müharibəsi illərində" adlanır. Əhəd Bağırzadənin bu əsəri müharibə dövründə azərbaycanlı ziyalıların ön və arxa cəbhədə iştirakına aid yazılmış ilk fundamental tədqiqatlardan sayılır. Burada müəllif müharibənin başlanması ilə azərbaycanlı ziyalıların mövcud hakim partiya ilə birlikdə Azərbaycan xalqını düşmənə qarşı mübarizə üçün birləşməyə çağırmasında əsas faktor olmasını göstərir. Arxa cəbhədə Azərbaycan ziyalılarının apardığı partiya-ideoloji, həmçinin siyasi təbliğatlarında ziyalıların rolunun xüsusi əhəmiyyət kəsb edildiyi göstərilmişdir. Tədqiqatçı qeyd olunan əsərində hərbi məhsul istehsalı, təyyarə benzini, neft istehsalı və digər texniki sahələrdə çalışan Azərbaycan ziyalılarının fəaliyyətini dövrün arxiv materialları əsasında faktlarla göstərmişdir. Qeyd olunan əsərdə azərbaycanlı ziyalıların müharibə dövründə elmin ayrı-ayrı sahələrində əldə etdikləri nailiyyətlər verilmişdir. Adı çəkilən dövrün tarixşünaslıqdakı digər tədqiqat əsərləri kimi bu əsər də hakim Kommunist Partiyasının azərbaycanlı ziyalıları öz ətrafında birləşdirilməsi, partiyanın bu işlərdə mühüm xidmətləri və ziyalıların səfərbər edilməsində rolu xüsusi olaraq qeyd olunur (12).

Sovet İttifaqı Qəhrəmanı Müseyib Bağırovun "Volqadan Dunayadək" adlı hərbi-tarixi oçerki 1960-1970-ci illər Azərbaycan sovet tarixşünaslığında 1941-1945-ci illər müharibəsinin tarixinin öyrənilməsi baxımından əhəmiyyətlidir. Müəllif burada öz döyüş yolundan bəhs etməklə yanaşı ayrı-ayrı fəsillərdə müxtəlif cəbhələrdəki hərbi əməliyyatlar barədə məlumat verir, azərbaycanlıların qəhrəmanlıqlarını qeyd edir. Həmin əsərdə müəllif müharibə zamanı azərbaycanlıların fəaliyyətindən bəhs edən dövrün qəzetlərindən bəzi faktları göstərir (13).

Bu dövrün tarixşünaslığında Azərbaycan milli diviziyalarının fəaliyyətinə aid əsərlər də yazılmışdır. 1960-1970-ci illərin tarixşünaslığında Azərbaycan diviziyalarının döyüşlərdə iştirakına aid olan əsərlərdən biri Faiq Paşayevin əsəridir. Burada müəllif 1941-ci ilin sonlarında Azərbaycan milli diviziyalarının yaranmasından, onların Qafqazın müdafiəsində tutduğu mövqe və alman qoşunlarına qarşı amansız mübarizəsindən bəhs edir. Bu kiçik əsərdə 416 və 77-ci milli atıcı diviziyaların keçdikləri döyüş yolu barədə ümumi məlumat verilib. Digər milli atıcı diviziyaların döyüş yolundan isə bəhs edilməyib. Bu əsərdə müəllif həmin atıcı milli diviziyaların əsas hərbi əməliyyatlardakı iştirakını verməklə kifayətlənib (14).

1975-ci ildə AMEA Tarix İnstitutunun nəşr etdirdiyi kitab-albom əvvəllər nəşr olunmuş azərbaycanlı Sovet İttifaqı Qəhrəmanlarına aid olan əsərlərdən fərqlənir. Dövrün arxiv sənədləri, müharibə veteranlarının və döyüşçülərin xatirələri əsasında yazılmış bu kitabda Azərbaycandan orduya çağırılmış və sonralar "Sovet İttifaqı Qəhrəmanı" adını almış həmyerlilərimiz haqqında məlumatlar yer almışdır. 121 oçerkdən ibarət olan bu əsərdə 1941-1945-ci illər müharibəsinin iştirakçısı olmuş həmvətənlərimiz haqqında ilk fundamental və əhatəli bir tədqiqatdır. Kitab-albomda adları çəkilən qəhrəmanların döyüş yolu haqqında ümumi məlumatlarla yanaşı fotoları da verilmişdir. Qeyd olunan toplu 1960-1970-ci illər tarixşünaslığında 1941-1945-ci illər müharibəsinin araşdırılması üçün dəyərli əsərlərdəndir.

1960-1970-ci illər tarixşünaslığında 1941-1945-ci illər müharibəsinə aid yazılmış əsərlər əvvəlki illərdəki tədqiqatlardan daha geniş aspektdə və hərtərəfli araşdırılması baxımından fərqlənir. Bu dövrün tarixşünaslığında qələbənin 20 və 30 illiyi münasibətilə yazılmış tədqiqatlar sonrakı illərdə də 1941-1945-ci illər müharibəsinin öyrənilməsi üçün mühüm mənbə rolunu oynamışdır. Qeyd olunan dövrün tədqiqatçıları arxiv materiallarından və sələflərinin əsərlərindən istifadə etməklə bu gün də öz əhəmiyyətini saxlayan tədqiqatlar ortaya qoymuşlar (15).

Azərbaycan sovet tarixşünaslığında 1941-1945-ci illər müharibəsində SSRİ-dəki xalqların alman faşist işğalçılarına qarşı mübarizəsi, misilsiz kütləvi qəhrəmanlığı və mənəvi – siyasi birliyi Kommunist Partiyasının rəhbər və təşkilatçı rolu kimi göstərilmişdir. Bu əsərlərdə Kommunist Partiyasının fəaliyyətnə çox toxunulmuş,düşmən üzərində hərbi və iqtisadi qələbə isə yüksək vətənpərvərlik və sosialist şüurluluğu kimi əlaqəli surətdə verilmiş,ayrı-ayrı respublikaların 1941-1945-ci illər müharibəsində iştirakı səthi şəkildə işıqlandırılmışdır. Bununla belə həmin əsərlərdə müttəfiq respublikaların xalqlarının göstərdikləri qəhrəmanlıq tarixini öyrənməyin böyük, siyasi və elmi əhəmiyyətə malik olması məsələsinə toxunulduğu qeyd edilmişdir (16, s. 5).

1965-ci ilədək Azərbaycan SSR-nin 1941-1945-ci illər müharibəsində iştirakına həsr edilən ümumiləşdirici elmi əsər yazılmamışdır. Nəşr edilən bir sıra monoqrafiya, kitabça və məqalələr Azərbaycan xalqının1941-1945-ci illər müharibəsində iştirakının müxtəlif məsələlərinə həsr edilmişdir.1941-1945-ci illər müharibəsi



zamanı ön və arxa cəbhə arasındakı əlaqə, Azərbaycan xalqının SSRİ-də yaşayan başqa xalqlarla əməkdaşlığı zəif işıqlandırılmış, Azərbaycan Milli Diviziyalarının döyüş yolu, partizan hərəkatında iştirakı, Avropa ölkələrindəki müqavimət və antifaşist hərəkatında iştirakı geniş tədqiq olunmamışdır. Belə əsərlərdən biri Ə.Bağırzadənin "Qəhrəman gənclik" əsəridir. Burada Azərbaycan gənclərinin arxa və ön cəbhədəki vətənpərvərliyinə dair məlumatlarla zəngindir.Lakin əsərdə SSRİ-nin işğal altında olan torpaqlarında hitlerçilərə qarşı Azərbaycan gənclərinin fədakarlığı qeyd olunmayıb (16, s. 6). Bu baxımdan qeyd edilən monoqrafiyaların metodoloji əsasını "sosialist Vətəninin müdafiəsi", "Kommunist Partiyasının arxa və ön cəbhədəki rəhbər rolu", qələbənin əldə olunmasında kommunist partiyasının ideoloji-siyasi təsiri daha çox verilmişdir.

Müəllif qeyd olunan dövrə aid əsəri yazarkən 1941-1945-ci illərdə arxa cəbhədəki əmək qəhrəmanları, partizan hərəkatı iştirakçıları, alim və yazıçıların, incəsənət xadimlərinin xatirələrindən, onlarla keçirilən görüş, müsahibə və söhbətlərin stenoqraf-yazılarından, həmçinin, 1941-1964-cü ildə SSRİ-də nəşr olunan tarix üzrə elmi ədəbiyyatlardan,o cümlədən,əcnəbi dillərdə çap olunan əsərlərdən bu monoqrafiyanın yazılmasında istifadə etmişdir (16, s.90).

Ümumiyyətlə,1941-1945-ci illər müharibəsi tarixini tədqiq edən müəlliflər öz əsərlərində göstərmişlər ki, hakim partiyanın təşkilatçılığı ilə respublikanın sənaye və kənd təsərrüfatı inkişafı edərək cəbhəni silah və ərzaqla fasiləsiz olaraq təmin etmişdir. Həmçinin müəlliflər Azərbaycan Kommunist Partiyasının 1941-1945-ci illər müharibəsində fəaliyyətinə xüsusi yer vermiş,onun təşkilatçılıq işini yüksək qiymətləndirmişdir.Belə bir yanaşma heç də təsadüfi xarakter daşımırdı. Çünki, sərt inzibati-amirlik və totalitar ideoloji sistemin hökmranlığı şəraitində bütün tarixi həqiqətləri tam əks etdirən əsərlər yazmaq mümkün deyildi. Bununla belə, həmin əsərlər 1941-1945-ci illər müharibəsi tarixinin öyrənilməsi üçün dəyərli faktlara malikdir.

**ƏDƏBİYYAT**


*1. M. Abbasov, Azərbaycan Kommunist Partiyası Böyük Vətən Müharibəsi dövründə cəbhəyə yardımı qüvvətləndirmək uğrunda mübarizədə,Bakı,1960*

*2. Ə.Kərimov, Böyük Vətən Müharibəsi illərində Azərbaycan kolxozçularının fədakar əməyi, Bakı – 1962*

*3. Azərbaycan Sovet İttifaqı Qəhrəmanları,Azərbaycan SSR EA Tarix İnstitutu,Bakı,1963*

*4. Т.Новрузов,Трудовые подвиги колхозного крестьянства Азербайджана в период Великой Отечественной Войне, Баку – 1963*

*5. Т. Эфендиев, Азербайджан в годы Великой Отечественной Войны (1941-1945), Баку,1965*

*6. Q.Mədətov,Azərbaycan Böyük Vətən Müharibəsində (1941-1945), Bakı-1965.*

*7. T. Qurbanov, Dostluğun gücü, Bakı,1966*

*8. N.İmanquliyev,Zəhmətkeşlərin əmək qəhrəmanlığı uğrunda mübarizəsi,Bakı,1967*

*9. Г.Мехтиев,Деятелность Коммунистической партии Азербайджана в период Великой Отечественной Войны 1941-1945 г.г, Баку,1967*

*10. D. Qüdrətov, Dostluq, əməkdaşlıq və birgə nailiyyət,Bakı,1968*

*11. Р. Зейналов, Л. Бородецкий, 416-я Таганрогская, Баку,1969*

*12. Ə. Bağırzadə, Azərbaycan ziyalıları Böyük Vətən müharibəsi illərində, Bakı,1970*

*13. М. Багиров, От Волги до Дуная, Баку, 1974*

*14. F. Paşayev, Azərbaycan diviziyaları Böyük Vətən müharibəsi cəbhələrində, Bakı, 1975*

*15. AMEA Tarix İnstitutu, Azərbaycan Qızıl Ulduzları, Bakı,1975*

*16. Ə. Bağırzadə, "Qəhrəman gənclik", Bakı.*



***Açar sözlər:*** *1941-1945-ci illər, müharibə, 1960-1970-ci illər, Azərbaycan, sovet, tarixşünaslıq.*
***Key words:*** *1941-1945 years, war,1960-1970 years, Azerbaijan, soviet, historiography.*
***Ключевые слова:*** *1941-1945 годы,война, 1960-1970 годы, Азербайджан, совет, историография.*


**"The history of 1941-1945 war in the Azerbaijan Soviet historiography of 1960-1970 years "**

**SUMMARY**


The authors examine the history of the war, the Soviet-era party archives, the archives of the Ministry of Defence, the archives of the Committee of War Veterans and other materials used in military archives and museums. Researchers writing in his books, and his work is based on the period of works written about the history of the political influence of the Communist Party, 1941-1945 war are written in accordance with the criteria of the Soviet historiography. The authors base their work on the principles of Soviet ideology, and part of the history of the Soviet Union showed how the story of the war. However, these works are valuable for studying the history of 1941-1945 war with the facts.


**"История войны 1941-1945 г.г в Азербайджанской советской историографии 1960-1970-х годов"**

**РЕЗЮМЕ**


Авторы изучающие историю упомянутой войны использовали материалы архивов бывшего Министерства Обороны СССР, Архив Комитета Ветеранов Войны и материалы других военных архивов и музеев. Исследователи при написании трудов использовали материалы печати того времени . Труды касающиеся войны 1941-1945х годов были написаны под идейно - политическом влиянием коммунистической партии и в рамках принципов советской историографии. Авторы в своих трудах опирались на принципы советской идеологии, участие Азербайджана в войне было освещено как часть истории Советского Союза. Несмотря на это, труды обладают ценными фактами, по изучению истории войны 1941-1945х годов.